AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ
AĞCABƏDİ FİLİALI



# 8 NOYABR – ZƏFƏR GÜNÜNƏ

*həsr olunmuş*

# “MƏNİM AZƏRBAYCANIM, ADINA ZƏFƏR YARAŞIR!”

*mövzusunda elmi-praktiki konfransının*

# MATERİALLARI

AĞCABƏDİ-2024

**AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ**
**AĞCABƏDİ FİLİALI**



# 8 noyabr – Zəfər gününə

## həsr olunmuş

# “Mənim Azərbaycanım, adına Zəfər yaraşır!”

## mövzusunda elmi-praktiki konfransının

# MATERİALLARI

***8 Noyabr – Zəfər gününə həsr edilmiş “Mənim Azərbaycanım, adına Zəfər yaraşır!” mövzusunda elmi-praktiki konfransının materialları ADPU-nun Ağcabədi filialının Elmi Şurasının 03 dekabr 2024-cü il tarixli iclasının (Pr. № 3) qərarı ilə çap olunur.***

**Ağcabədi – 06 noyabr 2024**














Şəhidlər ölməz, Vətən







# Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 3 dekabr 2020-ci il**

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Mobil Məcidov | ADPU-nun Ağcabədi filialının direktoru, dosent |

**Üzvlər:**

| | |
|---|---|
| Seymur Süleymanov | ADPU-nun Ağcabədi filialının tədris və elmi işlər üzrə direktor müavini, dosent |
| Mahir Səlimov | ADPU-nun Ağcabədi filialının tərbiyə işləri üzrə direktor müavini, dosent |
| Baxış Ələsgərov | ADPU-nun Ağcabədi filialının "İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Vaqif Allahverdiyev | ADPU-nun Ağcabədi filialının "Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Sahib Zeynalov | ADPU-nun Ağcabədi filialının "Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müdiri, dosent |
| Tahir Kərimli | ADPU-nun Ağcabədi filialının "Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri, baş müəllim |
| Qərənfil Rzayeva | ADPU-nun Ağcabədi filialının "Keyfiyyətin təminatı" şöbəsinin müdiri |
| Sahibə Nəsirova | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin müdiri |
| Fatma Əliyeva | ADPU-nun Ağcabədi filialının "Kompüter mərkəzi"nin mütəxəssisi |

## MÜNDƏRİCAT


***Giriş sözü***
*Mobil Məcidov*.................................................. 5

## PLENAR İCLAS

***44 günlük Vətən müharibəsində qələbə xalqımızın tarixi zəfəridir***
*Məhəmməd Hüseynov*.................................................. 6

***Azərbaycan ordusu şanlı qələbəmizin təminatçısıdır***
*Seymur Süleymanov*.................................................. 10

## I BÖLMƏ
## "8 NOYABR ZƏFƏR GÜNÜ"

***Zəfər gününün ildönümü***
*Baxış Ələsgərov*.................................................. 12

***Zəfər günü–milli qürur və şərəf tariximiz***
*Yaqub Səmədov*.................................................. 15

***8 Noyabr zəfəri və onun ibrət dərsləri***
*Tahir Kərimli*.................................................. 17

***Zəfər günümüz tarixi qələbəmizdir***
*Baxış Ələsgərov*.................................................. 21

***8 Noyabr – zəfər günü***
*Lətafət Süleymanova*.................................................. 25

***Milli birlik: zəfər gününün əhəmiyyəti***
*Aygün Əlizadə*.................................................. 30

***Böyük zəfər günü***
*Sevil Cəfərova*.................................................. 32

***8 Noyabr Vətən müharibəsinin ən şərəfli səhifəsidir***
*Ülviyyə Quliyeva, Sahibə Nəsirova*.................................................. 35

***Zəfər günü Azərbaycanın qan yaddaşıdır***
*Baxış Ələsgərov*.................................................. 37

***Tariximizə qızıl həriflərlə yazılan gün – 8 noyabr***
*Səbinə Zeynalova, Sevil Zeynalova*.................................................. 40

***Zəfər günü şanlı tariximizdir***
*Şəbnəm Abbasova*.................................................. 43

***Zəfər günümüz milli qürur günümüzdür***
*Bahar Mustafayeva*.................................................. 46

*Azərbaycanın böyük zəfər günü*
*Gülnarə Həsənova, Nübar Kərimova*........................................................................ 47

*8 Noyabr – Qəhrəmanlıq zirvəsinə gedən yol*
*Şəhla Məmmədova*............................................................................................ 49

*Tarixi qələbə – zəfər günü*
*Gülsanə Bayramzadə*.......................................................................................... 52

*"Xarıbülbül qoxulu" zəfər bayramı*
*Vüsalə Baxışova*............................................................................................... 55

*8 Noyabr –Şanlı Zəfər tariximiz*
*Aysun Şıxaliyeva*.............................................................................................. 57

**BÖLMƏ II**
**"AZƏRBAYCANIN ZƏFƏR SALNAMƏSİ"**

*Zəfər müharibəsi–zəfər tariximiz*
*Baxış Ələsgərov, Məhəmməd Əzimov*...................................................................... 60

*Zəfər tariximiz*
*Vaqif Allahverdiyev*.......................................................................................... 62

*II Qarabağ müharibəsinin nəticələri: Suverenliyin bərpası*
*Sahib Zeynalov*................................................................................................ 66

*44 günlük zəfər salnaməsi*
*Fazil Cəfərov, Sabir Məmmədov*............................................................................ 68

*İslam dinində Vətən sevgisi və şəhidlik*
*Əlizadə Nəcəfov*.............................................................................................. 70

*Vətən müharibəsi dövründə Azərbaycan-Türkiyə qardaşlığı*
*Fəridə Mikayılova*............................................................................................ 73

*Zəfərlə sonlanan milli mübarizəmizin bədii sözlə ifadəsi*
*Qərənfil Rzayeva*.............................................................................................. 76

*Qarabağ müharibəsi Beynəlxalq aləmdə*
*Mahir Səlimov, Əzizağa Həziyev*........................................................................... 79

*Azərbaycan poeziyasında Qarabağ müharibəsi*
*Sabir Məmmədov, Fazil Cəfərov*............................................................................ 83

*Azərbaycanın Dağlıq Qarabağ bölgəsində həyata keçirdiyi antiterror əməliyyatı və onun tarixi əhəmiyyəti (19-20 sentyabr 2023-cü il)*
*Yaqub Səmədov*................................................................................................ 86

*Böyük zəfərə gedən yol*
*Əzizağa Həziyev*.............................................................................................. 89

***Qarabağ müharibəsində qələbəmiz Prezident İlham Əliyevin uğurlu, daxili və xarici siyasətinin nəticəsi kimi***
*Mahir Səlimov, Əzizağa Həziyev*........................................................................................ 91

***30 ilin həsrəti – Qələbə sevinci***
*Anar Kərimli*........................................................................................................... 94

***Zəfərin mübarək, azad Qarabağ***
*Sara Məmmədova*..................................................................................................... 96

***Tarixi qələbəmizin zəfər salnaməsi***
*Səlminaz Mahmudova*............................................................................................... 98

***44 günlük Vətən Müharibəsi dövründə mülki əhaliyə və mülki infrastruktura vurulmuş ziyan***
*Araz Əliyev, Hicran Əliyeva*..................................................................................... 101

***Vətən müharibəsinin həkim qəhrəmanları***
*Şəbnəm Abbasova*.................................................................................................... 105

***Dövlətçilik tarixində yeni eranın başlanğıcı***
*Səbuhi Səfərov*......................................................................................................... 109

***44 günlük müharibənin zəfər qəhrəmanları***
*Nuridə Orucova*........................................................................................................ 112

***Yenilməz iradənin qələbəsi: Zəfərə gedən yolda hekayələr***
*Pərişan Yolçuzadə*.................................................................................................... 114

***Həsrətdən vüsala-44 gün***
*Sevinc Mirzəyeva*..................................................................................................... 117

***Xalqımızın qürur ünvanı − Hərbi qənimətlər parkı***
*Səbuhi Quliyev*........................................................................................................ 124

***44 Günün əfsanəsi***
***Fatma Əliyeva*** ........................................................................................................ 126

***Azərbaycan diplomatiyası −Zəfər tariximizdir***
*Röyal Əliyev*............................................................................................................ 129

***Prezident İlham Əliyevin hakimiyyəti illərində və Vətən müharibəsi dövründə Türkiyə-Azərbaycan əlaqələri***
*Araz Əliyev, Hicran Əliyeva*..................................................................................... 131

## GİRİŞ SÖZÜ:

***Mobil Məcidov, dosent***
***ADPU-nun Ağcabədi filialının direktoru***

Hörmətli konfrans iştirakçıları!

Sizləri 8 Noyabr – Zəfər gününə həsr edilmiş “Mənim Azərbaycanım, adına Zəfər yaraşır!” mövzusunda elmi-praktiki konfransda xoş gördük.

Biz bu il Zəfərimizin dördüncü ildönümünü qeyd edirik. 30 illik həsrətdən sonra Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Bəli 2020-ci ilin 8 Noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi yadda qaldı. 44 günlük Vətən savaşının qürurlu anlarını ürəyimizə sığdırmaq, qəlbimizdə daşımaq o qədər qürurludur ki, Dəmir Yumuruq olub zindandakı Qarabağı azad etmək....Qarabağ Azərbaycandır deyib səsimizi dünyaya çatdırdıq.

Tariximizin şanlı səhifəsi olan “Dəmir yumruq” əməliyyatı təkcə rəşadətli ordumuzun apardığı mübarizə deyil, eyni zamanda, Müzəffər Ali Baş Komandanın siyasi və diplomatik mübarizəsi, dünya azərbaycanlılarının həmrəyliyinin və birliyinin nümayişi oldu. Nəticədə gecikmiş ədalət bərpa olundu, Beynəlxalq qurumların illər ərzində edə bilmədiyini Azərbaycan əsgəri cəmi 44 günə etdi, bizlərə Böyük Qələbə sevinci qazandırdı.

19-20 sentyabr 2023-cü ildə Azərbaycan ordusunun keçirdiyi 23 saatlıq lokal xarakterli antiterror əməliyyatının nəticəsində 29 sentyabrdan Azərbaycan polisi şəhərə nəzarəti bərpa etdi. 15 oktyabr 2023-cü il tarixində isə Azərbaycan prezidenti İlham Əliyev Xankəndi şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını qaldırdı.

Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin siyasi iradəsi, qətiyyəti, uzaqgörənliyi, Azərbaycan Ordusunun rəşadəti, cəsurluğu, eləcə də xalqımızın həmrəyliyi sayəsində azad edilən torpaqlara ən yaxın zamanda azərbaycanlıların, həmin torpaqların əsl sahiblərinin tam şəkildə qayıdışı və firavan yaşayışının təmin edilməsidir.

Bu gün ata-babalardan miras qalan əzəli və əbədi torpaqlarımızda üçrəngli bayrağımız qürurla dalğalanır və yurdundan ayrı düşən soydaşlarımızın quruculuq işləri başa çatdıqca öz yurdlarına dönürlər.

Qədirbilən Xalqımız ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda edən, bizə bu Zəfəri yaşadan Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacaq. Onların əziz xatirəsi hər zaman bizim qəlbimizdə yaşayacaq.

8 Noyabr - Zəfər gününə həsr olunmuş “Mənim Azərbaycanım, adına Zəfər yaraşır!” mövzusunda keçirilən elmi-praktiki konfransın xüsusi yeri var.

Odur ki, konfrans iştirakçılarına və konfransın işinə uğurlar diləyərək “Mənim Azərbaycanım, adına Zəfər yaraşır!” adlı elmi-praktiki konfransı açıq elan edirəm.

## PLENAR İCLAS

# 44-GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNDƏ QƏLƏBƏ XALQIMIZIN TARİXİ ZƏFƏRİDİR

**Məhəmməd Hüseynov**
**"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dosenti**
**huseynovrovsen763@gmail.com**

***Xülasə:*** *Məqalədə göstərilir ki, vətən müharibəsinin ilk günlərindən Azərbaycan xalqı Prezident Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşmiş və prezidentin siyasətini dəstəkləmişlər. Ölkəmizdə xalq-iqtidar, ordu həmrəyliyi nəticəsində tarixi zəfər əldə edilmişdir. Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri, müxtəlif xalqların nümayəndələri Azərbaycanın haqq savaşında prezidentimizin siyasətini müdafiə etmişlər. Nəticədə Prezident müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu xarici siyasət kursu, mükəmməl ordu quruculuğu və xalq iqtidar ordu birliyi sayəsində tarixi qələbə əldə edilmişdir.*

***Açar sözlər:*** *İqtidar, milli həmrəylik, dini konfessiyalar, soyqırım siyasəti, Tarixi Zəfər*

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti Müzəffər Ali Baş komandan İlham Əliyev əsl sərkərdəlik məharəti nümayiş etdirmiş, həyata keçirdiyi uğurlu siyasət nəticəsində Azərbaycan xalqının düşmənə qarşı mübarizədə sarsılmaz birliyinə nail olmuşdur. Müharibənin ilk günlərindən Azərbaycan xalqı və ordumuz Prezidentin ətrafında sıx birləşmiş bu da tarixi zəfərin əldə edilməsində həll edici amil olmuşdur.

2020-ci il sentyabrın 27-si Azərbaycan ordusunun əks hücum əməliyyatlarına başladığı gündən etibarən ölkədəki siyasi partiyalar, ictimai siyasi təşkilatları, qeyri hökumət təşkilatları bəyanatlarla çıxış edərək Prezident, Ali Baş komandanı dəstəklədiklərini ifadə etmişlər. Beləki, oktyabrın 3-də Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya rəhbərlərinin iştirakı ilə Prezident Administrasiyasında videokonfrans formasında görüş keçirilmişdir. Bu görüşün keçirilməsi Azərbaycanda yaşanan milli və siyasi həmrəyliyi nümayiş etdirdi. Görüşdə cəbhədə yaşanan son hadisələr,əldə olunan uğurlar,Prezident İlham Əliyevin mövqeyi, diplomatik müstəvidə qazanılan nailiyyətlər, habelə Ermənistan hakimiyyətinin qeyri adekvat addımları haqqında geniş söhbət açılıb. Görüş iştirakçıları qeyd ediblər ki, hazırda müasir tariximizin və haqq mübarizəmizin ən məsuliyyətli və ən qürurlu mərhələsində yaşayırıq. Milli həmrəyliyə xidmət edən hər bir addım və lahiyə böyük əhəmiyyətə malikdir.

Ölkə ictimaiyyəti Azərbaycan Respublikası Prezidenti, Ali Baş komandan İlham Əliyevin milli və siyasi həmrəyliyə xidmət edən təşəbbüslərinin şahididirlər. 2020-ci ildə aparılan siyasi dialoqun məntiqi nəticəsi kimi, ilk çağırışla iyulun 15-də Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş vermiş hərbi təxribatla əlaqədar müstəqillik tarixində ilk dəfə olaraq ölkədə fəaliyyət göstərən siyasi partiyaların 43-ü, sentyabrın 27-si isə Ermənistan silahlı qüvvələrinin geniş miqyaslı təxribatı ilə əlaqədar 52 siyasi partiyadan 50-si Prezident Ali Baş komandan İlham Əliyev ətrafında birləşib və birgə dəstək bəyanatı imzalayıblar. [3] Siyasi sabitliyə etibarlı münasibətlərə və davamlı inkişafa xidmət edən bu addım milli həmrəyliyin, xalq-hakimiyyət birliyinin təcəssümüdür. Siyasi partiyaların rəhbərləri Ali Baş komandan, Prezident İlham Əliyevin Vətənimizin ərazi bütövlüyünün və vətəndaşlarının təhlükəsizliyinin qorunması, Ermənistanın ölkəmizə qarşı geniş miqyaslı terror təxribatlarının qarşısının alınması məqsədilə

həyata keçirdiyi bütün siyasi və hərbi tədbirlər yekdilliklə dəstəklədiklərini və onun onun yanında olduqlarını bildirdilər.

Vətən müharibəsi dövründə yaradıcı ziyalılar, sənət adamları, elm və mədəniyyət xadimləri cənab Prezidentin yanında olmuş, onun uğurlu siyasətini dəstəkləmişlər. Müharibənin ilk günlərində görkəmli mədəniyyət və incəsənət xadimləri Azərbaycan xalqına müraciət ünvanlamışlar. Həmin mürciətdə deyilir: "Cəbhə bölgəsində, xalqımızın əzəli torpaqlarında Ermənistan tərəfinin təxribatlarının davam etdiyi bu çətin günlərdə Azərbaycan xalqının milli və dövlət maraqlarının qorunmasında milli həmrəylik nümayiş etdirməyə, rəsmi olmayan dəqiqləşdirilməmiş məlumatlara inanmamağa, Ali Baş komandanımızın, rəşadətli ordumuzun ətrafında birləşməyə çağırırıq. Azərbaycan xalqı öz çox minillik tarixində bütün müharibə və döyüşlərdə böyük şücaət nümayiş etdirmiş ən çətin mərhələlərdə ona qarşı həyata keçirilən təcavüzkar fəaliyyətlərin qarşısını qəhrəmanlıqla almışlar. Unutmayaq ki, tarixi ədalət və beynəlxalq hüquq bizim tərəfimizdədir. Tanrı Azərbaycanı və Azərbaycan əsgərini qorusun, xalqımıza və Vətənimizə sülh və əmin-amanlıq bəxş etsin! "[3]

Azərbaycanda yaşayan müxtəlif millətlərin dini konfessiyaların nümayəndələri və bu haqq savaşında iqtidarın, xalqımızın və ordumuzun yanında olmuşdur. Prezidentə ünvanlanmış dini konfessiyaların rəhbərlərinin müraciətində deyilir: " Zati-aliləri, ədalətin bərpası yönündə Sizin atdığınız bütün zəruri addımları dəstəkləyən biz dini konfessiya rəhbərləri bəyan edirik ki, 20 yanvar hadisələrində ,Qarabağ müharibəsində ölkədəki xristianlar, yəhudilər, digər din və millət mənsubları Azərbaycan xalqı ilə bir cərgədə mübarizə meydanında çiyin-çiyinə olmuşlar. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş Mübarizlərlə bərabər Aqarunovlar , Yakovlevlər,Polovinkolar, Senyuşkinlər kimi yahudi, rus,ukranyalı və digər millətləri təmsil edən qəhrəman Vətən oğulları ilə fəxr edirik. Bu gün də Vətən torpaqlarının müdafiəsində milli,dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlar Ali Baş komandanın yanındadırlar. Vətənin müdafiəsi yolunda şəhid olanlara Uca Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Möhtərəm cənab Prezident dünya ictimaiyyətinin əksəriyyəti Azərbaycanın haqq yolunda olduğunun fərqindədir və dövlət olaraq öz torpaqlarını azad etmək iradəsini müdafiə edir.

Zati-aliləri, Azərbaycan haqlı tərəfdir və deməli Haqq bizimlədir. Biz ölkəmizdəki dini konfessiyaların rəhbərləri Bir Olan Yaradanımızdan Azərbaycanın haqq işinin qələbəsinə rəvac verməsini diləyir, dünyanın müxtəlif yerlərində yaşayan milli, dini mənsubiyyətindən,siyasi baxışlarından asılı olmayaraq Azərbaycanda doğulub boya-başa çatmış bütün həmvətənlərimizi həmrəyliyə Azərbaycan prezidentinin, Ali Baş komandanın ətrafında daha sıx birləşməyə çağırırıq. [1]

Azərbaycan ordusunun Ermənistan silahlı qüvvələrinin hərbi təxribatlarının qarşısının uğurla alınması xalqımız tərəfindən böyük sevinc və ruh yüksəkliyi ilə qarşılandı. Azərbaycan vətəndaşları xaricdə yaşayan soydaşlarımız, eləcədə qardaş Türkiyənin vətəndaşları bu müvəffəqiyyətlərə görə Prezident Ali Baş komandan İlham Əliyevə təbrik və minnətdarlıq məktubları yazırdılar. Bakı şəhərindən professor, əməkdar müəllim Musa Quliyevin məktubunda deyilir: "Möhtərəm prezidentimiz, Cənab Ali Baş komandan, Milli ordumuza azadlıq mübarizəsinə başlamaq əmri verdiyinizə görə Sizə təşəkkür edirəm. Şanlı ordumuzun iki gün ərzində qazandığı uğurlara görə Sizi qəlbdən təbrik edirəm. Müharibənin ilk günündən Sizin qətiyyətinizə, mahir konmandanlıq isdedadınız bütün türk dünyasını valeh edib. Bizim apardığımız müharibə ədalətli müharibə ədalətli müharibədir, torpaqlarımızı tezliklə yağı düşmən tapdağından azad edəcəyik. Cənab Prezident,

Azərbaycan xalqı,o cümlədən alimləri, ziyalıları daim sizinlədir. Qarabağ Azərbaycandır! Tanrı Sizə , xalqımıza ,dövlətimizə və ordumuza yar olsun. " [2]

Zaqatala rayonunun sakini Sara Qazıyeva yazır: "Möhtərəm cənab Prezident, bütün Azərbaycan xalqı kimi biz ağbirçək analarda ermənilərin Vətənimizin torpaqlarının işğalını, xalqımıza qarşı soyqırım siyasətini davam etdirməsinə bu gündə şahidik və bu hadisəni ürək ağrısı ilə izləyirik, düşmənə qarşı nifrətimiz dahada artır . Biz analar övlad itkisinin ağırlığını daha çox hiss edirik. Lakin yaxsi başa düşürük ki,Vətən itkisi bundan da dəhşətlidir. Odur ki, bu gün övladlarımızın ərazi bütövlüyünü bərpa edərək gələcək nəsillərə-nəvələrimizə miras qoymasını müqəddəs and və borc hesab edirik. Bu gün müstəqilliyimizin qorunması, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda bütün xalqımız kimi, biz ağbirçək analar da ölüm-dirim mübarizəsinə qoşulmağa hazırıq. Ümummilli Lider Heydər Əliyev siyasətinin layiqli davamçısı kimi Sizinlə fəxr edirik. Biz hamımız yaxşı başa düşürük ki, Sizin xalqa arxalanaraq yenilməz siyasi iradəniz, rəhbər qətiyyətiniz, zəngin idarəçilik təcrübəniz, dünyada gedən proseslərə dərindən bələd olmağınız, baş verən hadisələrin səbəblərinin təhlili zamanı yüksək məharət və bacarığınız, qurduğunuz güclü Azərbaycan ordusuna fəaliyyət sayəsində torpaqlarımız tamamilə və tezliklə düşmən tapdağından azad ediləcək. Əziz Prezidentimiz, Ali Baş komandan biz Sizə inanırıq, sizinlə birlikdəyik. Allah Sizi xalqımızı və ordumuzu qorusun." [2]

Azərbaycan ordusunun cəbhədə Ermənistan silahlı qüvvələrinə sarsıdıcı zərbələr vurması əldə etdiyi qələbələr xaricdə yaşayan soydaşlarımızın, həmçinin bir sıra digər dövlətlərin vətəndaşları tərəfindən sevinclə qarşılanırdı. Onlar sevinc hisslərini Azərbaycan Prezidenti Ali Baş komandan İlham Əliyevə yazdıqları məktublarda ifadə edirlər. ABŞ-ın Hyuston şəhərindən Təranə Teylor Prezidentə yazırdı: "Hörmətli Prezident Cənab Ali Baş komandan öz adımdan, ailəmiz adımdan və Hyustonda yaşayan azərbaycanlılar adından Sizi və şanlı ordumuzu düşmən üzərində gözəl qələbələrə görə ürəkdən təbrik edir və alqışlayıram. Sizin haqq işinizdə uğurlar arzu edirik. Sizin xarici informasiya agentliklərinə müsahibələrinizi izlədikcə belə müdrik, yüksək təhsilli, humanist və eyni zamanda vətən üçün qəti sözünü deməyə çəkinməyən rəhbərimizin olması ilə fəxr edirik. Sizi dəstəkləyirik və əlimizdən gələn yardımı etməyə hazırıq. İşimiz haqdır ,qələbə bizimlədir!"[4]

Ukraynanın Sumi Vilayət Deputatlar Şurasının sədiri Vladimir Tokar prezidentə yazırdı: " Hörmətli cənab Prezident Ukrayna ilə Azərbaycan arasında daim dost və tərəfdaşlıq münasibətləri olub. Azərbaycan dost bir ölkə kimi Ukraynanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyünü dəstəklədi və dəstəkləməkdə davam edir. Odur ki, bu gün Azərbaycan ərazi bütövlüyü üçün ədalətli bir mübarizə apararkən, şəxsən mən uzun müddət Bakıda və ölkənin digər şəhərlərində yaşamış bir insan kimi Sizi və bütün Azərbaycan xalqını dəstəkləyirik. Sumi vilayət Deputatlar Şurasının sədri, həmçinin bir siyasətçi kimi hesab edirəm ki, Azərbaycanla Ermənistan arasında münaqişə sülh yolu ilə həll olunacaqdır. Ermənistanın beynəlxalq hüququ, sülh danışıqları açıq şəkildə pozan və insan tələfatı ilə nəticələnən hücumlarını qınayıram. Sülhsevər Azərbaycan və Ukrayna xalqlarına bu çətin, lokal münaqişələrdən ən qısa zamanlarda xilas olmağa və ölkələrində sülhü və sabitliyi bərpa etməyi arzulayıram" [4]

Vətən müharibəsi günlərində Azərbaycan xalqının ordumuz və prezident Ali Baş komandan İlham Əliyevin ətrafında sıx birləşməsi minlərlə gəncin hərbi əməliyyatlarda könüllü şəkildə iştirak etməklə bağlı səfərbərlik şöbələrinə müraciəti vətəndaşlarımızın yüksək əhval-ruhiyyəsindən, mübarizə əzmindən xəbər verirdi. Hər bir ailə başçısı öz övladının ön cəbhədə olmasından, düşmənə qarşı fəal hərbi əməliyyatlara qatılmasından fərəh hissi keçirdiklərini bəyan edirdilər.

Şübhəsiz ki, Ali Baş Komandan ətrafında yaranan milli birlik və həmrəylik ordumuzun döyüş fəaliyyətini,gücünü artıran faktorlardan idi. Savaş günlərində qardaş Türkiyə şəhərləri Ankara, İstanbul, İzmirdə habelə Kiyevdə Vaşinqtonda, Dusseldorfda, Londonda, Vaşinqtonda, Sant-Peterburqda və dünyanın digər böyük şəhərlərində keçirilən Azərbaycana dəstək aksiyaları ordumuza və cənab İlham Əliyevə göstərilən maksimum etimadın ifadəsi idi. Bununla yanaşı diplomatik kanallarla Azərbaycana göstərilən yüksək səviyyəli dəstək də bizim haqlı mövqeyimizi gücləndirirdi. Qoşulmama hərəkatının üzvü olan 120 ölkə, İslam Əməkdaşlıq Təşkilatı, Türkiyə, Pakistan, İsrail, Böyük Britaniya, Ukrayna və digər dövlətlərin Azərbaycana dəstək verməsi aparılan uğurlu xarici siyasətin nəticəsi idi. Bu həmrəylik bir daha göstərdi ki, Vətən təhlükədə olduqda, çətin məqamlarda xalqımız biləşməyi həmrəy olmağı bacarır.

Nəhayət, 44 günlük Vətən müharibəsində Azərbaycan xalqı Tarixi Zəfər əldə etdi. Ermənistan kapitulyasiyaya məcbur edildi. Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Prezident Müzəffər Ali Baş Komandan 2020-ci il noyabrın 10-da xalqımıza müraciətində demişdir: "...Bu günlərdə biz Azərbaycan xalqının birliyini gördük. Bütün bölgələrdən ordumuza dəstək gəldi. Bütün bölgələrdə hər bir vətəndaş böyük həyacan hissi ilə bu günləri yaşayıb,hər gün televiziya önündə, radio qarşısında, internetdə cəbhədən gələn xəbərləri izləyib, uğurlarımıza sevinib... Ölkəmizdə yaşayan bütün millətlərin nümayəndələri bütün dini konfessiyaların nümayəndələri cəsarət göstərərək düşmənlə vuruşaraq Azərbaycanın ərazi bütövlüyünü bərpa etdilər...
...Mən deyə bilərəm ki, bu günlər ərzində mən gördüm ki, milli məsələlərdə biz hamımız birləşə bilirik. Bu da bizim gələcəyimiz üçün çox önəmlidir. Çünki biz hamımız istəyirik ki, Azərbaycan inkişaf etsin, hamımız istəyirik ki, daha güclü ölkə olsun. Gücümüzü göstərmişik döyüş meydanında, siyasi müstəvidə, istənilən formatda." [5]

Beləliklə 44 günlük Vətən müharibəsində tarixi qələbəmizin səbəbləri aydındır: Prezident Müzəffər Ali Baş Komandan İlham Əliyevin apardığı uğurlu xarici siyasət kursu, mükəmməl ordu quruculuğu və xalq-iqtidar-ordu birliyi!

**İstifadə olunmuş ədəbiyyat:**


1. " Xalq qəzeti" 1 oktyabr, 2020.
2. "Xalq qəzeti" 2 oktyabr, 2020.
3. "Xalq qəzeti" 4 oktyabr, 2020.
4. "Xalq qəzeti" 7 oktyabr, 2020.
5. Zəfər yolu: Qarabağ savaşından Şuşa Bəyannaməsinədək. Bakı, 2021.

# AZƏRBAYCAN ORDUSU ŞANLI QƏLƏBƏMİİZİN TƏMİNATÇISIDIR

***Seymur Süleymanov, dosent***
***Tədris və elmi işlər üzrə direktor müavini***
***seymursuleymanov71@mail.ru***

***Xülasə:*** *Məqalədə Azərbaycan ordusunun erməni faşizmi üzərində tarixi qələbəsinin rəhni kimi xalq – ordu birliyi əsas amil olaraq götürülmüş, ölkəmizdə sabitliyin qorunması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi və işğaldan azad edilmiş torpaqlarımızın bundan sonra müdafiə olunması ordumuzun qarşısında duran vacib məsələlər kimi qeyd olunmuşdur.*

***Açar sözlər:*** *xalq, ordu birliyi, inam, hərbi birləşmələr, müharibə, azadlıq, döyüş texnikası, sərhədlərin toxunulmazlığlı*

Uzun illər öncə ölkəmizdə ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər zaman keçdikcə ordumuzu güclü ordular sırasına çıxarmışdır. O ordu güclüdür ki, onun müasir silahları, texnikaları var, əsgəri-məişət kompleksləri müasir tələblər səviyyəsindədir və şəxsi heyətinin döyüş ruhu yüksəkdir. Bunları Azərbaycan Silahlı Qüvvələrinin ölkə ərazisində yerləşən ordu, birləşmə, hissə və bölmələrinin timsalında görmək mümkündür. Güclü ordusu olan ölkə həm döyüş meydanında, həm də siyasi proseslərdə öz sözünü deyə bilir. Bu gün Azərbaycan ordusu dövlətimizin və müstəqilliyimizin qarantıdır. Ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlər bunu əminliklə ifadə etməyə əsas verir. Respublika Prezidentinin ordunun inkişafına göstərdiyi qayğının nəticəsidir ki, bu gün Azərbaycan Ordusu dövrün tələblərinə cavab verən yüksək texnikaların istifadəsini uğurla həyata keçirir. Ölkədə sabitliyin qorunması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi və işğal olunmuş torpaqlarımızın azad olunması daim ordumuzun qarşısında duran başlıca vəzifələrdən olmuşdur. Bu vəzifələri yaxşı dərk etdiyindəndir ki, uzun illər boyu döyüş əmri gözləyən qəhrəman əsgərlərimiz, nəhayət 44 günlük müharibədə Azərbaycan xalqının 30 illik həsrətinə son qoydu. Ordunun Ali Baş Komandanı cənab İlham Əliyevin zamanında verdiyi qərarlar, hadisələrin inkişafını öncədən görməsi və müvafiq tədbirləri həyata keçirməsi sayəsində sanki ordumuzun gücünə güc qatmış oldu.

Düşməni tarixi məğlubiyyətə uğradan ordumuz torpaqlarımızın işğaldan azadedilməsi istiqamətində canı və qanı ilə döyüşdü, böyük şücaət göstərdi.

Ali Baş Komandanın qətiyyətli iradəsindən, xalqımızın möhtəşəm dəstəyindənilhamlanan Azərbaycan Ordusu cəbhənin bütün istiqamətlərində düşmənə sarsıdıcı zərbələr endirdi.

Son 18 ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə, o cümlədən müstəqilliyimizin, suverenliyimizin qarantı olan ordumuzun müdafiə qüdrətinin və döyüş qabiliyyətinin artırılması yönündə önəmli addımlar atıb. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusundan biri hesab olunur.

Azərbaycan Ordusunun bugünkü səviyyəyə çatmasının təsadüfi olmadığını vurğulayan Ali Baş Komandanımız haqlı olaraq bildirib: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci

yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır”.

Azərbaycan Ordusu Aprel döyüşlərində olduğu kimi, 44 günlük – tarixdə ən qısa, lakin böyük qələbə ilə yekunlaşan müharibədə yüksək vətənpərvərlik nümayiş etdirərək, qəhrəmanlıq salnaməsi yaratdı. Bu gün hər bir vətəndaş hərbçilərimizin peşəkarlığına, ordumuzun gücünə güvənir.

Ermənistan və ona havadarlıq edən qüvvələr də ordumuzun gücünü və qüdrətini artıq yaxşı bilir. Düşmən aydın şəkildə başa düşür ki, müasir Azərbaycan Ordusu dünya miqyasında güclü ordular sırasındadır. Belə bir orduya sahib olan Ali Baş Komandanımız uzun illər ən yüksək tribunalardan münaqişənin həllində sülh danışıqlarının səmərə verməyəcəyi təqdirdə, işğal altındakı torpaqlarımızın hərbi yolla azad ediləcəyini qətiyyətlə bəyan etmişdi.

Bu gün xalqımız işğal tarixinin acısını deyil, Zəfər gününün sevincini yaşayır. Azərbaycan Ordusunun vətənpərvər, cəsur və mərd oğulları tərəfindən cəbhədə bir-birinin ardınca qazanılan uğurlar qalibiyyətimizin əbədiliyinin, müzəffər ordumuzun yenilməzliyinin əyani sübutu oldu. Hər bir Azərbaycan vətəndaşında olan ruh yüksəkliyi, orduya inam, qələbəyə əminlik hissi sarsılmaz Azərbaycan Ordusunu öz tarixi qələbəsindən fərəhlənməyə və qürurla danışmağa sövq edir. Cənab Prezidentimizin dediyi kimi, Azərbaycanın apardığı mübarizə haqq mübarizəsi idi, haqq davası idi. Çünki işğala məruz qalan, bir milyondan artıq soydaşı qaçqın və məcburi köçkün vəziyyətində yaşayan, 20 faiz torpağı işğal altında olan, məhz xalqımız idi, Azərbaycan idi.

Bu gün güclü iqtisadi imkanlara, möhkəm beynəlxalq mövqeyə, qüdrətli orduya malik Azərbaycan Respublikası tarixi ədaləti bərpa etmək əzmində olduğunu bütün dünyaya dərk etdirdi. Artıq məmləkətimizə “yağlı tikə” kimi göz dikən güclü dövlətlər belə bu gücün, bu qüdrətin qarşısında tərəddüd etməkdədir. Azərbaycan xalqı və onun yenilməz ordusu tarixin sınağından alnıaçıq, üzüağ çıxdı. Azərbaycan hökuməti hər zaman olduğu kimi, bu gün də öz vətəndaşlarına arxalandığını sübuta yetirdi. Müharibənin qızğın çağında hadisələrin gedişatı ilə bağlı xalqa daim rəsmi məlumatların verilməsi, ordumuzun nailiyyətlərinin dərhal xalqın diqqətinə çatdırılması ölkə rəhbərinin xalqa sədaqətinin, öz xalqına hörmət və ehtiramla yanaşmasının bariz sübutu oldu. Xalq da öz növbəsində Vətənimizin işğaldan azad edilməsi yolunda canından keçməyə hazır olan Ordu və onun Ali Baş Komandanına etibar, inam nümayiş etdirdi. On minlərlə insanın orduya könüllü kimi yazılması, eləcə də təxribatlar zamanı öz evlərini tərk etməməsi Azərbaycanda xalq-ordu birliyi və orduya olan inamdan xəbər verdi. Bu gün Azərbaycan bütün dünyaya güclü dövlət və güclü ordusunun olduğunu nümayiş etdirir.

Bundan sonrakı vəzifələr işğaldan azad edilmiş torpaqlarımızın müdafiəsi və bərpa-quruculuq işlərinin aparılmasıdır ki, hər bir Azərbaycan vətəndaşı bu uğurda səfərbər olmalı, ana vətənimizin kəm gözlərdən qorunması, çiçəklənməsi naminə əlindən gələni əsirgəməməlidir. Bu işdə də xalq və ordu birliyi əsas amillərdəndir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. https://mod.gov.az › pre
2. https://ikisahil.az › post › 181553-tar...

## BÖLMƏ I

## “8 NOYABR ZƏFƏR GÜNÜ”

# ZƏFƏR GÜNÜNÜN İLDÖNÜMÜ

***Baxış Ələsgərov, dosent***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müdiri***
***elesgerov.adpu @ mail.ru***

***Xülasə:*** *Zəfər günü il dönümünə həsr edilmiş məqalədə Ali Baş komandan İlham Əliyevin apardığı xarici-daxili siyasətdən Ordumuzun qələbəsindən xalqımızın birliyindən həsr edilir. Məqalədə təcavüzkar erməni vəhşiliyindən də söhbət açılır. Müharibənin şanlı qələbəmiz torpaqlarımızın azad olunması ilə başa çatmasından və kapitulyasiya aktının imzalanmasından bəhs etməsi əsəri daha da oxunaqlı edir.*

***Açar sözlər:*** *Qarabağ, Müzəffər ordumuz, Azərbaycan xalqə, zəfər günü, Ali baş komandan*

Bu il Vətən müharibəsində möhtəşəm Zəfərimizin ikinci ildönümünü qeyd edirik. İkinci Qarabağ müharibəsinin bitməsindən sonra Prezident İlham Əliyev imzaladığı Sərəncamla l Şuşanın erməni işğalından azad edildiyi günün - 8 noyabr tarixinin Qələbə münasibətilə hər il Zəfər Günü kimi qeyd olunacağını elan etdi. Şuşa həmişə ölkəmizin tarix və mədəniyyətinin rəmzi olub. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində məhz Şuşanın işğaldan azad edilməsindən sonra Ermənistanın kapitulyasiya aktına imza atmağa məcbur oldu. Müharibənin şanlı Qələbəmiz, torpaqlarımızın düşmən işğalından azad olunması ilə başa çatmasından sonra isə Şuşa həm də bütün dünyada hərbi gücümüzün, qüdrətimizin, Azərbaycan əsgərinin cəsarətinin, igidliyinin, qəhrəmanlığının, Azərbaycanın haqq səsinin rəmzinə çevrildi. Torpaqlarımızın işğal altında olduğu 30 illik dövr ərzində hər bayram ən böyük arzusunun növbəti bayramı Qarabağda qeyd etmək istəyi olan xalqımız üçün Zəfər Günü üçün bundan daha möhtəşəm tarix ola bilməzdi.

Bu fikirləri Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov söyləyib.

Komitə sədri bildirib ki, Azərbaycan xalqı 30 il idi Qələbəni, torpaqlarımızı düşmən işğalından azad etmək üçün Ali Baş Komandanın əmrini gözləyirdi. Bu müddət ərzində həm Ulu Öndərin hakimiyyəti illərində, həm də Prezident İlham Əliyevin rəhbərliyi dövründə atılmış hər bir addım, qəbul olunmuş hər bir qərar Azərbaycan torpaqlarının düşmən işğalından azad olunmasına xidmət edib. Vətən müharibəsində qazanılmış Zəfər mükəmməl ordu quruculuğu siyasətinin və iqtisadi inkişafın nəticəsidir. Ordunu dövlətin dayağı, xalqın güvən yeri, qürur mənbəyi adlandıran Ulu Öndər Azərbaycan Ordusunun yaradıcısı olmuş, Silahlı Qüvvələrimizi dövlət müstəqilliyinin dəyərli reallıqlarından birinə çevirmişdir. Azərbaycan Ordusunun inkişafı, müasirləşdirilməsi, döyüş qabiliyyətinin artırılması Prezident İlham Əliyevin rəhbərliyi illərində də uğurla davam etdirilmiş, ordu quruculuğu dövlət quruculuğunun əsas istiqamətlərindən birinə çevrilmişdi. Şübhəsiz ki, Ordu quruculuğu sahəsindəki bu əzmkar fəaliyyət 44 günlük Vətən müharibəsindəki Qələbəmizin təməlini təşkil etdi. Danılmaz faktdır ki, bütün müharibələrdə son sözü güclü ordu və onun Ali Baş Komandanı deyir. İkinci Qarabağ müharibəsində də son sözü şanlı Azərbaycan

Ordusu və onun Müzəffər Ali Baş Komandanı Ermənistanı kapitulyasiya aktına imza atmağa məcbur etməklə söylədi.

"Təcavüzkar siyasətinin, Azərbaycan torpaqlarını işğal altında saxlamasının nəticələri, əlbəttə, Ermənistan üçün ağır olmuşdur, 30 il ərzində Ermənistan regional layihələrdən təcrid olunmuş, iqtisadi cəhətdən heç bir inkişafa nail olmamışdır. Ermənistandan fərqli olaraq, haqlı mövqeyi ilə, 30 il ərzində səbirlə münaqişənin sülh yolu ilə həll edilməsinə yönələn cəhdləri ilə və ən əsası uğurlu, müdrik xarici siyasəti ilə regionda demək olar bütün transmilli layihələrin əsas iştirakçısı olan Azərbaycan isə həm iqtisadi cəhətdən inkişaf etmiş, həm də regionun mənzərəsini müsbət mənada tamamilə dəyişmişdir", - deyə Z.Əsgərov qeyd edib.

Bildirilib ki, çox təəssüf, səbirlə gözlənilən bu 30 il nəinki işğal olunmuş torpaqlarımızın Azərbaycana qaytarılması ilə nəticələnmədi, əksinə cəzasızlıq düşmənin daha da azğınlaşmasına, sərhəddə atəşkəsin tez-tez pozulması, təxribatlara əl atmasına, hətta yeni ərazi iddialarına düşməsinə gətirib çıxardı. Münaqişənin həlli üçün beynəlxalq təşkilatların, beynəlxalq hüququn yetərsiz olduğu isə artıq hər keçən il daha da aydın olurdu. Belə olan halda həm düşmənin təxribatlarına, azğınlaşmış ərazi iddialarına layiqincə cavab vermək, həm ərazi bütövlüyümüzü, suverenliyimizi, beynəlxalq hüququ, bərpa etmək, eləcə də minlərlə məcburi köçkünümüzün öz doğma torpaqlarında yaşamaq hüququnu bərpa etmək üçün bizim yalnız bir seçimimiz qalmışdı: düşmənin başını "Dəmir yumruq"la əzmək.

Komitə sədri diqqətə çatdırıb ki, 44 gün davam edən Vətən müharibəsinin hər günü Ordumuz tərəfindən tarix yazıldı. Fizuli əməliyyatı, Zəngilan döyüşləri, Cəbrayılın, Qubadlının işğaldan azad edilməsi uğrunda aparılan döyülər, Şuşa əməliyyatı, bütün bu döyüşlər mürəkkəb xarakterli, düşmənin müdafiə istehkamlarını yarmağı tələb edən, xüsusi peşəkarlıq və cəsarət tələb edən əməliyyatlar idi. Ordumuz yüksək peşəkarlıq və fədakarlıqla, vətən sevgisi ilə, xalqın dəstəyini hiss edərək və ən əsası, müharibədə haqlı tərəf olmağın verdiyi güc ilə bu vəzifələrin öhdəsindən ən yüksək səviyyədə gəlmişdir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri başda olmaqla hərbi analitiklər Vətən müharibəsində Azərbaycan Ordusu tərəfindən istifadə olunan döyüş taktikasını dünya hərb tarixində yenilik hesab edir və onun öyrənilməsinin vacibliyini vurğulayır. Budur Azərbaycanın Şanlı Ordusu! Bu qüdrətli ordunu təşkil edən isə, əlbəttə, vətənpərvər Azərbaycan əsgərləridir. Müzəffər Ali Baş Komandanın dəfələrlə fəxrlə vurğuladığı kimi, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycan Ordusunda bir nəfər də fərari olmayıb. Əksinə on minlərlə vətəndaşımız orduya könüllü kimi yazılmışdır.

"Təəssüf ki, istənilən müharibə itkisiz olmur, Vətən müharibəsində Azərbaycanın 2907 hərbçisi şəhid olmuş, xeyli əsgərimiz yaralanmışdır. Dövlətimiz və xalqımız şəhidlərimizi hər zaman dərin ehtiramla yad edəcək. Anım Gününün qeyd olunması, Qələbə münasibətilə medal və ordenlərin təsis olunması, Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mənəvi diqqəti və qayğısı Vətən müharibəsi iştirakçılarına olan ali diqqətin təcəssümüdür.

Müharibədə Zəfərimizi şərtləndirən ən mühüm amillərdən biri də həmrəyliyimiz olmuşdur. Xalq-iqtidar-ordu həmrəyliyi, ölkəmizin bütün vətəndaşlarının ön və arxa cəbhədə sarsılmaz birliyi, təxribatlar zamanı insanların öz evlərini tərk etməməsi, orduya kütləvi yardım kampaniyalarının keçirilməsi, dövlətimizin başçısının xalqa müraciətlərinin hər dəfə daha böyük coşqu və sevinclə qarşılanması müharibə günlərinin səciyyəvi xüsusiyyətləri idi. Burada Prezident İlham Əliyevin çıxışlarını xüsusi qeyd etmək istəyirəm. Müharibə dövründə Azərbaycan Prezidentinin çıxışları münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq nə qədər qətiyyətli, iradəli,

konkret və sərt idisə, xalqa müraciətlər bir o qədər ürəkdən səslənən, xalqın hisslərini bölüşən və emosional idi. 44 günlük Vətən müharibəsi dövründə Prezident İlham Əliyev əsl Lider kimi hərbi komandanlıqdan tutmuş informasiya müharibəsinə kimi bütün cəbhələrdə ən öndə vuruşmuşdur. Dövlətimizin başçısının "Mən xalqımdan heç nəyi gizlətmirəm", "Nəyi, necə, nə vaxt etmək lazımdır, bunu mən bilirəm" mesajları verərək xalqda ruh yüksəkliyi, özünə güvən formalaşdırması, müharibə dövründə qarşılaşdığı təzyiqlərə təmkinlə, eyni zamanda, kəskin və cəsarətli cavablar verməsi, sonda düşmənin kapitulyasiya aktı imzalamağa məcbur etməsi və nəticədə əldə olunan Qarabağ Zəfəri Azərbaycanda xalq-iqtidar birliyini ən yüksək zirvəyə qaldırmışdır", - deyə parlamentin komitə sədri vurğulayıb.

Vurğulanıb ki, Zəfərin ildönümünü qeyd edərkən mütləq qardaş Türkiyənin dəstəyini də xüsusi qeyd etməliyik. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müharibə başlayan andan "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə ən böyük mənəvi güc olmuşdur. Biz bu dəstəyi, dostluğu ən yüksək səviyyədə qiymətləndirərək tarixi Şuşa Bəyannaməsini imzalamış, Türkiyə-Azərbaycan münasibətlərini müttəfiqlik zirvəsinə ucaltmışıq. Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Müzəffər Ali Baş Komandanımızın yanında olması, paradda Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə addımlaması xalqlarımızın tarixinə yazılmış unudulmaz hadisədir.

Vətən müharibəsinin bitməsi ilə artıq iki ildir ki, Azərbaycanın inkişaf tarixində yeni dövr başlayıb. Bu dövr "Böyük Qayıdış", bərpa-quruculuq, azad edilmiş şəhər və kəndlərimizin yenidən qurulması, məcburi köçkünlərimizin öz doğma torpaqlarına qaytarılması dövrüdür. Cəmi iki il ərzində işğaldan azad edilmiş ərazilərimizdə iki hava limanının istifadəyə verilməsi, yeni magistral yolların inşası, onlarla sosial-infrastruktur obyektlərinin açılması, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması təsdiq edir ki, ölkəmiz "Böyük Qayıdış" missiyasını da uğurla tamamlayacaq.

"Sonda qeyd edim ki, İkinci Qarabağ müharibəsində Ermənistan yalnız cəbhədə məğlub edilməyib, Ermənistan həm də mənəvi məğlubiyyətə uğradıldı, biz sübut etdik ki, Ermənistan bu münaqişədə haqsız tərəfdir, təcavüzkar tərəfdir. Kapitulyasiya aktına imza atmaqla Ermənistan cəbhədəki məğlubiyyəti çoxdan qəbul edib, indi isə Ermənistan üçün yeganə çıxış yolu, ümumilikdə münaqişədə haqsız tərəf olmasını qəbul etmək, işğalçı siyasətindən əl çəkmək və Azərbaycanın ərazi bütövlüyünü tanımaqdır. Son Soçi görüşündə Prezident İlham Əliyev bir daha qətiyyətlə vurğuladı ki, Qarabağ münaqişəsi artıq tarixdə qalıb, münaqişə iki il bundan əvvəl həll edilib. Bu baxımdan praktiki olaraq Qarabağ münaqişəsi ilə bağlı müzakirə edilməli məsələ yoxdur. Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əhalisi ilə bağlı da Ermənistanla müzakirə ediləsi məsələ yoxdur. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, bu bizim daxili məsələmizdir, bu məsələ ölkəmizin Konstitusiyasına uyğun və könüllülük prinsipi əsasında həll ediləcək. Bundan sonra danışıqlar yalnız Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması, sərhədlərin delimitasiyası, sülh müqaviləsinin bağlanması ilə bağlı ola bilər. Bu istiqamətdə də Azərbaycan həmişə sülhün, sabitliyin, təhlükəsizliyin və Cənubi Qafqazın davamlı inkişafının təmin edilməsi naminə üzərinə götürdüyü öhdəliklərlə hər zaman sadiqdir".

**İstifadə olunmuş ədəbiyyat**:

1. "7 gün" qəzeti. 21 mart 1992.
2. "Tacikistan" qəzeti. 10 noyabr 2007.
3. "Mərhəmət" jurnalı №2-3, 1992.
4. Ələsgərov B. 8 noyabr zəfər günü. 2023.

# ZƏFƏR GÜNÜ - MİLLİ QÜRUR VƏ ŞƏRƏF TARİXİMİZ

**Yaqub Səmədov**
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
**yaqub.semedov63@ mail.ru**

***Xülasə:*** *Bu möhtəşəm qələbə sayəsində Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı və xalqın inamını özünə qaytardı. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Azərbaycanın ərazi bütöplüyü tam şəkildə bərpa olundu.*

***Açar sözlər:*** *erməni işğalçıları, etnik təmizləmə, II Vətən müharibəsi, Zəfər günü, atəşkəs*

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür. Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir [1, s.3].

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu bir vaxtda danışıqlar prosesində Ermənistan hərbi təxribatlar yolu ilə danışıqları pozmağa başlamışdır. 2016-cı il 2-5 aprel tarixlərində Goranboy, Tərtər, Ağdam, Füzuli rayonlarının yaşayış məntəqələrində və həmin rayonların ərazisində yerləşən Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi hissələrinin mövqelərinə erməni separatçıları qəfil hücum təşkil etmişdir. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur. Aprel ayının 5-də hər iki tərəfin razılığı və beynəlxalq qurumların iştirakı ilə yenidən atəşkəs müqaviləsi imzalanmışdır. Buna baxmayaraq, Ermənistan tərəfindən dəstəklənən separatçı qüvvələr atəşkəs imzalanandan bir neçə saat sonra onu dəfələrlə pozmuşdur. 2020-ci il iyul ayının 12-də Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədinin [2] Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərmişdir. Dövlət sərhədində düşmənin törətdiyi təxribatın qarşısının alınması ilə bağlı görülən təxirəsalınmaz tədbirlər nəticəsində hücumun qarşısı alınmışdır. Ermənistan silahlı qüvvələrinin ön xəttindəki atəş nöqtələri, 9 dayaq məntəqələri, artilleriya qurğuları, müxtəlif təyinatlı hərbi obyektlər, döyüş texnikası və yüzədək canlı qüvvəsi məhv edilmişdir.

2020-ci ilin 27 sentyabrında isə Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusu Ermənistanın hərbi təcavüzünə cavab

olaraq 30 ilə yaxın müddətdə işğal altında olan torpaqlarımızı azad etmək üçün Vətən müharibəsinə, İkinci Qarabağ müharibəsinə başladı. Torpaqların hər qarışının azad edilməsi uğrunda gedən döyüşlər, qüdrətli ordumuzun şanlı tarix yazaraq düşmən üzərindəki sarsıdıcı zərbələri, eləcə də işğal altında olan şəhərlərimizin, yaşayış məntəqələrimizin, həmçinin, müxtəlif istiqamətlərdə strateji yüksəkliklərin işğalçılardan azad edilməsi xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Ermənistanın işğalı altında olan torpaqlarımızı azad etmək üçün rəşadətli Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı genişmiqyaslı və uğurlu əks-hücum əməliyyatları cəmi 44 gün davam etdi və hərb tariximizə hər gün şanlı Qələbələrlə, Zəfərlərlə yazıldı [3].

Bu döyüşlərdə Azərbaycan xeyli az itki ilə böyük irəliləyişlərə imza atdı.Başlanğıcda bir sıra kəndləri və strateji körpüləri işğaldan azad etdikdən sonra Azərbaycan Silahlı Qüvvələri oktyabrın 22-də Qarabağın İranla cənub sərhədini tamamilə azad etdi və 23 oktyabrda Laçın Dəhlizinə doğru irəliləməyə başladı. Laçın Dəhlizi Qarabağdakı qondarma qurumla Ermənistanı birləşdirən yeganə böyük (digərləri ilə müqayisədə) magistral yol idi. Magistral yola nəzarət Ermənistandan yanacaq, döyüş sursatı və hərbi möhkəmlətmə ehtiyatlarının qarşısını alacaqdı. Azərbaycan ənənəvi olaraq gün ərzində hərbi karvanların qarşısını almaq üçün artilleriya, minaatan və hətta birbaşa atəş və ya idarə olunan raketlərlə Ermənistan ordusuna zərbələr endirirdi. Davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir [4].

44 gün davam edən müharibə nəticəsində Ermənistan 10 ədəd S-300 və onun taktiki-döyüş vasitələri, 366 tank, 352 müxtəlif çaplı top, 22 ədəd pilotsuz uçuş aparatı, 5 Su-25 təyyarəsi, 50 Tor, Osa, Kub, Kruq modelli zenit-raket kompleksindən məhrum olub. Eyni zamanda döyüş əməliyyatları çərçivəsində xüsusi əhəmiyyətə malik 97 ədəd Qrad, 4 ədəd Smerç, 1 Tos odsaçan, 2 Uraqan, 1 ədəd Yars, Toçka-U, ballistik raketlər, Elbrus raket kompleksləri də məhv edilib. Azərbaycan ordusunun məhv etdiyi və ya qənimət kimi götürdüyü hərbi texnikasının dəyəri minimum qiymətləndirmə əsasında ən azı 3,8 milyard ABŞ dolları dəyərində qimətləndirilmişdir [5]. Müharibə dövründə Ermənistan ordusunda 10 mindən çox fərari olub. Təcavüzkar Erməni əsgəri haqq uğrunda savaşan Azərbaycan əsgəri qarşısında dura bilmədi. Azərbaycan Respublikası Müdafiə Nazirliyinin yaydığı məlumata əsasən Vətən müharibəsində Silahlı Qüvvələrimizin isə 2914 nəfər hərbi qulluqçusu Şəhid **o**lmuşdur.

Noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Ermənistanın baş naziri və Rusiyanın Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə bəyanat imzaladılar [6]. Bəyanata əsasən noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonları bir güllə atılmadan, heç bir şəhid verilmədən azad edildi. Bəyanatda həmçinin Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

Beləliklə, bu möhtəşəm qələbə sayəsində Ermənistanın və onun havadarlarının işğala və tədricən Azərbaycan ərazilərinin ilhaqına əsaslanan planları alt-üst oldu. Bu qələbə azərbaycanlılar haqqında məğlub xalq sindromunu sındırdı və xalqın inamını özünə qaytardı. Regionda Azərbaycanın maraqlarına cavab verən yeni siyasi reallıq yarandı. Yekun nəticədə Azərbaycan vətəndaşlarının 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyuldu. Azərbaycanın ərazi bütöplüyü tam şəkildə bərpa olundu.

**İstifadə olunmuş ədəbiyyat:**

1.8 Noyabr - Zəfər Günü: metodik vəsait / tərt. ed. A.Məmmədova; ixtisas red. K.M.Tahirov; red.

L.Əhmədova.- Bakı, 2021.- 55 s.
2. Mustafayev İ. 30 illik işğala son qoyan 44 günlük Vətən müharibəsi, http://www.lachin-ih.gov.az/az/news/1236.html. 15 mart 2021.
3. Vətən müharibəsi şəhidi gizir Səbuhi Məmmədovun ildönümündə əziz xatirəsi ehtiramla anılıb.http://qazax-ih. gov. az/ az/ news/ veten- muharibesi- sehidi- gizir- sebuhi-memmedovun-ildonumunde-eziz-xatiresi-ehtiramla-anilib.html02 oktyabr2023.
4. Vətən müharibəsi. http://zengilan-ih.gov.az/az/veten-muharibesi.html.
5. Vətən müharibəsi haqqında. http://sabunchu-ih.gov.az/az/veten-muharibesi-haqqinda.html.
6.Məmmədov İ .Xalqımız milli tariximizin ən möhtəşəm səhifəsini yaşayır. http://www. mingechevir-ih.gov.az/az/news/803.html17.12. 2020.

## 8 NOYABR ZƏFƏRİ VƏ ONUN İBRƏT DƏRSLƏRİ

***Tahir Kərimli, b/m.***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***tahir.kerimli 52@mail.ru.***

***Xülasə:*** *Məqalədə dörd il bundan öncə Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əzmi və qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin tükənməz Vətən sevgisi, rəşadəti və sücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində düşmənin müqavimətinin qırılması və 1920 ci il 8 noyabrın tariximizə Zəfər Günü kimi əbədi həkk olunması məsələləri işıqlandırılmışdır. İşğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən müqəddəs savaş xalqımızın şərəf və ləyaqət rəmzi kimi çağdaş tariximizi zənginləşdirmişdir. Bu zəfər ölkəmizin ərazi bütövlüyünün və konstitusiya quruluşunun tam bərpa olunması baxımından çox əhəmiyyətlidir.*

***Açar sözlər:*** *Zəfər, Qarabağ, 8 noyabr, həmrəylik, arsenal, devident*

Dörd il bundan öncə Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əzmi və qətiyyətli mövqeyi, Azərbaycan əsgərinin tükənməz Vətən sevgisi, rəşadəti və sücaəti, xalqımızın birliyi və həmrəyliyi nəticəsində düşmənin müqaviməti qırılmış və 1920 ci il 8 noyabr tariximizə Zəfər Günü kimi əbədi həkk olunmuşdur. İşğal altındakı ərazilərimizin azad edilməsi ilə nəticələnən müqəddəs savaş xalqımızın şərəf və ləyaqət rəmzi kimi çağdaş tariximizi zənginləşdirmişdir. Bu zəfər ölkəmizin ərazi bütövlüyünün və konstitusiya quruluşunun tam bərpa olunması baxımından çox əhəmiyyətlidir.

Bir sıra beynəlxalq təşkilatların və aparısı dünya dövlətlərinin Qarabağ probleminin danışıqlar yolu ilə həllinin alternativinin olmaması ilə bağlı ikili standartlara söykənən subyektiv yanaşmaları mövcud idi. Lakin hələ müstəqilliyimizin bərpasının ilk dövrlərində təcrübəli siyasətçi və müdrik lider Heydər Əliyev öz fəaliyyəti ilə sübut etmişdi ki. İstənilən şəraitdə problemin həllinə düzgün yanaşma sayəsində uğur qazanmaq mümkündür. Belə ki, başı hakimiyyət uğrunda mübarizəyə qarışmış AXC-Müsavat cütlüyünün tutduğu xəyanətkar mövqe nəticəsində 1993-cü ilin ortalarınadək ölkənin 20 faizdən artıq ərazisi Ermənistanın nəzarəti altına keçmişdi. Dövlət müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövlətçiliyi bütövlükdə real təhlükələrlə üzləşmişdi. Yalnız ulu öndər Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonar bu istiqamətdə dönüşə nail olmaq mümkün oldu. Onun bilavasitə rəhbərliyi altında 1994-cü ilin yanvar ayında Azərbaycan

ordusunun böyük uğurla yerinə yetirdiyi "Horadiz əməliyyatı" nəticəsində 23 yaşayış məntəqəsi işğaldan azad edildi. Bu uğuru 2016-cı ilin aprel ayında böyük strateji əhəmiyyətə malik Lələtəpə yüksəkliyini ələ keçirməklə Prezident İlham Əliyv də təkrarladı. Ordumuzun böyük üstünlüyünü və xalqın qələbə əzmini nümayiş etdirən Aprel döyüşləri münaqişənin hərb yolu ilə həllinin mümkünlüyü barədə qarşı tərəfə və beynəlxalq təşkilatlara ünvanlanmış bir ismarıc idi.

Təəssüf ki, Ermənistan bu dərslərdən düzgün nəticə çıxarmadı və keçmiş Dağlıq Qarabağda 30 ilə yaxın davam edən status-kvo və son dövrlər formalaşmış geosiyasi vəziyyət Vətən müharibəsinin qaçılmaz olduğunu şərtləndirən bir sıra ciddi amilləri ortaya qoydu. Ona görə də Azərbaycan Pezidenti cənab İlham Əliyev problemin həllinə yanaşmada güzəşt siyasətinə deyil, diplomatic hücum taktikasına üstünlük vermin, bütün çıxışlarında Azərbaycan xalqının işğal faktoru ilə heç zaman barışmayacağını və torpaqlarımızı azad etmək üçün mümkün vasitələrdən istifadə edəcəyini dönə-dönə təkrar etmişdir.

Müharibənin bitdiyi gün Şəhidlər xiyabanına gələn müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa şəhərinin işğaldan azad olunması münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq.2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu , bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu Qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox... 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir... Biz bütün dünyaya sübut etdik ki, Qarabağ əzəli Azərbaycan torpağıdır... "

Ordumuz inamlı və möhtəşəm qələbəsi ilə 44 günlük Vətən müharibəsində Azərbaycanın hərb tarixinə şərəfli salnamə yazdı. Bu savaş böyük Qələbənin heç də təsadüfi olmadığını sübut etdı. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında dövlətimizin siyasi prioriteti kimi uğurla davam etdirilən ordu quruculuğu prosesinin nəticəsi olduğunu nümayiş etdirdi. Dünyanın 50 ən güclü ordusundan birinə çevrilmiş Azərbaycan Silahlı Qüvvələri bu gün regionun müasir texnika ilə təchiz edilən, Vətənin müdafiəsinə daim hazır olan yüksək nizam-intizama malik olan bir quruma çevrilmişdir. Bu istiqamətdə məqsədyönlü siyasət aparan Prezident İlham Əliyev 2003-cü ildən bəri ölkə büdcəsində müdafiə və təhlükəsizlik xərclərinin 17 dəfəyə qədər artırılaraq 6,5 milyard manata yaxın bir səviyyəyə qalxmasını təmin edib ki, bu da digər Cənubi Qafqaz ölkələri ilə müqayisədə qat-qat çoxdur.

Ölkəmizdə qısa zamanda 20-dən çox hərbi zavodun işə salınması, müasir hərbi-sənaye kompleksinin formalaşması Azərbaycanın öz daxili imkanları hesabına arsenalını artırmaq üçün əhəmiyyətli baza rolunu oynayır. Dünyanın aparısı silah ixracatçılarından ən müasir silahların alınması və bu sahədə də şaxələndirilmiş siyasətin verdiyi dividendlər əldə edilmiş qələbəni təmin edən mühüm faktordur.

Müharibənin gedişində döyüş meydanında yenilməz ordumuz qarşıdında duruş gətirə bilməyən işğalçı Ermənistan bütün dünyanın gözü qarısında Azərbaycanın dinc əhalisini və mülki obyektlərini atəşə tutmaqla beynəlxalq hüququn norma və prinsiplərini, daha dəqiq desək, 1949-cu il Cenevrə Konvensiyasını kobud surətdə pozaraq, ağır cinayətlər törətmişdir. İkinci Qarabağ müharibəsi ərzində düşmən Azərbaycanın dinc əhalisini qəsdən hədəfə alıb mülki obyektləri ağır artilleriyadan atəşə tutaraq terror əməllərindən çəkinməmişdir. Hətta erməni diasporunun beynəlxalq hüquq normalarını cinayətkarcasına pozmaqla xarici ölkələrdən gətirilmiş muzdlu terror qruplarının uğursuz cəhdləri Ermənistanı düşdüyü ağır durumdan xilas edə bilmədi.

Əlbəttə, Xalqımız inanırdı ki, zaman gələcək bu cinayətlərə görə erməni vandalları və onlara havadarlıq edənlər beynəlxalq məhkəmə qarşısında cavab verəcəklər. Artıq bu istiqamətdə

Azərbaycan hökuməri çevik və qətiyyətli addımlar ataraq müsbət nəticələr əldə edir. Xüsusilə, Laçın sərhəd-buraxılış məntəqəsinin Azərbaycanın bilavasitə nəzarəti altında fəaliyyətə başlaması və Qarabağda həyata keçirilmiş antiterror tədbirlərinin uğurlu nəticələrindən sonra bu proses daha məhsuldar və intensiv səciyyə daşıyır.

Azərbaycan möhtəşəm qələbəsi ilə dünyaya sübut etdi ki,pozulmuş hüquqlarını özü bərpa etmək iqtidarındadır. "Xalq-iqtidar-ordu" birliyindən doğan obyektiv reallıq ən yüksək həddə təzahür edən tarixi nailiyyətimizin əsas şərtlərindən biri oldu. Cənab İlham Əliyev haqlı olaraq deyirdi: "Əgər bu birlik olmasaydı, milli həmrəylik olmasaydı, biz heç vaxt topaqlarımızı işğalçılardan azad edə bilməzdik". Bu monolit birliyə arxalanan Ali Baş Komandanımızın çevik taktiki gedişləri, heyrətamiz diplomatiya bacarığı, kəskin vəziyyətlərdə hədəfləri və istiqamətləri düzgün müəyyənləşdirmək qabiliyyəti, güclü və dönməz iradəsi möhtəşəm zəfərin idarə olunmasında müstəsna əhəmiyyət kəsb edən meyardır.

Ötən 21 ilə nəzər salsaq, Vətən müharibəsinin uğurunu şərtləndirən əsas amillər sırasında Prezident İlham Əliyevin Dağlıq Qarabağ məsələsinin həllinin daim gündəlikdə qalması üçün əlindən gələni etdiyini, Beynəlxalq təşkilatların tribunalarındakı nitq və çıxışlarında, dünya liderləri ilə görüşlərində və müsahibələrində təcavüzkarın və zərərçəkmiş tərəfin kim olduğunu hər kəsin bilməsi üçün çalışmasını xüsusi qeyd etmək lazımdır.

Ermənistan tərəfindən İkinci Qarabağ müharibəsi zamanı Azərbaycana qarşı aparılan informasiya müharibəsinin də qarşısı məharətlə alındı. İşğalçı ölkəni Azərbaycan bu platformada da üstələdi. Dünya ictimaiyyətinə obyektiv məlumatların çatdırılması ilə Ermənistanın yaydığı yalan xəbərlər zamanında təkzib olundu. Erməni kiber hücumunun da qarşısı layiqincə alındı. Prezident İlham Əliyev dərin biliyi, çevik ağlı, dəmir məntiqi, təkzibolunmaz arqumentləri ilə ermənipərəst mediyanın qarayaxma kompaniyasını zərərsizləşdirə bildi, informasiya cəbhəsini təkbaşına yardı.

Xüsusi təlimatlandırılmış bəzi Qərb müxbirləri Azərbaycan tərəfinin ünvanına əsassız ittihamlar səsləndirməklə mətləbi yayındırırdılar. Lakin xarici kütləvi informasiya vasitələrinin əməkdaşları İlham Əliyevin siyasi və diplomatik cavabları, tutarlı arqumentləri və ensiklopedik tarixi bilgiləri qarşısında heyranlıqlarını gizlədə bilmirdilər. Döyüşlərin ilk günündən beynəlxalq erməni lobbisi Azərbaycana qarşı təzyiq riçaqlarını işə saldı, BMT-də qətnamə qəbul etmək istədilər. Hətta. Prezidentdən müsahibə alan bəzi xarici kütləvi informasiya vasitələri təxribatçı sualları ilə ermənipərəst dairələrin sifarişlərini yerinə yetirdi. Lakin hər bir mərhələdə erməni təəssübkeşləri məğlubiyyətə uğradılar. Məhz İlham Əliyevin diplomatik müdrikliyi sayəsində BMT-də Ermənistanın maraqlarına xidmət edən qətnamənin qəbul olunmasının qarşısı alındı. Bu işdə dünyanın 120 ölkəsinin üzv olduğu Qoşulmama hərəkatına sədrlik etməsi, 60-dək ölkəni özündə birləşdirən İslam Əməkdaşlıq təşkilarının fəal üzvü kimi müsəlman aləmində qazandığı böyük nüfuz, Avropanın enerji təhlükəsizliyinə verdiyi önəmli töhfə, düşünülmüş neft strategiyasının gətirdiyi siyasi dividendlər Azərbaycanın diplomatik uğurlarını şərtləndirən amillərdir.

Azərbaycanın xarici siyasətində istiqamətlərin düzgün seçilməsi və dünyanın güc mərkəzləri, həmçinin region ölkələri ilə əməkdaşlıq münasibətlərinin qurulması ilə tarixi Zəfərin qazanılmasında diqqət çəkən əsas məqamlardandır. Bu münasibətlər bu dün də yüksələn xətt üzrə inkişaf etməkdədir.

Prezident İlham Əliyevin müharibə günlərində nümayiş etdirdiyi yüksək qətiyyət və dünya erməniliyi ilə mübarizədə beynəlxalq təzyiqlərə sinə gərməsi bu prosesin digər mühüm cəhəti kimi səciyyəvidir. Dövlət başçımızın qələbə əzmini Azərbaycan ictimaiyyəti Zəfərimizin əsas

cəhətlərindən biri kimi dəyərləndirir. Bu da həqiqətdir ki, Prezident, müzəffər Ali Baş Komandan cənab İlham Əliyev hərb meydanında olduğu kimi, diplomatik cəbhədə də mahir strateq olaraq heyrətamiz taktika nümunələrini nümayiş etdirdi, informasiya müharibəsində yorulmadan Azərbaycanın haqq səsini ucaltdı, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi ədalət uğrunda mücadilə rəmzinə çevrildi. Məhz olun rəhbərliyi altında uzun illər davam etdirilən diplomatik mübarizə hərbi uğurumuzu möhkəmləndirən əsas amillərdən biridir və Qələbənin əldə olunmasında bu fəaliyyətin səmərəsi danılmazdır.

Üçtərəfli Moskva Bəyanatını cənab İlham Əliyev 10 noyabr 2020-ci il tarixdə qalib sərkərdə kimi fəxrlə, Ermənistanın baş naziri Nikol Paşinyan isə kapitulyasiya aktı kimi gizli şəkildə imzaladı. Bununla biz haqqın, ədalətin, Azərbaycanın böyük dövlətlərin tapdağından xilas ola biləcəyini bəşəriyyətə sübut etdik. Bu tarixi yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, "Haqq nazilər, üzülməz".

Bu şanlı Qələbə Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı, onu ağır nisgildən xilas etdı, dünya azərbaycanlılarını "azərbaycançılıq" ideologiyası ətrafında daha sıx birləşdirdi, dünyaya əsl tolerantlıq nümunəsi bəxş edən xalqımızın daha yüksək dəyərdə milli özünüdərk və öz gücünə inam hissinin möhkəmlənməsi üçün tarixi zəmin yaratdı, gənclərimizin vətənpərvərlik duyğularını daha yüksəklərə qaldırdı.

Bu zəfəri Azərbaycan xalqına bəxş etməklə müzəffər Ali Baş Komandanımız həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", söyləmiş Ulu öndərin ən ümdə arzusunu reallaşdırdı, onun vəsiyyətinə əməl etdi.

Düşünürəm ki, dövlət siyasəti müstəvisində tarixi şəxsiyyətlərin rolu baxımından, 44 günlük Vətən müharibəsinin Azərbaycan tarixində yeri və rolunu aydın dərk etmək üçün müqayisəli tarixi paralellərin aparılması yerinə düşər. Bu fikrin sübutu AXC-Musavat hakimiyyəti dövründə aparılan xarici siyasətlə müqayisədən aydın görünür.

Öz səriştəsizliyini qardaş Türkiyənin üzərinə yönəldən Əbülfəz Elçibəyin 1993-cü ildə "İki helikopter istədik, vermədilər" şəklində nümayiş etdirdiyi davranış 2020-ci ildə Rəcəb Təyyib Ərdoğanın dilindən böyük səmimiyyətlə səslənən "Türk milləti hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarımızın yanındadır" ifadəsi ilə əvəzləndi.

Ötən əsrin 90-cı illərində məhz AXC-Müsavat hakimiyyətinin günahı ucbatından Ermənistana açıq dəstək verən Rusiya 30 ildən sonra Vladimir Putinin deyimində "Qarabağ Azərbaycan ərazisidir" fikri ilə yekunlaşdı. Daha sonra şimal qonşumuzla 2022-ci ildə rəsmiləşən müttəfiqlik münasibətləri 2023–cü ilin sentyabr ayındaRusiya sülhməramlılarının müvəqqəti dislokasiya olunduğu ərazidə lokal antiterror tədbirlərinin daha rahat şəkildə həyata keçirilməsi üşün vacib amil rolunu oynadı.

Birinci Qarabağ müharibəsində və ondan sonrakı dövrlərdə güclü erməni lobbisini ənənəvi olaraq Azərbaycana qarşı alət kimi istifadə edən ABŞ ikinci Qarabağ müharibəsində və ondan sonra baş verən prosesləri bizi qane edəcək tərzdə müşahidə etməklə kifayətləndi.

İctimaiyyəti qonşu İranın üzərinə qaldıran "cəbhəçi"lərin qızışdırıcı siyasətindən fərqli olaraq, həssas məqamların mövcud olduğu İran-Azərbaycan münasibətləri Prezident İlham Əliyevin diplomatik gedişləri sayəsində Azərbaycanın ərazi bütövlüyü məsələsində İranın aydın şəkildə nümayiş etdirilən dostluq münasibətləri ilə səciyyələndi.

Ənənəvi dost ölkələr olan Türkiyə və Pakistan kimi ölkələrlə münasibətlər daha yüksək səviyyəyə qalxaraq sarsılmaz qardaşlıq birliyinin təcəssümünə çevrildi.

Azərbaycanı Böyük Britaniya, İsrail, İtaliya, Macarıstan kimi böyük dövlətlərin açıq şəkildə müdafiə etməsi müasir diplomatiyamızın zirvə nöqtələridir. Həm yaxın qonşu ölkələr, həm də digər dövlətlərin bir çoxu bu mücadilədə bizə loyal münasibət göstərmiş, ya da ən azından neytral möbqe nümayiş etdirmişdir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və türk əsgərlərinin Zəfər paradında iştirak, müttəfiqlik məsələlərinə dair 2021-ci il 15 iyun tarixli Şuşa Bəyannaməsi Türkiyə-Azərbaycan birliyinin msarsılmayan təcəssümüdür.Azərbayan, Türkiyə və Pakistanın parlament sədrlərinin üçtərəfli Bakı və İstambul Bəyannamələri, Bakıda keçirilmiş “Üç qardaş” beynəlxalq hərbi təlim bütün dünyaya bir daha nümayiş etdirdi ki, bu üç dost və qardaş ölkə bundan sonra da bir-birnin yanında olacaqdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İlham Əliyev. İnkişaf- məqsədimizdir. Zəfər. Xüsusi buraxılış. Azərnəşr. Bakı, 2024, 432 səh.
2. Zəfər yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək. Bakı, “Elm” 2021, 904 səh.

## ZƏFƏR GÜNÜMÜZ TARİXİ QƏLƏBƏMİZDİR

***Baxış Ələsgərov, dosent***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müdiri***
**elesgerov.adpu@mail.ru**

***Xülasə:*** *Məqalədə Ali Baş Komandan İlham Əliyevin və rəşadətli Azərbaycan ordusunun misilsiz qəhrəmanlıqlardan bəhs olunur. Zəfər qələbəsi, zəfər parade əsrimizin qəhrəmanlıq dastanıdır. Cənab İlham Əliyevin tariximizdə yaratdığı misilsiz başlanğıcdr. Ordumuzun qazandığı zəfər bir neçə ilin, on ilin deyil əsrimizin zəfəridir. Mənbələr əsaında yazılmış məqalədə xalqımızın işğal altında olan torpaqların azad edilməsində sücaət göstərmiş ordu-xalq birliyindən söhbət açılır. İnanırıq ki, torpaqlarımızın azad edilməsi davamlı bir sülh gətirəcəkdir.*

***Açar sözlər:*** *8 noyabr, zəfər günü, Ali baş komandan, Azərbaycan xalqı, Cənubi Qafqaz*

8 Noyabr - Zəfər Günündə daha bir möhtəşəm tarix yaşadıq. İlk dəfə olaraq Zəfər günü Azərbaycanın ərazi bütövlüyünün, dövlət suverenliyinin tam təmin olunmasının gətirdiyi sonsuz sevinc və qürur hissi ilə qeyd olundu. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Zəfər paradını əzəli-əbədi yurdumuz olan Xankəndidə qəbul etdi. Müzəffər ordumuzun ayrı-ayrı qoşun birləşmələri Dövlət bayrağımızın və Şuşa şəhərinə sancılaraq Qələbəmizin rəmzinə çevrilmiş Zəfər bayrağımızın kölgəsində Xankəndinin mərkəzi meydanında qürurla irəlilədilər. Bu, həmin meydandır ki, separatçılar bir vaxtlar öz kriminal dəstələri ilə orada qondarma hərbi mərasimlər keçirər, bizə gözdağı verərdilər. Həmin dövrlər o meydanda Azərbaycan əsgərinin addım səslərinin eşidilməsi, üçrəngli, aylı-ulduzlu bayrağımızın dalğalanması bizim üçün böyük bir xəyal idi. Lakin bunun nə zamansa gerçəkləşəcəyinə hətta ən bədbin anlarımızda da ümidimizi itirməzdik. O günləri görə biləcəyimizə qəlbimizdə müəyyən tərəddüdlər olsa da, böyük inam da vardı. Tarixin hüdudlarının bizim ömür qismətimizdən bəzən çox-çox geniş olduğunu nəzərə alaraq düşünərdik ki, bəlkə də həmin günləri görmək övladlarımıza, gələcək nəsillərə qismət olar. Şükür ki, bu günlərə şahidlik bizim də qismətimizdə varmış. 30 il ərzində yurd həsrətinin acısından, xalqımızın başına gətirilən müsibətlərin ağırlığından ürəyimizə daman göz yaşlarımız sevinc göz

yaşlarına çevrildi. Alqış bu tarixi yaradanlara! Alqış Azərbaycan xalqını ən böyük arzusuna qovuşduran Ali Baş Komandana! Alqış böyük fədakarlıqla düşməni torpaqlarımızdan qovan, separatçıların yuvasını dağıdan, Şuşada, Xankəndidə bayrağımızı ucaldan qəhrəman əsgər və zabitlərimizə! . [1]

Əsrlərin qələbəsi Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi strateji inkişaf kursuna sadiqliklə Azərbaycanı ən qüdrətli çağlarına yetirmiş Prezident İlham Əliyevin tariximizdə yaratdığı misilsiz başlanğıcdır. Azərbaycan 44 günlük müharibədə qazanılmış 8 Noyabr Zəfəri və ardınca 2023-cü ilin 19-20 sentyabrında həyata keçirilən 23 saatlıq antiterror tədbiri nəticəsində separatçılar üzərində qazanılan qələbə ilə yeni bir dövrə daxil oldu. Bu mənada Azərbaycan Ordusunun qazandığı Zəfər bir neçə ilin, on ilin deyil, əsrlərin zəfəridir. Azərbaycan tarixboyu çox ağrılı-acılı yol keçib. Yerləşdiyimiz geostrateji ərazi, zəngin təbii sərvətlərimiz zaman-zaman kimlərinsə iştahasını çəkib. Əsrlərboyu öz taleyimizin sahibi olmamışıq, müqəddəratımıza başqaları qərar verib, başımız üzərindən sonradan taleyimizin bəlasına çevriləcək mürəkkəb oyunlar aparılıb. Torpaqlarımız bölünüb, yağmalanıb, sərvətlərimiz qarət olunub. Bu Vətənin zənginliyinə göz dikən hər kəs Azərbaycandan nə isə qoparmağı fürsət bilib. Tarixi torpaqlarımızda Ermənistan dövləti qurulub, əzəli-əbədi yurdlarımız sərhədlərin o üzündə əsir qalıb. Torpağın köksündəki tarixi izlərimiz, milli nişanələrimiz - toponimlərimiz dəyişdirilərək özgələşdirilib, maddi-mədəniyyət abidələrimiz vandalizmə məruz qalıb, milli yaddaş saxtalaşdırılıb. Əsrlər ərzində hər kəs də bunu sanki normal bir reallıq kimi qəbul edib. Çünki belə bir acı reallıqla barışmaqdan başqa əlacımız olmayıb. Başqalarının bu qərarlarına, qəsbkarlıqlarına qarşı çıxmaq haqqımız tanınmayıb.

Ötən əsrin 80-ci illərinin sonlarına doğru erməni separatçılarının Qarabağda baş qaldırması, dünyanın hər yerindən axın-axın erməni terrorçularının, kriminal ünsürlərin gəlib bu bölgədə yuva qurması, soydaşlarımızın Ermənistan ərazisindəki dədə-baba yurdlarından qovulması da bu reallığın davamı idi. Ümummilli Lider Heydər Əliyevin keçmiş ittifaq rəhbərliyindəki yüksək vəzifəsindən uzaqlaşdırılmasını, proseslərə təsir imkanlarının məhdudlaşdırılmasını imkan bilib Azərbaycana qarşı yeni işğal planlarını işə salan ermənilər də, onların havadarları da düşünürdülər ki, bu, yurddan növbəti dəfə yeni ərazilər qoparmaq üçün fürsətdir. İlk mərhələdə buna nail oldular da. Ötən əsrin 80-ci illərinin sonlarında və müstəqilliyin ilk illərində Azərbaycana rəhbərlik edən səriştəsiz şəxslərin qətiyyətsizliyindən, ölkədəki xaosdan, hakimiyyət davalarından yararlanaraq Qarabağı, eləcə də ətraf rayonları işğal edəndən sonra erməni separatçılarının planlarına görə məqsəd status-kvonu bir neçə on il ərzində qoruyub, zamanla işğal faktını unutdurmaq idi. Necə ki indiki Ermənistan Respublikasının yerləşdiyi tarixi torpaqlarımızla bağlı bunu edə bilmişdilər. Amma 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyət rəhbərliyinə qayıdışı onların bu planını pozdu. Ümummilli Lider Heydər Əliyev Azərbaycanı çətin sınaqlardan çıxarıb indi yaşadığımız gələcəyə hazırlamağa başladı. Qarabağ probleminin bir an da olsun diqqətdən kənarda qalmasına yol vermədi. Ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu, sosial-iqtisadi inkişaf tədbirləri ilə paralel bu taleyüklü məsələni də daim gündəmdə saxladı. . [2]

Ölkəmizin gələcəyi ilə bağlı böyük arzularının reallaşması üçün bu böyük dövlət adamı 10 il ərzində hər cəhətdən gücləndirdiyi, dünyada tanıtdığı Azərbaycanın taleyini İlham Əliyevə etibar etdi. Prezident İlham Əliyev də Ümummilli Liderin formalaşdırdığı möhkəm təməllər üzərində güclü bir dövlət formalaşdırdı. Sosial-iqtisadi nailiyyətlərinə, qlobal nüfuzuna görə Azərbaycanı regionun lider ölkəsinə çevirdi. Təşəbbüskarı və iştirakçısı olduğu qlobal enerji-kommunikasiya layihələrinin uğurları sayəsində Azərbaycanın beynəlxalq önəmi artdı. Dünyada səsimiz-sözümüz

eşidildi.

Azərbaycan Prezidenti bütün dünyada Qarabağ münaqişəsi ilə bağlı aydın təsəvvür formalaşdırmağa nail oldu. Xalqımızın torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizəsinin haqq işi olduğunu, tarixi ədalətə, beynəlxalq hüquqa əsaslandığını sübuta yetirdi. Azərbaycanın bu prinsipial mövqeyini ali tribunalardan dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Ölkəmizə qarşı gələcəkdə hər hansı ittihama əsas verməmək üçün sülh danışıqlarına sona qədər sadiq qaldı. Lakin illər keçdikcə sülhə ümidlər tükənirdi. Yalnız münaqişənin hərbdən başqa heç bir yolunun qalmadığını bütün dünya görüb əmin olandan sonra 30 ilin münaqişəsini cəmi 44 günün içində yoluna qoydu. Bu qədər qısa müddət ərzində düşmənin bütün ordusunu məhv etdi, "dəmir yumruğ"un tutarlı zərbəsi ilə işğalçıların dizini yerə gətirdi. Azərbaycanın ərazi bütövlüyünə, dövlət suverenliyinə aparan strateji yol Vətən müharibəsindəki qələbəmizdən sonra da addım-addım, planlı şəkildə davam etdirildi. Zamanı çatanda separatçıların Xankəndidəki yuvalarının dağıdılmasına cəmi 23 saat gərək oldu. Azərbaycan həyata keçirdiyi 23 saatlıq antiterror əməliyyatı ilə separatçıların ömrünə son qoydu. Onların başbilənləri törətdikləri bəşəri cinayətlərə görə ədalət mühakiməsi qarşısında cavab vermək üçün qandallanaraq Bakıya gətirildilər. Beləliklə, ədalət zəfər çaldı.

Azərbaycan yaratdığı yeni reallıqla göstərdi ki, ölkəmiz regionda sülhün, təhlükəsizliyin, dayanıqlı inkişafın əsas təminatçısıdır. Respublikanı belə bir reallığa yetirməkdən ötrü Prezident İlham Əliyev Ümummilli Liderin ordu quruculuğu siyasətini əzmlə davam etdirərək güclü ordu qurdu və bu siyasət hazırda da davam etdirilməkdədir. Silahlı Qüvvələrimiz həm təchizatına, həm əsgər və zabitlərimizin döyüş ruhuna görə dünyanın ən qüdrətli orduları sırasında qərarlaşıb. Azərbaycan Prezidenti torpaqlarımızın azadlığı uğrunda göz qırpmadan ölümə hazır olan, 44 günlük Vətən savaşına qədər Ali Baş Komandandan hər an əmr gözləyən vətənpərvər, cəsur bir nəsil yetişdirdi. Qeyrət qalamız olan Şuşanı bu nəslin təmsilçiləri qayalardan kəndirlə dırmanaraq, yüngül silahlarla düşmənin tankının, topunun üzərinə atılaraq azad etdilər. Bu igidlərimiz Xankəndidə Azərbaycan bayrağını ucaltdılar. Düşmən də, işğal faktının unudulması üçün illərlə onlara dəstək vermis havadarları da gördülər ki, Azərbaycan xalqına yurd itkisini unutdurmaq mümkün deyil. Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanması ilə məşğul olmuş vasitəçilər faktiki olaraq vəziyyəti dondurmağa çalışırdılar, hesab edirdilər ki, Azərbaycan xalqı bu vəziyyətlə barışacaq. Mənasız danışıqlarla illəri hədər verərək, mövcud status-kvonu qorumaqdan ötrü min bir fənd işlətməyə çalışırdılar. Düşünmürdülər ki, nə Azərbaycan xalqı əsrlər əvvəlki əlacsız, başqalarının əsarətində olan asılı xalqdır, nə də Azərbaycan dövləti əsrlər əvvəlki Azərbaycandır. Xankəndidəki paradda çıxışı zamanı Ali Baş Komandan bildirdi ki, Azərbaycan son 20 il ərzində bu günə doğru gedirdi. Hazırlıq işləri aparılır, beynəlxalq hüquq müstəvisində Azərbaycanın mövqeləri möhkəmləndirilirdi: "Siyasi müstəvidə apardığımız uğurlu fəaliyyət nəticəsində bütün dünya artıq bilməyə başlamışdır ki, haqlı tərəf bizik. İqtisadi sahədə apardığımız islahatlar imkan verdi ki, müstəqil iqtisadiyyat quraq, heç kimdən asılı olmayaq, öz həyatımızı özümüz quraq. Güclü siyasi iradə imkan verdi ki, müstəqil xarici siyasət aparaq, daxili siyasət aparaq, imkan verməyək kimsə bizim işimizə müdaxilə etsin. Halbuki belə cəhdlər tarixdə çox olmuşdur. Dövlətimizi, milli ləyaqətimizi, həyat tərzimizi, ənənələrimizi qorumuşuq ki, heç kim bizim işlərimizə burnunu soxmasın".. [3]

Azərbaycan dövləti ərazi bütövlüyümüzü bərpa edib Xankəndidə dövlət bayrağımızı ucaltmaqla Ermənistana və onun xaricdəki havadarlarına daha bir dərs verdi. Onlar Vətən müharibəsindəki Qələbəmizdən sonra yeni status-kvonun qorunub saxlanmasında maraqlı idilər. Hesab edirdilər ki,

dinc əhalini girovluqda saxlayan "artsax"ın hərbi-xunta rejimi yenə öz mövcudluğunu davam etdirə biləcək. Azərbaycanın təhlükəsizliyini təhdid altında saxlayacaq və biz hansısa təzyiqlərdən qorxaraq buna göz yumacağıq. Onlar bu ehtimalı reallaşdırmaq üçün dövlətimizə, dövlət rəhbərimizə qarşı təzyiq və təhdidləri müxtəlif istiqamətlərdən həyata keçirirdilər. Əfsuslar olsun ki, Avropa İttifaqı, ABŞ, Fransa və digər bu kimi ölkələr 30 illik işğal dövründəki mövqelərinə "sadiq" qalaraq Azərbaycana qarşı ikili standartları yenə davam etdirirdilər. 30 il ərzində heç bir ciddi nəticə ortaya qoya bilməyəndən sonra ömrünü çoxdan başa vurmuş Minsk qrupunun yenidən dirildilməsinə uğursuz cəhdlər göstərilirdi. Qərbin guya ermənilərin Azərbaycanda yaşaya bilməyəcəyi və buna görə də ayrılmasının zəruriliyini ehtiva edən hüquqi proseduru işə salması məqsədilə müəyyən hazırlıqlar aparılırdı. Dövlətimizə qarşı çirkin kampaniyalar, BMT, Avropa Parlamenti, Avropa Şurası kimi beynəlxalq mexanizmlərin potensialından yararlanmaq cəhdləri, sanksiya hədələri ara vermirdi. Bununla çalışırdılar ki, Azərbaycan Prezidentini gələcək planlarından çəkindirsinlər, Azərbaycanın öz ərazisi üzərində tam suverenliyini bərpa etməsinə imkan verməsinlər, dövlətimiz 2020-ci ilin nəticələri ilə məhdudlaşmaq məcburiyyətində qalsın. Amma Prezident İlham Əliyev Azərbaycan xalqını zəfərdən zəfərə aparan addımları ilə ermənilərə də, onların təəssübkeşlərinə də sübut etdi ki, tarixin ən qüdrətli Azərbaycanını, bu dövlətin rəhbərini heç bir təzyiq-təhdidlə müstəqil mövqeyindən çəkindirmək, milli maraqlardan geri addım atmasına zərrə qədər də nail olmaq mümkün deyil.

Müzəffər Ali Baş Komandanın qətiyyəti, əsgər və zabitlərimizin qəhrəmanlığı, xalqımızın milli birliyi və əzmkarlığı sayəsində Azərbaycan ilk dəfə olaraq itirilmiş torpaqlarını geri ala bildi, böyük güclərin 200 ildən bəri regionda həyata keçirdikləri erməni layihəsini iflasa uğratdı. Azərbaycanın bu Zəfəri ilə regionda yeni bir reallıq yaratdı. Bu reallıq qəsbkarlığı, separatizmi, məkrli hiylələri kənara qoyub qarşılıqlı inkişaf marağında olan bütün bölgə dövlətləri üçün yeni imkandır. Yaşadığımız coğrafiyanı tərəqqi, inkişaf meydanına çevirmək üçün böyük bir fürsətdir. Cənubi Qafqazın geostrateji mövqeyindən müasir dünyamızın yeni çağırışlarına uyğun yararlanmaq, kommunikasiya imkanlarından birgə faydalanmaq üçün son dərəcə əlverişli mühitdir. Azərbaycan Prezidenti Xankəndidə keçirilən paraddakı çıxışında düşmənə önəmli xəbərdarlıq mesajı da verdi: "Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin". [4]

Azərbaycan müharibəni də xalqımıza xas ləyaqətlə apardı. Dövlətimizin sosial-iqtisadi gücü, maliyyə imkanları, xarici tərəfdaşlarla qarşılıqlı güvən və etibara əsaslanan münasibətləri hesabına alınmış innovativ silahlarla XXI əsrin müharibəsini etdi. Həm 44 günlük Vətən müharibəsində, həm antiterror tədbirləri zamanı aparılmış hərbi əməliyyatlarda düşmənin heç bir mülki obyekti hədəfə alınmadı. Yalnız legitim hərbi hədəflər sıradan çıxarıldı. Qarşı tərəfdə mülki əhaliyə heç bir xətər toxunmadı. Ermənilərin Birinci Qarabağ müharibəsi zamanı azərbaycanlılara qarşı törətdikləri soyqırımı cinayətlərinin qisası yalnız hərb meydanında alındı. Xankəndidə separatçı rejimin mövcud olduğu bir neçə ayda da Laçın yolunda erməniəsilli mülki əhalinin Azərbaycanın sərhəd-buraxılış məntəqəsində yoxlamadan keçərək sərbəst gediş-gəlişinə şərait yaradıldı. Dövlətimizin bu

məsələlərdə nümayiş etdirdiyi mövqe, dünyaya örnək olan humanizmi, insanpərvərliyi o qədər aydındır ki, Ermənistanın beynəlxalq aləmdəki təəssübkeşləri deməyə söz belə tapa bilmirlər. "Əgər Ermənistan rəhbərliyi və onun arxasında o vaxt və bu gün duran bəzi xarici qüvvələr mənim sözlərimə qulaq assaydılar, İkinci Qarabağ müharibəsinə ehtiyac qalmazdı. Mən dəfələrlə deyirdim, Ermənistan rəhbərliyinə müraciət edərək deyirdim ki, əgər siz bizim torpağımızdan çıxmasanız, döyüş meydanında bizimlə üz-üzə gələcəksiniz və sizin arxanızda kim istəyirsə dursun, bu, bizi haqq yolumuzdan döndərə bilməz. 44 günlük Vətən müharibəsi bunu bir daha göstərdi", - Azərbaycan Prezidenti Xankəndidəki çıxışı zamanı bildirdi.

Cənubi Qafqaz bölgəsində illərlə başqalarının əlbuyruğu rolunu oynamağa razılaşmış ermənilər ümid etməyə dəyər ki, nəhayət, öz yanlışlarından nəticə çıxaracaqlar. Qonşulara qarşı düşmən münasibəti, kin-küdurəti, separatizm cəhdlərini, işğal arzularını kənara qoyub sivil həyat tərzində yaşamağı öyrənəcəklər. Anlayacaqlar ki, Cənubi Qafqazın gələcəyində xoşbəxt həyata qovuşmaları üçün onların da nicatı məhz Azərbaycanda, bölgəyə inkişaf, rifah gətirən dövlətimizin başçısı, Prezident İlham Əliyevin yürütdüyü siyasətdədir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Şərq qəzeti № 12. 2003.
2. H.Sadıqov Erməni məsələsi. 2012.
3. Aslan Yasin. Can Azərbaycan Ankara. 1990.
4. Gəncəbasar qəzeti. 27 fevral 2004.


## 8 NOYABR – ZƏFƏR GÜNÜ

**_Lətafət Süleymanova_**
**_“Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi_**

***Xülasə:*** *Məqalədə XIX əsrin əvvələrində Azərbaycan xalqının başına gətirilən müsübətlər barədə də geniş məlumat verilmişdir.Çar rusiyasının min bir hiyləsin ilə İrandan və Türkiyədən qovulmuş ermənilərin siyasəti davamlı olaraq aparılmışdır.200 illikbir erməni vandallığına məruz qalmağımız yanda öz əksini tapmışdır. Bunun davamı olaraq Qarabağ ərazisində erməni-Rey birlikləri tərəfindən işğal edildi. Məqalədə işğala məruz qalmış torpaqlarımızın azad olunmasından da geniş bəhs edilir. Beləki, Azərbaycan xalqının əzmi, və iradəsi iqtisadi gücü müasir ordu qruculuğu və xalq- iqtidar Birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər dolu məqalədə ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən də bəhs edirik. Bütün bu kmi amillər nəticəsində işğala məruz qalmış torpaqlarımız işğaldan azad edilmişdir.*

***Açar sözlər:*** *Silahlı qüvvələr,Cənibi Qafqaz, Azərbaycan xalqı, Zəngəzur Qarabağ.*

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qələbəsi şərəfinə təsis edilmiş Zəfər Günü bu il noyabrın 8-də ilk dəfə qeyd ediləcəkdir. Azərbaycan xalqının və dövlətinin qüdrətinin rəmzinə çevrilmiş bu möhtəşəm Zəfərin tarixi əhəmiyyəti bir əsrin hüdudlarına sığmır. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə birlikdə, son iki yüz ilə

yaxın dövrdə Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirilmiş və xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələ həll edilmişdir.

Məlum olduğu kimi, XIX əsrin əvvəllərində çar Rusiyası Araz çayından şimalda yerləşən Azərbaycan xanlıqlarını işğal etdikdən sonra bölgənin etnik mənzərəsini dəyişdirib öz dayaqlarını möhkəmləndirmək üçün bütün XIX əsr boyu İrandan və Türkiyədən 1 milyondan çox erməni Cənubi Qafqaza köçürmüşdür. Bölgənin demoqrafik mənzərəsinin dəyişdirilməsi ilə yanaşı, erməni dini-ideoloji ekspansiyasına da rəvac verilmişdir. 1836-cı ildə çar hökuməti Qarabağdakı alban xristian kilsəsini erməni kilsəsinə tabe etmişdir. Bundan sonra Eçmiədzin erməni kilsəsi albanların etnik-mədəni irsini, alban ədəbiyyatını və tarixini öz adına çıxaraq mənimsəmişdir. [1]

XIX əsrin sonlarına yaxın erməni şovinistləri “Armenakan”, “Hnçak” və “Daşnaksütyun” kimi millətçi partiyalar yaradaraq dənizdən-dənizə “Böyük Ermənistan” mifi ilə bağlı ideyanın həyata keçirilməsinə silahlı mübarizə və terror yolu ilə zəmin hazırlamağa başlamışlar. 1905–1907-ci illərdə, habelə 1918-ci ildə onlar Bakıda, Tiflisdə, İrəvanda, Naxçıvanda, Gəncədə, Qarabağda, Zəngəzurda, Göyçədə və digər yerlərdə azərbaycanlılara kütləvi şəkildə divan tutmuş, şəhər və kəndləri yandırmış, uşaqları, qadınları, qocaları misilsiz qəddarlıqla öldürmüşlər. Erməni vəhşiliyindən sağ qurtara bilən on minlərlə azərbaycanlı doğma yurd-yuvasını tərk etməyə məcbur olmuşdur. Azərbaycanlılardan təmizlənən ərazilər 1918-ci ildə müstəqilliyini elan etmiş Ermənistan Respublikasına qatılmışdır. Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən Qərbi Zəngəzur Ermənistanın tərkibinə daxil edilmiş, nəticədə onun ərazisi 9,8 min kvadrat-kilometrdən 29,8 min kvadrat-kilometrə çatdırılmışdır. [2]

Azərbaycanlılara qarşı düşmənçilik siyasəti sovet hakimiyyəti illərində də davam etdirilmişdir. Ermənistan ərazisində qalan, ata-baba torpaqlarında elliklə yaşayan yüz minlərlə azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində ermənilər üçün qondarma “Dağlıq Qarabağ Muxtar Vilayəti” təşkil edilmişdir. SSRİ rəhbərliyinin köməyi ilə Ermənistan SSR-in hakim dairələri 1948–1953-cü illərdə Ermənistandan yüz minlərlə azərbaycanlının deportasiya edilməsinə nail olmuşlar. Azərbaycanlılara qarşı kəskin mənəvi təcavüz kampaniyası aparılmışdır. Son yüz ildən artıq dövrdə erməni xalqının bir neçə nəsli milli müstəsnalıq ruhunda tərbiyə edilmişdir. Erməni “alim”lərinin səyləri ilə bölgənin tarixi saxtalaşdırılmış, erməni dövlətinin olmayan tarixi uydurulmuş, Cənubi Qafqazda baş verən hadisələr bilərəkdən təhrif edilmişdir.

Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək üçün Ermənistanın 1988-ci ildə başladığı, 1992-ci ildə isə miqyasını genişləndirdiyi etnik təmizləmə siyasəti və işğalçılıq müharibəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, Ermənistan ərazisindən və Azərbaycanın işğal edilmiş bölgəsindən 1 milyondan çox azərbaycanlı qovulmuşdur. Azərbaycanlılara qarşı milli nifrət və düşmənçilikdən qaynaqlanan ağır cinayət aktları həyata keçirilmiş, XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı, bir sıra digər qətliam əməlləri törədilmişdir. [3]

1994-cü ilin mayında münaqişənin sülh yolu ilə həllinə şərait yaratmaq məqsədi ilə Ermənistanla Azərbaycan arasındakı cəbhə xəttində atəşkəs elan olunduqdan sonra Ermənistan rəhbərliyinin bütün fəaliyyəti münaqişənin həllinə deyil, işğalın nəticələrinin möhkəmləndirilməsinə yönəlmişdir. Azərbaycan Respublikasının suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını birmənalı şəkildə təsdiqləyən və Ermənistan silahlı qüvvələrinin

işğal etdikləri Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 nömrəli qətnamələrə, eləcə də BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi 62/243 nömrəli qətnaməyə, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının, İslam Əməkdaşlığı Təşkilatının, digər beynəlxalq qurumların müxtəlif illərdə qəbul etdikləri qətnamələrə etinasızlıq göstərilmişdir. Münaqişənin nizama salınması üçün yaradılmış ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlardan Azərbaycan torpaqlarının işğalının nəticələrini bu və ya digər şəkildə rəsmiləşdirmək, bu mümkün olmadıqda isə vaxt uzatmaq üçün istifadə edilmişdir. [3]

Ermənistan rəhbərliyi cəzasız qalmasından istifadə edərək, sülh prosesini birdəfəlik pozmağa cəhdlər göstərmişdir. Bu məqsədlə 2016-cı ilin aprel ayında, 2020-ci ilin iyul və avqust aylarında Azərbaycan Silahlı Qüvvələrinə qarşı təxribatlar törədilmişdir. Həmin təxribatlara cavab olaraq Azərbaycan Respublikasının gördüyü tədbirlər Ermənistan silahlı qüvvələrinin canlı qüvvə və hərbi texnika sarıdan böyük itkilər verməsinə gətirib çıxarmışdır.

Ermənistan rəsmiləri öz bəyanatları və davranışları ilə sübut etmişlər ki, bu dövlət nəinki işğal altında olan əraziləri qaytarmağa və ədalətli sülh əldə etməyə hazırlaşmır, əksinə, Azərbaycanın yeni ərazilərini işğal etmək niyyəti güdür. İşğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırma siyasətinin genişləndirilməsi, danışıqların formatını dəyişdirməyə cəhdlər göstərilməsi, Ermənistan müdafiə nazirinin "yeni ərazilər üçün yeni müharibə" iddialarını səsləndirməsi, digər bəyanatlar və hərəkətlər işğalçı dövlətin rəhbərliyinin əsl niyyətlərini üzə çıxarmışdır. [4]

Azərbaycan dövlətinin rəhbərliyi onilliklər boyu bəyan etmişdir ki, Azərbaycan Respublikası öz ərazisinin bir hissəsində suverenliyinin qəsb edilməsinə, torpaqlarının quldurcasına zəbt edilməsinə və qoparılmasına heç zaman razı ola bilməz və bütün imkanlardan istifadə edərək ərazi bütövlüyünün bərpasına nail olacaqdır. 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin növbəti təcavüz aktından sonra Azərbaycan Respublikası BMT-nin Nizamnaməsinin verdiyi özünümüdafiə hüququndan istifadə edərək, təcavüzkarı sülhə məcbur etmək, Azərbaycan torpaqlarının işğalına son qoymaq məqsədi ilə əks-hücum əməliyyatına başlamışdır.

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri 44 gün davam edən Vətən müharibəsində heyrətamiz qələbələr əldə edərək dünya hərb tarixinə yeni şanlı səhifələr yazmışlar. İşğalçı qüvvələrə ağır zərbələr endirilmiş, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilmişdir. Ölkəmizin işğal altında olan ərazisinin böyük bir hissəsi, o cümlədən Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Hadrut və Suqovuşan qəsəbələri, ümumən 300-ə yaxın yaşayış məntəqəsi azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur. [4]

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin əldə etdiyi hərbi Zəfər siyasi müstəvidə qazanılan qələbə ilə tamamlanmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə son qoymuşdur.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında həyatın bütün sahələrində böyük nailiyyətlər əldə edilmişdir. Müasir dövrün tələbləri səviyyəsində qurulmuş sosial-iqtisadi inkişaf strategiyası Azərbaycanı dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə və Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevirmişdir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra başlanmış, son 18 ildə uğurla davam etdirilmiş hərbi siyasət

Azərbaycan Silahlı Qüvvələrini yüksək standartlar əsasında inkişaf etdirərək dünyanın 50 ən güclü ordusu sırasına çıxarmağa imkan vermişdir.

Bütün bu amillər, eləcə də iqtidarla xalq arasında mövcud olan sarsılmaz birlik Ermənistan–Azərbaycan münaqişəsinin həllini təmin etmişdir. Erməni şovinistlərinin Azərbaycan xalqına və dövlətinə qarşı uzun dövr ərzində həyata keçirdikləri etnik təmizləmə, işğalçılıq və ekspansionizm siyasətinin qarşısının alınması ilə bağlı tarixi missiya uğurla yerinə yetirilmiş və tarixi ədalət bərpa olunmuşdur.

8 Noyabr Zəfəri müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsi olmuşdur. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Qüdrətli Azərbaycan yerləşdiyi bölgənin siyasi, iqtisadi, hərbi, humanitar mənzərəsini dəyişməyə qadir olduğunu, bundan sonra heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, 44 günlük Vətən müharibəsində Azərbaycan Silahlı Qüvvələrinin möhtəşəm Zəfəri təkcə bizim ölkəmizin deyil, həm də bütün Cənubi Qafqaz bölgəsinin əmin-amanlığı və inkişafı üçün yeni imkanlar yaratmışdır. Bu imkanların reallaşması üçün Azərbaycan Respublikası Ermənistan Respublikası ilə beynəlxalq hüquq prinsiplərinə və normalarına uyğun olaraq, bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və beynəlxalq sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və bunlara hörmət edilməsi əsasında normal qonşuluq münasibətləri qurmağa hazırdır. Azərbaycan Respublikasının Milli Məclisi bəyan edir ki, beynəlxalq ictimaiyyət Ermənistanı Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü hədəf alan qisasçı ritorikaya və hərəkətlərə son verərək, yuxarıda göstərilən əsasda Azərbaycanla ikitərəfli münasibətlər qurmaq istiqamətində konstruktiv addımlar atmağa sövq etmək üçün təsirli tədbirlər görməlidir.

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi

artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Mehmed Kanar erməni ihtihal hərəkətləri. İfansul 2001.
2. Həsənbala Sadıqov erməni məsələsi. Bakı, 2001.
3. İnternet materialı.
4. İnsan və qanun yurnalı. № 6. 2007.

# MİLLİ BİRLİK: ZƏFƏR GÜNÜNÜN ƏHƏMİYYƏTİ

***Aygün Əlizadə***
***“Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi,***
***aygun.alizada.aa@gmail.com***

***Xülasə:*** *Milli birlik xalqın ortaq dəyərlər, tarix və hədəflər ətrafında birləşməsini ifadə edir. Bu anlayış Azərbaycanın dövlətçiliyinin, sosial həmrəyliyinin və siyasi gücünün təməlində dayanır. Xüsusilə, 2020-ci ilin Vətən müharibəsində Azərbaycan xalqı və dövləti güclü milli birlik nümayiş etdirərək tarixi zəfərə nail oldu.*

*Zəfər Günü xalqımızın azadlıq və ədalət uğrunda birliyinin təntənəsidir. 44 günlük müharibə zamanı Azərbaycan Ordusu və xalqı həmrəy şəkildə, dövlət rəhbərliyinin müdrik idarəçiliyi altında ərazi bütövlüyünü təmin etdi. Şəhidlərin və qazilərin qəhrəmanlığı bu birliyin ən yüksək nümunəsi oldu.*

*Bu günün mahiyyəti gələcək nəsillərə milli şüur və vətənpərvərlik ruhunu aşılamaqdır. Eyni zamanda, beynəlxalq arenada Azərbaycanın güclənən mövqeyini nümayiş etdirir. Zəfər Günü milli birlik simvolu olaraq həm dövlətimizin gücünü, həm də xalqımızın qürurunu ifadə edir.*

*Nəticə etibarilə, milli birlik Azərbaycanın mövcudluğunun təminatıdır və Zəfər Günü bu birliyin əbədiliyini vurğulayır. Xalqımız bu dəyərləri qorumaq və gələcəyə daşımaq üçün məsuliyyət daşıyır.*

***Açar sözlər:*** *milli birlik, tarix, zəfər, qələbə, milli şüur*

Milli birlik xalqın ortaq dəyərlər, mədəniyyət, tarix və hədəflər ətrafında bir araya gəlməsidir. Bu birlik həmrəylik və gücün təcəssümüdür, dövlətin güclənməsi və cəmiyyətin rifahı üçün əsas şərtdir. Bu anlayışın mahiyyətini dərk etmək üçün onun müxtəlif aspektlərini nəzərdən keçirmək lazımdır. Milli birlik çox vaxt tarixi sınaqlardan keçmiş xalqların təcrübələri ilə formalaşır. Azərbaycanda milli birlik xüsusilə XX əsrin əvvəllərində xalqın müstəqillik uğrunda mübarizəsində, 1990-cı il 20 Yanvar faciəsindən sonra və 44 günlük Vətən müharibəsində daha güclü şəkildə özünü göstərmişdir. Bu tarixi hadisələr milli kimliyin güclənməsinə səbəb olmuşdur. Milli birlik insanların ümumi dəyərlərə – dil, mədəniyyət, din, adət-ənənələr və tarixi yaddaşa əsaslanan mənəvi bağlara sahib olması ilə təmin edilir. Azərbaycanda bu bağları daha da gücləndirən amillər bunlardır:

- Azərbaycan dili: Dövlət dili kimi, xalqın birliyinin simvoludur.
- Multikulturalizm: Azərbaycanın müxtəlif millətlərin və dinlərin birgə yaşadığı bir ölkə kimi bu xüsusiyyəti milli birlik anlayışını zənginləşdirir.
- Mədəniyyət: Musiqi, incəsənət və ədəbiyyat milli şüurun daşıyıcısıdır.

Milli birlik yalnız mədəni və tarixi dəyərlərlə məhdudlaşmır. Xalqın sosial rifahını təmin etmək, bərabər imkanlar yaratmaq və sosial ədaləti qorumaq milli birliyin dayanıqlığını təmin edən amillərdir. Dövlət və cəmiyyət arasında güclü əlaqə milli həmrəyliyi artırır. Siyasi birlik dövlətin vahid idarəetmə strategiyası ilə xalqı ətrafında birləşdirməsini əks etdirir. Azərbaycan xalqı Zəfər Günündə Prezident İlham Əliyevin liderliyi altında xalqın dövlətə etibarını və həmrəyliyini nümayiş etdirmişdir. Azərbaycan xalqının tarix boyu dövlətçilik prinsiplərinə sadiq olması milli birliyi gücləndirir. Xalqın torpaqların azad olunması və ərazi bütövlüyünün bərpası uğrunda mübarizədə

dövlətə dəstək verməsi siyasi birliyin təcəssümüdür. Milli birlik ən güclü şəkildə çətinliklər zamanı özünü göstərir. Fəlakətlər, müharibələr və böhran dövrlərində xalqın öz dövlətinin və bir-birinin yanında olması milli birliyin gücünün ifadəsidir. Xalqımızın maddi və mənəvi resurslarını səfərbər etməsi, bir-birinə dəstək olması bu birliyin canlı nümunəsidir. Vətən müharibəsi dövründə diaspor təşkilatlarının fəallığı milli birliyin sərhədləri aşaraq qlobal müstəviyə keçdiyini göstərdi. Milli birlik xalqın tarixdən dərs alaraq gələcəyə yönəlməsini təmin edir. Zəfər Günü kimi mühüm tarixlər milli şüurun inkişafı və gələcək nəsillərin vətənpərvərlik ruhunda tərbiyəsi üçün əhəmiyyətlidir. Gənclərə milli birlik anlayışını aşılamaq, onları dövlətin gələcəyinə töhfə verən vətəndaşlar kimi yetişdirmək əsas prioritetdir. Keçmişin təcrübələrini qorumaq və gələcək üçün örnək yaratmaq milli birliyin davamlılığını təmin edir. Azərbaycanda milli birliyin əsas simvolları bunlardır:

- Bayraq: Dövlət bayrağı Azərbaycanın müstəqilliyinin və xalqın birliyinin rəmzidir.
- Şəhidlər Xiyabanı: Şəhidlərin xatirəsi milli birliyin müqəddəs təcəssümüdür.
- 8 Noyabr – Zəfər Günü: Milli birlik və iradənin simvolik tarixidir.

Milli birlik, həm xalqın, həm də dövlətin möhkəmliyi üçün təməl prinsipdir. Azərbaycanın Zəfər Günü bu birliyi daha da möhkəmləndirən bir hadisədir. Bu anlayış gələcəyə ümid və milli qürur yaradan ən mühüm faktorlardan biridir.

Zəfər Günü Azərbaycanın tarixi qələbəsi – 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərimizin və milli qürurumuzun rəmzidir. Hər il 8 noyabrda qeyd edilən bu gün xalqımızın və dövlətimizin birliyini təcəssüm etdirir.

2020-ci ilin sentyabr ayında Ermənistanın Azərbaycan torpaqlarına qarşı növbəti hərbi təxribatına cavab olaraq başlayan Vətən müharibəsi, 30 il işğalda qalan torpaqlarımızın azad olunması ilə nəticələndi. Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu və xalq birliyini nümayiş etdirərək böyük zəfərə imza atdı. Hər bir vətəndaş öz gücü ilə müharibədə qələbəyə töhfə verdi – döyüşənlər cəbhədə, digərləri isə iqtisadi, mənəvi və siyasi dəstək göstərərək. Azərbaycan Ordusu peşəkarlığı və modern texnologiyadan istifadə etməsi ilə regionda unikal hərbi model yaratdı. Bu zəfər milli qürurumuzu bərpa etdi, ölkəmizin beynəlxalq nüfuzunu artırdı və Azərbaycanın ərazi bütövlüyünü təmin etdi. Zəfər Günü xalqın milli mənlik şüurunun güclənməsinə xidmət edir. Bu gün təkcə bir tarixi hadisəni deyil, həm də milli birlik və iradənin qalib gəldiyini xatırladır. Vətən müharibəsi dövründə dövlətlə xalqın arasında güclü əlaqələr formalaşdı. Prezident İlham Əliyevin liderliyi və şəffaf idarəetmə modeli cəmiyyətin birliyinə və etibarına səbəb oldu. Zəfər Günü şəhidlərin xatirəsinin yad edilməsi ilə xüsusi önəm qazanır. Onların canı bahasına əldə edilən qələbə hər bir vətəndaş üçün müqəddəs bir əmanətdir. Bu ənənənin davamlı olması üçün təhsil sistemində Zəfər Günü ilə bağlı dərslər, tədbirlər və müzakirələr təşkil edilməlidir. Gənclər bu günün mahiyyətini dərk edərək milli ruhda böyüməlidir. Zəfər Günü gənclərdə vətənə sevgi, qürur və məsuliyyət hissi oyadır. Bu günün keçirilməsi gənc nəslin dövlətinə bağlılığını artırır. Qələbə ilə bağlı filmlər, kitablar və sənədli materiallar hazırlanaraq, milli dəyərlər beynəlxalq arenada təbliğ olunmalıdır. Qələbə ilə Azərbaycan beynəlxalq arenada güclü, öz ərazi bütövlüyünü təmin edən dövlət olaraq nüfuz qazandı. Müharibə nəticəsində ölkənin iqtisadi və siyasi mövqeləri də möhkəmləndi. Azərbaycanın milli birlik modeli və müasir hərbi strategiyası digər ölkələr üçün örnək ola bilər. Həmçinin, Azərbaycanın haqq işi beynəlxalq platformalarda ədalət prinsipini ön plana çıxardı.

Zəfər Günü xalqımızın gücünü və milli iradəsini simvolizə edir. Bu gün milli birliyimizin daimi olaraq güclü saxlanılmasına xidmət etməlidir. Hər bir vətəndaş Zəfər Gününün əhəmiyyətini dərindən dərk edərək milli maraqların qorunmasına töhfə verməlidir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 2 dekabr 2020-ci il // Azərbaycan.-2020.-3 dekabr.- S.1.
2. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər / İlham Əliyev; buraxıl. məsul R.Mehdiyev.- Kitab 106.- Sentyabr 2020-Oktyabr 2020.- Bakı: Azərnəşr, 2021.-392 s.
3. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər / İlham Əliyev; buraxıl. məs. R.Mehdiyev.- Kitab 107 Oktyabr 2020 - Noyabr 2020.- Bakı: Azərnəşr, 2021.-391 s.
4. İnkişaf-məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər / İlham Əliyev; buraxıl. məsul R.Mehdiyev.- Kitab 108 Noyabr 2020 - Dekabr 2020.- Bakı: Azərnəşr, 2021.- 391 s.
5. Qarabağ Azərbaycandır! / Azərb. Resp. baş Prokurorluğu ; hazırl. K.Əliyev; baş red. H.Məmmədov ; red. hey. üzv.: E.Abbasov [və b.].- Bakı: Azərbaycan Respublikasının Baş Prokurorluğu, 2021.- 591 s.
6. Şahinoğlu, E. Dəmir yumruq: [işğal altındakı torpaqlarımızın azadlığı uğrunda şəhid olanların əziz xatirəsinə] / Elxan Şahinoğlu; red. H.Şəfaqət ; üz qabığının tərtibatı R.Qasım.- Bakı: Qanun, 2021.- 279, [16] s.
7. Bayramov, V. 2020-ci il - Azərbaycan tarixinin Zəfər ili / Vaqif Bayramov // Xalq qəzeti.- 2021.-8 yanvar.- S.6.

12. Bayramov, V. "İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir"/ Vaqif Bayramov // Xalq qəzeti.-2021.- 29 iyul

## BÖYÜK ZƏFƏR GÜNÜ

***Sevil Cəfərova***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***ceferovasevil@gmail.com***

***Xülasə:*** *Məqalədə xalqımızın ən şanlı səhifəsi olan 8 noyabr böyük zəfər tariximizdən bəhs olunur. Həmin gün bütün Azərbaycan və bütün türk dünyası sevincə qərq oldu. Xalqımızın 28 illik gözləntiləri, arzu və istəkləri reallığa çevrildi. 8 noyabr xalqımızın tarixinə qızıl hərflərlə yazıldı. Ali Baş Komandanımız, Müzəffər Ordumuz xalqımıza bu böyük qələbənin sevincini yaşatdı.*

***Açar sözlər:*** *Zəfər, Ali Baş komandan, mübarizə, millət, ordu.*

Xalqımızın 30 ildən bəri gözlədiyi xəbəri nəhayət ki, eşitmək bizə nəsib oldu. Uzun illərdi Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev tərəfindən aparılan məqsədyönlü işlər, uzaqgörən siyasət, ordu quruculuğu sahəsində həyata keçirilən tədbirlər öz bəhrəsini verdi.

8 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə - Qələbə Günü kimi qızıl hərflərlə yazıldı. Həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusunun 44 günlük Vətən müharibəsində möhtəşəm

qələbəsi təmin olundu. Ermənistan bütün dünya ictimaiyyəti qarşısında məğlubiyyətini etiraf etməyə məcbur edildi.

Əslində, Azərbaycan xalqı iki gün əvvəl - noyabrın 8-dən qələbəni qeyd etməyə başlamışdı. Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Azərbaycanın tarixi şəhəri, bütün Qafqazın mədəniyyət mərkəzi hesab edilən, öz hərbi-strateji önəmi ilə yanaşı, həm də mənəvi əhəmiyyəti olan Şuşanın şanlı ordumuz tərəfindən azad edildiyini bildirmişdi: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!"

Şuşa 28 il 6 aydan sonra düşmən işğalından qurtuldu. Mədəniyyət beşiyi olan Şuşamızın düşmən tapdağından azad edilməsilə bayram bayrama qarışdı. Bütün Azərbaycan və bütün türk dünyası sevincə qərq oldu. Xalqımızın 28 illik gözləntiləri, arzu və istəkləri reallığa çevrildi. Azərbaycanın mədəniyyət beşiyi, Qarabağın tacı olan qədim Şuşamızın gözü iyirmi səkkiz il idi yollarda qalmışdı. Hər ili bir əsrə bərabər olan bu 28 ildə Şuşa dərdi ürəyimizdə qubar bağlamışdı. Hər gün yüz dəfə Şuşasız ölüb-dirilmişik. Bu əzaba, həsrətə son qoyulacağı günü səbirsizliklə gözləmişik. O gün bu gün imiş, demək ki. Şuşa yenidən əsl sahibinə, Azərbaycanına qovuşdu. Əlbəttə, Azərbaycanın hər qarışı bizə doğmadır, əzizdir, amma Ali Baş Komandanın da dediyi kimi, Şuşanın yeri bir başqadır: "İşğal edilmiş torpaqların hər bir qarışı bizim üçün doğmadır, əzizdir. Mənim üçün hər bir kəndin dəyəri, qiyməti o biri kəndlərlə müqayisədə eynidir, bərabərdir. Amma Şuşanın Azərbaycan xalqının qəlbində xüsusi yeri var. Bu, bizim tarixi şəhərimzdir, qədim mədəniyyət ocağımızdır. Şuşa Azərbaycan xalqına bir çox istedadlı, dahi şəxslər bəxş edib. Əlbəttə ki, Şuşasız bizim işimiz yarımçıq olar".

Bəli, sən mədəniyyətimizin beşiyi, tariximizin kökusən, doğma Şuşa. Təkcə şuşalıların yox, bütün Azərbaycan xalqının baş tacısan. Sən tariximizsən, damarımızda axan qanımız, Vətənimizin alınmaz qalasısan. Şuşanın işğaldan azad edilməsi təkcə strateji və hərbi baxımdan deyil, mədəni, mənəvi və tarixi baxımdan da böyük əhəmiyyət daşıyır. Bu qədim şəhərin xalqımızın qəlbində mənəvi baxımdan xüsusi yeri var. Əbəs yerə Şuşanı "Şərqin konservatoriyası" adlandırmırlar. Şuşa - unikal Azərbaycan musiqisinin beşiyi, şeir-sənət ocağı, açıq səma altında muzey, canlı tarixdir. Şuşa - Pənahəli xanın, İbrahimxəlil xanın, Vaqifin, Xan qızı Natəvanın, Üzeyir Hacıbəyovun, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Bülbülün və daha neçə-neçə yazıçı, sənət adamı, bəstəkar, müğənni, teatr və kino xadiminin vətənidir. Şuşa hər bir azərbaycanlının gen yaddaşının silinməz səhifəsi, ecazkar mədəniyyətimizin parlaq rəmzidir. Şuşanın işğalı milli varlığımıza vurulan sağalmaz, daim inləyən yara idi. Biz bu yaranı sağaltdıq. 8 noyabrı tariximizə qızıl hərflərlə yazdıq. Ali Baş Komandanımız, Müzəffər Ordumuz xalqımıza bu böyük qələbənin sevincini yaşatdı. Düşmən isə bu qələbəmizdən çox sarsıldı, acı məğlubiyyətin təsirindən yəqin ki, uzun illər çıxa bilməyəcək. Ordumuz Şuşanı azad etməklə təkcə hərbi baxımdan deyil, mənəvi-psixoloji baxımdan da düşmənə ağır zərbə vurdu. Şuşanın azad edilməsi Ermənistan cəmiyyətində və ordusunda böyük gərginliyə və xaosa səbəb olub. Çünki alınmaz qala hesab olunan Şuşanın ordumuz tərəfindən qısa müddət ərzində azad edilməsi düşmən ordusunun özgüvənini də məhv etdi. Qədim mədəniyyət və tarixi ocağımızı düşmən tapdağından azad etməklə mədəni irsimizi və dəyərlərimizi riyakar düşməndən geri almış olduq. Müzəffər Ordumuzun Şuşa qələbəsi Azərbaycan Ordusunun gücünü, əzmini, qətiyyət və iradəsini, uğurlu hərbi komandanlıq və idarəetməsini, sahib olduğu bütün maddi və mənəvi üstünlükləri dünyaya bir daha sübut etdi. Düşmən özü də Azərbaycan ordusunun bu qədər tezliklə Şuşaya çatacağını düşünmədiyini etiraf edir. Lakin

Müzəffər Ordumuz böyük qəhrəmanlıq göstərərək düşmənin 30 ildə qurduğu bütün maneələri, istehkamları qısa müddətdə məhv etməyi, Şuşaya çatmağı bacardı. Şuşa Dövlət Bayrağı günü ərəfəsində azad edildi. Müqəddəs bayrağımız öz tarixinin yəqin ki, ən şərəfli gününü yaşadı həmin gün. Çünki o üçrəngli bayrağımız 28 illik fasilədən sonra yenidən Şuşada dalğalandı. Şuşanın azad edilməsi Azərbaycanın möhtəşəm qələbəsidir. Bu, rəşadətli Azərbaycan Ordusunun qələbəsidir. Şuşanın azadlığa qovuşması zati-aliləri İlham Əliyevin tarixi qələbəsidir. Ali Baş Komandanın da dediyi kimi:

"Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

İki gün keçməmiş isə Ali Baş Komandan Müzəffər Ordumuzun Vətən müharibəsində qələbə qazandığımızı, düşməni məğlubiyyətə uğratdığını bəyan etdi. Yenə də bayram bayrama qarışdı. Azərbaycan tarixində, milli yaddaşımızda qızıl hərflərlə həkk olunacaq 8 noyabr yurdumuzun qəhrəmanlıq salnaməsi və şanlı qalibiyyəti kimi tarixə düşdü. Otuz illik həsrətə son qoyan bu əzəmətli Qələbə düşmən işğalında olan əzəli torpaqlarımızın azad edilməsi və ərazi bütövlüyümüzün təmin edilməsi deməkdir. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə şanlı Azərbaycan Ordusu 28 ilin hər gününün qisasını aldı! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində dövlətimizin başçısı bütün diplomatik təzyiqlərə də sinə gələrək, mürəkkəb məsələlərin öhdəsindən uğurla, ləyaqətlə gəlməyi bacardı. Azərbaycan bütün dünyaya həm döyüş, həm də diplomatiya meydanında münaqişənin hərb yolu ilə həllinin mümkünlüyünü sübut etdi. Döyüş meydanında Azərbaycan əsgərlərinin qazandığı zəfər diplomatiya meydanında da uğurlara çevrildi və sonda danışıqların şərtlərini Azərbaycan tərəfi diktə etdi. 44 gün davam edən Vətən müharibəsi dövründə dünyanın 10-dan artıq nüfuzlu televiziya kanalına və informasiya agentliklərinə müsahibə verən Prezident İlham Əliyev Azərbaycana qarşı irəli sürülən bütün yalan informasiyaları ifşa etdi. Ölkə rəhbərimiz öz qətiyyətli siyasəti ilə nəinki cəbhədə, hətta informasiya sahəsində də ən məşhur xarici jurnalistlərin suallarını tutarlı tarixi faktlarla cavablandıraraq bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır!

Azərbaycan xalqının öz ərazi bütövlüyünü bərpa etdiyi, torpaqlarını işğaldan azad etdiyi bir dönəmdə bəzi dünya dövlətləri yenə də öz məkrli siyasətlərindən əl çəkmir, "Qarabağ ermənilərinin öz müqəddəratını təyin etməsi" məsələsini bir problem kimi ortaya atırdılar. Qarabağda yaşayan azərbaycanlılara qarşı silahlı təcavüzə haqq qazandırmağa çalışanlar guya bu torpaqların əzəldən ermənilərə "məxsus olduğu" yalanını ortaya atırdılar. Əlbəttə ki, tarixi faktlar isə bunun tam əksini söyləyir. Təkcə İbrahim xanla Rusiya İmperiyasının 1805-ci il mayın 14-də imzaladıqları Kürəkçay müqaviləsini xatırlamaq kifayətdir ki, Azərbaycan torpaqlarının işğal edildiyini, ermənilərin isə bura Türkiyə və İrandan köçürülərək gətirildiklərini bütün dünyaya isbatlamış olasan. Bu sənəddən aydın görünür ki, Qarabağ bütün dövrlərdə Azərbaycan türklərinin torpağı olmuşdur. Dövlətimizin başçısı cənab İlham Əliyev oktyabrın 26-da xalqa müraciəti zamanı bir daha tarixi həqiqətləri diqqətə çatdırmış, vaxtilə Qarabağ xanı ilə Rusiya çarı arasında imzalanmış "Kürəkçay" müqaviləsində erməni xalqı haqqında bir kəlmənin belə olmadığını xatırlatmışdır: "Mən deyəndə ki, biz tarixi ədaləti bərpa edirik, tam haqlıyam. Mən Münxen təhlükəsizlik konfransında bütün dünyaya və bu, canlı formatda aparılmış diskussiya əsnasında sübut edə bilmişəm ki, bu, bizim tarixi torpağımızdır. XIX əsrin əvvəllərində Kürəkçay sülh anlaşması haqqında məlumat vermişdim. Dünyada bu anlaşma haqqında, ümumiyyətlə, geniş ictimai fikirdə heç bir məlumat yox idi.

Əfsuslar olsun ki, hətta Azərbaycanda bu müqavilə haqqında geniş məlumat yox idi. Kürəkçay sülh müqaviləsini Qarabağ və Şuşa xanı İbrahimxəlil xan imzalamışdır, digər tərəfdən Çar Rusiyasının generalı imzalamışdır. O müqavilə internetdə var, hər kəs baxa bilər. Əminəm ki, mənim bu sözlərimdən sonra indiki döyüş meydanında vəziyyəti maraqla izləyən geniş beynəlxalq auditoriya gedib bu saytlara girəcək, baxacaq görəcək ki, o müqavilədə erməni xalqı haqqında bir kəlmə də yoxdur. Çünki erməni xalqı o vaxt orada yox idi. Erməni xalqı Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra bizim dədə-baba torpaqlarımıza gətirildi. Məqsədyönlü şəkildə gətirildi və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildi, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi".

44 gün davam edən haqq mübarizəsi sayəsində bütün dünya gördü ki, Azərbaycan bir yumruq kimi birdir. İnanırıq ki, tarixin bu keşməkeşli sınağından üzüağ, alnıaçıq, şərəflə və qürurla çıxan Azərbaycan qələbəmizin rəmzinə çevrilən dəyərlərimizi daha da möhkəmləndirəcək və dünyanın formalaşmaqda olan yeni strateji mənəzərəsində öz mövqeyini daha da gücləndirəcək.

**İstifadə olunmuş ədəbiyyat:**

1. "Mədəniyyət jurnalı", Sentyabr-Oktyabr-2020.
2. https://mdi.gov.az
3. https://copat.gov.az › news › 8-noya..
4. http://anl.az › down › zefer.gunu

## 8 NOYABR VƏTƏN MÜHARİBƏSİNİN ƏN ŞƏRƏFLİ SƏHİFƏSİDİR

***Ülviyyə Quliyeva***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***Sahibə Nəsirova***
***"Kompüter mərkəzi"nin müdiri***
***sahibanasirova1963@mail.ru***

***Xülasə:*** *Tezisdə göstərilir ki, Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur. Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından azad edilməsi müharibənin taleyində həlledici rol oynamış, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnməsinə səbəb olmuşdur.*

***Açar sözlər:*** *44 günlük Vətən müharibəsi, Zəfər Günü, qalib xalq, Şuşa*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsindəki şanlı qələbəsindən dörd il ötür. Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qələbəsi şərəfinə təsis edilmiş Zəfər Günü hər il noyabrın 8-də qeyd edilir. Azərbaycan xalqının və dövlətinin qüdrətinin rəmzinə çevrilmiş bu möhtəşəm Zəfərin tarixi əhəmiyyəti bir əsrin hüdudlarına sığmır. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyulması, dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi ilə

birlikdə, son iki yüz ilə yaxın dövrdə Azərbaycan xalqına çoxsaylı milli fəlakətlər gətirən erməni şovinizminə və ekspansionizminə sarsıdıcı zərbə endirilmiş və xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələ həll edilmişdir. Ölkəmizin işğal altında olan əraziləri işğaldan azad edilmişdir. Vətən müharibəsinin ən şərəfli səhifələrindən biri noyabr ayının 8-də Qarabağın incisi və tacı, Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşanın əsarətdən xilas edildiyi gün olmuşdur.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən işğalından azad edilməsi müharibənin taleyində həlledici rol oynamış, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələnmişdir.

Azərbaycan Silahlı Qüvvələri qarşısında duruş gətirə bilməyəcəyini, məhvə məhkum olduğunu anlayan Ermənistan məğlubiyyətini etiraf etmişdir. Azərbaycan Silahlı Qüvvələrinin əldə etdiyi hərbi Zəfər siyasi müstəvidə qazanılan qələbə ilə tamamlanmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanat 30 ildən artıq davam edən münaqişəyə son qoymuşdur.

8 Noyabr Zəfəri müzəffər Ali Baş Komandanın yenilməz iradəsinin və böyük sərkərdəlik məharətinin, Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzminin, rəşadətinin, yüksək hərbi-texniki, mənəvi-psixoloji hazırlığının və peşəkarlığının təntənəsi olmuşdur. Azərbaycanın əzəli tarixi torpağı olan Qarabağın və Şərqi Zəngəzurun işğaldan azad edilməsi xalqımızı uzun illər davam edən məğlubiyyət acısından qurtarmış və onu qalib xalqa çevirmişdir. Qüdrətli Azərbaycan yerləşdiyi bölgənin siyasi, iqtisadi, hərbi, humanitar mənzərəsini dəyişməyə qadir olduğunu, bundan sonra heç kəsin onunla güc və təzyiq dili ilə danışa bilməyəcəyini qətiyyətlə nümayiş etdirmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Vətən uğrunda canlarından keçmiş şəhidlərimizə Allahdan rəhmət diləyir, qazilərimizə can sağlığı arzulayırıq!

Zəfər Günü Azərbaycanın müasir tarixinə qızıl hərflərlə yazılmışdır.

Zəfərin mübarək, Azərbaycan!

Yaşasın Müzəffər Ali Baş Komandan!

Var olsun Rəşadətli Azərbaycan Ordusu!

Qarabağ Azərbaycandır!

**İstifadə olunmuş ədəbiyyat:**

1. “Mədəniyyət jurnalı”, Sentyabr-Oktyabr-2020.
2. https://mdi.gov.az
3. https://copat.gov.az › news › 8-noya..
4. http://anl.az › down › zefer.gunu

# ZƏFƏR GÜNÜ AZƏRBAYCANIN QAN YADDAŞIDIR

***Baxış Ələsgərov, dosent***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının müdiri***
***elesgerov.adpu@mail.ru***

***Xülasə:*** *Məqalədə Azərbaycanın 44 günlük zəfər savaşından geniş bəhs edilir. Rəşadətli Azərbaycan ordusunun torpaqlarımızın azadlığı uğrunda apardığı ölüm-dirim savaşının geniş şərhi verilmişdir.*

***Açar sözlər:*** *Zəfər günü, Müzəffər Ali Baş komandan, tarixi zəfər, Azərbaycan ordusu, Azərbaycan xalqı*

8 Noyabr - Zəfər Günü xalqımızın qürur mənbəyinə çevrilmiş şanlı tarixdir. Həmin tarixin üç qəhrəmanı var: Müzəffər Ali Baş Komandan, onun formalaşdırdığı yenilməz ordu və "dəmir yumruğ"a çevrilmiş xalq. Bu reallıqda Prezident+Ordu+Xalq sözləri sinonimləşmiş, tarixi Zəfərin simvollarına çevrilmişdir.

Bu tarixi zəfəri ilə Prezident İlham Əliyev öz adını müzəffər sərkərdə olaraq təkcə mənsub olduğu ölkənin deyil, əslində, dünyanın hərb tarixinə əbədi olaraq həkk etdi. Bu tarixi qalibiyyətin nəticəsində ordumuzun yenilməzliyi, qüdrəti və vətənpərvərliyi sözdə deyil, döyüş meydanlarında sübuta yetirildi. Xalq olaraq qəddimiz düz, başımız uca oldu. Qürurumuz özümüzə qaytarıldı, alnımızdan xəcalət təri birdəfəlik silindi. Birləşdik və bütövləşdik. Ən qatı əleyhdarlarımız belə bu həqiqəti etiraf etmək məcburiyyətində qaldılar. [1]

Tarixi zəfər nəticəsində təkcə ərazi bütövlüyümüz və suverenliyimiz təmin olunmadı, həm də erməni faşizminə ölümcül zərbə endirildi. Ermənistanın və dünya ermənilərinin son 30 il ərzində sitayiş etdikləri "miatsum" ideologiyası - İrəvan və Qarabağ ermənilərini vahid dövlət tərkibində görməyi hədəfləyən, bu prosesdə qonşu Gürcüstan ərazisinə də ilhaq zonası kimi yanaşan irticaçı ideya iflasa uğradı. Ermənistan dövləti və xalqı milli ideologiyadan məhrum olmuşdur. O, tarixin zibilliyinə atılmışdır. Eyni məkanda "Ermənistan-diaspor-artsax" ideoloji triadası da yer almışdır. 2020-ci il noyabrın 8-də qədim Azərbaycan şəhəri, Qarabağın incisi Şuşanın müasir hərb elminin ən nadir və unikal əməliyyatlarından birinin həyata keçirilməsi nəticəsində azad olunması düşmənin müqavimət potensialını heçə endirdi. Nəticədə noyabrın 10-da prezidentlər İlham Əliyev, Vladimir Putin və baş nazir Nikol Paşinyanın imzaladığı üçtərəfli Bəyanat regionda uzunmüddətli münaqişənin hərbi fazasını başa çatdırdı və faktiki olaraq işğalçı Ermənistan dövlətinin kapitulyasiya aktı oldu. Noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu bir güllə belə atılmadan, bir nəfər şəhid belə vermədən işğaldan azad olundu. Ordumuzun əldə etdiyi tarixi zəfər heç bir halda təsadüfi olmayıb, Prezident İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən inkişaf doktrinasının, o cümlədən hərbi quruculuq siyasətinin məntiqi nəticəsi kimi qiymətləndirilməlidir. Təsadüfi deyil ki, Qərb mətbu orqanlarında Azərbaycan Ordusunun hərbi taktikası çox yüksək qiymətləndirilir. ABŞ Hərbi Akademiyası və Pentaqonun rəsmiləri Azərbaycan Ordusunun hərbi əməliyyatlarının öyrənilməsi zərurətini qeyd edirlər. Bu tarxi zəfərin digər mühüm nəticələri də var. "Müasir dünyada hüququn gücü deyil, gücün hüququ işləyir və "güclüsənsə haqlısan" məntiqi hökm sürür" deyən Prezident İlham Əliyev böyük

uzaqgörənlik nümayiş etdirərək ordu quruculuğu məsələlərini prioritet sahə kimi müəyyən etmiş və bu istiqamətdə möhtəşəm addımların atılmasını təmin etmişdir. Dövlətimizin başçısı vaxtilə böyük uzaqgörənliklə vurğulamışdır: "Əminəm ki, Azərbaycan gücləndikcə ordumuz da güclənəcək və ordumuz istənilən vəzifəni həll etməyə hazırdır, buna qadirdir. Azərbaycan Ordusu nəinki bölgədə, həm hərbi potensialına, həm döyüş qabiliyyətinə, həm də təchizatına görə dünya miqyasında güclü ordular sırasındadır. Düşmən bilməlidir ki, biz istənilən anda məsələni hərbi yolla həll edə bilərik". Təsadüfi deyil ki, ölkəmizin büdcə zərfində müdafiə xərcləri hər zaman üstün mövqeyə malik olmuşdur. Əgər 2003-cü ildə Azərbaycanın hərbi büdcəsi 135 milyon dollara bərabər idisə, Vətən müharibəsinin başladığı 2020-ci ildə bu göstərici 1,9 milyard dollar təşkil etmişdir. Ölkəmizdə qısa zaman ərzində 20-dən artıq hərbi zavodun işə salınması və müasir hərbi-sənaye kompleksinin formalaşması tarixi nailiyyət hesab olunmalıdır. 5-ci nəsil silahların dünyanın aparıcı silah ixracatçılarından alınması və bu sahədə də uğurlu şaxələndirmə siyasətinin tətbiq edilməsi ölkəmizə təkcə hərbi deyil, həm də siyasi dividendlər gətirmişdir. Ordumuzda döyüş ruhu və hərbi-vətənpərvərlik hissinin ən yüksək səviyyəsi təmin edilmişdir. Ordumuz Vətən qarşısında xilaskarlıq missiyasını həyata keçirdiyindən intəhasız motivasiyaya malik olduğu halda, düşmən ordusu öz işğalçı mahiyyəti səbəbindən bütün bunlardan məhrumdur. "Yenilməz" erməni ordusunun gücü isə yalnız əliyalın dinc insanlara çatır. Müharibə dövründə Ermənistan hakimiyyəti növbəti hərbi cinayətlərə imza atmışdır.

Onu da qeyd edək ki, 2021-2023-cü illərdə dövlət büdcəsindən işğaldan azad olunmuş ərazilərin bərpası və yenidənqurulması işlərinə 7 milyard ABŞ dolları vəsait xərclənmişdir. 2024-cü ilin dövlət büdcəsində eyni məqsəd üçün ən azı 2,4 milyard ABŞ dolları həcmində vəsaitin ayrılması nəzərdə tutulur. Böyük qayıdış proqramı uğurla icra edilir. Artıq keçmiş məcburi köçkünlərin, bu torpaqların əsl sahiblərinin Laçın və Füzuli şəhərlərinə və üç kəndə qayıdışı təmin edilmişdir. 2026-cı ilin sonunadək Qarabağa və Şərqi Zəngəzura 140 mindən artıq insanın geri dönməsi nəzərdə tutulur.

Beləliklə, Azərbaycan 30 illik münaqişəni hərbi-siyasi yollarla həll etdi, ərazi bütövlüyünü və tarixi ədaləti bərpa etdi. Türkiyə kimi güclü qardaş dövlətin Vətən müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycanın yanında olduğunu bəyan etməsi, ölkəmizə böyük mənəvi və siyasi dəstək göstərməsi üçüncü dövlətlərin hərbi avantürasının qarşısının alınmasında müstəsna rol oynadı. Ermənistanın siyasi-hərbi rəhbərliyinin Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını müharibəyə cəlb etmək niyyəti fiaskoya uğradı.

Zəfər paradında çıxış edən Prezident İlham Əliyev tarixin sınağından şərəflə çıxmış Azərbaycan-Türkiyə birliyinə və qardaşlığına diqqəti cəlb edərək vurğuladı ki, "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür".

2021-ci il iyunun 15-də iki qardaş dövlətin prezidentlərinin Azərbaycanın mədəniyyət paytaxtı Şuşada imzaladıqları bəyannamə ilə ikitərəfli münasibətlərimiz strateji müttəfiqlik səviyyəsinə yüksəldi. Azərbaycan və Türkiyə dövlətləri hərbi müttəfiqə çevrildilər.

Xüsusi olaraq onu da qeyd edək ki, Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı, ölkəmizin Birinci vitse-prezidenti mərhəmətli Mehriban xanım Əliyeva 44 günlük Vətən müharibəsinin çətin

və şərəfli günlərində torpaq uğrunda canını fəda etmiş şəhidlərlə bağlı rəsmi "İnstaqram" səhifəsində çoxsaylı paylaşımlar edərək, onların şücaətini əsl qəhrəmanlıq, rəşadət və qorxmazlıq nümunəsi kimi qiymətləndirmişdir. "Bu gün mən şəhidlərimizin ailələri ilə birlikdə kədərlənir, Vətən naminə canından keçməyə hazır olan oğullar tərbiyə etmiş valideynlərin qarşısında baş əyirəm. Şəhidlərimizin qanı nahaq yerə tökülmədi - biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu! Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq! Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq", - deyən ölkəmizin birinci xanımı Mehriban Əliyeva şəhidlərimizin əziz xatirəsinin hər zaman qəlbimizdə yaşayacağını vurğulamışdır.

Hörmətli Mehriban xanım Əliyeva Prezident İlham Əliyev ilə birlikdə işğaldan azad olunmuş müqəddəs torpaqlarımıza davamlı səfərlər edərək Ali Baş Komandanın erməni vəhşiliyi və barbarlığını ifşa edən fikirlərini çəkdiyi unikal videokadrlarla zənginləşdirmiş və tamamlamışdır. Bir çox halda bu kadrlar ilkin mənbə rolunu oynamaqla erməni faşizminin eybəcər simasını dünya ictimaiyyətinə tanıtmaq baxımından misilsiz əhəmiyyətə malikdir.

44 günlük müharibədən sonra Ermənistanın siyasi-hərbi rəhbərliyi və onun himayəsi altındakı Qarabağdakı separatçı rejimin tör-töküntüləri məğlubiyyətlərindən lazımi nəticə çıxara bilmədilər. [2]

Bu şəraitdə Azərbaycanın antiterror tədbirləri keçirməkdən və öz suverenliyini tam bərpa etməkdən başqa seçim yolu qalmadı. 2023-cü il sentyabrın 19-20-də bir sutkadan da az davam edən antiterror tədbirləri nəticəsində Ermənistanın Qarabağdakı ordusu tamamilə tərk-silah edildi, 10-15 min nəfərlik separatçı kontingent silahsızlaşdırıldı və ərazimizin üzərində tam nəzarət bərpa olundu.

Uzun illər ərzində ilmə-ilmə işlənən, müxtəlif dövrlərdə Cənubi Qafqazla bağı planları olan qüvvələrin dəstəyi ilə reallaşdırılmağa çalışılan "böyük Ermənistan" planı Azərbaycan liderinin uzaqgörən siyasəti, qətiyyəti və iradəsi sayəsində süquta uğradı, darmadağın edildi. Erməni "miatsum"u, "ikinci erməni dövləti" xəyalları birdəfəlik məhv edildi.

Qarabağda Azərbaycan xalqının qanını tökmüş, Xocalıda soyqırımı törətmiş hərbi canilər artıq əli qandallı Bakıya gətirilmiş, onlara qarşı istintaq hərəkətlərinə başlanılmışdır. İnsanlıq əleyhinə ağır cinayətlər törətmiş bu müharibə canilərinə qarşı sərt və ədalətli cəzanın tətbiq olunacağı labüddür.

Müharibəni udan Ali Baş Komandanın sülhü qazanacağı da sırf zaman məsələsidir. Bu, aksiomdur. İsbata ehtiyacı yoxdur.

Yaşasın Xilaskar Ali Baş Komandanımız! Yaşasın Müzəffər Ordumuz! Yaşasın Qalib Xalqımız.

**İstifadə olunmuş ədəbiyyat:**

1. B. Ələsgərov Zəfər günü tarixi. qələbəmizdir.
2. Gəncəbasar qəzeti. №5. 2001.
3. Mərhəmət jurnalı. №3. 1991.

# TARİXİMİZƏ QIZIL HƏRFLƏRLƏ YAZILAN GÜN – 8 NOYABR

***Səbinə Zeynalova***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***zsebine02@gmail.com***
***Sevil Zeynalova***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***zeynalova.s1971@gmail.com***

***Xülasə:*** *Tezisdə Ordumuzun erməni silahlı qüvvələrinin hücumlarına cavab olaraq başladığı Vətən müharibəsinin xalqımızın 30 illik həsrətinə 44 gündə son qoyması, Azərbaycan torpaqlarının qarış-qarış, kənd-kənd işğaldan azad edilməsi öz əksini tapmışdır.*

*Qarabağ Zəfərinə aparan yolun başlanğıcının Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulması qeyd olunmuşdur.*

*Xalqımızın lideri ətrafında yumruq kimi birləşməsi, görünməmiş milli həmrəylik nümayiş etdirməsi tarixi qələbənin təmin edilməsində mühüm rol oynadı. Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin həm siyasət, həm də döyüş meydanında apardığı siyasətin Böyük Qələbə ilə nəticələnməsi xüsusi olaraq vurğulanmışdır.*

***Açar sözlər:*** *Müzəffər Ali Baş Komandan, Vətən müharibəsi, Böyük Qələbə, 8 noyabr, Zəfər günü.*

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir.

Ordumuzun erməni silahlı qüvvələrinin hücumlarına cavab olaraq başladığı Vətən müharibəsi xalqımızın 30 illik həsrətinə 44 gündə son qoydu. Vətənpərvər oğullarımızın erməni təcavüzünü qəhrəmancasına dəf etməsi və əks-hücuma keçərək düşmənə sarsıdıcı zərbələr endirməsi xalqımızın qələbə əzminin nümayişi oldu. Bu günlər ərzində ordumuzun işğalçı erməni ordusuna qarşı apardığı müharibə milli şüurun, xalq və ordu birliyinin təcəssümünə çevrildi.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində rəşadətli Azərbaycan Ordusu tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsi, o cümlədən Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edilmişdir.

44 günlük Vətən müharibəsi dövründə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müntəzəm müraciətlər etdi. Bu müraciətlər Azərbaycan xalqını ayağa qaldırdı, onu yumruq kimi birləşdirdi, müharibənin gedişatına və taleyinə güclü təsir göstərdi. Hər bir müraciət növbəti qələbələrin müqəddiməsinə çevrildi.

Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətindəki mətinlik, qətiyyət onu göstərirdi ki, güclü ordusuna və Azərbaycan xalqına güvənir. Xalq isə hər zaman olduğu kimi, öz

liderinə arxalanır və qələbə müjdəsini səbirsizliklə gözləyirdi ki, bu da çox çəkmədi. Müzəffər Ali Baş Komandanın "dəmir yumruq" əməliyyatını uğurla icra edən Azərbaycan Ordusunun bölmələri cəmi 44 günə düşməni diz çökdürdü və hər döyüşü qəhrəmanlıq dastanına çevrildi. İgid Azərbaycan oğulları şərəfləri ilə ən böyük tariximizi yazdılar, qanları, canları bahasına, heç nədən qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxaraq xalqın 30 illik həsrətinə son qoydular. Tarixi qələbəmizlə başa çatan Vətən müharibəsi və ötən dörd il ərzində işğaldan azad olunmuş ərazilərin bərpası istiqamətində görülən işlər bir daha təsdiq edir ki, Prezident İlham Əliyev Azərbaycan xalqının arzularını reallığa çevirən, onu inamla gələcəyə doğru aparan Liderdir. Cənab İlham Əliyev dövlətimizin tarixinə möhtəşəm Zəfər salnaməsini həkk edən görkəmli dövlət xadimi, müdrik siyasətçidir. [2; Səh.5]

Müzəffər Ali Baş Komandanımız, Prezident İlham Əliyevin həm siyasət, həm də döyüş meydanında diplomatik siyasətinin, şanlı Ordumuzun, igid əsgər və zabitlərimizin qanlarının töküldüyü müqəddəs Qarabağ torpağımızın həsrətinə son qoymuş Böyük Qələbə ilə Azərbaycan xalqı ilk növbədə bütün dünyaya bəyan etdi ki, biz heç zaman bir qarış torpağımızı belə heç kəsə verməyəcəyik.

Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. Uzun illərdən sonra doğma torpaqlarımızda yenidən üçrəngli şanlı bayrağımız ucaldıldı. Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı.

Cənab Prezident uzun onilliklər, hətta əsrlər boyu xalqımızın əsas təhlükəsizlik, siyasi, iqtisadi, sosial, mənəvi problemlərini təşkil edən, dövlətin müqəddəratına təhdid yaradan amilləri zərərsizləşdirdi, xalqımızın pozulmuş haqqını, tarixi ədaləti bərpa etdi. [3; Səh.4]

Qarabağ Zəfərinə aparan yolun başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Sonrakı dövrdə həyata keçirilən kompleks tədbirlər, əzmkar və çoxşaxəli fəaliyyət bizi bu hədəfə addım-addım yaxınlaşdırdı. Prezident cənab İlham Əliyev Ulu Öndərimizin qoyduğu möhkəm təməl üzərində dünyada söz sahibi olan, böyük iqtisadi və hərbi gücə malik qüdrətli Azərbaycan dövləti qurdu. Azərbaycan Ordusu ən müasir silah-sursat və hərbi texnika ilə təmin olundu, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, mənəvi-psixoloji ruhunun yüksəldilməsi üçün bütün zəruri tədbirlər görüldü. Möhtərəm Prezidentin rəhbərliyi və davamlı səyləri ilə güclü hərbi potensial yaradıldı. İldən-ilə artan iqtisadi-hərbi güc və siyasi iradə nəticəsində BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış 4 qətnaməsini Azərbaycan özü icra etdi. Rəşadətli ordumuz, xüsusən Silahlı Qüvvələrin son 20-30 ildə yetişən fədakar, vətənpərvər gənc nəsli bu müqəddəs missiyanın yerinə yetirilməsinə öz töhfəsini verdi. Xalqımızın lideri ətrafında yumruq kimi birləşməsi, görünməmiş milli həmrəylik nümayiş etdirməsi tarixi qələbənin təmin edilməsində mühüm rol oynadı.

Azərbaycan Respublikasının Prezidenti paralel şəkildə diplomatik səngərlərdə davam edən müharibəni də uğurla apardı. Hərbi əməliyyatların gedişində dünyanın müxtəlif qlobal media qurumlarına müsahibələr verərək, onların hətta Ermənistanın mövqeyinə əsaslanan təxribatçı suallarını belə özünəməxsus diplomatik təmkinlə cavablandırdı. Beynəlxalq ictimaiyyətə əsl həqiqətləri çatdıraraq, informasiya savaşında da Azərbaycana üstünlük qazandırdı. Prezident İlham Əliyevin verdiyi müsahibələr, dünyanın müxtəlif ölkələrində keçirilən görüşlər Azərbaycan həqiqətlərinin dünyaya bəyan edilməsində, xarici aləmin məsələ barədə aydın təsəvvürlərə malik olmasında müstəsna rol oynadı. [1; Səh.6]

Azərbaycan tarixi qələbəni 44 gün ərzində əldə etdi. Ali Baş Komandanın, Cənab İlham Əliyevin bildirdiyi kimi, İkinci Qarabağ müharibəsi də bizim gücümüzü göstərdi, müasirliyi

göstərdi: "Çünki biz XXI əsrin müharibəsini aparmışıq və bu gün artıq sirr deyil ki, dünyanın aparıcı hərbi məktəblərində İkinci Qarabağ müharibəsindəki əməliyyatlarımız, bizim uğurlarımız, Qələbəmiz öyrənilir. Dünya mətbuatında artıq dəfələrlə məlumat verilmişdir ki, dünyanın aparıcı ölkələri, o cümlədən Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Almaniya və inkişaf etmiş digər ölkələr İkinci Qarabağ müharibəsinin bütün aspektlərini öyrənirlər. Öz ordularını müasir standartlara, müasir tələblərə uyğunlaşdırmaq istəyirlər. Biz nəinki XXI əsrin müharibəsini nümayiş etdirmişik, biz dünyada heç vaxt olmayan Qələbəni qazanmışıq. Çətin relyef şəraitində düşmənin bir neçə istehkamının qarşısında biz peşəkarlıq, məharət, güc, hərbi elm qoyduq və istədiyimizə nail olduq, düşməni torpaqlarımızdan qovduq". [4; Səh.5]

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Vətən müharibəsində Azərbaycan yalnız Ermənistanı məğlub etmədi. Biz bu savaşda düşmənin arxasında dayanan güclərə, siyasi mərkəzlərə, erməni təəssübkeşlərinə, ümumilikdə götürdükdə dünya erməniliyinə qalib gəldik. Cənab İlham Əliyev dünya erməniliyinə qalib gəlməklə göstərdi ki, heç bir qüvvə Azərbaycanı öz yolundan döndərə bilməz.

Torpaqlarımızın 30 ilə yaxın işğal altında qalmasının da səbəbkarı məhz dünya erməniliyinin ünvanlarına çevrilmiş Qərb siyasi mərkəzləri idi. Hansı ki, onların məqsədi Qarabağda ikinci erməni dövlətinin yaradılması və ya onun zamanla Ermənistana ilhaq edilməsi idi. Bu baxımdan biz həm də erməni təəssübkeşi olan siyasi mərkəzlərə qalib gəldik, onların saxta iddialarını, ATƏT-in Minsk qrupunu tarixin zibilliyinə göndərdik.

Hərbi tədbirlər zamanı və erməni əhalisinin Qarabağı tərk etməsi prosesində mülki şəxslərə qarşı heç bir zorakılıq halı qeydə alınmayıb. Bu fakt BMT-nin üç missiyası, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər beynəlxalq monitorinq mərkəzləri tərəfindən birmənalı olaraq, rəsmən etiraf olunub. [3; Səh.4]

Azərbaycan Respublikası onun təhlükəsizliyinə qarşı yönələn hər bir təzyiq və təsir cəhdini yerindəcə dəf etmək iqtidarındadır. Erməni revanşistləri ilə yanaşı, bölgədə Azərbaycanın müstəqil iradəsini və liderliyini qəbul etməyən bəzi iri dövlətlər ötən illərin təcrübəsindən düzgün nəticə çıxarmalı, nəyin necə və nə vaxt ediləcəyini dəqiq bilən strategiyanın və "Dəmir Yumruğ"-un gücünü heç vaxt unutmamalıdırlar. Bilməlidirlər ki, regionda yaradılacaq hər hansı hərbi qarşıdurma, Azərbaycanın zorən yeni münaqişəyə cəlb edilməsi onun üçün daha ağır nəticələrə səbəb olar.

Böyük Qələbə milli yaddaşın qızıl fondudur. Bu möhtəşəm Qələbə başımızın ucalığı, alnımızın açıqlığı, əbədi qürurumuzdur.

2020-ci ilin 8 noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi yadda qaldı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır. [5]

XXI əsrin müharibəsi kimi dünya hərb salnamələrinə qızıl hərflərlə yazılan şanlı Azərbaycan Ordusunun 44 günlük müharibəsi həm də xalqımızın haqq mübarizəsinə qalxaraq Zəfər çaldığı Vətən müharibəsi kimi tarix səhifələrinə əbədi həkk olundu.

Qələbəmiz Azərbaycan övladlarının vətənsevərlik, qorxmazlıq obrazını yaratdı. Azərbaycan əsgərinin mətanətini, cəsurluğunu əfsanələşdirdi. Azərbaycan ordusunun nüfuzunu bütün dünyada möhkəmlətdi. Bu Zəfər bizim üçün hər zaman müqəddəs olacaq! Zəfərimiz milli yaddaşımızda və tarixin səhifələrində əbədi qalacaq!

**İstifadə olunmuş ədəbiyyat:**

1. İradə Əliyeva "Əsrlərə bərabər 44 gündə yazılan möhtəşəm Zəfər", Azərbaycan. - 2024.- 5 noyabr. - № 244. - S. 6.
2. M. Mirzə "Vətən müharibəsi ordumuzun qalibiyyət və şərəf tarixidir", Respublika. - 2024.- 17 oktyabr. - № 228. - S. 5.
3. Ramil Usubov "Zəfərin reallıqları - polad iradə, güclü dövlətçilik, etibarlı təhlükəsizlik sistemi", Azərbaycan. - 2024.- 5 noyabr. - № 244. - S. 4.
4. Zümrüd Bayramova "44 günlük qəhrəmanlıq savaşımız" Səs.-2024.-26 oktyabr.-№198.- S.5.
5. https://copat.gov.az/az/news/8-noyabr-zafar-gunudur

## ZƏFƏR GÜNÜ ŞANLI TARİXİMİZDİR

***Şəbnəm Abbasova***
***Tədrisin idarə olunması şöbəsinin müdiri***
***abbasova.shabnam@hotmail.com***

***Xülasə:*** *Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.*

***Açar sözlər:*** *44 günlük savaş, zəfər yürüşü, 2-ci Qarabağ müharibəsi, dəmir yumruq əməliyyatı, 44 günlük Qarabağ savaşı*

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir.

27 sentyabr 2020-ci il Azərbaycanın tarixində, qəhrəmanlıq salnaməsində yeni səhifə açdı. Bu səhifə Azərbaycan əsgərinin şücaəti, zəfər yürüşü, Ordumuzun Vətən uğrunda savaşı ilə yazıldı. O gün Ermənistanın növbəti hərbi təxribatı, bütün cəbhəboyu ağır artilleriyadan istifadə etməklə hücuma keçməsi və birbaşa mülki əhalini hədəfə alması nəticəsində Azərbaycan Ordusu Vətən uğrunda ölüm-dirim savaşına qalxdı. O gün Silahlı Qüvvələrimiz bütün dünyanın suveren Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıdığı Qarabağı və ətraf rayonları düşmən işğalından azad etmək üçün müqəddəs döyüşə başladı. Düşmən tapdağında qalan el-obamızı kafir caynağından qurtarmaq, üçrəngli müqəddəs bayrağımızı azad olunmuş yaşayış məntəqələrində asmaq üçün başlayan bu yürüş hamının ürəyindən soraq verdi.

Ali Baş Komandan İlham Əliyevin haqq mübarizəsinə başlamaq əmri xalqın sevincinə, coşqusuna səbəb oldu, qürurla qarşılandı. Elə ilk gündən düşmən üzərində qazandığımız hərbi uğurlar xalqımızın qələbə ovqatını daha da artırdı. Bütün xalq öz rəhbəri ətrafında sıx birləşdi. Minlərlə igid, cəsur oğullarımız mənfur düşmənlə vuruşmaq üçün səfərbərlik şöbələrinə axışdı. Dövlət-xalq, xalq-dövlət bir yerdə oldu, barmaqlar dəmir yumruqda birləşib düşmənin başına endirilən sarsıdıcı zərbəyə çevrildi. Qələbəyə doğru inamla irəliləyən mərd, qorxmaz əsgərlərimiz düşmənin işğal olunmuş torpaqlarımızdakı hərbi hissələrini, istehkamlarını, ön xətt mövqelərini, döyüş texnikalarını, canlı qüvvəsini darmadağın etdi, kəndlərimizi, strateji yüksəklikləri sürətlə düşməndən təmizlədi. Azərbaycan torpaqları qarış-qarış, kənd-kənd işğaldan azad edildi. 44 gün ərzində Cəbrayıl, Qubadlı, Zəngilan, Füzuli rayonlarını, Xocavəndin böyük hissəsini, Laçın rayonunun kəndləri daxil olmaqla 5 şəhər, 4 qəsəbə, 286 kənd, çoxsaylı strateji yüksəkliklər işğaldan azad olundu. Üçrəngli şanlı bayrağımız yenidən doğma torpaqlarımızda ucaldıldı. 8 noyabrda Qarabağın tacı sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edildi. Bu gün Azərbaycan tarixinə Qələbə günü kimi düşdü. 2 gün sonra - 10 noyabr gecəsi Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev doğma xalqını böyük zəfər xəbəri ilə müjdələdi: "Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır". Bəli, o gün 30 illik Dağlıq Qarabağ münaqişəsinə nöqtə qoyulduğu gün oldu. Haqq savaşımız əzmkar oğullarımızın polad iradəsi sayəsində cəmi 44 gün ərzində qələbə ilə başa çatdı, tarixi ədalət zəfər çaldı... Azərbaycan parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi.

Vətən müharibəmiz şanlı Qələbə ilə tariximizin ən parlaq səhifələrinə qızıl hərflərlə həkk olundu. 30 illik yurd həsrətimiz, Qarabağ nisgilimiz sona yetdi, məcburi köçkünlərimiz qəribçilikdən qurtularaq doğma el-obalarına qovuşdular. Bu möhtəşəm qələbəni, hədsiz sevinci, böyük xoşbəxtliyi Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə yazılan 44 günlük Vətən savaşı ərzində əsgərlərimizin hər biri öz şücaəti ilə qəhrəmanlıq dastanı yazdı. Canlarını Vətənə sipər edərək, qanlarını qurban verərək bayrağımızı zirvələrdə dalğalandırmaq naminə bizi zəfərlə müjdələdilər. Dekabrın 10-da isə Azərbaycan xalqı bu igidlərimizin müəyyən hissəsini böyük fəxr, qürur, minnətdarlıq duyğusu ilə seyr etdi. Azadlıq meydanında Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində qazandığı parlaq qələbəyə həsr olunmuş möhtəşəm Zəfər paradında Azərbaycan xalqı ordusu ilə qürur hissi keçirdi.

Bakıda 3 mindən çox şəxsi heyətin və 150-dək hərbi texnikanın, o cümlədən müasir hərbi texnikanın, raket və artilleriya qurğularının, hava hücumundan müdafiə sistemlərinin iştirakı ilə Zəfər paradı Vətənimizin azadlığı uğrunda apardığımız müharibədə qazanılan qələbənin,

Azərbaycan Ordusunun hərbi qüdrətinin növbəti təntənəsi oldu. Zəfər paradı 44 günlük müharibədə Azərbaycan Ordusunun böyük Qələbəsini bütün dünyaya təntənəli şəkildə nümayiş etdirdi. 10 dekabr paradı müzəffər Azərbaycan Ordusunun dünyanın ən güclü ordularından biri olduğunu, Azərbaycanın dəmir yumruğunun qarşısında heç bir gücün, silahın, sursatın dayana bilməyəcəyini göstərdi. Azərbaycan Ordusu Zəfər paradında hərbi gücünü nümayiş etdirərək beynəlxalq aləmə də mesajını çatdırdı - ölkəmizə qarşı istənilən təhdid və hücumların qarşısını ala biləcək qüdrətli Ordumuz, bu Orduya rəhbərlik edən qətiyyətli sərkərdəmiz var. Azərbaycanın necə güclü dövlət, əzmli xalq olması bir daha dünyaya tanıdıldı.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Düşmənin hədəf aldığı Gəncə şəhərinin, Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Goranboy, Tərtər rayonlarının dinc sakinləri əzizlərini, evlərini itirsələr də ən ağır günlərində Vətən uğrunda əzmkarlıq və birlik nümayiş etdiriblər.

Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olun¬ması zamanı hərbi əməliyyatlarda iştirak edərək mərdlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş silahlı qüvvələrin hərbi qulluqçu¬ları müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuşlar. Yeni təsis olunmuş – "Vətən Müharibəsi Qəhrəmanı" adı, "Zəfər", "Qarabağ", "Vətənə xidmətə görə" 1, 2 və 3-cü dərəcəli, "Rəşadət", "Azərbaycan Bayrağı" ordenləri, habelə "Vətən uğrunda", "İgidliyə görə", "Döyüşdə fərqlənməyə görə", "Cəsur döyüşçü", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olun-masına görə", "Suqovuşanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Hərbi xidmətlərə görə" kimi medallar Vətən müharibəsi iştirakçılarına və ya ölümündən sonra onların yaxınlarına təqdim edilmişdir. Bu, Azərbaycanın yeni hərb tarixinin yaranması demək idi. Lakin bütün təltiflərdən, mükafatlardan da ən uca ad elə şəhid adıdır. Şəhidlik məqamına ucalan ölməz oğullarımız dünya var olduqca sevgi və sayğı ilə xatırlanacaq, yad ediləcək, müqəddəs xatirələri qəlbimizdə əbədi yaşayacaq.

Biz böyük Zəfəri qazandıq. Bu, xalqımızın həyatında insanların taleyini dəyişən, tarixini yeni bir səhifədən başlayan bir Zəfər oldu. Əsrlər keçəcək, nəsillər bir-birini əvəz edəcək, qəhrəmanlıqları ilə dastana çevrilmiş Azərbaycan övladlarının Vətən müharibəsindəki şücaəti, əzmkarlığı yaddaşlarda qalacaq. Şəhidlərimizin əziz xatirəsi anılacaq, onların qəhrəmanlıqları, Ali Baş Komandan, Prezident İlham Əliyevin Azərbaycan Ordusu ilə birgə Vətənə bəxş etdiyi tarixi Zəfər əbədi olaraq dünya tarixinə yazılacaq.

**İstifadə olunmuş ədəbiyyat:**


1. De Vaal, Tomas. "Qarabağ Münaqişəsi Dördüncü Onilliyində" (PDF). CEPS. 2021-09-27 tarixində arxivləşdirilib (PDF). İstifadə tarixi: 27 noyabr 2022.
2. Bizim, Yol. "Qarabağın qəlbi necə azad olundu: 300 spartalının əfsanəsi gerçək oldu Şuşada" (az.). 2020-12-24 tarixində arxivləşdirilib. İstifadə tarixi: 22 yanvar 2021.
3. "Prezidentin Mətbuat Xidmətinin məlumatı". president.az (az.). 2020-11-26 tarixində arxivləşdirilib. İstifadə tarixi: 22 yanvar 2021.
4. Azərbaycan Milli Elmlər akademiyası. Mərkəzi Elmi Kitabxana. Qırx dörd günün salnaməsi.

## ZƏFƏR GÜNÜMÜZ – MİLLİ QÜRUR GÜNÜMÜZDÜR

***Bahar Mustafayeva***
***Kitabxana müdiri***
***adpu_kitabxana@mail.ru***

***Xülasə:*** *8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarixdir. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür! Ali Baş Komandan və şanlı Azərbaycan əsgərinin tarixə qızıl hərflərlə yazdığı Zəfər günüdür!*

***Açar sözlər:*** *Ali Baş Komandan, 44 gün, Dəmir yumruq, Zəfər günü, Şuşa*

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən ərazi bütövlüyümüzün bərpası uğrunda Vətən müharibəsi başlandı. Öz havadarlarının köməyinə arxalanan ermənilərin qarış-qarış, oba-oba, el-el mənimsədikləri əzəli və əbədi Azərbaycan torpaqları qısa müddətdə bir-birinin ardınca geri alındı və 44 gün davam edən Vətən müharibəsi, "Dəmir yumruq" əməliyyatı xalqımızın qələbəsi ilə başa çatdı.

2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən haqq işi naminə – ərazi bütövlüyümüzün bərpası uğrunda başlanan Vətən müharibəsinin pik nöqtəsi, misilsiz qələbəsi oldu Şuşanın düşmən caynağından azad edilməsi. 2020-ci il noyabrın 8-də Şuşa şəhəri Azərbaycan Respublikası Silahlı Qüvvələri tərəfindən işğaldan azad edildi. 8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix… Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!. Ali Baş Komandan və şanlı Azərbaycan əsgərinin yazdığı görkəmli tarix, 28 illik həsrəti 44 gün müddətində bitirən müzəffər ordu.

Aparılan əməliyyatlar, qazanılan qələbələr cənab Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin qətiyyətini, sərkərdəlik bacarığını, tarix yazan şanlı Azərbaycan Ordusunun mütəşəkkilliyini, hərbi hazırlığını və döyüş əzmini bütün dünyaya göstərdi. Fərariliyin baş alıb getdiyi Ermənistan ordusundan fərqli olaraq Azərbaycan ordusunun döyüş hazırlığı, hərbi potensialı, vuruşan hər döyüşçünün ruh yüksəkliyi, qələbəyə inamı bizi qələbədən qələbəyə apardı. İgidlərimizin qanından rəng alan, şəhidlərimizin son örtüsü olan milli şərəfimizin, ləyaqətimizin simvolu, müqəddəs Azərbaycan bayrağı zəfərlərə yelkən açdı Qarabağ səmasında… Və nəhayət Zəfər bayrağına dönüb Şuşamızda bütün gözəlliyilə, əzəmətilə dalğalandı.

Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan bu möhtəşəm qələbə münasibətilə Prezident, Ali Baş Komandan İlham Əliyev, 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciət edərək öz hisslərini belə ifadə edib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan bu möhtəşəm qələbə münasibətilə Prezident, Ali Baş Komandan İlham Əliyev, 2020-ci il noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciət edərək öz hisslərini belə ifadə edib: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm.

İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan

tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox….Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir".

Ölkə başçısının milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi qələbənin əbədiləşdirilməsi məqsədilə imzaladığı 2020-ci il 3 dekabr tarixli Sərancamı ilə hər il noyabrın 8-i tarixinin Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır.

Bu gün döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedən Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən qüdrətli ordusu sayılır. Bu ordu Ümummilli Lider Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşaraq qüvvətlənmiş, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz xalqına böyük Qələbəni bəxş etmiş müzəffər Orduya çevrilmişdir. Yeri gəlmişkən, qeyd edək ki, XXI əsrin müharibəsini aparan Azərbaycanın Silahlı Qüvvələrinin döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir.

Azərbaycan xalqı tarix boyu ədalətsiz müharibələrlə, soyqırımlarla çox üzləşib. Döyüşlərdə sınanıb, itkilər yaşayıb, məğlubiyyətlərdən sarsılıb. Lakin heç zaman öz mübariz ruhunu, döyüş əzmini, qalibiyyətə olan inamını itirməyib.

Bizə azadlığın şirinliyini, qalibiyyət duyğusunu yaşadan, tariximizə qızıl hərflərlə yazılan böyük Zəfərimizdə payı olan Azərbaycan Ordusunun hər fərdinə, müqəddəs vətən yolunda vuruşub canını fəda edən şəhidlərimizə, yaralı qazilərimizə minnətimiz sonsuzdur. Şəhid oğullarımıza allahdan rəhmət, qazilərimizə sonsuz şəfalar diləyirik.

Azad vətənin azad vətəndaşı olmaq qüruru ilə Zəfər günümüz mübarək olsun!

**İstifadə olunmuş ədəbiyyat:**

1. "Prezidentin Mətbuat Xidmətinin məlumatı". president.az (az.). 2020-11-26
2. İnternet materialları.

## AZƏRBAYCANIN BÖYÜK ZƏFƏR GÜNÜ

***Gülnarə Həsənova***
***"Tələbə və məzunlarla iş" şöbəsinin mütəxəssisi***
***Nübar Kərimova***
***"Tələbə və məzunlarla iş" şöbəsinin baş mütəxəssisi***

***Xülasə:*** *Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında, Müzəffər Ordumuz xalqımıza, 8 noyabrı tariximizə qızıl hərflərlə yazıldı və bu böyük qələbənin sevincini yaşadıq. 30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.*

***Açar sözlər:*** *İlham Əliyev, 44 günlük Vətən müharibəsi, Zəfər Günü*

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu Ermənistanın ardıcıl təxribatlarının və yeni işğal planlarının qarşısını almaq, işğal altında olan torpaqlarımızı azad etmək məqsədilə 2020-ci il sentyabrın 27-dən etibarən başladığı zəfər yürüşündə inanılmaz uğurlar əldə etmişdir.

10 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə - Qələbə Günü kimi qızıl hərflərlə yazıldı. Məhz həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusunun 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəsi təmin olundu. Ermənistan bütün dünya ictimaiyyəti qarşısında məğlubiyyətini etiraf etməyə məcbur edildi.

Əslində, Azərbaycan xalqı iki gün əvvəl-noyabrın 8-dən qələbəni qeyd etməyə başlamışdı. Dövlət Bayrağı Günü ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində Şuşanın şanlı ordumuz tərəfindən azad edildiyini bildirmişdi: "Əziz həmvətənlər, əziz bacılar və qardaşlar! Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!". Biz bu yaranı sağaltdıq. 8 noyabrı tariximizə qızıl hərflərlə yazdıq. Ali Baş Komandanımız, Müzəffər Ordumuz xalqımıza bu böyük qələbənin sevincini yaşatdı. Düşmən isə bu qələbəmizdən çox sarsıldı, acı məğlubiyyətin təsirindən yəqin ki, uzun illər çıxa bilməyəcək. Ordumuz Şuşanı azad etməklə təkcə hərbi baxımdan deyil, mənəvi-psixoloji baxımdan da düşmənə ağır zərbə vurdu. Şuşanın azad edilməsi Ermənistan cəmiyyətində və ordusunda böyük gərginliyə və xaosa səbəb olub. Çünki alınmaz qala hesab olunan Şuşanın ordumuz tərəfindən qısa müddət ərzində azad edilməsi düşmən ordusunun özgüvənini də məhv etdi. Qədim mədəniyyət və tarixi ocağımızı düşmən tapdağından azad etməklə mədəni irsimizi və dəyərlərimizi riyakar düşməndən geri almış olduq. Müzəffər Ordumuzun Şuşa qələbəsi Azərbaycan Ordusunun gücünü, əzmini, qətiyyət və iradəsini, uğurlu hərbi komandanlıq və idarəetməsini, sahib olduğu bütün maddi və mənəvi üstünlükləri dünyaya bir daha sübut etdi.

Azərbaycan xalqının öz ərazi bütövlüyünü bərpa etdiyi, torpaqlarını işğaldan azad etdiyi 44 gün davam edən haqq mübarizəsi sayəsində bütün dünya gördü ki, Azərbaycan bir yumruq kimi birdir. İnanırıq ki, tarixin bu keşməkeşli sınağından üzüağ, alnıaçıq, şərəflə və qürurla çıxan Azərbaycan qələbəmizin rəmzinə çevrilən dəyərlərimizi daha da möhkəmləndirəcək və dünyanın formalaşmaqda olan yeni strateji mənzərəsində öz mövqeyini daha da gücləndirəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli Sərəncamı ilə xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilməsi qərara alınmışdır və Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakı şəhərində Vətən müharibəsi memorial kompleksi və Zəfər muzeyinin yaradılması qərara alınmışdır.

30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İnternet materialları.

# 8 NOYABR– QƏHRAMANLIQ ZİRVƏSİNƏ GEDƏN YOL

***Şəhla Məmmədova***
***"Kompüter mərkəzi"nin operatoru***

***Xülasə:*** *Tezisdə vətənpərvərlik hisləri necə yaranır? sualına cavab verilir. Vətənpərvərlik ailədən, məktəbdə isə müəllimdən başlayır. Yəni ailədə hər bir valideyin övladına vətən sevgisi aşılamalıdır. Məktəbdə isə müəllim bu vəzifəni yerinə yetirməlidir.*

*Eyni zamanda tezisdə Mübariz İbrahimov, Çingiz Mustafayev kimi milli qəhrəmanımızın şücaətindən söhbət açılır.*

***Açar sözlər:*** *Vətənpərvər insan, Dədə-Qorqud, Koroğlu, Babək, Cavanşir*

Vətən insanlar üçün bir sığınacaq, göz açdıqları gündən böyüyüb boya-başa çatdıqları bir yurd yeridir. Vətən bizi qoynuna alır, ana kimi bəsləyir. Ona görə də deyirlər: vətən ana kimi müqəddəs, ana kimi əzizdir. Hər bir insan doğulduğu yeri, yurdunu sevməlidir. Vətən bizim üçün yalnız yurd yeri, sığınacaq deyil, həmçinin doğma torpağımız, qorumalı olduğumuz bir qiymətli varlıqdır.

Bəzən insanlar başqa diyara gedir, ora çox xoşuna gəlir, maraqlı yerləri gəzirlər. Ancaq yenə də vətəni üçün darıxırlar. Yenə də hər şeydən üstün vətənini tuturlar. Bayatıda deyildiyi kimi:

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı.
Qürbət cənnət olsa da,
Yenə də vətən yaxşı

Bəs vətənpərvər kimdir? Hər bir insan bunu başqa cür qavrayır. Mənim fikrimcə, vətənpərvər o insandır ki, vətənini sevir, onu qorumaq üçün əlindən gələni edir, canından keçməyə razı olur. Vətənpərvər deyəndə yalnız oğlanları, kişiləri nəzərdə tutmamalıyıq. Qızlar, qadınlar da vətənpərvər ola bilər. Vətənpərvər insan yurdunun pis gününə yanmalı, şad gününə sevinməlidir. Vətəni sevməklə kifayətlənmək olmaz, çalışmalıyıq ki, vətən üçün bacardığımızı edək. Yalnız əsgər getmək, vuruşmaq deyil vətənpərvərlik, biz gənclər oxumalı, elmli, savadlı olmalıyıq, həmçinin dövlətimizin işləri ilə maraqlanmalıyıq. Konstitusiyamızı bilmək, bayrağımızı, gerbimizi, himnimizi bilmək, hörmət etmək, tarixi hadisələrimizi, torpaqlarımızın işğalını, bu haqda məlumatları bilmək və s. Bütün bunlar vətənpərvərlikdir. Yəni vətənpərvərlik yalnız bir şeylə ölçülmür. "xırda kiçik, lakin faydalı iş də vətənə xeyir verər. Mənim fikrimcə, torpaqlarımızın işğalı, müharibə ilə bağlı, erməni cəlladlarının qəddarlığını sübut edən kinofilmlər çəkilməlidir. Bütün insanlar bunlara baxmalıdır. Onların qəlbində vətənə sevgi hissi güclənməli, düşmənə nifrət hissi artmalıdır.

Hələ qədim zamanlardan da xalq yaradıcılığı motivləri, vətənpərvərliklə bağlı atalar sözü, məsəllər, bayatılar nağıllar, dastanlar yaradılmışdır. Bunların özündə də vətənpərvərlik hissı aşılanır. Məsələn: "Dədə-Qorqud", "Koroğlu" dastanlarımızda qəhrəmanlıq motivləri güclüdür. Onlarda Qazan Xan, Qaraca Çoban, Beyrək, Basat, Koroğlu və onun dəlilərinin qəhrəmanlıqları. Düşmənə qarşı mübarizəsi, hətda qadınların belə göstərdiyi reşadət əks olunub ki, bu da bizim üçün, bizdən sonrakı nəsillər üçün örnəkdir, nümunədir.

Vətənpərvərlik ailədən, məktəbdə isə müəllimdən başlayır. Yəni ailədə hər bir valideyin övladına vətən sevgisi aşılamalıdır. Məktəbdə isə müəllim bu vəzifəni yerinə yetirməlidir.

Bilirik ki, ədəbi əsərlər insanlara zövq verməklə yanaşı, insanları kamilləşdirir, tərbiyələndirir. Vətənpərvərlik hissi aşılayır. Məsələn. "Koroğlunu oxuyan hər bir şagird çalışır ki,

xəyal qurur onun kimi igid olsun, vətəni qorusun. Bunlardan elavə, bir çox sənətkarımızın əsərlərində vətən sevgisi, mübarizə ruhu, igidlik, qəhramanlıq güclüdür. Bu baxımdan Xəlil Rza Ulutürkün gözəl əsərləri azadlıq uğrunda mübarizə ruhu aşılaması ilə seçilir. O, Afrika millətlərinin azadlıq uğrunda mübarizə, azadlığa çağırış motivlərini qələmə almaqla yanaşı, bütün xalqları azadlığa çağırır, onlara azadlıq arzulayır: "Afrikanın səsi" əsəridir ki, burada bu mövzuya toxunub.

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram
İstəyirəm qolumdakı zəncirləri qıram, qıram.
Azadlığı istəmirəm bir həb kimi, dərman kimi,
İstəyirəm səma kimi, günəş kimi, cahan kimi

Vətənpərvər kimdir? Vətənpərvər döyüşlərdə sinə gərən, səngərdən-səngərə, cəbhədən-cəbhəyə igidcəsinə vuruşan, qanlarını fəda edən igidlərimiz, şəhidlərimizdir. Biz bu gün o qəhrəmanlarımızı unutmamalıyıq, çünki, onlar ən uca zirvəyə şəhidlik zirvəsinə ucalmışlar. Biz bütün bunları hər yerdə təbliğ etməliyik. Bu gün çəkinmədən vuruşan igidlərimiz vətənimizin, xalqımızın başını uca edir. Mübariz İbrahimov kimi milli qəhrəmanımız neçə erməni quldurunu öldürmüş, qorxmadan vuruşmuş, vətən uğrunda şəhid olmuşdur.

İnsan ömrü keçməkeşli, insan həyatı axarlı-baxarlı, arzu dolu bir dünyadan keçir. Atalar demişkən: hər insanın alın yazısı var, nə yazılıb onu da görəcək....

Belə insanlardan biri də qəhrəmanlığın zirvəsini fəth etmiş, xalqımızın vətənpərvər oğlu, millətinin qeyrətini çəkən, hünər göstərən Milli qəhrəmanımız Çingiz Mustafayevdir.

O, 1960-cı ilin isti bir yay günündə dünyaya göz açmış və Həştərxan vilayətinin Vladimr rayonunda hərbiçi ailəsində boya-başa çatmışdır. Hələ o, körpəliyindən ailəsi ilə birlikdə Bakı şəhərinə köçmüş, orada yaşayıb, müsibətləri bütün Avropa, Amerika və eləcə də başqa ölkələrə öz ssenarisi əsasında səhnələşdirilmiş formada çatdırmışdır. Lakin ona təzyiq göstərənlər olurdu. Amma o, öz köməyini millətindən əsirgəmirdi. Çingiz əsrimizin Babəkləri, Cavanşirləri kimi mərd oğullardan biri idi.

Çəkirdi qəlbində vicdan əzabı,
Köksünə sarıldı ağlar mizrabı.
Kimsəyə verirsən acı şərabı,
Dünyadan doymadı arzu karvanı,
O, ölməzdir! Qəhramanlıq zirvəsidir.

1992-ci ildə ermənilərin qəflətən Xocalıya hücumu zamanı orada olan insanları, qocaları, azyaşlı uşaqları qızları, gəlinləri gözlərinin qarşısında qətlə yetirdilər. Onların iyrənc simalarını Çingiz öz gözləri ilə görüb, lentə almışdır. Onun qəlbi sızlayır, göynəyir, qarın üzərində donmuş körpəni qucağına alıb hönkür-hönkür ağlayan Çingiz xalqından imdad istəyirdi. O, bu əməlləri ilə qəhrəmanlıq salnaməsi yaratdı.

Çingiz Laçın rayonunda erməni təcavüzünə rast gələn əsgərlərə geri qayıtmamağı məsləhət gördü.

Kimlər qıydı söylə sənə Laçınım,
Görən gözüm sızlar qəlbim Xocalım.
Yağı düşmən əlindədir almaz, qızıl yatağım
Ağlar gözü dolu qəlbi Çingizim.

O, öz üzərində işləyən, çalışqan, valideynlərinə sadiq bir övlad olmuşdur. Yasamal rayonunun 167 saylı məktəbində təhsil almış və müəllimlərinin hörmətini qazanmışdır. Məktəbi müvəffəqiyyətlə başa vurmuş və sənədlərini Azərbaycan Tibb İnstitutuna vermiş həmin ildə

məktəbə daxil olmuşdur. Onda həkim olmaq, insanların sağlamlığının keşiyində dayanma fikri çoxdan yaranmışdır. O, təhsil aldığı illərdə oxumaqla yanaşı, institutun içtimai işlərində yaxından iştirak etmişdır. Tələbə Çingizdə fitri istedad, güclü və intellektual səviyyə inkişaf etmişdir. Bir neçə illərdən öncə yaratdığı "Cəngi rəqs ansanblının üzvü olmuşdur. Çingiz nüfuzlu şəxsiyyət kimi xalqımızın adını dünyaya tanıtmışdır. Çingiz Dəvəçi rayonunda həkimlik sənətinə başlamışdır. O, hələ həkim işləyərkən fikri və arzusu jurnalist olmaq idi. Bilik və bacarığına görə tale onu ikinci bir "təhsil ocağı"na yönəltdi. Jurnalist olub, xalqının millətinin işlərinə yaxından kömək etməyə başladı. O, dünyanın bütün ölkələrini gəzmək arzusunda idi. Ancaq bu ona qismət olmadı, onun alın yazısı bu idi: doyüş bölgələrinə getmək, oradakı olan hadisələri, olayları lentə almaq. Bu belə də oldu. 1990-cı llərin ağrılı-acılı günləri Bakı şəhərindən də yan keçmədi. Sovet ordusu məktəbləri, binaları dağıtdı, azyaşlı Larisanı, İlqarı, ümumiyyətlə onlarla insanı qırdı. Şəhər qırmızı qana boyandı. "20 yanvar" faciəsi Çingizi çox sarsıtdı. O, əsgər kimi öz kamerasına sarılıb, baş vermiş həqiqətləri, hadisələri lentə aldı. Onun çəkdiyi kinofilmlər dövlət səviyyəsində şöhrət tapdı.

Çingiz Mustafayev 1991-ci ildə döyüş bölgəsinə üz tutdu. O, istəyirdi ki, Azərbaycanımızın başına gələnləri bir telejurnalist kimi lentə alsın. Lakin o, cəbhədə həlak oldu. 1992-ci ilin iyun ayının 15-i Xocalı rayonunun Naxçıvanik kəndində çəkiliş apararkən aldığı mərmi qəlpəsinin qurbanı olduğu halda Çingiz kamerasını söndürmədi. Yadigar bir övladı qaldı.

Mənim fikrimcə, həm vətəni sevən, həm vətən yolunda canından keçməyə hazır olan oğlanlar və qızlarımız, qadınlar və kişilər hamısı vətənpərvərdir.

Vətəni sevməyən insan olmaz!
Olsa da, o şəxsdə vicdan olmaz!

Bəli, Çingiz vətəni sevirdi, necə ki biz onu sevirik. Ölümündən sonra ona Milli Qəhrəman adı verilmişdir. O yaşayır hər bir kəsin qəlbində. Əsl vətənpərvər gənclərimiz belə igid oğullarla fəxr edib, ibrət götürməlidir. Biz bunu dildə yox, sözdə yox, əməldə göstərməliyik. Azərbaycanın cəsur oğulları həmişə qəhrəmanlıq zirvəsinə gedən yolda ucalır.

Məmməd Arazın gözəl sözləri var:

Vətən mənə oğul desə nə dərdim,
Mamur olub qayasında bitərdim.

Mübariz

Vətən üçün oğul kimi yarandın
Ucaldı göylərə qəhrəman adın.
Çökdün sinəsinə düşmənin yadın,
Zəfər qələbəsini çalan Mübariz!

Səngərləri yara yara qoydun iz,
Ərənlər yetirib bizim nəslimiz.
Qisas hissi ilə vurdu qəlbimiz
Düşmən cəbhəsini yazan Mübariz!

Adın ürəklərdə cəsur yazıldı,
Əlinlə yağıya qəbir qazıldı
Düşmənin sədləri tamam pozuldu,
Doğma yurda sipər olan Mübariz!

Çəkilsin yurdumdan yağılar dedin,
Döyüşə yollandın, geri dönmədin.
Tarixə yazıldı qəhrəman adın
Yaddaşda əbədi qalan Mübariz!

**İstifadə olunmuş ədəbiyyat:**

1. Aribut qəzeti. 2013

## TARİXİ QƏLƏBƏ – ZƏFƏR GÜNÜ

***Gülsanə Bayramzadə***
***"Məktəbəqədər təhsil" ixtisasının MQT2201B qrup tələbəsi***

***Xülasə:*** *Tezisdə 10 noyabrda Müzəffər Azərbaycan Ordusunun cəmi 44 günə hərbi yolla 28 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etməsindən bəhs edilir.*

*Tezisdə həmçinin göstərilir ki, 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla ilə qazanmaq olur. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir.*

***Açar sözlər*****:** *Ali Baş Komandan, 44 gün, Qarabağ, Böyük Qələbə Günü, 8 noyabr 2020-ci il*

Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu real faktordur ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev 17 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi.

"Qarabağ Azərbaycandır!" reallığı 44 gündə mümkünsüzü mümkün etdi.

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 28 il düşmən

torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Şuşa qalasının alınması əməliyyatı isə tamam başqadır. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutatacaq: "Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir".

Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəiyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da "ağ bayraq" qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi.Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan "ağ bayraq" qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı.

30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi!

8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix…

8 noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarix gün. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi.

Ərazi bütövlüyümüz təmin olundu - Heç bir statusdan söhbət gedə bilməz.

Bəyanatda digər önəmli məqam ondan ibrətdir ki, burada Dağlıq Qarabağa hər hansı statusun verilməsindən söhbət getmir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu Azərbaycanın tam və şərsiz qələbəsinin əyani sübutudur. 8 noyabr 2020-ci il Ali Baş Komandan və şanlı Azərbaycan əsgərinin yazdığı görkəmli tarix, 28 illik həsrəti 44 gün müddətində bitirən müzəffər ordu. Bu müddət ərzində millətimiz daim vətən həsrəti, sevgisini ürəyində daşıdı, cənab İlham Əliyevə arxalandı və qələbə qazandı. Liderimiz daim çıxışlarında "Biz Qarabağımıza qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır" deyirdi. O, ulu öndər Heydər Əliyevə və xalqına verdiyi sözləri tutdu. Ata vəsiyyətini yerinə yetirdi. Ordumuza, eləcə də möhkəm iradəli xalqına inanaraq zəfər qazandı. Bu zəfər asan başa gəlmədi. Daim danışıqlara üstünlük verən dövlətimiz, öz hünərini döyüş meydanında da göstərdi. Bu müddət ərzində digər dövlətlər təzyiq göstərməyə, bəzi sanksiyalar tətbiq etməyə çalışsalar da Azərbaycanımızın üstünlüyünü qəbul etməyə məcbur oldular.

“Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, “Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur” - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: “Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!”.

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hisləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. “Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir”,-deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. “Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir.

Bir sözlə, “Qarabağ Azərbaycandır və nida işarəsi”-söyləyən Prezidentimiz hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdi. Noyabrın 8-i xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! 30 ildən sonra Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik.

Qarabağ Azərbaycandır! 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq!

**İstifadə olunmuş ədəbiyyat:**

1. Əlvan Əliyev Siyasət naşıları sevmir. Bakı, 2008
2. “Ədalət qəzeti”. 05 dekabr 1991.
3. “7 gün qəzeti”. 28 mart 1992.
4. İnternet materialları.

# "XARIBÜLBÜL QOXULU" ZƏFƏR BAYRAMI

***Vüsalə Baxışova***
***"Tarix və coğrafiya müəllimliyi" ixtisasının TCM2001B qrup tələbəsi***

***Xülasə:*** *Tezisdə 8 Noyabr 2020-ci il Qarabağa qovuşduğumuz tarixi günün, Böyük Qələbə Gününün, Şanlı tariximizə daxil olan Zəfər gününün, Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə Nida qoyduğu günün sevincindən söhbət açılır. Qazanılan Zəfər möhtəşəm və qürurludur. Bu Zəfər Ali Baş Komandan ətrafında birləşərək "Dəmir yumruq" yaradan xalqın qalibiyyətidir.*

***Açar söz:*** *8 Noyabr 2020-ci il, Müzəffər Ali Baş Komandan, "Dəmir yumruq", Qarabağ Azərbaycandır!*

Əziz və hörmətli konfrans iştirakçılari, hər birinizi xoş gördük. Mən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialinin Tarix-Coğrafiya müəllimliyi ixtisası üzrə TCM2001B qrup tələbəsi Baxışova Vüsalə Lətif qızı

8 Noyabr 2020-ci il Qarabağa qovuşduğumuz tarixi gün. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür! Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə Nida qoyduğu gündür. 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin – Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirərək tarix yazdı. Xalqımızı öz milli hədəflərinə çatdırdı, Azərbaycan dövləti ən yüksək zirvəsinə ucaldı, ən güclü dövrünə yetişdi. Qazanılan Zəfər möhtəşəm və qürurludur. Bu Zəfər Ali Baş Komandan ətrafında birləşərək "Dəmir yumruq" yaradan xalqın qalibiyyətidir. Döyüş meydanında olduğu kimi, diplomatik müstəvidə də Azərbaycanın tarixi qələbəsidir. Bu Zəfər Azərbaycan xalqının misli görünməmiş qəhrəmanlıq salnaməsidir. Bu əlamətdar gün dövlətçilik ənənələri ta qədimlərə söykənən Azərbaycan xalqının birlik, şərəf, məğrurluq, qürur və ədalət bayramıdır, tariximizə qızıl hərflərlə yazılan, dünya hərb elminə dair dərsliklərə düşən, ordumuzun, qüdrətini bütün dünyaya tanıdan böyük hadisədir.

Hədd-hüdudu olmayan fərəh, xoşbəxtlik məhz budur! Ən əsası isə bu bu sevincdən hamıya eyni dərəcədə pay düşməsidir. Bu həmrəyliyimizin, birliyimizin gücünün yaratdığı nəticənin sevincidir. Azərbaycan ordusunun qələbəsi tariximizi böyütdü, qətiyyətimizi artırdı. Bu xalqın hər bir təmsilçisinin kökünü dolduran, bizi birləşdirən qürurlu edən qələbə ruhu ilə yeni bir başlanğıca qədəm qoyduq. Qazandığımız Zəfər xalq olaraq bizi ölkə rəhbərinin ətrafında ali amal uğrunda "Dəmir yumruq" kimi birləşdirdi. Elə-obaya, vətənin torpağına-daşına, suyuna aranına-dağına, sonsuz sevgi və məhəbbətimizi nümayiş etdirdi. Böyük Qələbə torpaq uğrunda gözünü qırpmadan özünü fəda edən igid oğulların qəhrəmanlığı sayəsində əldə olundu. Xalqımızın ölkə rəhbərinə olan sevgisini, inamını, etimadını daimi yaşadan Qələbə oldu.

Zəfər günü Azərbaycan xalqının və dünya azərbaycanlılarının Müzəffər Ali Baş Komandana əbədi minnətdarlıq bayramıdır. İlham Əliyevin rəhbərliyi altında şəhidlərimizin qanı-canı bahasına, qazilərimizin fədakarlığı sayəsində qazandığımız misilsiz qələbə regionda yeni reallıq yaratdı. Azərbaycan" münaqişəsinə hərbi həlli yoxdur" tezisinin yanlış olduğunu sübuta yetirdi. 8 Noyabr 2020-ci il Azərbaycanın gözü, hər bir azərbaycanlı üçün iftixar nöqtəsi, mədəniyyətimizin və tariximizin rəmzi olan Şuşa şəhərinin işğaldan azad edildiyi tarixi gündür.

Vətən müharibəsini qələbə ilə sonlandıran Zəfər günüdür. Qarabağ münaqişəsinə silahlı qüvvələrimizin şücaəti və qəhrəmanlığı ilə nida qoyulduğu bizlərə yüksək fəxarət hədsiz fərəh və qürur hissləri yaşadan əlamətdar gündür. Mədəniyyətimizin ruhumuzun paytaxtı olan Şuşa şəhəri öz sahibinə qovuşdu ayrılığa son qoyuldu. Azərbaycan igidləri dünyanın müharibələr tarixində yeni bir misilsiz hadisəyə çevrilən qəhrəmanlıqları ilə ümidlərimizi, arzularımızı Şuşa xəyallarımızı gerçəkləşdirdilər. Azərbaycan Prezidentinin, qədim yaşayış məskənlərimiz olan Ağdam, Kəlbəcər və Laçın rayonlarını bir güllə atmadan belə diplomatik yolla düşmən tapdağından azad etməsi isə dünya tarixində nadir hallarda rast gəlinən möhtəşəm uğurlardandır. Qurulan təkmil idarəetmə sistemi dövlət başçısı tərəfindən həyata keçirilən düşünülmüş uzaqgörən prinsipal siyasət nəticəsində daxili və xarici diplomatiyada qazandığımız böyük uğurlar bizi addım-addım zəfərə yaxınlaşdırırdı.

Bu qələbə təkcə Ermənistan üzərində deyil, həm də ölkəmizə qarşı qeyri-dost münasibət bəsləyən, bütün vasitələr təzyiqlər göstərməyə çalışan haqsız qüvvələr üzərində zəfərdir. Azərbaycanın şanlı zəfəri Ermənistanın isə acınacıqlı məğlubiyyəti "Dağlıq Qarabağın statusu"nun müəyyən edilməsi məsələnin üstündən birdəfəlik xətt çəkdi, tarixi Azərbaycan torpaqlarında yeni erməni dövlətinin qurulması planlarını darmadağın etdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycan xalqı bütün dünyaya sübut etdi ki, Qarabağ Azərbaycandır! Döyüş meydanında göstərilən əzimkarlıq liderlik iradəsi bu gün azad torpaqlarımızda aparılan quruculuq işləri ilə davam etdirilir. Dövlət başçısının rəhbərliyi ilə düşməndən təmizlənmiş, ərazilərimiz sürətlə yenidən qurulur, dirçəldilir bu torpaqlara həyat gətirilir. Xalqımızın milli-mənəvi irsinin qorunub saxlanılmasında mühüm rol oynayan Heydər Əliyev Fondu quruculuq işlərində yaxından iştirak edir.Vaqifin Şuşadakı məqbərəsinin bərpası, xarı bülbül festivalı, Vaqif poeziya günləri, mədəni irsin bərpası artıq artıq bu torpaqlarda insanlar üçün layiqli həyata, yeni bir başlanğıca doğru işıqlı yol deməkdir. Ölkəmiz indi regionun inkişafında təhlükəsizliyində, sülh içində yaşamasında maraqlı olan hər kəsi inkişafa doğru səsləyir.

Azərbaycanın qazanmış olduğu bu zəfəri bir Azərbaycan vətəndaşı və eyni zamanda Qarabağlı olaraq yaşadığım sevinci 3 bəndlik şeirlə dilə gətirmək istəyirəm.

Soldurub baharını, gətirdik sərt qışını
Axıdıb bu yerlərdə düşmənin göz yaşını
Dəmir yumruqla əzdik onun murdar başını
Bu yol qeyrət, cəsarət, bu yol hünər yoludur
Bu yol Şuşaya gedir, bu yol zəfər yoludur
Ali Baş Komandanım yaşa var ol yüz yaşa.

Saldığın Zəfər yolu tamaşadır, tamaşa
Bu yolu tutmalıyıq başdan-başa qumaşa
Bu yol ata arzusu –bu yol öndər yoludur
Bu yol Şuşaya gedir, bu yol zəfər yoludur.
Otuz illik həsrəti 44 gündə dağıdan
Ey qəhrəman qazilər, sizə hər an can qurban
Bu yolda Şəhidləri unutmadıq bircə an
Bu yol cəsur, qəhrəman, igid əsgər yoludur
Bu yol Şuşaya gedir, bu yol zəfər yoludur.

Xalqımız hər zaman erməni soyqırımı qurbanlarının xatirələrini həmişə əziz tutur, hörmətlə anır, onlara Allahdan rəhmət diləyir, xalqımıza əmin-amanlıq, firvanlıq və müstəqil Azərbaycan dövləti naminə mətanətli mübarizə arzu edirik.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qarabağ Azərbaycandır! Azərb. Resp. baş Prokurorluğu; hazırl. K.Əliyev; baş red. H.Məmmədov; red. hey. üzv.: E.Abbasov [və b.].- Bakı: Azərbaycan Respublikasının Baş Prokurorluğu, 2021.- 591 s.
2. 44 günlük Qarabağ müharibəsi. Beynəlxalq münasibətlərin təhsili mərkəzi. Bakı, 2021.
3. İnternet resursları.

## 8 NOYABR−ŞANLI ZƏFƏR TARİXİMİZ

*Aysun Şıxalıyeva*
*"Sosial iş" ixtisasının Sİ2301B qrup tələbəsi*

***Xülasə:*** *Məqalədə qanlı döyüşlərin başladığı Qarabağ ərazisindən itirilmiş torpaqlarından, xarabazara çevrilmiş qədim yurd yerlərimiz haqqında məlumat verilir. Rəşadətli Azərbaycan ordusu tərəfindən işğalından azad olunmuş torpaqlarımız dədə-baba yurd yerlərimiz haqqında geniş fikir bildirilmişdir.*

***Açar sözlər:*** *Milli qürurumuz; Qarabağ zəfəri, vətən torpağı,Ulu Öndər, Zəfər yürüşü*

2020-ci il noyabrın 8-də Müzəffər Ordumuz Şuşa şəhərini işğaldan azad edərək şanlı tarix yazdı. Qəhrəman əsgər və zabitlərimiz düşməni Qarabağın döyünən qəlbi olan Şuşadan qovub çıxardı. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu möhtəşəm qələbə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə əbədiləşdirildi. Şuşa şəhərinin işğaldan azad edilməsinin tarixi əhəmiyyəti nəzərə alınaraq noyabrın 8-i Zəfər Günü elan edildi. 2021-ci il yanvarın 14-də isə dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Şuşa şəhərində üçrəngli bayrağımızı ucaltdı.

Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Vətən müharibəsinin ilk günlərindən deyirdi ki, Şuşasız bizim işimiz yarımçıq qalar. Müharibənin davam etdiyi 44 gün ərzində rəşadətli ordumuz Şuşaya doğru dayanmadan, inamla irəlilədi. Vaxtilə xəyal kimi görünən bu arzu noyabrın 8-də reallığa çevrildi.

Tanklarla, digər zirehli texnika ilə silahlanan, əlverişli mövqedə yerləşən düşmənin qarşısına yüngül silahlarla çıxmaq yüksək peşəkarlıq, fədakarlıq tələb edirdi. Qəhrəman döyüşçülərimiz sıldırım dağlar-qayalar aşaraq, uzun məsafə qət edərək çox çətin döyüş tapşırığını şərəflə icra etdi. Qarabağ Zəfərinin zirvəsində Şuşa əməliyyatı dayanır. Bu möhtəşəm zəfərin memarı Prezident İlham Əliyev Ata vəsiyyətini yerinə yetirərək Ulu Öndərin başladığı işi sona çatdırdı, bununla da öz adını Azərbaycan tarixinə qüdrətli sərkərdə, Müzəffər Ali Baş Komandan kimi əbədi yazdırdı.

Qarabağ Zəfərinə aparan yolun başlanğıcı Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuşdu. Sonrakı dövrdə həyata keçirilən kompleks tədbirlər, əzmkar və çoxşaxəli fəaliyyət bizi bu hədəfə addım-addım yaxınlaşdırdı. Prezident cənab İlham Əliyev Ulu Öndərimizin qoyduğu möhkəm təməl üzərində dünyada söz sahibi olan, böyük iqtisadi və hərbi gücə malik qüdrətli Azərbaycan dövləti qurdu. Azərbaycan Ordusu ən müasir silah-sursat və hərbi texnika ilə təmin olundu, şəxsi heyətin döyüş qabiliyyətinin artırılması, mənəvi-psixoloji ruhunun yüksəldilməsi üçün bütün zəruri

tədbirlər görüldü. Möhtərəm Prezidentin rəhbərliyi və davamlı səyləri ilə güclü hərbi potensial yaradıldı. İldən-ilə artan iqtisadi-hərbi güc və siyasi iradə nəticəsində BMT Təhlükəsizlik Şurasının 27 il kağız üzərində qalmış 4 qətnaməsini Azərbaycan özü icra etdi. Rəşadətli ordumuz, xüsusən Silahlı Qüvvələrin son 20-30 ildə yetişən fədakar, vətənpərvər gənc nəsli bu müqəddəs missiyanın yerinə yetirilməsinə öz töhfəsini verdi. Xalqımızın lideri ətrafında yumruq kimi birləşməsi, görünməmiş milli həmrəylik nümayiş etdirməsi tarixi qələbənin təmin edilməsində mühüm rol oynadı.

İkinci Qarabağ müharibəsinin hər günü şanlı bir tarix, misli görünməmiş qəhrəmanlıq dastanıdır. 44 gün ərzində döyüşçülərimiz bir addım da geri çəkilmədən yalnız irəli getdi. Düşmən ordusunda on mindən çox fərari olduğu halda, bizim bir əsgərimiz də döyüş meydanından yayınmadı.

Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Şuşanın azad edilməsinin və 8 noyabrın tarixi əhəmiyyətini belə səciyyələndirir: "Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox. Mən dəfələrlə demişəm, bütün bəyanatlara rəğmən ki, bu münaqişənin - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolları da vardır və bu gün biz bunu döyüş meydanında sübut edirik".

Düşmənin "məğlubedilməz ordu" mifini darmadağın edən, döyüş meydanında düşmənə dərs keçən şəhid və qazilərimiz tariximizin şanlı səhifələrinə, xalqın yaddaşına əbədi həkk olunub. Zəfər tariximizin bu parlaq və unudulmaz səhifələrini vərəqlədikcə qürur duyuruq. Gələcək nəsil də bu igid və qəhrəman övladlarımızla fəxr edərək onlardan nümunə götürəcəklər.

Bu Qələbə yalnız Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin deyil, bütün Azərbaycan xalqının Zəfəri idi. 44 günlük müharibədə xalqımız Ordumuzu, dövlətimizin başçısının uğurlu siyasətini fəal şəkildə dəstəklədi. İkinci Qarabağ

Azərbaycan xalqına müraciətində böyük fəxarət və qürur hissi ilə Şuşa şəhərinin işğaldan azad olunduğunu bəyan etdi.

2023-cü il sentyabrın 19-da Zəfər yürüşünün davamı olan antiterror tədbirləri uğurla nəticələndi. Cəmi 23 saat 48 dəqiqə davam edən antiterror tədbirləri Ali Baş Komandanın qətiyyətini, dəmir yumruğun yerində olduğunu, Ordumuzun gücünü bir daha nümayış etdirdi. Düşmən üç il əvvəl olduğu kimi, yenə ağ bayraq qaldıraraq təslim olmağa məcbur edildi. Bununla da Qarabağda terrorçuların və separatçı rejimin mövcudluğu tarixin tozlu səhifələrinə atıldı, suverenliyimiz tam bərpa edildi.

Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbənin üçüncü ildönümü ərəfəsində Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Xankəndi, Xocalı, Xocavənd, Əsgəran və Ağdərədə Dövlət Bayrağımızı ucaltmaqla xalqımıza tükənməz sevinc və qürur yaşatdı.

Biz 30 ilə yaxın ayrılıqdan sonra doğma Şuşaya qayıtdıq. Bu qayıdışımızla Şuşaya yeni ruh, yeni nəfəs gəldi. Azadlığına qovuşmuş qədim şəhər artıq böyük quruculuq, təmir-bərpa işlərinin, möhtəşəm tədbirlərin şahidinə çevrilib. Düşmən tapdağından azad edilmiş Şuşanın yeni inkişaf dövrü başlayıb. Ötən müddətdə Şuşa şəhərində bir sıra mühüm infrastruktur layihələri icra olunub. Bunlardan biri Prezident İlham Əliyevin "Zəfər Yolu" adlandırdığı Şuşaya çəkilən 101 kilometr uzunluğunda olan yoldur.

Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Memarlıq və şəhərsalma sənətinin parlaq incisi olan Şuşa, həmçinin 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilib. Artıq bir çox abidələr bərpa olunub, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün Şuşadakı güllələnmiş büstləri Şuşada yenidən əvvəlki yerlərinə qoyulub. "Xarıbülbül" və "Qarabağ" otelləri yenidənqurmadan sonra istifadəyə verilib, modul tipli xəstəxana fəaliyyətə başlayıb. Zəfər yolunun üzərindəki Şuşa Otel-Konqres Mərkəzi Kompleksi fəaliyyətə başlayıb, Şuşada yaşayış kompleksləri, turizm obyektləri tikilir. Bərpa işlərinin sürəti deməyə əsas verir ki, çox keçmədən Şuşa nəinki Azərbaycanın, eləcə də dünyanın ən gözəl şəhərlərindən biri olacaq.

Ölkə başçısının bu ilin iyulun 31-də imzaladığı müvafiq Sərəncama əsasən, 8 noyabr tarixi ilk dəfədir Şuşa Şəhəri Günü kimi təntənəli şəkildə qeyd olundu. İşğaldan azad edilmiş şəhər günlərinin təsis olunması Vətən müharibəsində qazanılmış tarixi qələbəni əbədiləşdirmək məqsədi daşıyır.

Azərbaycan xalqı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə tarix yazmaqda davam edir. Biz qalib ölkənin qalib vətəndaşları olmağın qürurunu yaşayırıq. Bu şanlı tarix təkcə bizim üçün yox, gələcək nəsillər üçün də qürur mənbəyi olacaq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Həsənbala Sadıqov. Erməni məsələsi. Bakı, 2021.
2. Ədalət qəzeti. 1991.
3.Türküstan qəzeti. 2007.

**BÖLMƏ II**

**"AZƏRBAYCANIN ZƏFƏR SALNAMƏSİ"**

# ZƏFƏR MÜHARİBƏSİ–ZƏFƏR TARİXİMİZ

***Baxış Ələsgərov, dosent***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***elesgerov.adpu@mail.ru***
***Məhəmməd Əzimov***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***

***Xülasə:*** *Məqalədə Azərbaycan ordusunun Qarabağ müharibəsindəki qəhrəmanlıqlarından bəhs edilir. Müharibədə Azərbaycan xalqının əzmi və iradəsi qalib gəldi. Zəfərə aparan qısa yol möhtəşəm oldu 30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü.*
***Açar sözlər:*** *Böyük zəfərimiz,müharibə, Qarabağ,erməni təxribat,Qarabağ Azərbaycandır!*

Azərbaycan Xalqı tarixi Qələbəsini öz müdrik rəhbərinin başçılığı ilə qazandı. Azərbaycanın İkinci Qarabağ, 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsirlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Həmçinin bu qələbə qonşusunun torpağına göz dikən, xalqımızın humanistliyindən, qonaqpərvərliyindən, etimadından, etibarından sui-istifadə edən ermənilərin iç üzünü, əsl simasını dünyaya bir daha göstərdi. Hər kəs gördü ki, ermənilər yalan iddialarla bəşəriyyətə fəlakət və bəla gətirən faşist ideologiyasını utanıb çəkinmədən həyata keçirirlər. Bir daha dünyaya məlum oldu ki, tarix boyu ermənilər azərbaycanlılara və türklərə qarşı amansız olmuş, insanlığa sığmayan terror aktları, dəhşətli soyqırımları törətmişlər. Bu millətin mayası sanki qəddarlıqdan tutulmuşdur. Ağsaqqala, ağbirçəyə, azyaşlı uşaqlara belə rəhm etməyən ermənilərin törətdikləri vandal aktları alman faşizmini də kölgədə qoymuşdur.

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan xalqı torpaqlarımızın işğaldan azad edilməsi, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müddət ərzində Azərbaycan xalqı ilə yanaşı, bütün dünya ermənilərin nə qədər vandal, vəhşi xislətə malik olduqlarının bir daha şahidi oldu. Döyüş meydanında ağır məğlubiyyətlərlə üzləşən Ermənistan ordumuzun hər yeni uğuruna yalnız bir o qədər aciz, azğın və namərd şəkildə reaksiya verirdi. Ermənistan ordusu dəfələrlə döyüş meydanından uzaq olan, hərbi obyektlərin olmadığı və mülki vətəndaşların məskunlaşdığı Azərbaycan torpaqlarını hədəf alaraq raket və mərmilər vasitəsilə kütləvi itkilərə səbəb olan terror aktları törətdi. Üstəlik bu hadisələrin qadağan olunmuş silahlar vasitəsilə həyata keçirilməsi düşmənin azğınlığını iki qat artırırdı.

Yaşanan dəhşətli hadisələr bütün dünyanı sarsıtsa da, xalqımız döyüş ruhunu, birliyini və iradəsini itirməyərək daha da əzmlə və mərdcəsinə Ali Baş Komandanı və ordumuzu dəstəkləməyə

davam etdi. Həyatını itirmiş mülki həmvətənlərimizin qisasını isə rəşadətli ordumuz döyüş meydanında müvəffəqiyyətlə aldı. Müasir texnologiyalara yiyələnən, son nəsil silahlara sahib olan Azərbaycan Ordusu tarixi, əzəli torpaqlarımızı işğaldan azad etmək uğrunda beynəlxalq hüquq çərçivəsində legitim döyüşlər apardı və Böyük Zəfərimizi xalqımızın tarixinə həkk etdi. Azərbaycan sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsini hərbi-siyasi yolla 44 günə bitirdi.

Müzəffər Azərbaycan ordusu qarşısında tab gətirməyərək ağır məğlubiyyətə uğrayan işğalçı Ermənistanla aparılan müharibə ərzində əsgər və zabitlərimizin rəşadəti, şəhidlərimizin qanı ilə düşmənin uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemləri, məğlubedilməzlik mifləri cəsarətlə dağıdılaraq 2020-ci ilin 3 oktyabr tarixində Suqovuşanın azad edilərək tarixi adına qovuşması, 4 oktyabrda Cəbrayıl rayonu, 9 oktyabrda Hadrut qəsəbəsi, 17 oktyabrda Füzuli rayonu, 20 oktyabrda Zəngilan rayonu, 25 oktyabrda Qubadlı rayonu və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilməklə müharbənin taleyi əsasən həll olunmuşdur. Ümumilikdə döyüş əməliyyatları nəticəsində müzəffər Azərbaycan Ordusu tərəfindən 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri hərbi yolla işğaldan azad edilmişdir. Bununla yanaşı düşmənin məğlubiyyəti ilə Moskvada imzalanan tarixi Bəyanata əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatlar tam dayandırılmış, 1 dekabradək Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

Beləliklə dövlətçiliyimizin ən şərəfli səhifəsinə qızıl hərflərlə yazılan bu Zəfərlə Azərbaycan, faşist ideologiyasından bəhrələnən Ermənistanın 30 illik işğalına son qoyaraq, bir güllə atmadan, bir şəhid vermədən belə 2020-ci il noyabrın 20-də Ağdam rayonunu, noyabrın 25-də Kəlbəcər rayonunu dekabrın 1-də isə Laçın rayonunu işğaldan azad edərək dünyada qalib xalq, məğlubedilməz dövlət kimi özünü bir daha təsdiqlədi.

O da qeyd olunmalıdır ki, hər zaman olduğu kimi Vətən müharibəsinin ilk günündən də ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşən laçınlılarda hərbi əməliyyatlarda yaxından iştirak etmişlər. Vətən müharibəsində iştirak edən 263 nəfər laçınlıdan 14 nəfəri hərbi, 4-ü isə mülki şəxs olmaqla 18 nəfəri qəhrəmancasına şəhid olmuş, 74 nəfər isə müxtəlif bədən xəsarətləri almaqla qazı adına layiq görülmüşdür. Həmçinin, İkinci Qarabağ Vətən müharibəsində iştirak etmiş laçınlı döyüşçülərdən hərbi əməliyyatlar zamanı xüsusi sücayət göstərmiş 146 nəfəri ölkə Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə müxtəlif orden və medallarla təltif edilmişdir.

Əlbətdə ölkəmizin bu tarixi nailiyyəti təsadüfi xarakter daşımır və ötən müddət ərzində həm ordu quruculuğu sahəsində, həm diplomatiya cəbhəsində görülən işlərin, eyni zamanda beynəlxalq informasiya müstəvisində Azərbaycan reallıqlarının sistemli və məqsədyönlü şəkildə təbliğinin nəticəsidir. O da xüsusilə vurğulanmalıdır ki, Azərbaycanın bu qürurverici və əzəmətli qələbəsinin müəllifi xalqımızın ulu öndəri Heydər Əliyevin layiqli davamçısı ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevdir. [2]

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı hərb tariximizə daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu

və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə dövlət başçısı cənab İlham Əliyevin qərarı ilə hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd ediləcək.

Bəli 2020-ci ilin 8 noyabr tarixi - Şuşanın işğaldan azad edildiyi gün bütün Azərbaycan xalqı üçün Zəfər günü kimi günü yadda qaldı. 44 günlük Vətən müharibəsi Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, qorxmaz, cəsur əsgərlərimizin canı, müqəddəs, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi hesabına qazandıq...

30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə də misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.

"Qarabağ bizimdir!", "Qarabağ Azərbaycandır!" [2].

**İstifadə olunmuş ədəbiyyat:**

1. B.Ələsgərov. Zəfərə gedən yol Respubilka konfransı.
2.Ə.Sadıqov. Dağlıq Qarabağ münaqişəsi. Bakı, 2001
3.İnternet materialları

## ZƏFƏR TARİXİMİZ

***Vaqif Allahverdiyev, dosent***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***vaqif.allahverdiyev.58@bk.ru***

***Xülasə:*** *Məqalədə 2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatından, 44 gün davam edən Vətən müharibəsinin otuzillik işğala son qoyulmasından və ərazi bütövlüyümüzün bərpasından bəhs olunur.*

*Məqalədə eyni zamanda Vətən müharibəsində qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasından, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin ərazilərə çoxsaylı səfərləri zamanı yeni infrastruktur obyektlərinin təməli qoyulmasından, yeni layihələrə start verilməsindən də söhbət açılır.*

***Açar sözlər:*** *Azərbaycan, Qarabağ, zəfər, torpaq, vətən, müharibə*

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinə cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

Müharibənin birinci günü Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev televiziya ilə xalqa müraciət edərək Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən yaşayış məntəqələrimizi, hərbi mövqelərimizi atəşə tutduğunu, nəticədə mülki əhali və hərbçilərimiz arasında itkilərin, yaralananların olduğunu bəyan etdi. Dövlətimizin başçısı müraciətində Azərbaycan Ordusunun düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və

Ermənistan silahlı qüvvələrinin xeyli sayda hərbi texnikasının və canlı qüvvəsinin məhv edildiyini bildirdi.

Saat 15 radələrində dövlətimizin başçısının sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi və Prezident İlham Əliyev aidiyyəti qurumlara verdiyi göstərişlər əsasında Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını bəyan etdi.

“Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır. Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”, - dövlətimizin başçısının xalqa müraciətində dediyi bu sözlər hər bir azərbaycanlını Şanlı Zəfərə kökləyən əsas şüara çevrildi.

Uğurlu əks-həmlə əməliyyatının ilk saatlarından düşmənin xüsusilə möhkəmləndirilmiş ön müdafiə xəttini yaran Azərbaycan Ordusu günortadan sonra Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz və Qərvənd kəndlərini, Ağdərə rayonunda və Murovdağ silsiləsində mühüm strateji yüksəklikləri azad etdi.

Azərbaycan Prezidentinin sədrliyi ilə keçirilən Təhlükəsizlik Şurasının iclasında dövlətimizin başçısı qətiyyətlə bəyan etdi: “Bizim mübarizəmiz haqq mübarizəsidir və bu gün Azərbaycan vətəndaşları dövlətə tam dəstək göstərirlər, bu dəstəyi biz daim hiss edirik. Azərbaycan vətəndaşı Azərbaycan Ordusunun yanındadır. Otuz ilə yaxın öz doğma torpaqlarına qayıda bilməyən soydaşlarımıza da üz tutub deyirəm, biz əlimizdən gələni edəcəyik ki, sizi öz doğma torpaqlarınıza qaytaraq”.

“Dəmir yumruq” əməliyyatını uğurla davam etdirən Azərbaycan Ordusu oktyabrın 3-də şimal cəbhəsində mühüm strateji əhəmiyyətə malik Madagiz kəndini işğaldan azad etdi. Bu xoş müjdəni tvitter hesabından xalqımıza çatdıran dövlətimizin başçısı kəndin tarixi adını da bərpa edərək onu Suqovuşan adlandırdı.

Ordumuz oktyabrın 4-də Cəbrayıl şəhərini, 9-da isə Hadrut qəsəbəsini düşməndən təmizlədi. Ermənistan silahlı qüvvələrinin “məğlubedilməzlik” mifini əməliyyatların ilk günlərindəcə darmadağın edən rəşadətli ordumuz oktyabrın 17-də Füzuli şəhərində Azərbaycan bayrağını ucaltdı. Oktyabrın 18-də - Müstəqillik Günündə Azərbaycanın üçrəngli bayrağı qədim Xudafərin körpüsünün üzərində dalğalanmağa başladı. Bundan iki gün sonra – oktyabrın 20-də isə Zəngilan şəhəri işğaldan azad olundu. Oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycanın İran ilə dövlət sərhədi tam nəzarətə götürüldü.

Azərbaycan Prezidenti İlham Əliyev tvitterdəki səhifəsində bu barədə belə qeyd etmişdi: “Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!”.

Ordumuz oktyabrın 25-26-da Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarının 17 kəndini və Qubadlı şəhərini azad etdi. Bu əməliyyatın ən böyük əhəmiyyətindən biri də Dağlıq Qarabağdakı separatçı ünsürlərlə Ermənistanı birləşdirən əsas magistral yolun nəzarətə götürülməsi idi.

Oktyabrın 28-dən noyabrın 7-dək olan müddətdə 53 kəndi və bir neçə strateji yüksəkliyi azad edən Azərbaycan Ordusunun növbəti hədəfi qədim Şuşa şəhəri idi.

Qəhrəman ordumuz Azərbaycanın və dünya hərb tarixinin şanlı səhifələrindən birini təşkil edən çətin Şuşa əməliyyatını uğurla başa çatdıraraq bu şəhəri işğaldan azad etdi. Belə ki, ərazinin və seçilən marşrutun nəqliyyat vasitələri üçün uyğun olmaması, eləcə də düşmənin gözləmədiyi istiqamətdən zərbə endirilməsi üçün Azərbaycan Ordusunun komandanlığı cəsarətli qərar qəbul etdi. Qəhrəman əsgər və zabitlərimiz Şuşaya Qarabağın sıx meşələrində onlarla kilometr uzunluğunda yeni yol açdı. Sonradan Müzəffər Ali Baş Komandanımız tərəfindən Zəfər yolu adlandırılacaq bu yolla hərəkət edən Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri Şuşanın sıldırım

qayalarına dırmaşaraq, yaralı döyüş yoldaşlarını çiyinlərində daşıyaraq bir neçə istiqamətdən şəhərə daxil oldular. İşğaldan azad edilmiş Daşaltı kəndindəki hərbi bölmələrin atəş dəstəyi ilə Azərbaycan Ordusunun dağ piyadaları qəfil pusquya salınmış erməni əsgərlərinin sonuncu müqavimətini də qırdı.

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımızın otuz ilə yaxın həsrətlə gözlədiyi bu şad xəbəri Azərbaycan vətəndaşlarına noyabrın 8-də sübh tezdən Şəhidlər xiyabanından çatdırdı: "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq... Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!".

Şuşanın azad edilməsi Ermənistan ordusunun müqavimət gücünü tamamilə sarsıtdı. Nəticədə bu əməliyyatdan bir gün sonra – noyabrın 9-da Azərbaycan Ordusu daha 71 kəndi, bir qəsəbəni və 8 strateji yüksəkliyi düşməndən təmizlədi.

Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək ümumilikdə 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Bu, dünyanın müasir hərb tarixində misli görünməmiş uğurlu hərbi əməliyyat idi. Ermənistan ordusu demək olar ki, məhv edildi, düşmənin 3,8 milyard dollarlıq silah-sursatı sıradan çıxarıldı.

Müharibədəki ağır məğlubiyyət Paşinyan hakimiyyətini kapitulyasiya aktını imzalamağa məcbur etdi. Noyabrın 9-dan 10-na keçən gecə Azərbaycan Prezidenti İlham Əliyev, Rusiya Prezidenti Vladimir Putin və Ermənistanın baş naziri Nikol Paşinyan tərəfindən Üçtərəfli Bəyanatın imzalanması ilə hərbi əməliyyatlar dayandırıldı. Həmin Bəyanata uyğun olaraq, Ermənistan noyabrın 20-də Ağdam, 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonlarını Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi. Bununla da Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa edildi.

XXI əsrin müharibəsini aparan Azərbaycanın döyüş təcrübəsi və taktikası bu gün dünyanın inkişaf etmiş ölkələrinin hərbi məktəblərində öyrənilir. Son dərəcə çətin relyef şəraitində cəmi 44 gün ərzində ən müasir döyüş silahlarının tətbiqi ilə şanlı qələbə qazanan Azərbaycan Ordusu yüksək peşəkarlıq nümayiş etdirdi. Ordumuz ilk gündən düşmənin müdafiə xəttini yararaq sonrakı 44 gündə yalnız irəli getdi.

Azərbaycan müasir döyüş strategiyasında pilotsuz uçuş aparatlarından (PUA) yüksək peşəkarlıqla istifadə edərək dünya hərb tarixində mühüm yeniliklər etdi. İkinci Qarabağ müharibəsinə qədər PUA-lardan bu miqyasda, bu cür səmərəli şəkildə istifadə olunmamışdı. Şuşanın azad olunması əməliyyatından danışan Prezident İlham Əliyev qeyd edib ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər.

Ordumuzun İkinci Qarabağ müharibəsində qazandığı şanlı qələbənin əsasında əsgər və zabitlərimizin qəhrəmanlığı və vətənpərvərliyi dayanır. Dövlətimizin başçısı bunu dəfələrlə vurğulayıb və çıxışlarının birində belə deyib: "Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruh birləşir, vəhdət təşkil edir. Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox,

əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir”.

Vətən müharibəsində şanlı qələbə xalqımızın igid övladlarının qanı-canı bahasına qazanılıb. Müharibədə Silahlı Qüvvələrimizin hərbi qulluqçularından 2907 nəfər şəhid olub. Şəhidlərimizin və qazilərimizin qəhrəmanlığı dövlətimiz və xalqımız tərəfindən yüksək qiymətləndirilir. Sentyabrın 27-si Prezidentin Sərəncamı ilə şəhidlərimizin xatirəsinə Anım Günü elan olunub. Xalqımız və bütün dünya azərbaycanlıları şəhidlərin əziz xatirəsini ehtiramla yad edir.

Döyüşlərdə iştirak etmiş on minlərlə hərbçi Prezident İlham Əliyevin imzaladığı sərəncamlarla orden, medal və fəxri adlarla təltif olunub. Habelə 83 nəfər “Vətən Müharibəsi Qəhrəmanı” adına, 33 nəfər isə “Zəfər” ordeninə layiq görülüb.

Dekabrın 10-da Azərbaycanın Vətən müharibəsində möhtəşəm Qələbəsinə həsr olunmuş Zəfər Paradı keçirildi. Paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və ölkələrimiz arasındakı qardaşlığın bariz nümunəsi kimi Vətən müharibəsində şəhid olan azərbaycanlıların sayı qədər türk əsgərlər iştirak etdilər. Zəfər Paradında müzəffər Azərbaycan Ordusunun şəxsi heyətinin və hərbi texnikasının, habelə ələ keçirilən hərbi qənimətlərin bir qismi və Şuşaya sancılmış Qələbə Bayrağı nümayiş etdirildi.

Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin təbliği, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması istiqamətində işlər davam etdirilir. Düşmən üzərində qələbənin təbliği məqsədilə Bakıda açılan Hərbi Qənimətlər Parkı hər bir azərbaycanlıda sonsuz iftixar və qürur hissi yaradır.

Müharibələrdə böyük qələbələrin əsasında duran ən başlıca amil xalq-dövlət-ordu birliyinin sarsılmaz vəhdətinin təmin olunmasıdır. İkinci Qarabağ müharibəsi dünya azərbaycanlılarının birliyinin sarsılmazlığını, xalqımızın Vətən torpaqlarının azad edilməsi naminə “Dəmir yumruq” kimi birləşdiyini nümayiş etdirdi. Dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar, habelə Azərbaycanın haqq işinə dəstək verən digər xalqların nümayəndələri erməni lobbisinin apardığı çirkin kampaniyalara qarşı fədakarlıqla fəaliyyət göstərirdilər. Müharibənin gedişində xalq-dövlət-ordu birliyi daha da möhkəmləndi. Azərbaycanın bütün vətəndaşları etnik, sosial, dini baxımdan bütövlük nümayiş etdirdi, ön və arxa cəbhədə mükəmməl birlik yarandı.

Dövlətimizin başçısının yüksək siyasi məharəti sayəsində diplomatik cəbhədə də böyük uğurlar qazanıldı. Prezident İlham Əliyev müharibə dövründə dünyanın ən böyük media qurumlarına 30-dan çox müsahibə verdi, münaqişə ilə bağlı əsl həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırdı. Bir sıra beynəlxalq təşkilatlar və Azərbaycana dost ölkələr ədalətli mübarizəmizdə ölkəmizə böyük dəstək verdilər. Bu sırada Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, qardaş Türkiyə, eləcə də Pakistan, İsrail, Ukrayna və digər ölkələrin adını çəkmək olar. Qoşulmama Hərəkatına üzv ölkələrin nümayiş etdirdikləri prinsipial mövqe sayəsində Vətən müharibəsi zamanı BMT Təhlükəsizlik Şurasında ölkəmizin mənafeyinə zidd olan qətnamə layihəsinin qəbul edilməsinin qarşısı alındı.

Vətən müharibəsində qazanılmış Zəfərdən dərhal sonra azad olunmuş ərazilərin bərpasına başlanılıb. Qələbədən sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın həmin ərazilərə çoxsaylı səfərləri zamanı yeni infrastruktur obyektlərinin təməli qoyulur, yeni layihələrə start verilir. Böyük qələbənin rəmzi olan və Şuşaya çəkilən Zəfər yolu artıq başa çatmaq üzrədir. Şuşada, Cıdır düzündə 27 ildən sonra ilk Novruz tonqalının alovlandırılması, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Xarıbülbül” musiqi festivalının və Vaqif Poeziya Günlərinin təşkili, Prezident İlham Əliyevin Qarabağın hava qapısı adlandırdığı Füzuli Beynəlxalq Aeroportunun

uçuş-eniş zolağının istifadəyə verilməsi, Zəngilanda "ağıllı kənd"in inşasına başlanması keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdacaqları günün uzaqda olmadığını göstərir. Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: "Biz sübut etdik ki, biz böyük xalqıq. Biz sübut etdik ki, biz həmrəylik göstəririk, birlik göstəririk və bu birlik onsuz da cəmiyyətdə var idi. Ancaq bu zəfərdən sonra bu, daha da yüksək səviyyəyə qalxdı. Bu birlik bizə imkan verəcək ki, işğaldan azad edilmiş torpaqlara yenidən həyat qaytaraq, məcburi köçkünlərimizi o yerlərə maksimum qısa müddət ərzində qaytaraq. Qarabağ bölgəsi, gözəl tarixi diyarımız sanki yenidən doğulacaq, yenidən canlanacaq, dirçələcək. Azərbaycanın ayrılmaz hissəsi və ən gözəl güşələrindən biri olan Qarabağ əsl cənnət məkanına çevriləcəkdir".

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Zəfər gününə həsr olunmuş məqalələr toplusu.
2. Zəfər yolu: Qarabağ savaşından Şuşa bəyannaməsinədək. Bakı: "Elm" 2021, 904 səh.
3. Şahinoğlu, E. Dəmir yumruq: [işğal altındakı torpaqlarımızın azadlığı uğrunda şəhid olanların əziz xatirəsinə] / Elxan Şahinoğlu; red. H.Şəfaqət ; üz qabığının tərtibatı R.Qasım.- Bakı: Qanun, 2021.- 279, [16] s.
4. İlham Əliyev. İnkişaf- məqsədimizdir. Zəfər. Xüsusi buraxılış. Azərnəşr. Bakı-2024, s.432

## II QARABAĞ MÜHARİBƏSİNİN NƏTİCƏLƏRİ: SUVERENLİYİN BƏRPASI

***Sahib Zeynalov, dosent,***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müdiri***
***sahib.zeynalov.64@list.ru,***

***Xülasə:*** *Məqalədə, ikinci Qarabağ Müharibəsi, Azərbaycanın suverenliyinin bərpası istiqamətində müvəffəqiyyətli bir addım olmasından, Azərbaycanın işğal altında olan əraziləri yenidən qaytarmaqla yalnız ərazilərini deyil, həm də milli kimliyini, tarixini və mədəniyyətini bərpa etməsindən, eyni zamanda, beynəlxalq hüquq çərçivəsində Azərbaycanın ərazi bütövlüyü daha da güclənmiş olmasından bəhs olunur.*

*Məqalədə göstərilir ki, İkinci Qarabağ müharibəsi, Azərbaycan xalqı üçün bir dönüş nöqtəsi oldu. Bu müharibə, suverenliyin bərpası və ərazi bütövlüyünün yenidən təmin edilməsi üçün tarixi bir fürsət yaratdı. Müharibənin nəticələri, Azərbaycanın regional və beynəlxalq siyasətində əhəmiyyətli dəyişikliklərə səbəb oldu.*

***Açar sözlər:*** *Qarabağ Müharibəsi, Xankəndi, Lələtəpə yüksəkliyini, anti-terror əməliyyatı*

Hörmətli konfrans iştirakçıları bildiyimiz kimi 1988-ci ildən Xankəndi şəhərində açıq şəkildə separatçı fəaliyyətə başlayan milliyyətçə erməni olan bir qrup terrorçu xarici ölkələrin dəstəyi ilə baş qaldırdı və ərazinin Ermənistana birləşdirilməsi iddiası ilə çıxış etdilər. Həmin illərdən başlayaraq Ermənistanın və onlara dəstək olan dövlətlərin hesabına Azərərbaycanın 20 faiz torpaqları işğal altına düşdü. Bu işğal nəticəsində Azərbaycanın şəhərləri və kəndləri dağıdılaraq xarabalığa çevrilmişdir. Azərbaycan sülh yolu ilə məsələnin həlli üçün Atətin Minsk Qrupunun rəhbərliyi ilə Ermənistanla aparılan danışıqlar prosesində iştirak etmişdir. Buna baxmayaraq

Xankəndində yerləşən və Ermənistanın göstərişlərini icra edən terrorçu qrup işğal əməllərini davam etdirərək yeni ərazilərimizi işğal etməyə cəhdlər edirdi və 2016-cı ildə aprel ayının 4-də belə cəhdlərdən birinin qarşısı alındı. Azərbaycan ordusu əks hucuma keçərək stateji əhəmiyyətə malik olan Cəbrayıl rayonunda yerləşən Lələtəpə yüksəkliyini terrorçulardan azad etdi. 2020-ci ildə Ermənistan ərazisindən Azərbaycan torpaqlarına hücum əməliyyatı başladı. Azərbaycan Respulikasının Prezidenti, Ali Baş Komandan İlham Heydər oğlu Əliyevin göstərişi ilə Azərbaycan Ordusu hərəkətə keçdi, düşməni hücum etdiyi istiqamətdə dayandırdı. İşğal olunmuş torpaqlarımızı azad etmək üçün hərbi əməliyyatların başlaması üçün əmr verdi. Xalqımız və ordumuz bu əmri "toy-bayram" əhvalı ilə qarşıladı və bu istiqamətdə nailiyyətlər əldə olundu. Beləki, 2020-ci ilin sentyabr ayının 27-də başlayan İkinci Qarabağ Müharibəsi, Azərbaycan və Ermənistan arasında uzun illər davam edən münaqişənin yeni bir mərhələsini başlatdı. 44 gün sürən müharibə, 10 noyabr 2020-ci ildə imzalanan atəşkəs razılaşması ilə dayandırıldı. Laçın, Kəlbəcər və Ağdam rayonlarıda işğaldan azad olundu. Ancaq Ermənistan üzərinə götürdüyü öhdəliklərin hamısına əməl etmədi. Atəşkəs razılaşmasına görə Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərini dərhal tərk etməli idi Lakin düşmən təxribatlarını davam etdirirdi. Ona görə də Azərbaycan Ordusu terrorcuları tərk-silah etmək üçün anti-terror əməliyyatı keçirmək məcburiyyətində qaldı. 2023-cü ilin sentyabr ayının 27-də təqribən 1 günlük antiterror əməliyyatı nəticəsində Xankəndi şəhəridə daxil olmaqla 1923-cü ildən sonrakı dövrdə işğal olunmuş ərazilərimiz demək olar ki, separatçılardan təmizləndi və Azərbaycanın suverenliyi bərpa olundu.

Müharibənin nəticələri, yalnız münaqişənin iştirakçıları üçün deyil, bütövlükdə region üçün əhəmiyyətli dəyişikliklər yaratdı. Bu məqalədə, müharibənin nəticələrini, xüsusilə də Azərbaycanın suverenliyinin bərpası perspektivliyini qısa şəkildə şərh edəcəyik.

1988-cı illərin əvvəllərində başlayan birinci müharibə, Ermənistanın Dağlıq Qarabağ bölgəsindəki nəzarətini ələ alması ilə nəticələndi. Bu, Azərbaycanın suverenliyini ciddi şəkildə təhdid etdi.

Hesab edirəm ki, İkinci Qarabağ Müharibəsinin nəticələrini qısa zaman kəsiyində sadalamaqla qurtarmaq çox çətin olar. Ancaq ilkin nəticə olaraq qısa şəkildə aşağıdakıları qeyd etmək olar.

1. Territorial İnteqrasiya: İkinci Qarabağ Müharibəsi nəticəsində Azərbaycan, işğal altında olmuş ərazilərinin bir hissəsini bərpa etdi. Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərləri Azərbaycanın nəzarətinə keçdi. Bu, Azərbaycanın suverenliyinin bərpası üçün mühüm addım oldu.

2. Siyasi və İqtisadi Sabitlik: Müharibənin nəticələri, Azərbaycanın regionda siyasi və iqtisadi gücünü artırdı. İşğaldan azad edilmiş ərazilərdə yenidənqurma işləri başlandı və iqtisadi inkişaf üçün yeni imkanlar açıldı. Bu, ölkənin suverenliyini daha da gücləndirdi.

3. Regional Siyasət və Qüvvələr Balansı: Müharibə, Cənubi Qafqazda geosiyasi mənzərəni dəyişdirdi. Azərbaycan, Türkiyə ilə daha da yaxınlaşdı, Ermənistan isə Rusiyanın dəstəyini axtardı. Bu, regiondakı güc balansını dəyişdi və Azərbaycanın strateji mövqeyini möhkəmləndirdi.

4. Ermənistanın Daxili Problemləri: Müharibədən sonra Ermənistan siyasi və sosial baxımdan çətin bir dövrə girdi. Müharibənin nəticələri, Ermənistan cəmiyyətində geniş tənqid və müzakirələrə səbəb oldu. Bu, Ermənistanın siyasi sistemində dəyişikliklərə yol açdı və gələcək inkişafını təsir etdi.

İkinci Qarabağ Müharibəsi, Azərbaycanın suverenliyinin bərpası istiqamətində müvəffəqiyyətli bir addım oldu. Azərbaycanın işğal altında olan əraziləri yenidən qaytarmaqla

yalnız ərazilərini deyil, həm də milli kimliyini, tarixini və mədəniyyətini bərpa etdi. Eyni zamanda, beynəlxalq hüquq çərçivəsində Azərbaycanın ərazi bütövlüyü daha da güclənmiş oldu.

İkinci Qarabağ müharibəsi, Azərbaycan xalqı üçün bir dönüş nöqtəsi oldu. Bu müharibə, suverenliyin bərpası və ərazi bütövlüyünün yenidən təmin edilməsi üçün tarixi bir fürsət yaratdı. Müharibənin nəticələri, Azərbaycanın regional və beynəlxalq siyasətində əhəmiyyətli dəyişikliklərə səbəb oldu. Gələcəkdə, bu dəyişikliklərin necə inkişaf edəcəyi və regiondakı sabitliyin qorunması üçün atılacaq addımlar, Azərbaycanın suverenliyinin uzunmüddətli perspektivdə necə təmin ediləcəyini müəyyən edəcəkdir.

Zəfərimizin əldə olunmasında canını qurban verən şəhidlərimizə allahdan rəhmət diləyir və qazilərimizə cansağlığı arzulayıram.

Xalqımızı və ordumuz səfərbər edərək, Zəfərimizin qazanılmasında misilsiz xidmətləri olan Ali Baş Komandan İlham Heydər oğlu Əliyevə ata-baba yurdumuzu işğaldan azad etdiyinə görə dərin təşəkkür edirəm.

İşğaldan azad olunmuş ərazilərimiz günü-gündən abadlaşır və gözəlləşir.

Sonda hər birinizi Zəfər Günü münasibəti ilə ürəkdən təbrik edirəm. Bayramınız mübarək olsun.

**İstifadə olunan ədəbiyyat:**


1. Qarabağ Azərbaycandır". Bakı, 2020.
2. Əmrahov M. 44 günlük II Qarabağ. Bakı, 2023.
3. İnternet resursları.


## 44 GÜNLÜK ZƏFƏR SALNAMƏSİ


***Fazil Cəfərov,***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***faziljafarov@yahoo.com***
***Sabir Məmmədov,***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***vilayetmemmedov1980@mail.ru***



***Xülasə:*** *Məqalədə 44 günlük müharibə dövründə qüdrətli Azərbaycan Ordusunun cəbhədə tarix yazmasından, bu gün bizim bayrağımız illərlə düşmən vandalizminin qurbanına çevrilmiş indi isə qəhrəman Azərbaycan oğullarının öz canları bahasına azad etdiyi, düşməndən təmizlənmiş Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa səmalarında dalğalanmasından bəhs edilir.*

*Azad olunmuş, Azərbaycan əsgərinin ayağı dəyən bu torpaqlar təmizlənir, nura qərq olmasından söhbət açılır.*


***Açar sözlər:*** *Qarabağ, 44 gün, Zəfər, diplomatiya*

Ermənistan bir ölkə olaraq təkcə regionda deyil, dünyada nüfuzunu itirdi. Biz tolerant ölkəyik. Cənab Prezident dəfələrlə çalışdı ki, məsələ sülh yolu ilə həllini tapsın. Müsahibəsinin birində demişdir "Ermənistan tərəfi işğal olunmuş ərazilərin boşaldılmasına dair üzərinə öhdəlik götürəcəyi təqdirdə biz istənilən vaxt dayanmağa hazırıq". 10 noyabr 2020-ci il tarixdə Ermənistan-Azərbaycan Qarabağ münaqişəsinə son qoyuldu. İmzalanmış 3 tərəfli bəyanat

məsələnin həllində son nöqtəni qoydu. Böyük qələbənin sevincini xalqa yaşatdığı üçün cənab Ali Baş Komandana minnətdarıq. Zəfər sevincinə görə vətən uğrunda canlarından keçən şəhid oğulların da ruhu şad oldu, 10 noyabr Böyük qələbə günü kimi Azərbaycan tarixinə həkk olundu.

Bütün Şəhidləri dərin hörmətlə anır, ruhları qarşısında baş əyirik. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Zəfərə gedən yol, Şəhidlər ölməz vətən bölünməz

Azərbaycan xalqı bu günlərdə öz tarixinin ən parlaq səhifələrini yaşamaqdadır. Özünü beynəlxalq aləmdə təsdiq edən, nələrə qadir olduğunu göstərən bu xalq bir daha nümayiş etdirdi ki, onun sarsılmaz birliyi, dəmir yumruğu istənilən azğın düşmənin öhdəsindən qısa müddətdə gəlməyə qadirdir. Bu birlik otuz ilə yaxındır nəinki Azərbaycanın, hətta bütün qonşu xalqların əziyyət çəkdiyi erməni vandalizminə 44 gün ərzində son qoydu. Qısa bir müddətdə öz işğal olunmuş torpaqlarını azad edən müzəffər Azərbaycan Ordusu həm də regionun mənzərəsini dəyişdi, ölkələr arasındakı vəhşi düşmən tərəfindən süni şəkildə yaradılmış maneələri dəf etdi. Həmişə bizim üçün müqəddəs olan üçrəngli bayrağımız bu gün sanki daha çox göz önündədir və ölkəmizin hər guşəsini bəzəyir. Təbii ki, bunun da əsas səbəbi yaşadığımız mühüm tarixi dövrdür. Çünki bu gün hamımız böyük tarixi hadisələrin iştirakçısına və şahidinə çevrilmişik. Bu gün Azərbaycan xalqı öz tapdalanmış hüquqlarını bərpa edir. Keçən əsrin 90-cı illərində işğal olunmuş ərazilərimizin sülh yolu ilə azad edilməsi uğrunda Azərbaycan dövləti çox mübarizə apardı.

Otuz ilə yaxın davam edən bu çalışmaların heç bir nəticə verməməsi hansı yolla olursa-olsun itirilmiş torpaqlarımızı geri qaytarmağı şərtləndirdi. Məhz buna görə də Azərbaycan dövləti öz Ali Baş Komandanının rəhbərliyi ilə 2020-ci il sentyabrın 27-də düşmənin yeni təxribatına qarşı əks-hücuma keçməklə torpaqlarımızın yağı düşməndən təmizlənməsi, öz tarixi sakinlərinin bu yerlərə geri dönməsi uğrunda Vətən müharibəsinə başladı. Bu müharibə Azərbaycan xalqının haqq işidir. Biz bu gün tarixboyu dəfələrlə azərbaycanlılara qarşı soyqırım törədən, bizə Xocalı, Xocavənd, bu gün isə Gəncə, Bərdə kimi insanlıq dramları yaşadan erməni vandalları tərəfindən şəhid edilmiş gənclərimizin, vəhşicəsinə qətlə yetirilmiş körpələrimizin, yaşlılarımızın, məzarları dağıdılmış doğmalarımızın, öz yurdundan qaçqın düşmüş günahsız insanlarımızın hüquqlarını müdafiəyə qalxmışıq. Bu gün erməni vəhşiləri tərəfindən dağıdılmış, viran qoyulmuş kəndlərimiz, şəhərlərimiz tarixin ən canlı şahidləridir. Onlar bu ərazilərdə baş verən tarixi hadisələr haqqında bizə hər şeyi deyir. Onların hər biri bu gün canlı bir tarix muzeyidir. İşğal olunmuş ərazilərimizin otuz ili daşı daş üstə qalmayan qədim şəhərlərimizdə, oradakı evlərin qalıqlarında, dağıdılmış məzar daşlarında yaşamaqdadır. Bu gün artıq o illərdəki Azərbaycan dövləti yoxdur. Bu gün öz tarixinin acı səhifələrini silmək, təqvimdəki rayonlarımızın işğal olunduğu tarixi azad olunduğu tarixlə dəyişdirmək üçün uzun illər ciddi hazırlaşmış müstəqil Azərbaycan dövləti var. Bu dövlətin bir gün mütləq torpaqlarımızın azad olunması məqamının yetişəcəyini bilən ağıllı, uzaqgörən rəhbəri həm hərbi, həm iqtisadi, bir sözlə, bütün sahələrdə inkişafı təmin etməklə, Azərbaycan Ordusunu yüksək ixtisaslı kadrlarla, ən müasir silahlarla təchiz edərək bu gün qazandığımız qələbələr üçün möhkəm zəmin hazırlamışdır. Ölkə Prezidentinin dərin tarixi biliyi, mühakimə qabiliyyəti və qətiyyəti düşməni onun qarşısında getdikcə daha çox kiçildir, cılızlaşdırır, alçaldır, acizləşdirir. 44 günlük müharibə dövründə qüdrətli Azərbaycan Ordusu cəbhədə tarix yazdı. Bu gün bizim bayrağımız illərlə düşmən vandalizminin qurbanına çevrilmiş indi isə qəhrəman Azərbaycan oğullarının öz canları bahasına azad etdiyi, düşməndən təmizlədiyi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa səmalarında dalğalanır. Azərbaycan əsgərinin ayağı dəyən bu torpaqlar təmizlənir, nura qərq olur. Oraya yenidən həyat qayıdır. Biz isə bu tarixi hadisələrin canlı iştirakçılarıyıq. Eşitdiyimiz qələbə

xəbərləri, ordumuzun keçirdiyi uğurlu hərbi əməliyyatlar, düşmənin məhv olan texnikası, canlı qüvvəsi və əldə etdiyimiz nəticə bir daha bizim doğru yolda olduğumuzu göstərdi. Biz müqəddəs amal – öz torpaqlarımızın azadlığı uğrunda apardığımız bu mübarizədə haqlıyıq və "Haqq incəlsə də, üzülməz". Ona görə də biz öz Prezidentimiz İlham Əliyevin ətrafında sıx birləşməli, düşmənə qarşı bütün səylərimizi səfərbər etməliyik. Ali Baş Komandanımız və şanlı Azərbaycan Ordusunun bu gün ön cəbhədə olan hər bir nümayəndəsi bizim ən yeni tariximizin qəhrəmanlarıdır. Onlar nəinki Azərbaycan, hətta dünya hərb tarixində tamamilə yeni bir səhifə açdı. Onların işğaldan azad edilmiş yaşayış məntəqələrimizə sancdığı üçrəngli bayrağımız müharibə cinayətləri törədən erməni işğalçılarına və onların havadarlarına ən gözəl cavabdır. 10 noyabr qələbəmiz göstərdi ki, Azərbaycan xalqı döyüş meydanında da, diplomatiya meydanında da öz sözünü deməyi bacarır və öz torpaqlarının bir qarışını da heç kimə güzəştə getməyəcəkdir. İrəlidə bizi işğaldan azad olunmuş torpaqlarımızın çiçəklənməsi, orada məhv edilmiş həyatın yenidən dirçəldilməsi yolunda çox böyük quruculuq işləri gözləyir.

Bu günə qədər Vətən müdafiəçisi qardaşlarımız bu torpağın hər qarışını göz bəbəyi kimi qoruyub, onun uğrunda canını da qurban etməkdən qorxmayıb. İndi isə bizlər - Vətənin müdafiəçiləri, bu adı daşımaqdan qürurluyuq. Ədaləti bərqərar edən son döyüşü Qələbə ilə taclandıran Azərbaycan Ordusu tarixin səhifələrini yenilədi. 44 günlük Vətən müharibəsi zamanı ömrünün çiçəklənən dövründə ən yüksək məqama - şəhidlik zirvəsinə yüksələn oğullarımız haqqında nə qədər danışsaq azdır. Çünki bu gün hər birimiz firavan həyat sürürüksə, bu, şəhidlərimizin, qəhrəman oğullarımızın sayəsindədir. Onların hər birinin adı daim qəlbimizdə yaşayacaq. Şəhidlər ölməz, Vətən bölünməz!

**İstifadə olunmuş ədəbiyyat:**

4. "Qarabağ Azərbaycandır". Bakı, 2020.
5. Əmrahov M. 44 günlük II Qarabağ. Bakı, 2023.
6. Zəfərin mübarək, Vətənim. Mübariz qəzeti. 2021.
7. 44 günlük Qarabağ müharibəsi. Beynəlxalq münasibətlərin təhsili mərkəzi. Bakı, 2021.

## İSLAM DİNİNDƏ VƏTƏN SEVGİSİ VƏ ŞƏHİDLİK

***Əlizadə Nəcəfov***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***

***Xülasə:*** *Məqalədə göstərilir ki, bütün dinlərdə vətən sevgisi mövcuddur. Vətən olmadıqda dinin bərqərar olması, yayılması və hətta əmrlərinin yerinə yetirilməsi mümkün deyildir. Vətəni sevmək, onun üçün lazımi fədakarlıqlar göstərmək İslam dininin ən ümdə əmrlərindəndir. İslamda şəhidliyə verilən dəyər vətən uğrunda fədakarlığın ən bariz təzahürüdür. Müsəlmanların şəhidlik amalının tarixdə böyük zəfərlərin əldə edilməsində mühüm təsiri olmuşdur.*

***Açar sözlər:*** *Vətən, Millət, din, vətən sevgisi, böyük zəfərlər*

Lüğətdə "yerləşmək, bir yeri özünə məskən etmək, özünü bir yerə alışdırmaq" mənalarını verən, "vatn" sözündən meydana gələn "vətən" ifadəsi klassik lüğətlərdə "insanın dünyaya gəldiyi, yaşadığı yer" deməkdir.

Bir millətin yaşadığı ölkə, yurd onun vətənidir. Vətən, dar mənada, bir şəxsin doğulduğu yer, kənd, qəsəbə və şəhərdir. Geniş mənada və əsl anlamda isə vətən bir millətin mənəvi və müqəddəs dəyərləri, xatirələri və adət-ənənələri ilə yoğrulmuş, keçmişi və gələcəyi birləşmiş ölkədir. Vətən – alınması və qorunması üçün millətin uğrunda canını sevə-sevə verdiyi torpaq parçasıdır. Xalqı keçmişi ilə birləşdirən, gələcəyə bağlayan yer vətəndir. Vətəndə şəhərlərin xatirələri və bir millətin, xalqın tarixi mövcuddur. Vətən – ailə sevgisindən millət sevgisinədək bütün sevgilərin ocağıdır.

Dil, din, mədəniyyət, tarix, ölkə birliyi, əxlaq, adət, ənənə, ortaq duyğu, davranışlar, müştərək hədəflər milləti, xalqı meydana gətirir. Tarixə nəzər saldıqda, vətənlərinə bağlı olan millətlərin həyatlarını davam etdirdiklərini, vətənlərini itirən millətlərin isə tarix səhnəsindən silinib yox olduqlarını görürük. Dünyadakı siyasi birliklərə qəbul edilmək, söz sahibi, şəxsiyyət sahibi olmaq üçün torpağa, millətə, dövlətə ehtiyac var.

Millət və vətən ruhla bədən kimidir. Birini digərindən ayrı düşünmək qeyri-mümkündür. Din, dil, adət-ənənə kimi müqəddəs dəyərlər, ancaq müstəqil və azad bir vətəndə yaşadıla bilər. Vətən olmasa nə din, nə adət-ənənə, nə də milli dəyər adlanan bir şey qalar. Vətən olmasa millət də olmaz, dövlət də olmaz, insanlıq şərəfi və qürurundan da bəhs edilə bilməz. Dinin əmrlərinin rahat şəkildə yerinə yetirilməsi, ancaq müstəqil bir vətənin mövcudluğuna bağlıdır. Əgər bu gün dinimizin əmrlərini yerinə yetirə biliriksə, adət-ənənələrimizi qoruya biliriksə, bunu ata-babalarımızın və şəhidlərimizin qanları və canlarını fəda edərək bizə miras qoyduğu bu Vətənə borcluyuq.

Vətən sevgisi insanda anadangəlmə bir duyğudur. Millət və vətən sevgisi fərdi bütün mənfəətlərini, canını fəda etməyə sövq edən ülvi bir duyğudur. Böyük şairimiz Abbas Səhhətin dediyi kimi:

Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir.
Vətənin sevməyən insan olmaz,
Olsa da ol şəxsdə vicdan olmaz!

Bütün dinlərdə vətən sevgisi mövcuddur. Vətən olmadıqda dinin bərqərar olması, yayılması və hətta əmrlərinin yerinə yetirilməsi mümkün deyildir. Vətəni sevmək, onun üçün lazımi fədakarlıqlar göstərmək İslam dininin ən ümdə əmrlərindəndir. İslamda şəhidliyə verilən dəyər vətən uğrunda fədakarlığın ən bariz təzahürüdür. Müsəlmanların şəhidlik amalının tarixdə böyük zəfərlərin əldə edilməsində mühüm təsiri olmuşdur.

Ölkələri abad edən məhz vətən sevgisidir. Həzrət Əli "Ölkələr vətən sevgisi sayəsində abad olur" – demişdir. Allah-Taala vətənsiz keçən günlərin, vətənin və dövlətin qiymətini bilməyin və Allahın bəxş etdiyi nemətlərə şükür etməyin önəmini xatırlatması üçün Musa peyğəmbərə ayələr göndərmiş və belə buyurmuşdur: "Biz Musanı öz xalqını qaranlıqlardan aydınlığa çıxarması və onlara Allahın günlərini xatırlatması üçün möcüzələrimizlə göndərdik. Həqiqətən, bunda çox səbir və şükür edənlər üçün ibrətlər var ("İbrahim", 5).

İbrahim peyğəmbər, onun oğlu İshaq və nəvəsi Yaqub peyğəmbərlərin vətən duyğuları haqqında Qurani-Kərimin "Sad" surəsinin 46-cı ayəsində belə buyurulur: "Biz yurdlarını düşünmə xislətini onlara məxsus qıldıq" ("Sad", 46).

Yusif peyğəmbər atası, anası və qardaşlarını yanına gətirib bağrına basdığı zaman onlara "Əmin-amanlıqla Misirə daxil olun", - deyərək bu torpağı onlara vətən göstərdi ("Yusif", 99). "Tin" surəsində də ən gözəl şəkildə yaradılmış insan üçün "vətən" məfhumunun mühümlüyünə diqqət çəkərək, Uca Allah "And olsun bu əmin-amanlıq içində olan şəhərə" ("Tin", 3) buyurmuşdur.

Vətən sevgisi Həzrət Peyğəmbərin hədislərində də öz əksini tapmışdır.

Həzrət Məhəmməd doğulub boya-başa çatdığı, çox sevdiyi Məkkədən çıxarılıb Mədinəyə hicrət etməyə məcbur qaldıqda çox kədərlənmiş və “Həzvərə” adlanan yerdə dayanaraq, Məkkəyə dönərək bu tarixi sözləri söyləmişdir:

“Ey Məkkə, dünyada ən istədiyim yer və Uca Allaha ən sevimli yer sənin torpaqlarındır, ancaq qövmüm məni buradan çıxarmasaydı, səndən ayrılmazdım”. İbn Abbasın nəql etdiyinə görə, Uca Allah Həzrət Məhəmmədin doğma vətənindən ayrılmasından duyduğu kədəri təsəlli etmək üçün “Qəsəs” surəsinin 85-ci ayəsini endirmiş və Məkkəyə yenidən dönəcəyini bildirmişdir: “Sənə Quranı təbliğ etməyi vacib buyuran Səni qayıdacağın (Məkkə) yerə yenə də qaytaracaqdır (“Qəsəs”, 85). Həzrət Peyğəmbər Mədinədə İslamı daha rahat təbliğetmə imkanı əldə etməsinə baxmayaraq, Məkkə həsrətindən duyduğu kədər ibrətlidir.

Allah Rəsulu və müsəlmanlar Məkkədən zorla çıxarılma sıxıntılarına baxmayaraq, Həzrət Peyğəmbərin səyi ilə Mədinəyə alışdılar. “Allahım, Məkkəni bizə sevdirdiyin kimi Mədinəni də sevdir və daha çox sevdir. “Allahım, Məkkəyə verdiyin bərəkətin ikiqatını Mədinəyə ver”, – deyə dua edən Həzrət Peyğəmbər Məkkə kimi Mədinəni də çox sevmiş, onu ikinci vətəni olaraq görmüşdür.

Həzrət Peyğəmbər öz hədislərində vətəni müdafiə etməyi təşviq etmişdir. Şəxsən özü zirehini geyinib qılınc taxmış, döyüşlərdə iştirak edərək orduya başçılıq etmiş, vətəni qorumuşdur. Bədrdə ordusunu, yurdunu Uca Allahın qoruması üçün göz yaşı tökmüş, Uhudda vətəni müdafiə edərkən mübarək dişləri qırılmış, Xəndək döyüşündə Mədinəni düşmənlərdən qorumaq üçün səngərlər qazmış, Təbukda 30 minlik ordu ilə Bizansa qarşı mübarizə aparmışdır. Buna görə İslamda vətən sevgisi müqəddəs qəbul edilmişdir.

Bütün bu nümunələr Allah Rəsulunda vətən sevgisinin nə qədər güclü bir hiss olduğunu, həmçinin bu sevginin hər şeydən üstün tutulmasının nə qədər vacib olduğunu göstərir. Allah Rəsulu Mədinəni düşmənlərin hər cür hücumlarından qorumaq üçün şəxsən özü döyüşmüşdür.

İslam dinində vətənin keşiyində durmaqla əlaqəli işlədilən digər kəlmə “ribat”dır. Düşmən hücumlarının qarşısını almaq üçün sərhəddə keşik çəkmək mənasına gələn “rəbəta” kəlməsinin məsdəri olan bu söz Qurani-Kərimdə “ribatül-xayl” (döyüş üçün bəslənən atlar) (“əl-Ənfal”, 8/60) şəklində qeyd olunur. Eyni kökdən gələn “rabitu (döyüş üçün hazır olun)” əmri (“Ali-İmran”, 3/200) mənasında açıqlanmışdır. “Ribat” termini hədislərdə Allah yolunda vuruşmaq üçün atların hazır saxlanması mənası ilə yanaşı, “sərhəddə vətənin keşiyini çəkmək”, “sərhədçilər” mənalarında da işlədilmişdir. Abdullah ibn Abbas Həzrət Peyğəmbərin bir hədisdə belə buyurduğunu nəql etmişdir.

“İki gözə cəhənnəm odu toxunmayacaqdır. Bunlardan biri Allah qorxusundan ağlayan göz, digəri isə Allah yolunda vətənin keşiyini çəkərək səhərə qədər növbətdə yatmayan gözdür”. Həmçinin Salman Farsinin nəql etdiyi digər hədisdə belə buyurulur: “Bir gün və bir gecə vətənin keşiyində növbədə durmaq bir ay oruc tutub gecələri namaz qılmaqdan daha xeyirlidir. Əgər (insan) növbədə şəhid olarsa, gördüyü işin savabı, əməli, ruzisi davam edər və qəbirdəki sual mələklərinə qarşı əmin olar”. Başqa bir hədisdə isə “Allah yolunda sərhəddə bir gün keşik çəkmək dünyadan və onun üstündəkilərdən daha xeyirlidir”, – buyurulub.

**İstifadə olunmuş ədəbiyyat:**


1. https://www.scara.gov.az
2. https://azertag.az
3. https://gununnebzi.com

# VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ AZƏRBYCAN-TÜRKİYƏ QARDAŞLIĞI

***Fəridə Mikayılova***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***feride.mikailova@mail.ru***

***Xülasə:*** *Məqalədə haqlı olaraq göstərilir ki, Vətən müharibəsinin ilk saatlarında qardaş Türkiyə Azərbaycanın haqq savaşını dəstəkləmiş, Türkiyənin dövlət rəhbərləri, ictimai xadimlər, Türkiyə ictimaiyyəti Azərbaycanın yanında olduqlarını dəfələrlə vurğulamışlar.*

*Müharibə dövründə Azərbaycan-Türkiyə qardaşlığı tarixi zəfərin qazanılmasında həlledici amil olmuşdur.*

***Açar sözlər:*** *Vətən müharibəsi, Türkiyə, tarixi zəfər, Müzəffər Ali Baş Komandan, Şuşa Bəyannaməsi, əməkdaşlıq.*

Hər bir azərbaycanlıda qürur hissi yaşadan, torpaqlarımızın işğaldan azad olunması ilə başlayan Vətən müharibəsi Azərbaycan xalqının qələbəsi ilə başa
çatdı. Bu tarixi hadisə ilə son bir neçə yüz il ərzində ilk dəfə olaraq, Azərbaycan işğal olunmuş torpaqlarını özünə qaytardı, ərazi bütövlüyünü təmin etdi.

Əslində Qarabağ və onun ətrafındakı torpaqların işğaldan azad edilməsiilə ölkə rəhbərliyi xalqımızın ən ümdə taleyüklü problemini həll etdi.

Ermənistanın baş naziri N. Paşinyan 2018-ci ildə hakimiyyətə gəldikdən sonra Dağlıq Qarabağ probleminin həllinə dair danışıqlara zidd olan açıqlamalar verərək, format dəyişdirilməsindən, danışıqlara separatçı rejimin cəlb olunmasından dəm vuraraq, regional siyasətdə köklü dəyişikliklər etmək fikrinə düşdü. Hakimiyyətini möhkəmləndirdikdən sonra, onun verdiyi bəyanatlar göstərdi ki, Ermənistanın həyata keçirdiyi siyasət, ümumilikdə danışıqların mahiyyətinə məzmununa uyğun deyil. Baş nazirin "Qarabağ Ermənistandır" deməsi seperatçı rejimin "Parlamentini" Şuşa şəhərinə köçürmək planı sərxoş vəziyyətdə Cıdır düzündə rəqs etməsi habelə həmin dövrdə Ermənistanın müdafiə naziri olan Tonoyanın "yeni ərazilər üçün yeni müharibə" konsepsiyasının irəli sürülməsi kimi sərsəm bəyanatlar danışıqları tamamilə mənasız hala gətirdi.

İyul ayında Ermənistan-Azərbaycan sərhədinin Tovuz istiqamətində ermənilər təxribat törətdi və torpaqlarımızı işğal etmək istədi. General Polad Həşimov və digər əsgər və zabitlərimiz ermənilərlə döyüşdə qəhrəmancasına həlak oldu. Tovuz döyüşlərində düşmənə layiqli cavab verildi.

Avqust ayında ermənilər Azərbaycana diversiya qrupu göndərdi. Həmin diversiya qrupu da zərərsizləşdirildi. Nəhayət 2020-ci il sentyabrın 27-də kəndlərimiz, hərbi mövqelərimiz düşmənin artilleriya atəşinə məruz qaldı. Mülki şəxslər hərbiçilərimiz arasında itkilər oldu. Beləliklə, Azərbaycan xalqının Vətən müharibəsi başlandı.

Müzəffər Ali Baş Komandanın qətiyyəti sayəsində Azərbaycan Ordusu Zəfər tarixini yazdı. 44 günlük Vətən müharibəsi ərazi bütövlüyümüzün təmin olunması üçün haqqın-ədalətin bərpası istqamətində göstərilən sücaəti, eyni zamanda kimin kim olduğunu, kimin dost, kimin düşmənin yanında olduğunu nümayiş etdirdi. Bu həlledici məqamda Azərbaycan-Türkiyə qardaşlığı öz sarsılmazlığını bir daha sübut etdi.

Azərbaycan və Türkiyə dövlətləri arasında dostluq və qardaşlığı əlaqələri dədim tarixə malikdir. Türkiyə və Azərbaycan iki qardaş ölkəni bir birinə bağlayan qarşılıqlı səmimi

münasibətlər xalqımız arasında yeni tarixin yazılmasıyla davam edir. Tarixə nəzər salarkən türk dünyasının görkəmli dövlət liderləri Mustafa Kamal Atatürk və Heydər Əliyevin miras qoyduqları siyasi kurs bu gün Rəcəb Tayyib Ərdoğan və İlham Əliyev tərəfindən şərəfli missiya kimi layiqincə davam etdirilir.

Məlumdur ki, Ermənistan Azərbaycan torpaqlarını işğal etdiyinə görə hələ 1993-cü ildə Türkiyə Ermənistanla sərhədləri bağlayıb, bütün diplomatik əlaqələrini kəsib. Hətta ABŞ Türkiyəyə Ermənistanla sərhədləri açmağa dair təzyiqlər göstərsə də bunun heç bir nəticəsi olmadı. Həmin vaxtlar ABŞ-ın Türkiyəyə təzyiqlər göstərdiyi bir zamanda bəzi araqarışdıran qüvvələrin Türkiyə-Azərbaycan əlaqələrinə kölgə salmaq cəhdləri də bir fayda vermədi. Ulu Öndər Heydər Əliyevin "Bir millət iki dövlət" müdrik kəlamı bir daha öz həyatiliyini təsiq etdi. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Türkiyə Cumhuriyyətinin böyük tarixi var. Böyük Öndər, dahi Mustafa Kamal Atatürk Türkiyənin əsasını qoymuş, böyük dövlət yaratmışdır. Sonra gələn nəsillər onun işini davam etdirərək Türkiyəni bütün dünyada nüfuzlu, əzəmətli bir dövlətə çevirmişdir.

Hələ Tovuz hadisələri zamanı Erməni ordusunun hücumu Türkiyədə sərt qarşılanmış, ölkə başçısı Ərdoğan Azərbaycana tam dəstəyini ifadə edən bəyanat vermiş, Türkiyə Böyük Millət Məclisində dörd siyasi partiyanın qəbul etdiyi birgə qərarda Ermənistanın regionda müharibəni alovlandıran davranışı kəskinləşdirməkdə qınamışlar.

Türkiyə Vətən müharibəsinin ilk saatlarından Azərbaycan ədalətli mübarizəsini dəstəkləmiş, ona siyasi, diplomatik dəstək vermişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan müharibənin başlandığı gün (27 sentyabr 2020-ci il ) "Erməni xalqını onları fəlakətə aparan hakimlərinə və onları bir kukla kimi oynadanlara qarşı çıxmağa, gələcəklərinə sahib çıxmağa dəvət edirəm. Bütün dünyaya işğala və zülmə qarşı verdikləri mübarizədə Azərbaycanın yanında olmağa çağırıram" - dedi.

Həmin gün Türkiyənin Milli Müdafiə Naziri Hülusi Akar Azərbaycanın tərəfində olduğunu bildirərək, Ermənistanın mövqeyinin Cənubi Qafqazda sülhün və sabitliyin ən böyük əngəli olduğunu vurğulamışdı.

Sonrakı günlərdə Türkiyənin Azərbaycana dəstəyinin bariz nümunəsi olaraq, xarici işlər naziri M. Çavuşoğlunun Bakıya səfəri baş tutmuş, bu görüşlər zamanı dost ölkəyə güvənə biləcəyini bir daha bəyan etmişdir. Bakıda olduğu zaman nazir Çavuşoğlu növbəti dəfə Azərbaycan Prezidenti İlham

Əliyev tərəfindən qəbul edilərkən "Bütün dünyaya türkün gücünü göstərdiniz. Qurur duyuruq" deyə ifadəni işlətdi.

2020-ci il noyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı şəhərində Türkiyənin Xarici İşlər nazıri M. Çavuşoğlunu Milli Müdafiə naziri Hülusi Akar, Milli İstihbarat Təşkilatının sədri Hakan Fidanı qəbul etmişdir. Görüşdə üç tərəfli 10 noyabr Bəyanatı müzakirə edildi. Türkiyə rəsmiləri bir daha Azərbaycanın haqlı mövqeyini dəstəklədiklərini bildirdilər.

Görkəmli türk dövlət xadimləri Hikmət Çətinin, Binəli Yıldırımın və bir çox başqalarının cənab İlham Əliyevə ünvanladığı teleqramlardakı "dualarımız sizinlədir" sözləri yalnız dövlət xadimlərinin yox, bütün türk xalqının hiss- həyacanını ifadə edirdi.

Vətən müharibəsinin ilk günlərindən Türkiyənin elm, mədəniyyət xadimləri Azərbaycanla həmrəy olduğunu, haqq savaşında ölkələrimizin mövqeyini dəstəklədiklərini bir daha nümayiş etdirmişdilər. Müharibə dövründə türk dünyası yazarları Ermənistanı Azərbaycana qarşı apardığı terror siyasətinin dayandırılmasına dair Bəyanat imzalamışdılar. Bəyanatda deyilir: "Türk dünyası

yazarları olaraq Ermənistanın təcavüzkarlıq siyasətini qətiyyətlə pisləyir, dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, Avropa Parlamenti, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə BMT-na səslənərək, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının vacibliyini və Ermənistanın Azərbaycan xalqına qarşı apardığı terror siyasətinin bir an öncə dayandırılmasının vacibliyini ifadə edirik" Qərb mediası Qarabağ problemindən bəhs edərkən həmişə "xristian Ermənistan, müsəlman Azərbaycan" ifadələrindən istifadə etməyə üstünlük verirdi. Müharibənin ikinci günündən sonra ingilis qəzeti "The Quardian" Qarabağ müharibəsi zamanı Ermənistanın "SU-25" təyyarəsinin Türkiyənin "F-16" döyüş təyyarəsi tərəfindən vurulmasını iddia etdi. Fransanın "Le Monde" qəzeti daha da irəli gedərək öz səhifələrində Qarabağda Azərbaycan tərəfdə Türkiyənin vasitəçiliyilə Suriyadan gətirilmiş muzdlu döyüşçülərin vuruşduğunu yazmaqdan çəkinmirdi. Bütün bunlar Azərbaycan ordusunun gücünü və uğurunu kiçiltməyi, Ermənistan xalqına isə "Məğlubiyyətin səbəbi Türkiyənin müdaxiləsidir" deyərək öz hərbi, siyasi və diplomatik məğlubiyyətini gizlətməyə hədəflənmiş qarayaxma təbliğatından başqa bir şey deyildi.

İkinci Qarabağ müharibəsi ərzində soyuqqanlığını qoruyan dövlət başçısı Bakıya gələn avropalı və amerikalı jurnalistləri öz arqumentləri ilə susdurur, Azərbaycanın həqiqətlərini səsləndirir, onların öz deyimi ilə "feyknyus"ları

bir-bir ifşa edirdi. Vətən müharibəsi dövründə güclü türk diasporunun Azərbaycanın ərazi bütövlüyünün qorunması istiqamətində göstərdiyi səy, qardaş dəstəyi olmaqla, türk dünyasının birliyi və həmrəyliyi yolunda atılan ciddi siyasi addımlar hesab edilir.

Azərbaycanın savaş meydanında tək olmadığını, Türkiyənin Azərbaycanın yanında olduğunu bildirən dost, qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan qələbəmizin təntənəsi olan Zəfər Paradında (10 dekabr 2020) ölkəmizi tək qoymadı, birlik, qardaşlıq həmrəylik nümayiş etdirərək aşağıdakı sözləri qətiyyətlə səsləndirmişdir: "Rəbbimə bizlərə bu günləri yaşatdığı üçün sonsuz şükür edirəm. Bu gün burada bütün qəlbimlə bir daha təkrarlamaq istəyirəm!" Qarabağ Azərbaycandır" Qarabağ artıq ana vətəninə qovuşmuş, otuz illik həsrət sona çatmışdır. Türkiyə və Azərbaycan olaraq bundan sonrakı hədəfimiz bu torpaqları abad, daha inkişaf etmiş bir yerə çevirmək üçün mübarizə aparmaqdır. Türkiyə və Azərbaycan kürək-kürəyə verdikcə Allahın izniylə çətinliklərin öhdəsindən gəlməyə uğurdan uğura çatmağa davam edəcəkdir. Allah köməyiniz olsun!"

Zəfər Paradında qardaş Türkiyə Respublikasının Silahlı Qüvvələrini təmsil edən hərbi qulluqçular minbaşı Harun Ergenin rəhbərliyi ilə tribuna önündən keçdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cumhuriyyətinin Başqanı Rəcəb Tayyib Ərdoğan arasında 2021-ci il iyunun 15-də Şuşada imzalanmış Bəyannamə iki qardaş Respublika arasında hərtərəfli əməkdaşlığın yeni üfüqlərini müəyyənləşdirdi.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İ. Əliyev. "İnkişaf məqsədimizdir". 104-cü kitab, Bakı, 2020.
2. 44 gün anbaan (rəsmi xronika ) Bakı, 2021.
3. F. Təvəkkülqızı. "Azərbaycan bu gün". Bakı,2021
4. "Mədəniyyət jurnalı", sentyabr-oktyabr-2020.

## ZƏFƏRLƏ SONLANAN MİLLİ MÜBARİZƏMİZİN BƏDİİ SÖZLƏ İFADƏSİ

***Qərənfil Rzayeva***
***Keyfiyyətin təminatı şöbəsinin müdiri, baş müəllim***
***qerenfilrzayeva40@gmail.com***

***Xülasə***: *Tezisdə Azərbaycan xalqının 30 illik yurd, doğma el-oba həsrətinə son qoyan Azərbaycan oğullarının Zəfər təntənəsinə həsr olunmuş şeirlərdən, yazılıan bədii sənət nümunələrindən söz açılır. Gözəl dilçi-alim Mahirə Hüseynovanın “salam olsun” şeirlər kitabından da nümunələr öz əksini tapır. Qeyd olunur ki, şairənin ilk salamı tarixi sətir-sətir yazanlaradır, qalib Azərbaycan ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevədir, Türk dünyasının böyük oğlu Rəcəb Tayyib Ərdoğanadır, bu salam vətən uğrunda canlarından keçmiş şəhidlərimizədir, Qarabağa, Şuşaya, Xankəndiyə, vətənin daşına, qayasına, yoluna, izinədir.*

***Açar sözlər:*** *Azərbaycan xalqı, Zəfər tarixi, milli mübarizə, ədəbi əsərlər, poetik nümunələr və s.*

27 sentyabr 2020-ci il səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması nəticəsində, Ermənistan ordusunun döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilmişdir.

Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edilmişdir. Qarşıdurmalar qısa müddətdə sürətlə alovlanmış və İkinci Qarabağ müharibəsinə çevrilmişdir.

Ermənistan respublikası ilə 44 gün davam edən müharibə ərzində 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhəri işğaldan azad edilmişdir. Moskvada imzalanan müqaviləyə əsasən, noyabrın 10-u Bakı vaxtı ilə saat 01:00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və hərbi əməliyyatların tam dayandırılması, 1 dekabradək Ermənistan qüvvələrinin Dağlıq Qarabağın ətrafında Ermənistan nəzarətindəki Azərbaycan ərazilərindən çıxarılması və Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının təmin edilməsi elan edilmişdir.

2020-ci il noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də Laçın rayonları azad edilmişdir.

10 noyabr 2020-ci il Azərbaycan tarixinin şanlı səhifəsinə - Qələbə Günü kimi qızıl hərflərlə yazıldı. Məhz həmin gün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın rəşadətli Ordusunun 44 günlük Vətən müharibəsində möhtəşəm qələbəsi təmin olundu. Ermənistan bütün dünya ictimaiyyəti qarşısında məğlubiyyətini etiraf etməyə məcbur edildi.

Bu tarixi Zəfər Azərbaycan xalqının taleyində elə bir yeni mərhələyə atılan addım oldu ki, bütün dünya bu xalqın əzəmətli oğullarını, yüksək döyüş əzminə malik ordusunu, onun yenilməz sərkərdəsini tanıdı. Zəfər sorağı ilə coşan könüllər qələbə ruhlu şeirlərin, nəğmələrin yaranmasına təkan verdi. Bir-birindən gözəl, məzmunlu şeirlər yazan şairlərimiz zəfərlə sonlanan milli mübarizəmizi sənətin poetik dili ilə vəsf etməyə başladılar.

"Zəfər bayramı", "Zəfərdi mənim adım", "Zəfər", "Dümənə dağ çəkmişik", "Biz Zəfər qazanmışıq", "Dəmir yumruğum", "Gözün aydın, ey Vətən!" kimi şeirlərdə Azərbaycan xalqının mənfur düşmən üzərində tarixi qələbəsindən doğan sevincin, qalibiyyət ruhunun abi-havası duyulmaqdadır:

Zəfər bayramıdır bu gün yurdumun,
Bu əziz günümüz daim var olsun.
Yeni tarix yazan şanlı ordumun,
Qeyrətli oğluna salamlar olsun!

Qələbə xəbəri gələndən bəri,
İçimin fərəhi ucaldı aya.
Qayıtdı Qarabağ! Qayıtdı geri,
Bu hissi yaşadıq, şükür, Xudaya!

Bir zamanlar yurd-yuvasından didərgin salınan xalq və onun yazarları kədər notları ilə şeirlər yazır, bayatılar qoşurdularsa, artıq doğma yurd yerlərinə qayıtmaq arzusunun reallaşmasından doğan sevinc hissi, yaradana minnətdarlıq duyğusu yazılan hər bir poetik nümunənin ruhunda hiss olunur.

Görkəmli dilçi alim, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın ötən il işıq üzü görmüş "Salam olsun" adlı şeirlər kitabına igid əsgərlərimizin 44 günlük Vətən müharibəsində göstərdilkəri şücaət və qəhrəmanlığı vəsf edən poeziya nümunələri daxil edilmişdir.

Əminliklə deyə bilərik ki, şairin "Salam olsun" şeirlər kitabı müstəqillik dövrü Azərbaycan poeziyası üçün dəyərli bir nümunədir. 1991-ci ildən 2020-ci ilə qədər Azərbaycan ədəbiyyatında yazılan bütün şeir və nəsr nümunələrində gələcəyə inamla yanaşı dərin bir kədər, yurd nisgili, vətən həsrəti, Birinci Qarabağ müharibəsindən sonra xalqımızın yaşadığı ağrı-acılar əks olunurdu.

Məsələn, Xalq şairi Xəlil Rza Ulutürk " Qaytar mənim qüdrətimi, Azərbaycan" şeirində yazırdı:

Mən bilirəm: dərdlərini yumruğunda sıxacaqsan.
Sən bu dibsiz cəhənnəmdən çıxacaqsan…Üzü ağsan.

Nümunədən də göründüyü kimi, Müstəqil Azərbaycanın poeziyası son 30 ildə məzmunca gələcəyə nə qədər inamlı olsa da, bir o qədər də kədərli idi.

Lakin bu misralarda bir həqiqət payı da vardı. 30 ildən sonra Azərbaycan ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında 44 Günlük Vətən müharibəsində işğal altında qalmış torpqalarımızı azad etdi. Azərbaycan xalqı bu dibsiz cəhənnəmdən üzü ağ çıxdı, qalib çıxdı.

Bu möhtəşəm qələbəmizin ilk poetik ifadəsi isə Mahirə Nağıqızının "Salam olsun" şeirlər kitabında əks olundu.

Mahirə Nağıqızı Azərbayacan poeziyasının məzmununda baş verən bu inqilabi yeniliyi poetik dillə belə ifadə edir:

Ələm idi, qüssə idi hər çağımız,
Otuz ildən sonra güldü növrağımız
Dalğalandı Şuşada nur bayrağımız,
Qurban olum, hamınıza salam olsun!

Şairin ilk salamı tarixi sətir-sətir yazanlaradır, qalib Azərbaycan ordusunun Müzəffər Ali Baş Komandanı İlham Əliyevədir, Türk dünyasının böyük oğlu Rəcəb Tayyib Ərdoğanadır, bu salam vətən uğrunda canlarından keçmiş şəhidlərimizədir, Qarabağa, Şuşaya, Xankəndiyə, vətənin daşına, qayasına, yoluna, izinədir.

Salam vermək dinimizcə də müsbət əməldir. Abdullah ibn Amr rəvayət edir ki, bir nəfər peyğəmbərimizdən soruşdu: "İslamda ən xeyirlisi hansıdır?" Peyğəmbərimiz buyurdu: "Yemək yedirtməyin, tanıdığına və tanımadığına salam verməyin." Salam verməklə bağlı başqa bir rəvayətdə deyilir ki, Peyğəmbərimiz demişdir: "Kiçik böyüyə, yeriyən oturana və az olan çox olana salam verməlidir."

Mahirə Nağıqızının bağrından qopan "Salam olsun!" nidası həm də xalqımızın qalib sərkərdəsinə, Vətənimizin qüdrətli ordusuna, Azərbaycanın haqq işində onun yanında duran böyük Türk xalqına ünvanlanıb:

Adı qalar zaman-zaman Sər doğanın
İzi qalmaz hər olanın, hər doğanın.
İlham, sizin, Rəcəb Təyyub Ərdoğanın,
Həmişə var canınıza salam olsun!

Bəndin məna yükü dərindir. Şair ilk misrada anadan başçı – sərkərdə doğulanların adının tarixdə qalacağını vurğulayır, növbəti misrada isə, ilk misradakı fikrin məzmun və forma vəhdəti əsas fikrin ifadəsini, təsir gücünü qüvvətləndirir.

Mahirə Nağıqının "Salam olsun" kitabında yer alan ilk beş şeirin adı bütövlükdə Azərbaycan sözünün bədii-obrazlı təzahürüdür desək, yanılmarıq. "Azərbaycan", "Vətəndir", "Son döyüşə hazır ol", "Uca bayrağım", "Şəhidlər".

Bu beş adda Vətənimizin simvolik obrazı o qədər aydın təsvir olunur ki, sanki onlar Azərbaycanı tanımaq üçün, xalqımızın varlığını ifadə etmək üçün açar sözlər rolunu oynayır. Kitabda yer alan digər şeirlərin adları da təsirlidir: "Ay vətən", "Xocalı", "Danışan daşlar", "Zəhranın qanı", "Cəbhəyə məktub", "Kəbəcər üçün oxşama", "Laçınım-Laçınım", "Şuşa məscidində azan"… Bu adlar altında yazılmış misralar bütövlükdə bir Azərbaycandır.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Bəhram Cəfəroğu. Qələbə ruhlu misralar. Bakı, 2023/
2. Ziyadxan Əliyev. Qələbəmizi tərənnüm edən əsərlər. Bakı, 2020/
3. Ələddin Əzimli. Qələbə müjdəli xəbərlər gəlir. "525-ci qəzet". Səh.3
4. https://oxubil.info/seirler/qelebeye-aid-seirler/

# QARABAĞ MÜHARİBƏSİ BEYNƏLXALQ ALƏMDƏ

***Mahir Səlimov, dosent***
***Tərbiyə işləri üzrə direktor müavini***
***mahir.0707@mail.ru***
***Əzizağa Həziyev, b/m.***
***“Tələbə və məzunlarla iş” şöbəsinin təcrübə rəhbəri***

***Xülasə:*** *Qarabağ münaqişəsinin diplomatik yolla həllini otuz il gözləyən Azərbaycan prezident ali baş kmondan İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq hüquq normalarına uyğun olaraq torpaqlarımızın geri qaytarılması üçün müharibə aparmalı oldu və Qarabağ müharibəsini qələbə ilə başa vurdu. Azərbaycan Ordusunun müharibədə qalib gəlməsi nəticəsində şübhəsiz ki, Qafqazda yeni statuskvo yaranmışdır. Qarabağdakı qələbə Azərbaycanda həmrəyliyi gücləndirmiş və hökumətin xarici siyasətdə özünə inamını artırmışdır.*

**Açar sözlər.** *Azərbaycan, beynəlxalq təşkilatlar, ATƏT-in minsk qrupu, müharibə, Qarabağ.*

Qarabağ münaqişəsinin diplomatik yolla həllini otuz il gözləyən Azərbaycan xalqı prezident ali baş kmondan İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq hüquq normalarına uyğun olaraq torpaqlarımızın geri qaytarılması üçün müharibə aparmalı oldu və Qarabağ müharibəsini qələbə ilə başa vurdu. Ermənistanın hücumuna cavab olaraq öz vətəndaşlarını qorumaq və otuzillik işğala son qoymaq üçün Azərbaycan 27 sentyabr 2020-ci ildə başladığı hərbi əməliyyatla 298 yaşayış məntəqəsini azad etdi (1). Müharibənin sonuna yaxın “Azərbaycanın mədəniyyət paytaxtı və Qarabağın ürəyi” kimi tanınan Şuşa şəhərini işğaldan azad etdi. Şuşanın bölgə mərkəzindən cəmi 5 km məsafədə olması və Qarabağın dağlıq hissəsi ilə Ermənistanı birləşdirən əsas yolun üzərində yerləşməsi mühüm strateji əhəmiyyətə malikdir. Kənardan kifayət qədər dəstək ala bilməyən Ermənistanın baş naziri N.Paşinyan məğlubiyyəti qəbul etdi və 44 günlük müharibə Azərbaycanın qələbəsi ilə başa çatdı.44 günlük müharibədə diplomatik müstəvidə fəal rol oynayan Türkiyə və Rusiya kimi ölkələrdən fərqli olaraq, Fransa tisna olmaqla, Avropa ölkələri müxtəlif amillər səbəbiylə, əsasən, passiv bir siyasət nümayiş etdirdi.Müharibə 10 noyabrda Ermənistanın məğlubiyyəti ilə başa çatdı. Şübhəsiz ki, Qafqazda bu yeni vəziyyətin yaranmasında Türkiyə böyük rol oynadı. Bu müharibə yalnız Azərbaycanın otuz il əvvəl işğal olunmuş ərazilərin geri alınması ilə deyil, bütün bölgədə, regional və qlobal miqyasda hiss olunacaq geosiyasi və iqtisadi nəticələri ilə də əlamətdardır. Azərbaycan Ordusunun müharibədə qalib gəlməsi nəticəsində şübhəsiz ki, Qafqazda yeni statuskvo yaranmışdır (1). Qarabağdakı qələbə Azərbaycanda həmrəyliyi gücləndirmiş və hökumətin xarici siyasətdə özünə inamını artırmışdır. İmzalanmış üçtərəfli bəyanatla başa çatan müharibədən sonra məğlubiyyətin əsas səbəbkarı kimi Paşinyan Ermənistanda ciddi tənqidlərə məruz qaldı. Ermənistanın paytaxtı İrəvanda nümayişçilərlə qəzəbli etirazçılar “Nikol xaindir!”, “Nikol get!” şüarları səsləndirdi. Üstəlik, Paşinyanın vəzifəyə hansı yolla gəlməsi, Qarabağ böhranı və pandemiya vəziyyəti daha da ağırlaşdırdı.

XIX əsrdən bu yana Cənubi Qafqazda bir çox həll edilməmiş problemlərin qalmasında erməni diasporunun dünyada apardığı təbliğatın rolu böyükdür. Dünyanın hər yerinə səpələnmiş erməni diasporu 44 günlük müharibə dövründə çox sərt və radikal addımlar atdı. Qarabağ müharibəsi haqqında iki mahnı hazırlayaraq Ermənistana dəstək verən dünyaca məşhur erməni-amerikalı musiqi qrupu “Sistemi Down a Down”-un açıqlamasında: “Mahnılarımızda Qarabağ və

Ermənistan haqqında danışdıq. Dəstəyinizi gözləyirik. Yardım Qarabağ və Ermənistanda ehtiyacı olanlara və əsgərlərə sərf olunacaq" ifadələri ilə yer almışdır. "Torpağı qoru" mahnısında Ermənistan qurban kimi təsvir edilir. Azərbaycan və Türkiyə ittiham edilir. "Genosidal Humanoidz"mahnısında isə türklərə qarşı açıq şəkildə irqçilik siyasəti aparılır. Bu mahnılarda millətlərin duyğuları ilə oynayaraq Türkiyə və Azərbaycana qarşı nifrət hissi aşılanır.Erməni diasporunun Ermənistan üzərində təsiri davam etdikcə İrəvan rəhbərliyi münaqişənin siyasi həllini tapmaqda çətinlik çəkəcəkdir. Bununla birlikdə ölkədə davam edən qeyri-sabitlik Ermənistanın xarici siyasətdə mövqeyini zəifləmişdir. Diasporun Ermənistandakı real vəziyyətə uyğun olmayan tələbləri İrəvan hökumətini Qarabağ müharibəsində təcavüzkar mövqe tutmağa sövq etdi və məğlubiyyətini sürətləndirdi.44 günlük Vətən müharibəsində fəal rol oynayan Türkiyə və Rusiyadan fərqli olaraq (ermənipərəst Fransa istisna olmaqla), Avropa İttifaqı ölkələri və ABŞ, ümumiyyətlə, müharibə ərzində passiv siyasət yürütmüşlər. ABŞ-nın bu cür passiv siyasəti ölkə daxilində prezident seçkiləri ilə əlaqələndirilir. Bir çox ölkə, onların vətəndaşları Qarabağdakı hadisələrə biganə qalmış və prosesi sadəcə izləməklə kifayətlənmişdir. Təbii ki, bu laqeydliyin bir çox səbəbi ola bilər. Halbuki 30 ilə yaxın davam edən və bütün sabitliyinə təsir edərək qarşıdurmaya çevrilən ərazi probleminin həllində beynəlxalq qurumlardan daha fəal münasibət gözləmək olardı. Coğrafi baxımdan bölgədən uzaq olan və bu münaqişənin tərəfləri arasında yer almayan Avropa ölkələri Türkiyə və Rusiya qədər təsirli olmayacağını düşünərək Qarabağ məsələsində aktiv mövqe tutmaqdan çəkindilər. Fransa bu münaqişədə Avropa ölkələri arasında Azərbaycana qarşı təcavüzkar mövqe tutsa da, uğur qazana bilmədi.Erməni lobbisinin təsiri altında olan Avropa Parlamentinin bəzi üzvlərinin Azərbaycana qarşı verdiyi açıqlamalarda onların münaqişəyə ikili standartlarla yanaşdıqları açıq-aydın görünür. İnsan haqlarını tez-tez vurğulayan Avropa ölkələri Ermənistanın mülki əhalini hədəf almasına və atəşkəsi pozmasına göz yum- maqda öz təməl prinsiplərinə də xilaf çıxmışdır. Azərbay Prezidenti İlham Əliyev: "Niyə səsinizi çıxarmırsınız? Demok ratiyanız, insan haqlarınız budurmu? Niyə susursan, Avropa Parlamenti? Özünüzü dünyanın demokratik mərkəzi olaraq görürsünüz. Səsini qaldır, açıqlama ver, qına...(2).

Bizi ballistik raketlə vurdular – susdunuz. Misket bombaları və fosfor bombaları ilə vurdular – susdunuz. Özlərini Avropanın lideri kimi görən böyük ölkələr, siz niyə susursunuz?" – deyə Avropanı sərt şəkildə tənqid etdi. Avropa ölkələrinin 44 gün ərzində "passiv və səssiz" qalmalarının, bəlkə də, ən başlıca səbəbi Qarabağı Azərbaycan ərazisi kimi qəbul etmələridir. BMT 1993-cü ildən Dağlıq Qarabağı Azərbaycanın bir hissəsi kimi tanınmışdır. Bəzi Al ölkələri danışıq səviyyəsində Azərbaycan əleyhinə mövqe tutsalar da, BMT-nin müvafiq qətnamələri çərçivəsində Azərbaycanın haqqını dana bilmədilər.Ermənistana dəstəyini açıq şəkildə ifadə edən azsaylı liderlərdən biri olan Fransa Prezidenti Makron Qarabağın Azərbaycan ərazisi olduğunu etiraf etmək məcburiyyətində qaldı. Avropa ölkələrinin əksəriyyəti Azərbaycanın Ermənistan üzərində mütləq hərbi üstünlüyünü nəzərə alaraq fəal mövqe tutmaqdan çəkindi və uzunmüddətli maraqlarını riskə atmaq istəmədi.Aİ, NATO və ATƏT münaqişə prosesi zamanı bölgəyə heç bir müdaxilənin tərəfdarı olmamışdır (2). Avropa Şurasının Prezidenti Çarlz Mişel və Avropa Şurası Ermənistan və Azərbaycanı Dağlıq Qarabağ bölgəsindəki münaqişəyə dərhal son qoymağa çağırmışdır. 27 sentyabr 2020-ci ildə Mişel "Twitter" – də dərin narahatlığını dilə gətirmişdir. "Gərginliyin daha da artmasının qarşısını almaq üçün hərbi əməliyyatlar mütləq dayandırılmalıdır (3). Çıxış yolu heç bir şərt olmadan dərhal danışıqlara qayıtmaqdır". Avropa ittifaqının qanunverici orqanı olan Avropa Parlamentində bir çox millət vəkilləri erməni diaspor təşkilatlarının da təzyiqi ilə Aİ-yə Dağlıq Qarabağa müdaxilə etmək üçün qə rarlar verməyə çalışsalar da uğur qazana bilmədilər. Bəzi Al

üzvlərinin təzyiqlərinə baxmayaraq Al-nin yüksək rəsmisi Jozep Borrell Avropa İttifaqının bu münaqişənin tərəfkeşi olmayacağını və münaqişənin həlli ilə ATƏT-in Minsk qrupunun məşğul olduğunu bildirmişdir. Avropa İttifaqının Qarabağda baş verənlərlə bağlı passiv mövqe tutmasını son zamanlar Qafqazda yürütdüyü uğursuz siyasət də şərtləndirmişdir. Brüssel yaxın keçmişdə Abxaziya, Cənubi Osetiya və Krımla bağlı proseslərdə Rusiya ilə qarşı-qarşıya gəlsə də, hər dəfə uğursuzluğa düçar olmuşdur. Bu səbəbdən Qarabağ böhranı zamanı Rusiyanın həm Ermənistan, həm də Azərbaycanla sıx əlaqələrini nəzərə alaraq Avropa İttifaqı oxşar sonluqla qarşılaşmamaq üçün prosesə müdaxilə etməməyə üstünlük vermişdir.NATO-nun da Al və ATƏT kimi 44 gün ərzində toqquşmaları uzaqdan izləməklə kifayətləndiyi müşahidə edildi. Alyansın bu prosesdə Qarabağa, həqiqətən, müdaxilə etmək üçün sanballı bir əsas görmədiyi və Qafqazda Moskva ilə üz-üzə gəlməkdən ehtiyatlandığını güman edə bilərik. NATO-nun bu ehtiyatlı münasibəti Rusiyaya Qafqazdakı təsir dairəsini genişləndirmək imkanı versə də, Türkiyənin varlığı bölgədəki güc nisbətinə tarazlıq gətirmişdir (3).

BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 823, 853, 874 və 884 saylı qətnamələri ilə Ermənistanı işğal etdiyi Dağlıq Qarabağ torpaqlarından dərhal, qeyd-şərtsiz və tamamilə çıxmağa çağırsa da , nəticədə təcavuzkarı həmin qətnamələri yerinə yetirməyə məcbur edilməmişdir.

Tərəflərə ancaq atəşkəs çağırışı ünvanlamaqla kifayətlənən BMT işğala son qoyulması ilə əlaqədər addımlar atmaqdan imtina etdi. Belə ki, 2020-ci il sent- yabrın 30-da ABŞ, Rusiya və Fransanın çağırışı ilə toplaşan BMT Təhlükəsizlik şurası atəşkəs çağırışı toqquşmaların dayandırılmasına xidmət etmədi. BMT-nin Baş katibi toqquşmaların ilk günündən tərəfləri dialoqa dəvət etdi, münaqişənin sülh yolu ilə davamlı həllini tapmaları üçün həmsədrlərin daha çox səy göstərməli olduqlarını bildirdi. BMT-nin Baş katibi noyabrın 10-da imzalanan atəşkəsə tərəflərin əməl etmələrini məmnuniyyətlə qarşıladıqlarını bildirən xüsusi bəyanat verdi. Bəyənatda o bütün tərəfləri beynəlxalq insan hüquqları ilə bağlı öhdəliklərini yerinə yetirməyə çağırdı. Nəticədə Dağlıq Qarabağ məsələsində BMT-nin passiv münasibəti Azərbaycanı beynəlxalq hüquqdan irəli gələn insan hüquqlarının müdafiəsi məsələsində təşəbbüs göstərməyə məcbur etdi. Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı ilə başlayan böhranı həll etmək məqsədilə ATƏT tərəfindən 1992-ci ildə yaradılan, 1994-cü il dekabrın 6-dan ABŞ, Rusiya, Fransanın həm-sədr olduğu Minsk qrupu təxminən otuz il davam edən bir həlli yolu tapılmayaraq müzakirə cəhdlərindən və atəşkəs çağırışlarından uzağa gedə bilmədi. Azərbaycanla Ermənistan arasında sentyabrın 27-də başlayan və noyabrın 10-da başa çatan 6 həftəlik toqquşma müddətində Minsk qrupu öz passiv xəttini davam etdirdi. Dərhal atəşkəsə, danışıqlara qayıtmağı və üçüncü tərəfin müdaxiləsinin qarşısını almağa çağıran Minsk qrupu yüzlərlə mülki itkinin olduğu 44 günlük münaqişə zamanı problemin həlli üçün sürətli və konkret addımları ata bilmədi. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə baxmayaraq Dağlıq Qarabağın Ermənistan tərəfindən işğal edilmiş torpaqlar olduğu ilə tam razılaşmayan Minsk qrupu Ermənistana təzyiq göstərmək əvəzinə İrəvan rəhbərliyinin ziddiyyətli hərəkətlərinə göz yumdu (4).

Missiyasına və əhatə dairəsinə uyğun olaraq NATO 44 gün davam edən müharibədə münaqişə tərəfi olmadı və fəallıq göstərmədi. Bu məsələdə Azərbaycan və Ermənistanın NATO üzvü olmadıqlarının da rolu vardır. NATO neytral mövqe tutaraq münaqişənin dayandırılması ilə bağlı çağırışlar etməyə üstünlük verdi. Ancaq münaqişə zonasına açıq-aşkar hərbi qüvvə yeritməməsi NATO-nun da baş verən hadisələri arxa planda müşahidə edən siyasət yürütməsinə səbəb oldu. Bu formada 2020-ci il oktyabrın 5-də Ankaraya səfər zamani NATO-nun Baş katibi Yens Stoltenberqin Dağlıq Qarabağ böhranı ilə əlaqədar təşkilatın "heç bir tərəfdə olmadığını",

Türkiyənin NATO ölkəsi kimi bölgədəki nüfuzundan istifadə etməklə gərginliyin zəiflədilməsi üçün arzularını bildirdi. Baş katib hər iki tərəfi atəşkəsin şərtlərini yerinə yetirməyə çağırdı. Mülki əhalinin hədəf alındığının qəbuledilməz olduğunu bildirərək Stoltenberq münaqişənin sülh yolu ilə həll edilməsi üçün addımlar atılmasının lazım gəldiyini, Minsk qrupunun nəzarəti altında aparılan danışıqlara böyük əhəmiyyət verdi.

Avropa İttifaqı da digər beynəlxalq təşkilatlar kimi Qarabağ hadisələrinə passiv münasibət göstərirdi. Avropa İttifaqı bir tərəfdən Qarabağın statusu ilə bağlı Azərbaycanın beynəlxalq hüquqa sadiq olduğunu təsdiqləsə də, digər tərəfdən Ermənistana əsaslı təzyiq göstərmədi. Avropa İttifaqı 44 günlük Vətən müharibəsi dövründə aktiv mövqe tutmaqdan çəkindi, çünki Qarabağ məsələsi Al-ni bilavasitə maraqlandırmırdı. Aİ-nin qanunverici orqanı olan Avropa Parlamentində (AP) bir çox deputatlar isə Avropa ölkələrindəki erməni diaspor təşkilatlarının təsiri altında Avropa İttifaqının Dağlıq Qarabağa müdaxiləsi ilə əlaqədar qərar qəbul edilməsinə bir neçə dəfə cəhd göstərirdilər. Bununla belə, AP-nin bəzi ermənipərəst üzvlərinin səylərinə və canfəşanlığına baxmayaraq Al-nin ali təmsilçisi Jozep Borrell İttifaqın bu münaqişədə tərəf olmayacağını və bu münaqişənin həllinin ATƏT-in Minsk qrupuna həvalə etdirdiyini bildirdi.

SSRİ-nin dağılmasından sonra keçmiş postsovet ölkələrinin Ümumi təhlükəsizliklə bağlı narahatlıqları ilə əlaqədar 1992-ci il mayın 15-də Daşkənddə qurulan KTMT daha sonra Rusiyanın bu bölgədəki nüfuzunu qorumaq üçün istifadə etdiyi mexanizmə çevrildi. Təşkilatın mövcud üzvləri Rusiya, Belarus, Tacikistan, Qazaxıstan, Qırğızıstan və s. Ermənistandır. Ermənistanın KTMT-yə üzv olması üçün ən əhəmiyyətli motivasiyası Dağlıq Qarabağın işğalı ucbatından mümkün Azərbaycan hücumuna qarşı təşkilatın kollektiv müdafiə prinsipindən faydalanmaqdır. İrəvan rəhbərliyi KTMT üzvlüyündən və Rusiyanın bu təşkilatdakı nüfuzundan Azərbaycana qarşı çəkindirici vasitə kimi istifadə etdi. Lakin 44 günlük Qarabağ müharibəsi zamanı Ermənistan rəhbərliyi KTMT-dən gözlədiyi dəstəyi ala bilmədi. Həm KTMT daxilində olan nisbətlər, həm də Ermənistanı Qərbə yaxınlaşdığına görə cəzalandırmaq istəyən Rusiyanın bitərəf qalması İrəvan hökumətinin ümidlərini məhv etdi. 44 günlük müharibə dövründə arabir KTMT-nin Ermənistanı qorumaq üçün müdaxilə edə biləcəyi barədə iddialar irəli sürülsə də, müvafiq bəyanatlardakı ifadələr təşkilatın rəsmi mövqeyini əslində aydın ifadə etmirdi.

Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan və Türkiyənin üzv olduğu Türk Şurası (Türk Məclisi) Qarabağ torpaqlarının işğaldan azad edildiyi 44 günlük müharibə zamanı Azərbaycana tam və qeyd-şərtsiz dəstək verərək bu prosesi fəaliyyətinin əsas məsələlərindən birinə çevirdi. 2020-ci il sentyabrın 28-də müharibənin başlanmasının səhərisi günü Türk Şurası Azərbaycanın ərazi bütövlüyünün qorunmasının zəruriliyini vurğulayaraq aşağıdakı kimi bəyanat verdi: "Türk Şurası beynəlxalq hüququn norma və prinsiplərinə sədaqətini bir daha diqqətə çatdırır və Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycan Respublikasının müstəqilliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında dərhal həll edilməsinin vacibliyini bir daha bəyan edir (5). Bu çərçivədə Türk Şurası BMT Təhlükəsizlik Şurası-nın 1993-cü ildə qəbul etdiyi qətnamələrin yerinə yetirilməsinə, Ermənistanı öz silahlı qüvvələrini Azərbaycan Respublikasının işğal olunmuş bütün ərazilərindən qeyd-şərtsiz və tamamilə çıxarmağa çağırdığını xatırladır".Şuranın Baş Katibi Bağdad Amreyev qarşıdurmanın şiddətləndiyi günlərdə, 2020-ci il oktyabrın 20-də Gəncə şəhərinə səfər etdi, Ermənistanın hücumlarını şiddətlə qınadı və işğalçı qüvvələri Azərbaycan torpaqlarını tərk etməyə çağırdı. Noyabrın 10-da imzalanan üçtərəfli bəyanatdan sonra Türk Şurası Qarabağ məsələsinin Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə

uyğun olaraq həll edilməli olduğunu vurğuladı və suverenliyin təmin edilməsindəki uğruna görə Azərbaycan rəhbərliyini təbrik etdi. Qarabağ Zəfərinin Türk Şurası daxilindəki hərtərəfli əlaqələrinə yeni bir impuls verəcəyi və Türk dünyasında çoxşaxəli inteqrasiya proseslərinə, şura çərçivəsində birlik və həmrəyliyin güclənməsinə töhfə verəcəyi proqnozlaşdırılır.

İslam Əməkdaşlıq Təşkilatının rəhbərliyi qarşıdurmanın şiddətləndiyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini hədəfə aldığı günlərdə, 2020-ci il oktyabrın 18-də xüsusi bəyanat yaydı və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisindəki müxtəlif nöqtələrə, insan tələfatına səbəb olan hücumlarını şiddətlə qınadı. Ermənistan silahlı qüvvələrini işğal olunmuş Azərbaycan torpaqlarından tamamilə çəkilməyə çağıran bəyanatda iki ölkə arasındakı münaqişənin beynəlxalq səviyyədə tanınmış sərhədlərə, ərazi bütövlüyünə hörmət edilməklə siyasi yollarla həll olunmalı olduğunu bildirdi. İslam Əməkdaşlıq Təşkilatından münaqişənin həllində çox şey gözləndiyi halda, Azərbaycan tərəfini dəstəkləyən bəyannamə istisna olmaqla, həmişəki passiv mövqeyini qoruyaraq bu prosesdə heç bir təşəbbüs göstərmədiyi müşahidə edildi.

Beləliklə, Qarabağ müharibəsinə münasibətdə Beynəlxalq Təşkilatlar müxtəlif mövqeydən yanaşmışlar.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Məhəmməd Hüseynov. 44 günlük Zəfər savaşı. Bakı, 2024.
2. "Zəfər yolu Qarabağ savaşından Şuşa bəyannaməsinədək". Bakı, 2021.
3. 44 gün anbaan (rəsmi xronika). Bakı, 2021.
4. "Vətən müharibəsinin 44 günlük Zəfər savaşı" Bakı, 2021.
5. "Qarabağ Azərbaycandır". Bakı, 2020.
6. "Milli Qəhrəmanlar". Bakı, 2020.


## AZƏRBAYCAN POEZİYASINDA QARABAĞ MÜHARİBƏSİ


***Sabir Məmmədov***
***"Dillər, ədəbiyyat və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***vilayetmemmedov1980@mail.ru***
***Fazil Cəfərov***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***faziljafarov@yahoo.com***



***Xülasə:*** *Məqalədə göstərilir ki, dünya elmində və ədəbiyyatında müharibə mövzusunda həmişə fəlakət, ədalət və sülh problemi ilə ayrılmaz şəkildə ifadə olunur. Fəlakətlər seriyalı olan müharibə ədəbiyyatda məhz ona görə təsvir edilir ki, dünyada fəlakətləri sülh və ədalət əvəz etməsinə dair mövqelər və çağırışlar meydana qoyulsun. Müharibə haqqında ən yaxşı əsərlər, müharibə bitdikdən sonra yazılır.*



***Açar sözlər:*** *Ali Baş Komandan, Qarabağ, Vətən savaşı, Dəmir Yumruq*


Poeziyamızda Qarabağ - Vətən müharibəsinin tərənnümünə dair saysız - hesabsız əsərlər yazılmış, bu barədə araşdırmalar aparılmış, ortaya tayı - bərabəri olmayan, zəfərimizdən bəhs edən poetik sənət nümunələri qoyulmuşdur.

Ümumiyyətlə, "Qarabağ" mövzusu, elə poeziya dili ilə desək, daim "Kuliminasiya nöqtəsi" olub və bu belə də qalacaq. Mən də məhz buna görə elmi tədqiqat işimi belə bir aktual mövzuya həsr etmişəm və gələcək nəsillər üçün zəmin yaradaraq fikirlərimi dəqiq məlumatlar, materiallar əsasında çatdırmağa səy göstərmişəm.

Ədəbi çevrədə belə bir deyim var:

"Müharibə haqqında ən yaxşı əsərlər, müharibə bitdikdən sonra yazılır"...

Dünya elmində və ədəbiyyatında müharibə mövzusunda həmişə fəlakət, ədalət və sülh problemi ilə ayrılmaz şəkildə ifadə olunmuşdur. Fəlakətlər seriyalı olan müharibə ədəbiyyatda məhz ona görə təsvir edilib ki, dünyada fəlakətləri sülh və ədalət əvəz etməsinə dair mövqelər və çağırışlar meydana qoyulsun.

Azərbaycan romantizminin əsas yaradıcılarından biri olan Hüseyn Cavidin 1916-cı ildə dahiyanə şəkildə yazdığı "Hərb və Fəlakət" motivi isə ədəbiyyatda müharibə mövzusunun ümumi fəlsəfi əsaslarından ibarətdir.

Qüdrətli şair "Hərb və Fəlakət" şeirində bu fikirləri deyirdi:

...Yığın - yığın bəşəriyyət ölümlə pəncələşir,
Fədayi - nəfs edərək haqq üçün qoşar, güləşir.
Yaxar, yıxar, əzilər, məhv olur,basar,basılar,
Vətən yolunda ölür, öldürür, asar, asılar.
...Siyasət ərləri gur - gur guruldayır hər an,
Böyük səadət umar bu qanlı fırtınadan.
...Qucaq - qucaq edilən dadlı vədlər həp çox,
Sakın inanma! Yalan... yox, zəif üçün haqq yox!
İnanma! Aciz üçün yox hüquq, inanma, hayır,
Cahanda haqq da, həqiqət də hamısı qüvvətdir.

Qüdrətli şair dramaturq Hüseyn Cavidin bu qənaətləri XXI- əsrdə də "siyasət ərlərinin" beynəlxalq hüquq pərdəsi altında gizlədilmiş müharibə fəlsəfəsinin əsaslarını təşkil edir.Müstəqil Azərbaycan Respublikası 30 il ərzində "gur-gur guruldayan" müharibə rejissorlarının beynəlxalq hüquq adı ilə törətdikləri məkrli oyunların əsaslarını yaşamalı olmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev vaxtilə Hüseyn Cavid tərəfindən bəyan edilmiş "Cahanda haqq da, həqiqət də hamısı qüvvətdir" siyasətinin mahiyyətini aydın şəkildə görmək və real olaraq göstərməklə xalqımızı və ölkəmizi bütün istiqamətlər üzrə əzəli- əbədi torpaqlarımızın işğalçılardan azad edilməsinə hazırlamaq və böyük bacarıqla qazandığı tarixi zəfərlə nəticələnən müharibə strategiyası və taktikasını həyata keçirməklə təkcə regionda yox, dünya miqyasında müharibə fəlsəfəsini dəyişdirməyə nail olmuşdur. Məhz Ali Baş Komandan İlham Əliyevin ədalət və rəşadət rəmzi olan Dəmir Yumruğu idarə olunan Qarabağ müharibəsi- Vətən savaşı nəticəsində arxasında güclü havadarları olan ədalətsiz işğalçı yox, öz dövlətinin qüdrətinə, xalqının sarsılmaz birliyinə və ordusunun gücünə inanan və əsaslanan ədalətli ölkə - Azərbaycan qalib gəlmək imkanı qazanmışdır.

Bütün bunlara görə Qarabağ savaşında Prezident İlham Əliyev dünyaya ədalətli müharibə aparıb qalib gəlməyin master klasını təqdim etmişdir.

İkinci Qarabağ müharibəsinin başlandığı 27 sentyabr 2020 - ci ildən Vətən savaşının tarixi zəfərlə bitdiyi 8 noyabradək Azərbaycan ədəbiyyatı döyüşən və qalib gələn əsgər qismində çıxış etmişdir.Yazıçı və şairlərin müxtəlif janrlarda yazılmış əsərlərində Vətən müharibəsinin hər günü, bütün tarixi məqamları cəsarətli bədii sözün iştirakı ilə müşayiət olunmuşdur.Azərbaycan

ədəbiyyatı Qarabağ müharibəsi dövründə bədii sözün PUA-sı funksiyasını yerinə yetirmişdir. Demək olar ki, Ali Baş Komandanın Dəmir Yumruq əməliyyatının hər anında düşmənin başına mərmilərlə yanaşı, ədəbiyyat da güllə kimi yağdırılmışdır. Ona görə də İkinci Qarabağ savaşı dövründə və ondan sonra yaradılmış vətəndaşlıq mövqeyinin önə çəkildiyi Azərbaycan ədəbiyyatı döyüşən, vuruşan, qəhrəmanlıqlar göstərən və qələbə qazanmağa qadir olan fərqli bir müharibə ədəbiyyatı nümunəsinə çevrilmişdir. Bu baxımdan Xalq şairi Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması İkinci Qarabağ müharibəsi dövrünün ədəbi diskursunun mükəmməl nümunəsidir.

"Qarabağa dönüş" poemasının üzvi tərkib hissəsi olan və Vətən müharibəsinin davam etdiyi günlərdə yazılmış "Qələbə tvitləri" şeiri Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan müharibə prosesində qəhrəman əsgər qismində iştirak edən mübariz şeirin canlı obrazıdır.

Bu bizim haqq işimiz,ədalət savaşımız,
İntiqam ala-ala dikələcək başımız.
Vur,əsgərim,vur!- deyə əmr eləyir Komandan,
Qoy bir də yurdumuza tökülməsin nahaq qan.
Qayıtsın Qarabağ yenə xoşbəxt çağımız,
Başımızın üstündə üçrəngli bayrağımız!
Qovun öz yuvasına quduzlaşan itləri,

Ali Baş Komandan haqqında yazılmış əsərlərdən çoxcildlik bir kitab bağlamaq olar.Bu mənada istedadlı şair Barat Vüsalın "Dəmir Yumruq" şeirindəki aşağıdakı misralar Ali Baş Komandan mövzusunda yalnız ədəbiyyatın yox, Azərbaycan xalqının ürəkdən gələn inamlı sözünün mükəmməl poetik diskursudur.

Ən qədim olan silahdı,
Ən müasir son silahdı,
Dəmir yumruq!
... Nə qədər ki,yumruqlar var,
Hamısını yenib olub- Dəmir Yumruq!

Daha bir mükəmməl şeir nümunəsi isə,Sabir Rüstəm oğlunun yazmış olduğu "Ali Baş Komandan" şeiridir:

Baş Komandan əmr verdi!
Düşmən üstə hücum dedi,
İrəliyə gedin dedi,
Daşnakları əzin dedi.
Pələng kimi sıçradılar,
Yağıların üzərinə,
Nərələri qalxdı ərşə,
Tufan qopdu yerə- göyə.
Pərən- pərən oldu, düşmən,
İgidlikdən dəm vuranlar,
Heç bir şeyi bacarmadan,
Diz çökdülər önümüzdə.
Bayraqdarlar,itiqovanlar,
Ermənini məhv etdilər.
"Dəmir Yumruq" əzdi başın,
Vəhşi düşmən, cəlladların.

Var ol səni, Baş Komandan!
Qarabağı azad etdin.
Xalqımızın ürəyində,
Sən əbədi günəş oldun!
Milli bir Qəhrəman oldun!

Məqalədə nəticə hissəsində bu qənaətə gəlmişəm ki,ilk əvvəldə də qeyd etdiyim kimi, müharibə haqqında ən yaxşı əsər, doğurdan da, müharibə bitdikdən sonra yazılır. Bu cümlə öz təsdiqini bu tədqiqat işində tapdı və bu cür əsərlər daha çox yazılacaq.

"Vətən yaxşıdır" musiqisində" Vətən arzusuyla nəğmələr qoşdum" misrası keçir,lakin artıq işğalda olan torpaqlarımızı arzu etmirik,vətənimizi arzulamırıq,həmin o torpaqlarda zəfər musiqiləri səsləndiririk."Həsrət" kəliməsini "Zəfər" kəliməsi ilə igid Xudayarımızın timsalında şəhidlərimizin, qazilərimizin, əsgərlərimizin və ən əsası Ali Baş Komandanımızın şücaəti nəticəsində əvəz etmişik.

**İstifadə olunmuş ədəbiyyat:**


1. "Zəfər yolu.Qarabağ savaşında Şuşa bəyannaməsinədək". Bakı, 2021.
2. "44 günlük anbaan" ( rəsmi xronika). Bakı, 2021.
3. "Vətən muharibəsinin 44 günlük Zəfər səlnaməsi". Bakı, 2021.
4. "Qarabağ zəfəri 44 günlük pərdəarxası Bakı, 2021.
5. Məhəmməd Hüseynov. 44 günlük zəfər savaşı. Bakı, 2024.
6. İnternet resursları.


## AZƏRBAYCANIN DAĞLIQ QARABAĞ BÖLGƏSİNDƏ HƏYATA KEÇİRDİYİ ANTİTERROR ƏMƏLİYYATI VƏ ONUN TARİXİ ƏHƏMİYYƏTİ (2023-CÜ İL 19-20 SENTYABR)


***Yaqub Səmədov***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının dosenti***
***yaqub.semedov63@mail.ru***



***Xülasə:*** *Beləliklə, 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və separatçılara ağır zərbələr vuruldu. Düşmənin qüdrətli ordumuzun qarşısında 23 saat 43 dəqiqə dayanmağa gücü çatdı. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Ordumuzun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı hərbi qulluqçularımız böyük igidlik və qəhrəmanlıq göstərdilər. 19 sentyabrda uğurla həyata keçirilən bu tədbirlər nəticəsində Qarabağda erməni separatizminə son qoyuldu.*



***Açar sözlər:*** *Azərbaycan ordusu, erməni seperatçıları, anriterror, əməliyyat, müqavilə*


2020-ci ilin sentyabr ayının 27- də başlanan və 44 gün davam edən İkinci Qarabağ müharibəsi dövründə rəşadətli ordumuz erməni işğalı altında olan torpaqlarımızı işğaldan azad etdi. Azərbaycan ordusu bu qələbə ilə bütün dünyaya öz qüdrətini göstərdi. Lakin ordumuzun bu qələbəsini həzm etməyən ermənilər 2020-ci ildən - 2023-cü ilə kimi Azərbaycan tərəfindən

dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq yenə də, öz fitnəkar əməllərindən əl çəkmir xalqımıza qarşı yenə də, müxtəlif təxribatlara əl atırdılar.

Xüsusilə də, 2023-cü ilin martında bu təxribatlar sözün əsl mənasında, özünün kulminasiya nöqtəsinə çatdı. Erməni işğalçı hərbi birləşmələrinin təxribatı nəticəsində əvvəlcə Şuşa [1], aprel-may aylarında isə şərti Azərbaycan- Ermənistan sərhəddində tərəflər arasında silahlı toqquşmalar baş verdi.

2023-cü il aprel ayının 23-də Azərbaycan Dövlət Sərhəd Xidməti 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın müddəalarına uyğun olaraq Azərbaycan ərazisində mövcud olan qeyri-qanuni erməni silahlı dəstələrinin Ermənistan tərəfindən canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrlə təminatının qarşısının alınması, ölkəmizin təhlükəsizliyinin təmin olunması istiqamətində mühüm tədbirlərin həyata keçirilməsini nəzərdə tutan mühüm qərarlar qəbul etdi.

Digər tərəfdən, Qarabağda antiterror əməliyyatının həyata keçiriləcəyi ilə bağlı məlumatlar sentyabrın 18-də Azərbaycan Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici Siyasət Məsələləri Şöbəsinin müdiri Hikmət Hacıyevin ölkəmizdə fəaliyyət göstərən xarici diplomatik korpusun nümayəndələri üçün təşkil olunan brifinqdə də elan etdi: "Son günlər, həm Azərbaycan və Ermənistan arasında delimitasiya olunmamış sərhəd boyunca, həm də Qarabağ bölgəsində hərbi - mühəndislik işlərinin və digər hərbi quruculuq fəaliyyətinin artması ilə müşayiət olunan hərbi təxribatların intensivləşməsi müşahidə olunur. Ermənistan açıq şəkildə növbəti təcavüzkar hərbi əməliyyatları həyata keçirmək üçün əlavə səngərlər qazır, istehkamlar qurur, şəxsi heyətin sayını artırır və münaqişəli ərazilərə texnika toplayır".

Ermənistan Respublikasının bu təxribatçı əməlləri Azərbaycan Müdafiə Nazirliyinin də diqqətindən kənarda qalmadı. Nazirliyin məlumatında qeyd edilirdi ki, "Ermənistan tərəfindən "döyüş mövqelərinin şəxsi heyət, zirehli texnika, artilleriya qurğuları və digər atəş vasitələri ilə gücləndirilməsi, erməni hərbi birləşmələrinin yüksək döyüş hazırlığı vəziyyətinə gətirilməsi, səfərbərlik üzrə əlavə bölmələrin yaradılması, Azərbaycan Ordusunun bölmələrinə qarşı kəşfiyyat fəaliyyətlərinin genişləndirilməsi, mövqelərimizin dərinliyində mülki təyinatlı minalardan təmizlənmiş ərazilərin və mülki yolların terror-təxribat məqsədilə yenidən minalanması" Azərbayca Respublikasını adekvat tədbirlər görməyə məcbur edir.

Lakin verilən bəyanatlara baxmayaraq erməni seperatçıları yenə də, öz təxribatçı fəaliyyətlərini davam etdirirdilər. Belə ki, 2023-cü il sentyabrın 18-də isə ermənilərin yol üzərində yerləşdirdiyi minalardan 6 Azərbaycan vətəndaşı öz həyatını itirdi [2]. Bunun ardınca, yəni sentyabrın 19-da saat 01:00 radələrində Füzuli rayonu ərazisində Azərbaycan vətəndaşlarına qarşı törədilən terror-təxribat əməlləri nəticəsində ağır yol-nəqliyyat hadisəsi baş verdi, avtomobilin aşması nəticəsində DİN-in 3 polisi əməkdaçı həyatını itirdi, 6 polis əməkdaşının isə müxtəlif dərəcəli bədən xəsarətləri aldı.

Ona görə də, mövcud ağır hərbi-siyasi durum Azərbaycanın bu bölgəsində Respublikanın Konstitusiya quruluşunun bərpa edilməsi istiqamətində lokal xarakterli antiterror əməliyyatının həyata keçirilməsi zərurətini tam kəskinliyi ilə qarşıya qoyuldu. 2023-cü ilin sentyabrın 19-da başlanan - 23 saat 46 dəqiqə davam edən antiterror əməliyyatı sentyabrın 20-də Azərbaycan ordusunun erməni hərbi birləşmələri üzərində tam qələbəsi ilə başa çatdı. Bu qələbə sayəsində ölkəmizin ərazi bütövlüyü və suverenliyi köklü şəkildə öz həllini tapdı. Bu qələbə sayəsində

Azərbaycan ordusu həm ermənilərə, həmçinin onun havadarlarına öz gücünü və qüdrətini bir daha göstərdi.

Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, cəmi bir sutka ərzində 406 kvadratkilometr ərazi yad ünsürlərdən təmizlənərək Ordumuzun tam nəzarəti altına alındı. Əməliyyat zamanı düşmən ölən 310 nəfər və yaralı 614 nəfər olmaqla xeyli canlı qüvvə itirdi. Ordumuzun dəqiq zərbələri nəticəsində düşmənin 8 tankı, 22 artilleriya qurğusu, 14 minaatanı, 3 zenit kompleksi, 8 radioelektron mübarizə vasitələri, 9 hərbi nəqliyyat vasitəsi olmaqla çoxsaylı silah və texnikası məhv edildi. Bundan başqa, 1731 müxtəlif döyüş texnikası, eləcə də 18 min 664 atıcı silah ələ keçirildi [3].

2023-cü il sentyabrın 20-də, saat 13:00-da əldə olunan razılığa əsasən, Azərbaycanın Qarabağ bölgəsində yerləşən silahlı Ermənistan hərbi qüvvələri, yerli qeyri- qanuni erməni silahlı dəstələri silahı yerə qoymalı, döyüş mövqelərindən və hərbi postlardan çıxmalı, Azərbaycan ərazilərini tərk etməli, qanunsuz silahlı dəstələr buraxılmalı, silah-sursatı təhvil verilməli və bütün bu proseslər isə bütövlükdə Rusiya Sülhməramlı Kontingenti ilə əlaqələndirilmiş formada həyata keçirilməli idi.

Sentyabrın 20-də hərbi əməliyyatların dayandırılması barədə razılıq əldə olunsa da, lakin, erməni xəyanətkarlığı nəticəsində döyüşlər sentyabrın 21-də də davam etdirildi. Bununla belə, müqavimətin mənasız olduğunu anlayan Qarabağın erməni əhalisinin bir qrup nümayəndəsi 2023-cü il sentyabrın 20-də əldə olunan sazişə uyğun olaraq sentyabrın 21-də səhər saat 9:00 radələrində görüş üçün Yevlax şəhərinə gəldi və ilkin görüşlər keçirildi. Görüşdə Azərbaycan Respublikasının Konstitusiyası və qanunları əsasında Qarabağın yerli erməni əhalisinin inteqrasiyası və digər məsələlər mühüm yer tutdu.

Beləliklə, 19 sentyabr 2023-cü ildə Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı Ermənistan ordusunun tör-töküntülərinə və separatçılara ağır zərbələr vuruldu. Düşmənin qüdrətli ordumuzun qarşısında 23 saat 43 dəqiqə dayanmağa gücü çatdı [4]. Ağır itkilər verən işğalçılar ağ bayraq qaldıraraq təslim oldular. Ordumuzun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri zamanı hərbi qulluqçularımız böyük igidlik və qəhrəmanlıq göstərdilər. 19 sentyabrda uğurla həyata keçirilən bu tədbirlər nəticəsində Qarabağda erməni separatizminə son qoyuldu.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Həbibov H. Şanlı Qələbələr ayı – Sentyabr. https://tv.ikisahil.az/post/542339-shanli-qelebeler-ayi-sentyabr12.09.2024
2. Süleymanov M. 19–20 sentyabr antiterror əməliyyatı Qarabağda erməni separatizminə son qoydu.https://xalqqazeti.az/az/siyaset/194176-1920-sentyabr-antiterror-emeliyyati-qarabagda. 19.09.2024
3. Hərb tariximizin ən parlaq səhifələrindən olan antiterror əməliyyatından bir il ötür. https://azertag.maz/xeber/herb_tariximizin_en_parlaq_sehifelerinden_olan_antiterror_emeliyyatindan_bir_il_otur-3186266. 19.09.2024
4. Müstafayev O., Məhərrəmov V. Tariximizin qürur duyulası səhifəsi. https://mod.gov.az/az pre/49701.html 07.10.2023

# BÖYÜK ZƏFƏRƏ GEDƏN YOL

***Əzizağa Həziyev, b/m.***
***“Tələbə və məzunlarla iş” şöbəsinin pedaqoji təcrübə rəhbəri***

***Xülasə:*** *Tezisdə bildirilir ki, Böyük Zəfərə gedən yolun başlanğıcı Aprel döyüşlərindən başlayır. Aprel döyüşləri Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılan şanlı Vətən müharibəsində böyük Zəfərə gedən yolda mühüm əhəmiyyət kəsb edir. Bu döyüşlərdə düşmən üzərində qazanılan hərbi uğurlar Azərbaycan Ordusunun və xalqının böyük Qələbəyə inamını və əzmini daha da artırmaqla yanaşı, Silahlı Qüvvələrimizin şəxsi heyəti üçün böyük təcrübə oldu. Bu döyüşlər həm də düşmən mövqelərini və onların potensialını öyrənmək imkanı yaratdı. Məhz bu təcrübəni Vətən müharibəsində uğurla tətbiq edən rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək torpaqlarımızı 44 gündə işğaldan azad etdi.*

***Açar sözlər:*** *Aprel döyüşləri, Lələtəpə yüksəkliyi, Xankəndi, Zəfər paradı*

2016-cı ilin aprelində Ermənistan silahlı qüvvələrinin qoşunların təmas xəttində ardıcıl təxribatlarına cavab olaraq keçirilmiş uğurlu əks-hücum əməliyyatı hərb tariximizə əbədi yazılıb. Azərbaycan xalqının və ordumuzun qəhrəmanlığının nümayişi olan Aprel döyüşləri Vətən müharibəsinin ilkin məşqi və tarixi Zəfərə aparan yolun başlanğıcı kimi dəyərləndirilir.

2016-cı il aprelin 2-də Ordumuz düşməni ağır məğlubiyyətə uğradaraq, Füzuli, Cəbrayıl və Ağdərə rayonlarının işğal altındakı ərazilərinin 2 min hektardan çox hissəsini azad etdi. Həmçinin minlərlə hektar ərazi Azərbaycan Ordusunun tam nəzarətinə keçdi.

Azərbaycan Ordusu dördgünlük Aprel döyüşləri ilə 23 ildən sonra xalqımıza ilk böyük qələbə sevinci bəxş etdi.

2016-cı il aprelin 2-nə keçən gecə düşmən bütün mövqelərimizi, eyni zamanda, mülki əhalini atəşə tutmağa başladı. Azərbaycan komandanlığı dərhal adekvat tədbirlər görülməsi ilə bağlı qərar qəbul etdi. Ordumuzun cavab zərbələri ilə düşmən müdafiəsinin ön xəttində və dərinliyində yerləşən çox sayda canlı qüvvə və hərbi texnika sıradan çıxarıldı.

O vaxt cəbhənin ən gərgin nöqtələrindən biri Ağdərə-Tərtər-Ağdam və Füzuli istiqaməti idi. Uğurlu əməliyyatlar nəticəsində Tərtər rayonunun Talış kəndi istiqamətindəki yüksəkliklər işğalçılardan təmizləndi. Bununla da Naftalan şəhərinə yarana biləcək təhlükə aradan qaldırılmış oldu. Həmçinin geniş ərazini nəzarətdə saxlamaq imkanı verən olduqca strateji əhəmiyyətli Lələtəpə yüksəkliyi ordumuzun nəzarətinə keçdi.

Ağır döyüşlərin gedişində düşmənin 30-dək tankı, 25-dən çox artilleriya qurğusu və digər zirehli texnikası məhv edildi, erməni tərəfinin ölü və yaralı olaraq 800-dən çox hərbçisi zərərsizləşdirildi. Suqovuşan yaşayış məntəqəsinə yerləşən düşmən qərargahı və əsas hərbi hissələri dağıdıldı. Bununla da Ağdərə-Suqovuşan, Cəbrayıl istiqamətindəki yolları nəzarətdə saxlamaq imkanı əldə olundu.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri igidliyə görə xüsusi fərqlənən bir qrup hərbçi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə yüksək fəxri ada, orden və medallara layiq görülüb.

Vətən qarşısındakı xidmətlərinə görə mükafatlandırılanlar arasında “Azərbaycanın Milli Qəhrəmanı” fəxri adına, “Azərbaycan Bayrağı” və “Vətənə xidmətə görə” ordenlərinə, “Vətən uğrunda”, “İgidliyə görə” və “Hərbi xidmətlərə görə” medallarına layiq görülənlər var. “Aprel döyüşləri, eyni zamanda, ordumuzun peşəkarlığını göstərmişdir. Ordumuz əlverişsiz mövqelərdən əks-hücum əməliyyatı apararaq strateji mövqelərə sahib oldu. Bu gün bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər bizə imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edək və istədiyimiz tədbiri görə bilək”, - Prezident, Ali Baş Komandan İlham Əliyevin Aprel döyüşlərinin ildönümü ilə əlaqədar bir qrup hərbçimizlə görüşündə dediyi bu sözlər həmin qələbənin strateji əhəmiyyətini tam dəqiqliyi ilə ifadə edir.

Onu da qeyd edək ki, Lələtəpə yüksəkliyinin azad edilməsi nəticəsində mülki əhalinin Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə qayıdışı mümkün oldu. Bu kəndin sakinlərinin 23 illik fasilədən sonra doğma torpaqlarına qayıtması işğal altındakı digər ərazilərimizin də tezliklə azad olunacağına dərin inam yaratdı.

Azadlığa qovuşmuş ərazilərin əzəli sahibləri Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində öz yurdlarına dönəcəklər. Şəhidlərimizin, igid əsgər və zabitlərimizin fədakarlığı, peşəkarlığı, qəhrəmanlığı nəticəsində bu gün azad olunmuş torpaqlara həyat qayıdır. Geniş quruculuq işləri aparılaraq artıq keçmiş köçkünləri öz dədə-baba torpaqlarına pənah gətirirlər və bu il bu proses davam edəcək. Bu günədək işğaldan azad olunmuş üç kəndə və iki şəhərə keçmiş məcburi köçkünlərin qayıdışı təmin edilib. Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış, Laçın rayonunun Zabux kəndlərinə, Laçın şəhərinə, Füzuli şəhərinə çoxlu sayda ailələr qayıdıb.

Uğurlu Aprel döyüşlərindən ruhlanan Azərbaycan Ordusu iki il sonra daha bir böyük zəfərə imza atdı. 2018-ci ilin mayında Əlahiddə Ümumqoşun Ordu tərəfindən Naxçıvanın Günnüt kəndi və ətraf ərazilərin nəzarət altına alınması bir daha göstərdi ki, əsgər və zabitlərimiz qarşıya qoyulan istənilən tapşırığı yerinə yetirmək əzmindədir.

Aprel döyüşləri Azərbaycanın hərb salnaməsinə qızıl hərflərlə yazılan şanlı Vətən müharibəsində böyük Zəfərə gedən yolda mühüm əhəmiyyət kəsb edir. Bu döyüşlərdə düşmən üzərində qazanılan hərbi uğurlar Azərbaycan Ordusunun və xalqının böyük Qələbəyə inamını və əzmini daha da artırmaqla yanaşı, Silahlı Qüvvələrimizin şəxsi heyəti üçün böyük təcrübə oldu. Bu döyüşlər həm də düşmən mövqelərini və onların potensialını öyrənmək imkanı yaratdı. Məhz bu təcrübəni Vətən müharibəsində uğurla tətbiq edən rəşadətli Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr endirərək torpaqlarımızı 44 gündə işğaldan azad etdi.

Qarabağ Zəfərinin davamı olaraq, 2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun apardığı bir günlük uğurlu lokal xarakterli antiterror tədbirləri nəticəsində ölkəmiz həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi.

Xankəndidə keçirilən Zəfər paradı Azərbaycanın gücünün və Ordumuzun qüdrətinin daha bir parlaq nümayişi kimi tarix səhifələrinə yazıldı.

Lələtəpədə ucaldılan üçrəngli Bayrağımız bu gün Qarabağın və Şərqi Zəngəzurun hər bir guşəsində – Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Kəlbəcərdə, Ağdamda, Şuşada, Hadrutda, Laçında, Əsgəranda, Xocavənddə, Ağdərədə, Xocalıda və Xankəndidə dalğalanır.

Son illər şanlı döyüş yolu keçən Azərbaycan Silahlı Qüvvələri hazırda özünün ən qüdrətli mərhələsini yaşayır. Bu yolda mühüm yer tutan Aprel döyüşləri Vətən müharibəsindəki böyük Qələbənin müjdəçisi olan tarix kimi əbədiləşib.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Müstafayev O., Məhərrəmov V. Tariximizin qürur duyulası səhifəsi. https://mod.gov.az/az pre/49701.html 07.10.2023
2. https://science.gov.az
3. “Vətən müharibəsinin 44 günlük Zəfər Səlnaməsi”. Bakı, 2021.

## QARABAĞ MÜHARİBƏSİNDƏ QƏLƏBƏMİZ PREZİDENT İLHAM ƏLİYEVİN UĞURLU DAXİLİ VƏ XARİCİ SİYASƏTİNİN NƏTİCƏSİ KİMİ

***Mahir Səlimov, dosent***
***Tərbiyə işləri üzrə direktor müavini***
***mahir.0707@mail.ru***
***Əzizağa Həziyev, b/m.***
***“Tələbə və məzunlarla iş” şöbəsinin təcrübə rəhbəri***

***Xülasə:*** *Qarabağ müharibəsində qələbəmizin təmin olunmasında ölkə başçısı Ali Baş Komandan İlham Əliyevin yeritdiyi müdrik daxili və xarici siyasəti mühüm yer tutur. Müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində qələbəsi hər bir azərbaycanlının qəlbində qürur hissi ilə canlanır. Dünya miqyasının siyasi arenasında öz xüsusi çəkisi, yeri olan İlham Əliyev xalqını dünyaya tanıdan, özü də yeni bir şanslı tarix yazan liderlərdən, sərkərdələrdəndir. Hərbi sənayemizin inkişafına böyük diqqət yetirən ölkə başçımız İlham Əliyevin ordumuzu dünya standartlarına cavab verən müasir hərbi texnika ilə təmin etməsi, əlbəttə ki, düşmənə endirilən sarsıdıcı zərbələrdə öz sözünü dedi.*

***Açar sözlər:*** *Prezident, Ali Baş Komandan, II Qarabağ müharibəsi, Cənubi Qafqaz, ağıllı strategiyası.*

II Qarabağ müharibəsində qələbəmizin təmin olunmasında ölkə başçısı Ali Baş Komandan İlham Əliyevin yeritdiyi müdrik daxili və xarici siyasəti mühüm yer tutur. Müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində qələbəsi hər bir azərbaycanlının qəlbində qürur hissi ilə canlanır. Dünya miqyasının siyasi arenasında öz xüsusi çəkisi, yeri olan İlham Əliyev xalqını dünyaya tanıdan, özü də yeni bir şanslı tarix yazan liderlərdən, sərkərdələrdəndir (1).

Hərbi sənayemizin inkişafına böyük diqqət yetirən ölkə başçımız İlham Əliyevin ordumuzu dünya standartlarına cavab verən müasir hərbi texnika ilə təmin etməsi, əlbəttə ki, düşmənə endirilən sarsıdıcı zərbələrdə öz sözünü dedi. Dəmir intizamlı ordu, Ali Baş Komandanın qətiyyətli iradəsi və düşünülmüş əmrləri ilə uğurlu hərbi əməliyyatlar aparmağa başladı. Respublika Prezidenti, Ali Baş Komandan cəmiyyətdə xalqın, bütün siyasi partiyaların, müxalifətin birliyinə nail olaraq ordunu səfərbər etdi. Beləliklə Xalq-Dövlət-Ordu birliyi, qələbəyə aparan yolda mayak rolunu oynadı.Vətən müharibəsi dövründə uğur, zəfər dalınca zəfər bizi müşayiət etdi. Otuz il həsrətində olduğumuz rayonların və bir çox yaşayış məntəqələrinin düşməndən geri alınması qələbəyə gedən yolumuzu daha da tezləşdirdi. Otuz il bizi, dünya ictimaiyyətini, ATƏT-in Minsk qrupunu aldadan Ermənistan rəhbərliyi sözdə sülh tərəfdarı olduğunu, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həllinin mümkünlüyünü bəyan edirdi, əməldə isə tam əksinə, Dağlıq Qarabağda, Füzulidə, Cəbrayılda, Ağdamda, Ağdərədə beton konstruksiyalı müasir müdafiə

istehkamları quraraq, işğal etdiyi torpaqları qaytarmamaq üçün bədnam, hiyləgər planlarını həyata keçirirdi (1).

44 günlük Vətən müharibəsində ağır itkilər, şəhidlər hesabına bu istehkamlar dağıdıldı, düşmənin 60% hərbi texnikası, minlərlə əsgər və zabiti məhv edildi, çox sayda hərbi texnika və silah-sursat qənimət olaraq götürüldü.Torpaqlarımızın düşmən tapdağından təmizlənməsində bütün zəfərlərimiz dəyərlidir, tarixi əhəmiyyət kəsb edir. Lakin zəfərimizin, qalibiyyətimizin zirvəsi Azərbaycanın mədəniyyət beşiyi, konservatoriyası, Qarabağın mirvarisi qədim Şuşa şəhərinin alınmaz qalanın düşməndən azad olunması bütün nisgilə, kədərə, həsrətə, ümidsizliyə, bədbinliyə, intizar və yaşlı gözlərə son qoydu.Noyabrın 10-da Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin, Ermənistanın baş naziri Nikol Paşinyanın birgə imzaladıqları Bəyanata uyğun olaraq hərbi münaqişəyə son qoyuldu. Əldə edilən razılığa görə işğaldan azad etdiyimiz bütün torpaqlar və yaşayış məntəqələri bizə qaldı. 2020-ci il dekabrın 1-ə kimi isə heç bir döyüş əməliyyatı aparılmadan Ağdam, Kəlbəcər və Laçın rayonu Azərbaycana qaytarıldı. Bu Ermənistan Respublikasının tam kapitulyasiyası, Azərbaycan Respublikasının, Azərbaycan xalqının isə gözlənilən qələbəsi demək idi. 44 günlük Qarabağ döyüşlərində, tam məsuliyyətlə demək olar ki, müzəffər Azərbaycan Ordusu şanlı tarix yazdı. Hətta bir çox xarici hərbi ekspertlər Azərbaycan ordusunun hərbi yeniliklərə imza atmalarını xüsusi vurğulayırlar. Azərbaycan ordusu müasir dövrdə müasir silahlardan istifadə edərək zəfər çalan ilk filialının Tədris və elmi işlər üzrə direktor müavini ordudur. Qətiyyətlə söyləyə bilərik ki, Vətən müharibəsində bu şanlı tarixin yazılmasının əsas memarı Ali Baş Komandan, qalib sərkərdə İlham Əliyevdir.Cənubi Qafqazda qalibiyyətin ilk sahibi olan İlham Əliyev xalqı, bütün siyasi, müxtəlif qüvvələri ətrafında bir araya yığaraq, yumruq şəkildə birlik nümayiş etdirdi. Tarixi qələbəni bizə bəxş etdi (2).

Cənab Prezident informasiya cəbhəsini, diplomatik sədləri aşdı, xalqın haqq səsini dünyaya çatdırdı, ədalət sərgilədi. BMT-nin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı qəbul etdiyi məlum 4 qətnaməni təkbaşına icra etdi. Xalqın məhəbbətini, sevgisini əbədi olaraq qazandı. Xalq qəhrəman, xilaskar, sərkərdə oğlu ilə fəxr edir, qürur hissi keçirir. O şəhidlərimizin qanının yerdə qalmaması üçün, tarixi dədə-baba torpaqlarımızın işğaldan azad olunaraq müstəqil Azərbaycan Respublikasının üçrəngli, ay-ulduzlu bayrağını müqəddəs Vətən torpaqlarında yenidən dalğalanması üçün qüvvəsini əsirgəmədi.Bu gün biz qürurla başıuca, alnıaçıq, üzüağ gəzə bilirik.

Bu xoşbəxtliyin isə bizə cənab Prezident, Ali Baş Komandan İlham Əliyev bəxş edib. Onun müdrikliyi, uzaqgörənliyi, qətiyyəti sayəsində Azərbaycan xalqı qalib xalq kimi dünya birliyində özünə yer tutdu.Prezident İlham Əliyev xalqa rəhbərlik etdiyi dövrdən bu günə qədər uğurlu siyasəti ilə Azərbaycanı gündən-günə inkişaf etdirməklə dünya ölkələri sırasında mühüm yer tutmasına nail oldu. Prezidentlik dönəmində bütün imkanlarını Azərbaycan xalqının rifahının yaxşılaşdırılmasına, ölkəmizin inkişafına sərf edən cənab İlham Əliyev 30 il erməni işğalı altında saxlanılan torpağımızı qısa müddətdə işğaldan azad etməklə tarix yazdı (3).

Bu günlər Azərbaycan xalqı öz əzmi ilə bütün dünyaya, sözün həqiqi mənasında birlik və həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirdi. Biz birlikdə güclüyük!. Tam əminliklə deyə bilərik ki, cəbhədəki uğurlamızın ən başlıca səbəbi Prezident, Ali Baş Komandan İlham Əliyevin Prezidentlik dönəmində həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası, milli birlik və döyüşçülərimizin ruh yüksəkliyi Silahlı qüvvələrimizdən söz düşmüşkən bir məqamı da vurğulamaq istərdik. Belə ki, Azərbaycan döyüşlərdə hərb tarixinə yenilik kimi düşən strategiyanın tətbiqi ilə ən müasir silahlardan İstifadəyə xüsusi önəm verdi. Nəticədə həm sürətlə irəlilədi, işğal

altındakı ərazilərimizi yağılardan təmizlədi, həm də düşmənin bütün hərbi texnikasını darmadağın etdi, canlı qüvvəsinə ciddi zərbə vurdu. Bununla da beynəlxalq təşkilatların 30 il ərzində edə bilmədiklərini Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə qısa müddətdə gerçəkləşdirdi.Ordumuzun əks-həmlə əməliyyatları zamanı müasir texnoloji silahlarla düşmənin komanda idarəetmə məntəqələrini, raket və artilleriya vasitələrini, döyüş texnikasını və təminatını sıradan çıxararaq, onu faktiki olaraq iflic vəziyyətinə saldı. Müharibənin taleyini həll edən başda Ali Baş Komandanımız olmaqla, döyüş meydanında əsl qəhrəmanlıq göstərən Azərbaycan əsgəri və onun cəsur komandirləri idi.Məhz onların səyi nəticəsində döyüş qabiliyyətini itirən Ermənistan ordusu arsenalında olan köhnə və istismar müddəti bitmiş silah sistemlərini də döyüşə cəlb etdi və nəticəsi rüsvayçı şəkildə uduzmaq oldu. Bununla da Silahlı Qüvvələrimiz "Ermənistan ordusunun məğlubedilməzliyi" mifini darmadağın etdi.Beləliklə, Ali Baş Komandan İlham Əliyevin düzgün hərbi strategiyası nəticəsində sentyabrın 27-də başlanan Vətən müharibəsi şanlı qələbə ilə başa çatdı, 44 gün davam edən hərbi əməliyyatlar çərçivəsində Azərbaycan Ordusu işğalçı Ermənistanın 30 il ərzində qurduğu silahlı qüvvələrini darmadağın edərək böyük zəfərə imza atdı.Ordumuzun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad ediblər. Cəbrayıl həri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbəldi, və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şüküratаz yüksək- ləri və daha 5 adsız yüksəklik yağılardan təmizlədi.Azərbaycan Böyük Qələbənin ilk addım səslərini noyabrın 8- də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Döyüşlərdə bütün dünya Azərbaycan xalqının əzmini, Azərbaycan Ordusunun döyüş qabiliyyətini aydın gördü. Vətənpərvər xalqımızın öz Prezidentini necə dəstəklədiyi, onun ətrafında sıx birləşdiyi bir daha təsdiqləndi (4).

Prezident İlham Əliyev 17 illik hakimiyyəti dövründə isə iri infrastruktur neft-qaz layihələrini həyata keçirdi və bundan əldə edilən böyük həcmli valyuta gəlirləri hesabına bütün Azərbaycan, eləcə də ordu sürətlə inkişaf etdi və regionun ən güclü silahlı qüvvəsinə çevrildi (5).

Müharibənin ilk günlərindən Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqe, beynəlxalq mediaya verilən sərrast və dürüst açıqlamalar, Azərbaycan xalqının haqlı və ədalətli mübarizəsinin dünya ictimaiyyətinə çatdırılması, Ordumuzun göstərdiyi şücaət, yüksək döyüş qabiliyyəti artıq erməni xalqının iradəsini sındırmışdı. Döyüş əməliyyatları başlayan andan deyilmişdi ki, bu müharibə həm də Ermənistanın cinayətkar siyasi rəhbərliyinin sonu olacaq. Həmin siyasi rəhbərlik isə öz qəddar və vandal siyasətinə, barbar əməllərinə davam etməkdə idi. Ermənistan hərbi-siyasi rəhbərliyi o qədər çıxılmaz vəziyyətə düşdülər ki, hətta qadınlardan və qocalardan ibarət hərbi qruplar da təşkil etdilər. Bu da onlara kömək edə bilmədi, yenə döyüşdə olan erməni əhalisi savaşmaqdan imtina edirdi. Müharibənin başladığı ilk zamanlar Ermənistanın baş naziri Nikol Paşinyan uzun müddət müharibənin dayandırılması məqsədilə xarici dövlət başçılarına – Fransa Prezidenti Makron, Rusiya Prezidenti Putinə yalvardı. Dövlət başçımızın dəmir iradəsi, Azərbaycan xalqının öz liderinə inamı, ordumuzun ruh yüksəkliyini görəndən, üstəgəl noyabrın 8-də Şuşanın azad edilməsindən sonra çıxılmazlıq labirintinə düşdü və noyabrın 10-da Ermənistanın xain baş nazirinin razılaşma

kapitulyasiyasını imzalamaqdan başqa yolu qalmadı. Biz qalib ölkə olaraq Ermənistana kapitulyasiya aktını imzalatmağı bacardıq. Paşinyan daha böyük itkilərdən yaxa qurtarmaq məqsədilə bu imzanı atsa da, ölkəsində ona qarşı etirazlar sürətlə artdı. Ermənistanın siyasi rəhbərliyi bütün xəbərdarlıqlara baxmayaraq öz şovinist siyasətindən əl çəkməməsi onun üçün döyüş meydanında məğlubiyyəti qaçılmaz etdi. Ermənistanın baş naziri onsuz da çətin iqtisadi durumda olan ölkəsini maliyyə itkiləri ilə bağlı lap pis vəziyyətə saldı.Cəmi 44 gün davam edəcək Vətən müharibəsi nəinki ərazilərimizin azad edilməsinə, eyni zamanda işğalçılığa son qoyulmasına, eləcə də 30 ilə yaxın davam edən münaqişənin həllinə gətirib çıxartdı. Bu baxımdan Azərbaycan xalqının qələbəsi fövqəladə tarixi əhəmiyyətə malikdir. Bunu təkcə dostlarımız deyil, hətta bizim uğurlarımıza qısqanclıqla yanaşanlar da etiraf edirlər.Azərbaycan xalqının birliyi, müzəffər Ali Baş Komandanın dəmir iradəsi, sarsılmaz qətiyyəti, Şanlı Ordumuzun qüdrəti, qəlbi vətən sevgisi ilə dolub-daşan hərbçilərin, eləcə də hər bir azərbaycanlının monolit birliyi sayəsində Azərbaycan xalqı zəfər qazandı.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Məhəmməd Hüseynov 44 günlük Zəfər savaşı. Bakı 2024.
2. “Zəfər yolu Qarabağ savaşından Şuşa bəyannaməsinədək” Bakı, 2021.
3. 44 gün anbaan (rəsmi xronika) Bakı 2021.
4. “Vətən müharibəsinin 44 günlük Zəfər savaşı” Bakı, 2021.
5.”Qarabağ Azərbaycandır” Bakı 2020.
6. “Milli Qəhrəmanlar” Bakı 2020.
7. “Xalq qəzeti” 4 oktyabr 2020, 6 oktyabr 2020, 13 oktyabr 2020.

## 30 İLİN HƏSRƏTİ-QƏLƏBƏ SEVİNCİ

***Anar Kərimli***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi, t.ü.f.d,***
***kerimli _ anar@mail.ru***

***Xülasə:*** *Məqalədə göstərilir ki, Azərbaycanın hərbi əməliyyatları 8 noyabr 2020-ci ildə Şuşa şəhərinin azad edilməsi ilə zirvəyə çatdı. Şuşa həm hərbi, həm də mədəni baxımdan Qarabağın ürəyi idi və onun azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpasının əsas rəmzi oldu. Şuşa şəhərinin azad olunması həm də xalqın qələbə hissini yüksək səviyyəyə qaldırdı. Bu, təkcə bir şəhərin azad edilməsi deyildi; bu, millət üçün uzun illərdir gözlənilən qələbə idi.*

***Açar sözlər:*** *Dağlıq Qarabağ, Qarabağ müharibəsi, 8 noyabr 2020-ci il, Şuşa*

Azərbaycan xalqı üçün 8 noyabr tarixi xüsusi bir əhəmiyyət kəsb edir. Bu gün, 2020-ci ildə Qarabağ müharibəsinin başa çatdığı və Azərbaycanın ərazi bütövlüyünün bərpa edildiyi gündür. 8 noyabr Zəfər Günü təkcə hərbi zəfərin deyil, həm də milli qürurun, öz müqəddəratını müəyyən etmə haqqının bərpasının simvoludur. Azərbaycan xalqı üçün bu gün, həm də böyük bir mübarizənin, fədakarlığın və dözümün, həmçinin xalqın dövlətə, ordusuna olan inamının bir göstəricisidir.

Qarabağ münaqişəsi XX əsrin sonlarından bəri Azərbaycanın ərazi bütövlüyünü təhdid edən, eyni zamanda regionda uzun illər ərzində gərginlik yaradan bir problemdir. Sovet İttifaqının dağılmasından sonra Ermənistanın Dağlıq Qarabağda yaşayan erməni əhalisinə dəstək verməsi və

bu ərazini özünə birləşdirmək məqsədilə irəliləməsi ilə başlayıb. 1988-1994-cü illərdə baş verən müharibə nəticəsində Azərbaycan ərazilərinin böyük hissəsi işğal olundu və bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrildi.

1994-cü ildən sonra atəşkəs elan edilsə də, bölgədəki vəziyyət qeyri-sabit olaraq qalmışdı. Uzun illər ərzində Ermənistanla Azərbaycan arasında diplomatik danışıqlar aparılsa da, heç bir ciddi nəticə əldə olunmamışdı. Azərbaycanın ərazi bütövlüyünün bərpası və Dağlıq Qarabağın işğaldan azad edilməsi məsələsi, uzun müddət ölkənin ən mühüm prioritetlərindən biri olaraq qalırdı.

Azərbaycanın 2020-ci ildəki hərbi zəfəri, uzun illər boyu həyata keçirilən hərbi hazırlıqların və diplomatik mübarizənin nəticəsi idi. 2016-cı ildə baş verən "Aprel döyüşləri" Azərbaycan ordusunun döyüş qabiliyyətini və motivasiyasını artırmış, həmçinin Ermənistanın işğalçı siyasətini daha geniş beynəlxalq müstəvidə ifşa etməyə imkan vermişdi.

Azərbaycan prezidenti İlham Əliyev ölkənin müdafiə qabiliyyətini gücləndirmək və Dağlıq Qarabağda baş verən hadisələrə çevik reaksiya vermək məqsədilə müasir silahlar və texnologiyaların alınmasını sürətləndirmişdi. Həmçinin, orduda peşəkarlığın artırılması, hərbi təlimlərin intensivləşdirilməsi, həmçinin dövlətin və xalqın bu məsələyə hazırlığına böyük diqqət verilmişdi.

2020-ci ilin iyul ayında Ermənistanın Tovuz rayonu ərazisindəki hərbi təxribatı müharibənin qarşısını almaq məqsədilə başlanmış danışıqların bir daha uğursuz olduğunu göstərdi. Bu hadisə, həm də Ermənistanın status-kvonu qorumağa çalışdığını və işğalçı siyasətindən əl çəkmək niyyətində olmadığını açıq şəkildə ortaya qoydu. Bu hadisə Azərbaycanın müharibəyə hazırlığını daha da möhkəmləndirdi.

27 sentyabr 2020-ci ildə Ermənistanın Dağlıq Qarabağda yerləşən Azərbaycan mövqelərinə başladığı genişmiqyaslı hücum əslində hər iki ölkənin uzun müddət davam edən gərginliyinin nəticəsi idi. Bu hücum Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək və erməni silahlı qüvvələrini işğal edilmiş torpaqlardan çıxarmaq üçün başlatdığı antiterror əməliyyatının başlanğıcı oldu.

Azərbaycan, beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının qətnamələrinə əsaslanaraq müharibəyə başladığını bildirdi. Azərbaycan ordusu müasir döyüş texnologiyalarından, xüsusilə PUA-lardan (pilotsuz uçan aparat) geniş şəkildə istifadə etdi. Həmçinin, müasir silahlar və aviasiya uğurla istifadə edilərək Ermənistanın müdafiə xətti qırıldı. Azərbaycan ordusunun uğurlu əməliyyatları nəticəsində bir neçə gün ərzində bir çox mühüm strateji mövqelər azad edildi.

Azərbaycanın hərbi əməliyyatları 8 noyabr 2020-ci ildə Şuşa şəhərinin azad edilməsi ilə zirvəyə çatdı. Şuşa həm hərbi, həm də mədəni baxımdan Qarabağın ürəyi idi və onun azad edilməsi Azərbaycanın ərazi bütövlüyünün bərpasının əsas rəmzi oldu. Şuşa şəhərinin azad olunması həm də xalqın qələbə hissini yüksək səviyyəyə qaldırdı. Bu, təkcə bir şəhərin azad edilməsi deyildi; bu, millət üçün uzun illərdir gözlənilən qələbə idi.

Şuşa şəhərinin azad olunması ilə Azərbaycan ordusu Dağlıq Qarabağın mərkəzindəki ən vacib strateji mövqeyi ələ keçirdi və müharibə böyük bir dönüş nöqtəsinə gəldi. Şuşanın azad edilməsi həm də beynəlxalq arenada Azərbaycanın qələbəsini təmsil etdi.

2020-ci ilin 10 noyabr tarixində Azərbaycan, Ermənistan və Rusiya arasında imzalanmış üçtərəfli bəyanat nəticəsində müharibə başa çatdı. Bu bəyanata əsasən, Ermənistan işğal edilmiş əraziləri Azərbaycana təhvil verməyə razı oldu və Rusiya sülhməramlıları bölgəyə yerləşdirildi. Azərbaycan bu saziş nəticəsində geniş əraziləri azad etdi və ərazi bütövlüyünü bərpa etdi.

8 noyabr Zəfər Günü, yalnız hərbi qələbənin simvolu deyil, həm də xalqın müstəqil dövlətə, liderə və orduya olan etibarının təcəssümüdür. Bu gün Azərbaycan xalqı Zəfər Gününü böyük qürur və həyəcanla qeyd edir. Zəfər Günü həm də müharibənin əvvəlindən bu günə qədər çoxsaylı şəhidlərin, itirilmiş həyatların və böyük fədakarlığın xatirəsinin yaşadılmasıdır.

Zəfər Günü, yalnız hərbi və siyasi bir qələbə günü deyil, həm də Azərbaycan xalqının psixoloji vəziyyətini möhkəmləndirən bir gündür. Uzun illər boyu işğal altında qalan torpaqların azad edilməsi, azərbaycanlıların psixologiyasında mühüm dəyişikliklərə səbəb olmuşdur. Xalq öz ərazilərində yenidən həyat qurmağa, öz mədəniyyətini bərpa etməyə, eyni zamanda itirilmiş dəyərlərini geri qaytarmağa başlamışdır.

Eyni zamanda, Zəfər Günü, Azərbaycanın milli birliyinin güclənməsinə, xalqın dövlətinə və liderinə olan inamının artmasına səbəb olmuşdur. Müharibənin gətirdiyi qələbə, Azərbaycanın iqtisadi inkişafına, beynəlxalq nüfuzunun artmasına və regionda yeni siyasi balansların yaranmasına imkan yaratmışdır.

8 noyabr Zəfər Günü, Azərbaycan xalqının tarixində silinməz izlər qoymuş, böyük bir qələbənin, mübarizənin və fədakarlığın simvolu olaraq qalacaqdır. Bu gün sadəcə hərbi qələbə deyil, həm də milli birliyin, vətənpərvərliyin və dövlətə olan güvənin bir göstəricisidir. Azərbaycan xalqı bu günü hər il coşğu ilə qeyd edir və hər zaman bu qələbəni qoruya bilmək üçün bir-birinə dəstək olmağa davam edəcəkdir.

**İstifadə olumuş ədəbiyyat:**

1. Heydər Əliyev. “Müstəqilliyimiz əbədidir”. İyirmi altıncı kitab. Bakı, 2009.
2. Heydər Əliyev. “İnkişaf-məqsədimizdir”. Yüz on doqquzuncu kitab. Bakı, 2009.
3. “Zəfər yolu. Qarabağ savaşından Şuşa bəyannaməsinədək”. Bakı, 2021.
4. “44 gün anbaan…(rəsmi xronika)”. Bakı, 2021.
5. “Vətən müharibəsinin 44 günlük Zəfər Səlnaməsi”. Bakı, 2021.
6. “Qarabağ Zəfəri 44 günün pərdəarxası”. Bakı, 2021.
7. “Qarabağ Azərbaycandır”. Bakı, 2020.
8. Məhəmməd Hüseynov. “44 günlük Zəfər savaşı”. Bakı, 2024.

## ZƏFƏRİN MÜBARƏK, AZAD QARABAĞ

***Sara Məmmədova***
***“Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi***
***sara2024@mail.ru***

***Xülasə:*** *Məqalədə II Qarabağ müharibəsi dövründə Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin böyük sərkərdəlik məharəti, güclü iradəsi və qətiyyəti, müzəffər və yenilməz ordumuzun şücaəti, xalqın Prezidentinə olan birmənalı dəstəyi və onun ətrafında monolit birliyi, Prezidentimizin Azərbaycanın haqq səsinin dünya dövlətlərinə və ictimaiyyətinə tutarlı faktlarla çatdırması məsələlərinin dövrü mətbuat materialları əsasında təhlilinə cəhd göstərilmişdir.*

***Açar sözlər:*** *Vətən müharibəsi, zəfər, sərkərdə, Ali Baş Komandan, erməni faşizmi, Azərbaycan Ordusu*

2020-ci ilin 27 sentyabrı! Bu tarix bizi böyük Qələbəyə aparan yolun başlanğıc götürdüyü tarixdir. Məhz həmin gündən başlayaraq “Qarabağ Azərbaycandır!” deyərək haqq savaşına çıxdıq.

İkinci Qarabağ savaşına qədər bizi görməyən, görmək istəməyən bütün dünyaya, beynəlxalq aləmə qüdrətli, əzəmətli Azərbaycan dövlətinin var olduğunu, hər an qalib gələ biləcək bir dövlətin mövcudluğunu bir daha nümayiş etdirdik. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin əzmi, iradəsi, qətiyyətli mövqeyi, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində bütün dünya qarşılarında başqa bir Azərbaycanı gördü və görməyə məcbur qaldı.

Cəmi 44 gün davam edən haqq savaşımızda, Vətən müharibəsində şanlı Ordumuz elə bir Zəfər dastanı yazdı ki, bu tarixi qələbəmiz dostu sevindirdi, düşmənlərimizə isə göz dağı oldu. Zəfərimizi anlamaqda çətinlik çəkən dövlətlər qəlbi sınıq xalqın Qalib, Müzəffər Azərbaycan xalqına çevrildiyinin, igid Vətən oğullarının qanı, canı ilə dünya hərb tarixində yeni səhifə açdıqlarının, yeni salnamə yazdıqlarının şahidi oldular. Bütün bu uğurumuzun, nailiyyətimizin, tarixi qələbəmizin müəllifi, memarı isə Müzəffər Ali Baş Komandan İlham Əliyev və onun “İrəli!” əmrini ləyaqətlə yerinə yetirən Azərbaycan Ordusu oldu.

15 oktyabr 2023-cü il tarixi də Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə yazıldı. 15 oktyabr tarixində Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Müzəffər Ali Baş Komandanın söylədiyi “Bu gün Xankəndidəyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir” sözləri hər kəsi qürurlandırdı. Bu gün özünü qalib ölkənin vətəndaşı hesab edən hər bir azərbaycanlı Ali Baş Komandanla, ordumuzun əsgər və zabitləri, hərbçiləri, Vətən uğrunda canından keçən qəhrəman oğullarımızla, şəhidlərimizlə, qazilərimizlə fəxr edir, qürur duyur. Hərb tariximizə böyük Qələbəni yazdıran, canlarından keçərək Şəhidlik zirvəsinə yüksələn bütün şəhidlərimizin ruhu qarşısında baş əyir, onlara və ailələrinə bir ömür boyu borclu və minnətdarıq.

Bəli, rəşadətli Azərbaycan Ordusunun mətinliyi, mübarizliyi, əzmi, igidliyi, qəhrəmanlığı illər ötsə belə hər kəs tərəfindən böyük minnətdarlıq hissi ilə xatırlanacaq. Əlində üçrəngli Azərbaycan Bayrağı tutan azyaşlı uşaq, Ali Baş Komandanın "İrəli!” əmrini şərəflə icra edən gənc də, əlini açıb əsgər və zabitlərimizə dua edən yaşlı nəsil, hər kəs Azərbaycan əsgəri deyir, deyəcək də. Torpaqlarımızın bütövlüyü naminə canından keçən şəhidlərimizi böyük hörmət və ehtiramla anır, yaralı hərbçilərimizin sağalıb öz sağlamlıqlarına qovuşmaları üçün hər kəs dua edir.

Üçrəngli Azərbaycan Bayrağının doğma Qarabağda, Xankəndidə, eləcə də işğaldan azad edilən digər torpaqlarımızda dalğalanmasını böyük ruh yüksəkliyi ilə qarşılayan soydaşlarımız bu tarixi ana, zəfərə görə ölkə başçısı, Ali Baş Komandan İlham Əliyevə və Azərbaycan Ordusuna sonsuz minnətdarlıq edir.

İşğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri ölkəmizin iqtisadi qüdrətini bir daha ortaya qoyur. Müharibədən dərhal sonra işğaldan azad olunmuş ərazilərimizdə yenidənqurma və bərpa işlərinə başlanması dediklərimizi bir daha təsdiq edir. 30 il ərzində erməni vandalları yaşayış və ictimai binaları, bütün infrastrukturu, maddi və mədəni abidələri dağıtmış, yeraltı sərvətlərimizi vəhşicəsinə talan etmiş ərazilərimizdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi yolunda uğurlu işlər aparılmaqdadır.

Bütün bu uğurların önündə Prezident İlham Əliyevin düzgün qurulmuş iqtisadi siyasəti dayanır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin yüksək sərkərdəlik qabiliyyəti və ordumuzun rəşadəti sayəsində bu gün qalib ölkənin vətəndaşları kimi Zəfər Gününü qeyd edirik. Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş Vətən müharibəsi şəhidlərinin ruhu qarşısında baş əyir, onların xatirəsini ən dərin ehtiramla yad edirik.

Rəşadətli Azərbaycan Ordusunun döyüş meydanında qazandığı qələbələrə, şanlı zəfərə ürəkdən sevinən, Vətən müharibəsində qəhrəman oğullarımızın döyüş meydanında göstərdikləri şücaəti unutmayan "Göyəzən" qəzetinin baş redaktoru, şair-publisist Elçin İsmayıl bunu yazmış olduğu şeirində də bir daha oxucuların diqqətinə çatdırır. 44 günlük Vətən müharibəsindən, müharibə zamanı əldə etdiyimiz şanlı zəfərdən söz açan E.İsmayıl "Zəfərin mübarək, Azərbaycanım!" adlı şeirində bir daha tərənnüm edir. Tarixi Qələbəmizi, şanlı Zəfərimizi özündə əks etdirən həmin şeiri təqdim edirik.

Zəfərin mübarək, Azərbaycanım!
Qayıtdı özünə əzəlki şöhrət,
Silindi ellərdən dərd-kədər, möhnət,
Dizinə güc gəlib, qoluna qüvvət,
Təpərin mübarək, Azərbaycanım!

Əyilməz heç zaman polad vüqarın,
Xalqın birliyidir dövlətin, varın
Keşiyini çəkir mərd oğulların,
Sipərin mübarək, Azərbaycanım!

Zəfər döyüş meydanında çalınar,
Hər qarış torpaqda şəhid qanı var,
Yurdumun dağ boyda adı-sanı var,
Afərin, mübarək, Azərbaycanım!

Şöhrətin yayılıb Çindən Hələbə,
Dünya hey danışır səndən hələ də,
Tarix görməmişdi belə Qələbə,
Zəfərin mübarək, Azərbaycanım!

**İstifadə olunmuş ədəbiyyat:**

1. Qalib Sərkərdə. Bakı, 2021.
2. Zəfər Günü. Bakı, 2021.
3. Azərbaycan Bu gün. Bakı, 2021.

## TARİXİ QƏLƏBƏMİZİN ZƏFƏR SƏLNAMƏSİ

***Səlminaz Mahmudova***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***
**mahmudovas123@gmail.com**

***Xülasə:*** *Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin – Azərbaycanın var olduğunu sübut etdik.*

***Açar sözlər:*** *44 günlük müharibə, Ali baş komandan, Prezident İlham Əliyev, 8 noyabr 2020, Qarabağ, Şuşa*

Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və Dağlıq Qarabağ da daxil olmaqla işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən Müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Azərbaycan xalqı öz liderinin - müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək bütün dünyaya öz gücünü, mətinliyini, mübarizliyini nümayiş etdirdi. Bu real faktordur ki, bütün müharibələrdə əsas sözü xalq və onun ordusu dediyi kimi uğurlu zəfərlərdə sərkərdənin də çox böyük rolu olur. Bu gün Azərbaycan xalqı hansı səviyyədə uğurlu sərkərdəyə - Ali Baş Komandana sahib olduğunu aşkar gördü. Prezident İlham Əliyev yalnız hərb meydanında müzəffər sərkərdə deyil, diplomatik cəbhədə böyük strateq nümunəsi ortaya qoydu, informasiya müharibəsində Azərbaycanın haqq səsi oldu, cəsarətlə bütün təzyiqlərə sinə gərdi, öz xalqı ilə vəhdətdə olan lider kimi mübarizlik rəmzinə çevrildi. Sentyabrın 27-dən başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin azad olunması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrildi. Prezident İlham Əliyev 17 ildə həyata keçirdiyi siyasətin nəticəsində Azərbaycanı 30 ilə yaxın davam edən münaqişədə qalib tərəfə çevirdi. Ərazi bütövlüyümüzün birmənalı olaraq təsdiq edildi.

Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün etdi! Ermənistanın hərbi kaputilyasiyasına nail olduq! Bəşəriyyətə haqqın, ədalətin böyük dövlətlərin tapdağından qurtara biləcək bir dövlətin - Azərbaycanın var olduğunu sübut etdik. Bu ədaləti 44 gün ərzində yazan Azərbaycan xalqı, bütün dünya azərbaycanlıları, bütün Türkiyə xalqı bir yumruq kimi birləşərək təkcə Ermənistanın yox, bütövlükdə haqsız güclərin üstünə getdi və sübut etdi ki, haqq yolunda, ədalətin, ərazi bütövlüyümüzün bərpası uğurunda vuruşuruq. 10 noyabrda Müzəffər Azərbaycan Ordusu cəmi 44 günə hərbi yolla 28 il düşmən torpağında inləyən vətən torpaqlarını işğaldan azad etdi. 44 gündə müzəffər Azərbaycan Ordusu dünyaya sübut etdi ki, döyüş meydanında zəfəri tanklarla, toplarla deyil, ağılla, zəkayla və bir də insan zehninin ən son nailiyyəti olan PUA-larla qazanmaq olar. Şuşa qalasının alınması əməliyyatı isə tamam başqadır. Prezident, Ali Baş Komandan İlham Əliyev xalqa müraciətində bildirdi ki, Şuşanın azad edilməsi dünya hərb tarixində xüsusi yer tutatacaq: “Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi. Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaq. Çünki bu əməliyyatı bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək yalnız yüngül silahlarla silahlanmış şəkildə azad ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı qələbəmizdir".

Bəli, Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümunəsi göstərdi. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla vəsait sərf etdiyi nəhəng istehkamlar qısa müddətdə darmadağın edildi, müzəffər ordumuzun tətbiq etdiyi savaş strategiyası müasir hərb tarixinə yeni örnək oldu. Belə vəiyyətdə Ermənistanın qarşısında yalnız iki yoldan birini seçmək qalırdı. Ya Ermənistan ordusunun son tör-töküntüləri də döyüş meydanında son nəfərinə qədər məhv ediləcəkdi, ya da “ağ bayraq” qaldırıb, biabırçı hərbi məğlubiyyətini etiraf edəcəkdi.Paşinyan hakimiyyəti reallığı nəhayət ki, qəbul etdi və noyabrın 10-da Ermənistan “ağ bayraq” qaldırdı, kapitulyasiya bəyannaməsini imzaladı.

30 il gözlədiyimiz o möhtəşəm tarixə şahidlik etmək zamanı yetişdi!

8 noyabr 2020-ci il - Qarabağa qovuşduğumuz tarix…

8 noyabr 2020-ci il, Qarabağa qovuşduğumuz tarix gün. Bu Böyük Qələbə Günüdür! Şanlı tariximizə daxil olan Zəfər günüdür!. Qarabağ münaqişəsinə xalqımızın zəfəri ilə NİDA! qoyduğu gündür.

Azərbaycan, Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli bəyanat Azərbaycan tarixinin ən böyük diplomatik qələbəsini təsdiq edən gündür. Üçtərəfli bəyanata əsasən Dağlıq Qarabağın heç bir xüsusi statusu olmayacaq. Dağlıq Qarabağ Muxtar Vilayəti də tarixə qovuşdu. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri birgə bəyanat imzaladılar. Bu bəyanat mahiyyət etibarilə Ermənistanın kapitulyasiyasıdır. Döyüş meydanında darmadağın edilən Ermənistanın Azərbaycan Prezidentinin münaqişənin ilk günlərindən bəyan etdiyi şərtləri qəbul etməkdən başqa çıxış yolu qalmadı. Beləliklə Paşinyan kapitulyasiya şərtlərinə razılığını verdi.

Ərazi bütövlüyümüz təmin olundu - Heç bir statusdan söhbət gedə bilməz

Bəyanatda digər önəmli məqam ondan ibrətdir ki, burada Dağlıq Qarabağa hər hansı statusun verilməsindən söhbət getmir və Azərbaycanın ərazi bütövlüyü tam təmin olunur. Bu Azərbaycanın tam və şərsiz qələbəsinin əyani sübutudur. 8 noyabr 2020-ci il Ali Baş Komandan və şanlı Azərbaycan əsgərinin yazdığı görkəmli tarix, 28 illik həsrəti 44 gün müddətində bitirən müzəffər ordu. Bu müddət ərzində millətimiz daim vətən həsrəti, sevgisini ürəyində daşıdı, cənab İlham Əliyevə arxalandı və qələbə qazandı. Liderimiz daim çıxışlarında "Biz Qarabağımıza qayıdacağıq, Qarabağ tarixi Azərbaycan torpağıdır" deyirdi. O, ulu öndər Heydər Əliyevə və xalqına verdiyi sözləri tutdu. Ata vəsiyyətini yerinə yetirdi. Ordumuza, eləcə də möhkəm iradəli xalqına inanaraq zəfər qazandı. Bu zəfər asan başa gəlmədi. Daim danışıqlara üstünlük verən dövlətimiz, öz hünərini döyüş meydanında da göstərdi. Bu müddət ərzində digər dövlətlər təzyiq göstərməyə, bəzi sanksiyalar tətbiq etməyə çalışsalar da Azərbaycanımızın üstünlüyünü qəbul etməyə məcbur oldular.

"Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!".

Ölkə Prezidenti İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi bu sözlər hər bir azərbaycanlında böyük sevinc və qürur hisləri yaratdı. Bu böyük qələbə eyni zamanda Azərbaycan xalqını dünyaya qürurlu xalq kimi tanıtdı. "Dağlıq Qarabağ Azərbaycan torpağı, beynəlxalq səviyyədə tanınan ərazimiz olmaqla yanaşı, ədalət məsələsidir, Azərbaycanın milli qürur məsələsidir",-deyən Prezidentimizə olan inamı, sevgini birə beş artırdı. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Ulu Öndərin Prezidentimiz İlham Əliyev haqqında dediyi bu fikirlərin hər keçən gün öz təsdiqini tapdığının, hər bir azərbaycanlının Prezidenti olduğunun şahidi olur.

Bu gün Azərbaycan Qarabağa qovuşdu, tarixi zəfərə imza atdı, şəhidlərimizin, Xocalı qurbanlarının, Gəncə, Bərdə digər şəhər və rayonlarımızda soyqırımları zamanı həlak olan günahsız insanların qisasını döyüş meydanında aldı, işğalçı Ermənistana layiq olduğu yeri göstərdi. Bu qələbəni, zəfəri bizlərə yaşadan isə Ulu Öndər Heydər Əliyev siyasi kursunun layiqli davamçısı

ölkə Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, Güclü Ordumuz, Rəşadətli əsgər və zabitlərimizdir.
Bir sözlə, "Qarabağ Azərbaycandır və nida işarəsi"-söyləyən Prezidentimiz hər zaman olduğu kimi bu dəfə də vədinə əməl etdi. Noyabrın 8-i xalqımızın tarixinə şanlı, qızıl hərflərlə yazıldı! 30 ildən sonra Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə sübuta yetirdik ki, bir qarış torpağımızı belə heç kəsə verən deyilik.

Qarabağ Azərbaycandır! 44 günlük qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaq!

**İstifadə olunmuş ədəbiyyat:**


1. "Xalq qəzeti".-2009.-5 dekabr.-N 270.-S.3.
2. Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, "Azərbaycan", 2006.
3. Xalq qəzeti.- 2009.- 14 may.- S. 7.
4. Heydər Əliyev və inkişafın Azərbaycan modeli. Bakı, Azər nəşr, 2010.


## 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ MÜLKİ ƏHALİYƏ VƏ MÜLKİ İNFRASTRUKTURA VURULMUŞ ZİYAN


***Araz Əliyev***
***"İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***Hicran Əliyeva***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının baş müəllimi***
***ani.eliyev.95@bk.ru***



***Xülasə:*** *Azərbaycan xalqının 1988-1994 cü illərdə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş öz tarixi torpaqlarının düşmən tapdağından azad edilməsi uğrunda başlatmış olduğu Vətən müharibəsi 44 gün davam etmiş və Azərbaycanın tam qələbəsi ilə başa çatmışdır. Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri müharibə cinayətləri törədərək qadağan olunmuş silahlardan istifadə etməklə mülki obyetlərimizə və yaşayış məskənlərimizə atəş açmış, nəticədə 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 13360 yaşayış və qeyri yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir.*



***Açar sözlər:*** *müharibə, hərbi təxribat, ağır artilleriya, mülki şəxslər, dağıntı, qırğın*


XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, "yeni ərazilər uğrunda yeni müharibə" çağırışı, mülki şəxslərdən ibarət "könüllü dəstələri" yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikasının silahlı qüvvələri beynəlxalq hüquq normalarını yenidən kobud surətdə pozaraq, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə etməklə bir neçə istiqamətdən Azərbaycan Respublikasının yaşayış məntəqələrini və hərbi mövqelərini atəşə tutmaqla törətdikləri növbəti hərbi təxribat nəticəsində mülki şəxslər və hərbçilər arasında ölən və yaralananlar olduğu, Azərbaycan Respublikasının milli təhlükəsizliyinə qarşı real və potensial hərbi təhdidlərin qarşısının alınması və zərərsizləşdirilməsi üçün Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən əks-hücum əməliyyatlarına başlamışdır.

Azərbaycan Respublikasının Hərbi doktrinasına əsasən, Ermənistan Respublikasının Azərbaycan Respublikası ərazisinin bir hissəsini işğal altında saxlaması və problemin siyasi yolla tənzimlənməsi çərçivəsində işğal etdiyi əraziləri azad etməkdən imtina etməsi səbəbindən beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq, ərazi bütövlüyünü bərpa etmək məqsədi ilə hərbi güc daxil olmaqla bütün lazımi vasitələrdən istifadə etmək hüququnu Azərbaycan Respublikası özündə saxlayır. Azərbaycan Respublikası xalqın və ölkənin milli maraqlarını təmin etməyə qadir müstəqil, demokratik, hüquqi, dünyəvi, unitar dövlət olaraq, öz inkişafı naminə milli təhlükəsizlik siyasətini müəyyən edir və həyata keçirir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə dərhal Təhlükəsizlik Şurasının iclası keçirilmiş, təcavüzkara adekvat cavab verilməsi istiqamətində konkret tapşırıqlar verilmişdir.

Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etməsi, Azərbaycan Respublikasına qarşı real silahlı hücum təhlükəsi yarandığı, ölkənin, əhalinin və ərazinin, eləcə də Silahlı Qüvvələrin və başqa silahlı birləşmələrin müdafiəyə hazır vəziyyətə gətirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 27 sentyabr 2020-ci il tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilmiş, 28 sentyabr 2020-ci il tarixli Sərəncam ilə Azərbaycan Respublikasında qismən səfərbərlik elan olunmuş, hərbi əməliyyatlara hazırlıq və onların keçirilməsinə dair qərarlar qəbul edilmişdir.

İlk gündən Azərbaycan Respublikasının Silahlı Qüvvələri tərəfindən başlanılmış əks-hücum əməliyyatları nəticəsində Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər əraziləri işğaldan azad edilmişdir. Bu məqsədlə, 29 sentyabr 2020-ci il tarixdə Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" Fərman imzalanmışdır.

Fərmandan irəli gələrək Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində, Azərbaycan Respublikasının inzibati ərazi bölgüsünə müvafiq olaraq, hər rayon üzrə xüsusi idarəetməni həyata keçirən müvəqqəti komendantlıqlar yaradılmışdır. Müvəqqəti komendantlıqların nəzdində də müvafiq dövlət orqanlarının (qurumlarının) nümayəndələrinin daxil olduğu əməliyyat qərargahlar yaradılmış, vəzifələri müəyyən edilmişdir.

Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki infrastruktur obyektlərini – yaşayış evlərini, xəstəxanaları, tibb məntəqələrini, məktəb binalarını, uşaq bağçalarını, dövlət qurumlarının inzibati binalarını, təsərrüfat təyinatlı əraziləri hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Belə ki, Azərbaycanın ikinci böyük şəhəri, çoxsaylı tarixi və mədəni abidələri olan qədim Gəncə, ərazilərində strateji obyektlər yerləşən və keçən Mingəçevir (Su Elektrik Stansiyası) və Yevlax (Bakı-Tbilisi-Ceyhan neft kəməri) şəhərlərini, Beyləqan, Bərdə, Tərtər, Qəbələ, Goranboy, Ağcabədi, Abşeron, Xızı və digər rayonlarını ballistik raketlər və digər ağır artilleriya qurğularından atəşə tutulmuşdur.

27 sentyabr 2020-ci il tarixdə saat 18 radələrində Naftalan şəhərinin Qaşaltı-Qaraqoyunlu kəndində yerləşən, kənd sakini Qurbanov Elbrus İsa oğlunun evinə top mərmisinin düşməsi nəticəsində bir ailə (5 nəfər) tamamilə məhv olmuşdur.

04, 05, 08, 11 və 17 oktyabr tarixlərində raket və ağır artilleriya hücumları nəticəsində Gəncə şəhərində 26 nəfər həlak olmuş, 175 nəfər yaralanmış, şəhərdə yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Ermənistan silahlı qüvvələrinin raket və ağır artilleriya hücumları nəticəsində Bərdə rayonunda 29 nəfər həlak olmuş, 112 nəfər yaralanmış, rayonda yerləşən mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Ümumilikdə Ermənistanın hərbi təcavüzü nəticəsində 12-si uşaq, 27-si qadın olmaqla 93 mülki şəxs həlak olmuş, 454 mülki vətəndaş yaralanmış, ümumilikdə 13360 yaşayış və qeyri yaşayış sahəsinə, 346 nəqliyyat vasitəsinə ziyan dəymiş, 1018 fermer təsərrüfatı üzrə zərər faktı aşkar edilmişdir.

2020-ci ilin 27 sentyabr - 10 noyabr müddətində Ermənistan həm döyüş meydanında, həm də münaqişə zonasından kənarda yerləşən Tərtər, Ağcabədi və Goranboy rayonlarını qadağan edilmiş və son dərəcə təhlükəli olan fosfor bombalarından 5 dəfə istifadə etməklə müxtəlif vaxtlarda atəşə tutmuşdur.

08 oktyabr, 03, 04 və 08 noyabr 2020-ci il tarixlərdə Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər «Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair» 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq geniş miqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx

yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin "Bioloji müxtəliflik haqqında" Konvensiyasının əsas təməl prinsiplərini pozaraq ətraf mühitə qəsd edən geniş, uzun sürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmiləri ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla xüsusilə külli miqdarda ziyan vurmuş, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılmış və aparılmış, habelə terrorçuluq cinayəti törədilmişdir.

Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda gedən mübarizədə qəhrəmanlıq göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız əzm və iradə, bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endirmişdir. Azərbaycan Ordusunun zəfər yürüşünə dözə bilməyən düşmən təxribatlara əl ataraq, günahsız mülki insanları hədəfə almaqla müharibə cinayətləri törətmişdir. 44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etmişdir.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçmişlər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edilmişdir.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə noyabrın 8-də Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynamış, bununla da, Ermənistan öz məğlubiyyətini etiraf etmişdir. 2020-ci il noyabrın 10-da imzalanan Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası baş nazirinin və Rusiya Federasiyası Prezidentinin bəyanatı ilə müharibə Azərbaycanın qələbəsi ilə nəticələnmişdir. Ermənistan kapitulyasiya olunaraq Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 02.12.2020-ci il tarixli Sərəncamları ilə sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü, noyabrın 8-i Zəfər Günü kimi təsis edilmişdir.

Ermənistan 30 ilə yaxın müddətdə işğalda saxladığı Azərbaycan torpaqlarının geniş miqyasını, hətta hərbi təyinatı olmayan torpaqları da minalamışdır. 10 Noyabr 2020-ci il tarixli Azərbaycan Respublikası, Ermənistan Respublikası və Rusiya Federasiyası arasında Üçtərəfli Bəyanatda razılığın əldə olunmasına baxmayaraq, Ermənistan minalanmış xəritə və sxemləri təhvil verməkdən imtina edir. Bununla da, 1949-cu il tarixli Cenevrə Konvensiyalarının tələblərini, Avropa Konvensiyasının 2-ci və 8-ci maddələri, 1 saylı Protokolun 1-ci maddəsi və 4 saylı Protokolun 2 (1) və 3 (2) maddələrində müəyyən edilmiş təminatlar da daxil olmaqla, beynəlxalq humanitar hüququn əsas norma və prinsiplərini kobud şəkildə pozur.

Minalı bölgələr insanların həyatı üçün təhlükə yaratmaqla yanaşı, torpaqlardan səmərəli istifadə işinə də mane olur. Xeyli müddətdir ərazilərin minalardan təmizlənməsinə baxmayaraq, mütəmadi olaraq baş verən mina partlamaları nəticəsində mülki vətəndaşların xəsarət almaları və həlak olma faktları artır.

2020 ci ildə müharibə başa çatdıqdan bu günə qədər əksəriyyəti mülki şəxslər olmaqla 361 vətəndaşımız mina qurbanı olub. Onlardan 68-i həyatını itirib, 293-ü isə ağır yaralanıb. Ümumiyyətlə Ermənistanın Azərbaycana hərbi hücumları başlayandan indiyədək 358-i uşaq, 38-i qadın olmaqla 3400 –dən çox vətəndaşımız həlak olub.

**İstifadə olunmuş ədəbiyyat:**


1. A. Mirzəzadə, Vətən müharibəsinin tarixi-siyasi dərsləri, Bakı, I nəşr.
2. Vətən müharibəsinin 44 günlük Zəfər Salnaməsi.Fövqəladə Hallar Nazirliyinin Akademiyası. Bakı, 2021.
3. S.N. Aslanov. Qarabağ Azərbaycandır. Bakı, 2020.
4. A. Səfərli. Qəhrəmanlıq tariximizin şanlı səhifəsi. Bakı, 2020.
5. Zəfər yolu. Qarabağ savaşından Şuşa bəyannaməsinədək. Bakı, 2021.
6. Qarabağ Zəfəri 44 günün pərdəarxası.
7. M. Hüseynov. 44 günlük Zəfər savaşı. Bakı, 2024.
8. Pərvanə Ziyadova. Şərəfli döyüş yolu. Bakı, 2021.


## VƏTƏN MÜHARİBƏSİNİN HƏKİM QƏHRƏMANLARI


***Şəbnəm Abbasova***

***"Tədrisin idarə olunması" şöbəsinin müdiri***



***Xülasə:*** *"Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artileriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur".*

*2020-ci ilin 27 sentyabr bazar günü səhərini bütün Azərbaycan xalqı Azərbaycan Respublikası Prezidentinin bu cümlələrlə başlayan xalqa müraciəti ilə açdı. Ermənistan tərəfi növbəti təxribat xarakterli addımını atmış, Azərbaycan ərazisinə silahlı hücuma keçmişdi.*

*Azərbaycan tərəfi dərhal adekvat addımlar atdı, 27 sentyabrda başlayan müharibə düz 44 gün çəkdi və Azərbaycanın şanlı tarixinə 44 günlük Vətən müharibəsi olaraq keçdi.*

*Vətən müharibəsində digər hərbi qulluqçularla yanaşı, tibb işçiləri də misilsiz qəhrəmanlıq və şücaət göstərərək öz adlarını şərəfli tariximizə yazmışdır. Müharibə zamanı 159 hərbi tibb işçisi yaralanmış, 42 tibb işçisi isə xidməti vəzifəsini yerinə yetirərkən qəhrəmancasına şəhid olmuşdur. Həlak olmuş tibb işçilərindən 9-u həkim, 7-si feldşer, 26-sı sanitardır.*



***Açar sözlər:*** *44 günlük müharibənin şəhid həkimləri, şəhid həkimlərimiz, qəhrəman həkimlərimiz*


Vətən müharibəsində şəhid olmuş həkimlərimizdən biri də tibb xidməti polkovnik-leytenantı Rasim Abdullayevdir. O, 2016-cı ilin Aprel döyüşləri zamanı yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərmişdir.

Sentyabrın 27-dən başlayan döyüşlərdə hərbi tibb qulluqçu kimi iştirak edən Rasim Abdullayev Hadrut və Şuşa istiqamətində 100-dən çox ağır yaralı zabitə elə yerindəcə ilk tibbi yardım göstərmişdir. Yeni azad edilmiş, təhlükəli və döyüşlərdə ən qaynar nöqtələr olan ərazilərdə qalmış hərbçilərə də ilk tibbi yardım göstərmişdir. Vətən müharibəsinin son

dəqiqələrində komandanlıq tərəfindən verilən Şuşa istiqamətində ağır yaralı zabitlərə ilk tibbi yardım göstərmək tapşırığını yerinə yetirdiyi zaman Xocalı rayonunun Çanaqçı kəndində Ermənistan ordusu tərəfindən pusquya düşürülərək aldığı yaralardan şəhid olmuşdur. O, Azərbaycanın hərb tarixində, həmçinin Vətən müharibəsi tarixində şəhid olan ən yüksək rütbəli tibb xidməti qulluqçusudur.

R.Abdullayev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, ölümündən sonra "Vətən uğrunda" medalı ilə, Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə" medalı ilə, Azərbaycanın Cəbrayıl rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına iştirak etdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur. O, Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirakına görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə, Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarında iştirakına görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, ölümündən sonra "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun tibb xidməti leytenantı olan Azər Şəmilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Suqovuşanın və Talışın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçiləri döyüş meydanından çıxarmışdır. Azər Şəmilov oktyabrın 14-də Talış döyüşləri zamanı qəhrəmancasına həlak olmuşdur.

Döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Azər Şəmilov ölümündən sonra "Vətən uğrunda" medalı ilə, Suqovuşan qəsəbəsinin işğaldan azad edilməsində göstərdiyi xidmətlərə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, "Suqovuşanın azad olunmasına görə" medalı ilə və Azərbaycan Prezidenti İlham Əliyevin 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilmişdir.

Vətən müharibəsi zamanı vəzifə borcunu şərəflə yerinə yetirən həkimlərimizdən biri də Turqut Xəlilbəylidir. Vətən müharibəsinin ilk şəhid həkimi olan leytenant Turqut Xəlilbəyli müharibənin ilk günlərindən ön cəbhədə yaralı əsgər və zabitlərin həyatını xilas etmək üçün var gücü ilə çalışmış, öz vəzifəsini layiqincə yerinə yetirmişdir. Oktyabr ayının 7-də Turqut növbəti döyüşün gedişində yenə də yaralı əsgərlərimizi atəş altından çıxarmaqla məşğul olur. Həmin gün o, yaralı əsgərlərimizi xilas etmək məqsədilə birbaşa atəş zonasına üç dəfə giriş edir. Lakin dördüncü dəfə düşmənin atdığı artilleriya mərmisi Turqutun yaxınlığına düşür. Bu zaman Turqut özünü yaralı əsgərimizin üzərinə atır və öz canı bahasına onun həyatını xilas edir. Aldığı ağır qəlpə yaraları səbəbindən leytenant Turqut Xəlilbəylinin həyatını qurtarmaq mümkün olmur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Turqut Xəlilbəyli ölümündən sonra "Vətən uğrunda" medalı ilə, "Azərbaycan Bayrağı" ordeni

ilə, "Füzulinin azad olunmasına görə" medalı ilə və "Cəbrayılın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.

Turqut Xəlilbəylinin şəxsi əşyaları ailəsi tərəfindən AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təhvil verilmişdir. Şəhidin əşyaları hazırda muzeydə "Anadır arzulara hər zaman Qarabağ" adlı sərgidə nümayiş olunur.

Şəhid həkim Adil Əfəndiyev 2018-ci ildə Azərbaycan Tibb Universitetinin Hərbi Tibb fakültəsinin "Hərbi həkim işi" ixtisasını bitirmişdir. Təyinatla Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda həkim kimi hərbi xidmətə başlamışdır. "N" saylı hərbi hissənin qərargah və təchizat bölüyünün tibb məntəqəsinin rəisi, tibb xidməti leytenantı Adil Əfəndiyev 22 oktyabr 2020-ci il tarixdə Füzuli-Cəbrayıl-Xocavənd rayonları istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. 25 yaşında şəhidlik zirvəsinə yüksələn tibb xidməti leytenantı Adil Əfəndiyevin döyüş meydanında göstərdiyi igidlik ölkə Prezidenti tərəfindən yüksək qiymətləndirildi. O, ölümündən sonra Prezident İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, "Vətən uğrunda" və 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Şuşanın azad olunmasına görə", 30 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, "Hərbi xidmətlərə görə" medalları ilə təltif olunmuşdur.

Şəhid, hərbi tibb qulluqçusu Adil Əfəndiyevin şəxsi əşyaları AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təqdim olunmuşdur. Şəhidin materialları muzeyin "Vətən müharibəsi" fondunda saxlanılır.

Mirlətif Ağayev 1990-cı ildə Cəlilabad rayonunun Göytəpə qəsəbəsində anadan olub. Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsində təhsil alıb. 2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlananda könüllü surətdə cəbhəyə yollanan Mirlətif Ağayev həm həkimlik, həm də insanlıq borcunu yerinə yetirərək 247 yaralını döyüş meydanından çıxararaq onları həyata qaytarıb. O, təkcə həkim kimi deyil, həm də fəal döyüşçü kimi də şücaət göstərib. Füzuli, Cəbrayıl və Qubadlı uğrunda döyüşlərdə iştirak edib və oktyabrın 26-da Qubadlının Balasoltanlı kəndində şəhid olub. Şəhid həkim Mirlətif Ağayevə məxsus əşyalar AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə təqdim edilib, şəhidin materialları muzeyin "Vətən müharibəsi" fondunda saxlanılır.

Anar Məmmədov Azərbaycan Silahlı Qüvvələrinin mayoru, Vətən müharibəsinin iştirakçı həkimlərindən biridir. O, Vətən müharibəsi zamanı Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Anar Məmmədov noyabrın 7-də Şuşa döyüşləri zamanı şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Anar Məmmədova "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir.

Azərbaycan Ordusunun baş giziri olan hərbi tibb qulluqçusu Eldar Abdullayev 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzulinin, Hadrutun və Zəngilanın azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərib. Eldar Abdullayev oktyabrın 18-də Zəngilan döyüşləri zamanı şəhid olmuşdur.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi

üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Eldar Abdullayev ölümündən sonra "Vətən uğrunda" medalı ilə və Azərbaycan Prezidenti İlham Əliyevin 25 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Eldar Abdullayev "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Tibb xidməti baş leytenantı həkim Nurlan Fərəməzov da Vətən müharibəsinin qəhrəman həkimlərindən biridir. O, Vətən müharibəsi başlanan gündən savaş meydanında olur. Düşmənə vurduğu bütün zərbələr uğurlu alınır. Cəbrayılda gedən ağır müharibədə xüsusi qəhrəmanlıq göstərir. Həm də hərbi həkim olaraq elə döyüş meydanında yaralı əsgər və zabitlərimizə ilkin tibbi yardım göstərir, çox yaralı igid oğullara ikinci həyat verir. Oktyabrın 9-da tibb xidmətin baş leytenantı Nurlan Fərəməzov başının arxa tərəfindən ciddi zədə alır, elə döyüş meydanında əbədiyyətə qovuşur. Nurlan Fərəməzov Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, "Vətən uğrunda" medalı və 24 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, "İgidliyə görə" medalı ilə təltif olunmuşdur.

Azərbaycan Ordusunun baş leytenantı olan Şöhrət Qasımov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində gedən döyüşlərdə iştirak edərək şücaət göstərmiş, 29 sentyabrda şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən, Şöhrət Qasımov ölümündən sonra "Vətən uğrunda" medalı ilə, 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə, Azərbaycan Prezidenti İlham Əliyevin 25 iyun 2021-ci il tarixli Sərəncamına əsasən, "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunmuşdur.

Ağcabədi rayonundan olan qəhrəman hərbçimiz Tariyel Salmanov da Vətən müharibəsinin şəhid həkimlərindəndir. Tariyel orta məktəbi bitirdikdən sonra 2006-cı ildə Tibb Universitetinin Stomatologiya fakültəsinə daxil olub. 2011-ci ildə universiteti müvəffəqiyyətlə bitirib. Tariyel Salmanov 2011-ci ildə universiteti bitirdikdən sonra həmin ilin oktyabr ayından 2013-cü ilin aprel ayınadək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində tibb xidməti leytenantı kimi hərbi xidmət keçib. 2020-ci ilin yayında Tovuz rayonu istiqamətində Azərbaycan-Ermənistan sərhədində mənfur düşmən tərəfindən başladılan döyüşlər zamanı Tariyel könüllü olaraq ordu sıralarına yazılır. İki ay sonra - sentyabrın 29-da isə o, qismən səfərbərliklə II Qarabağ döyüşlərinə çağırılır və elə həmin gün tibb xidməti leytenantı kimi ordu sıralarına qoşulur. Tariyel neçə-neçə yaralılarımıza döyüş meydanında tibbi xidmət göstərərək onları ölümdən qurtarır. Onun döyüş yoldaşları bu gün də qəhrəman həkimin qorxmazlığı, şücaəti, mərdliyindən fəxarətlə danışır, onun dəfələrlə ən qaynar nöqtələrə, ən çətin mövqelərə getdiyini vurğulayırlar. Qəhrəman həkimimiz oktyabrın 7-dən 8-nə keçən gecə şiddətli döyüşlər zamanı yaralı əsgərlərimizə kömək üçün yenidən irəliyə atılır, xeyli sayda yaralılara ilkin tibbi yardım göstərir. Lakin təəssüf ki, mənfur düşmənin atdığı minamyot atəşi nəticəsində özü də qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlir. Tariyel Salmanov şəhadətindən sonra "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.

44 günlük Vətən müharibəsinin zəfərlə başa çatmasında əsgərlərimiz və zabitlərimizlə birgə həkimlərimizin də əvəzsiz rolu olub. Onlar həm ön, həm də arxa cəbhədə igidlərimizə dəstək, yaralılara məlhəm olublar, tarixi Zəfərə öz töhfələrini veriblər.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan milli elmlər akademiyası. Mərkəzi Elmi Kitabxana. Qırx dörd günün salnaməs.

2. Şəhidlərimizi tanıyaq, tanıdaq [Mətn].Y. Bahadurqızı

## DÖVLƏTÇİLİK TARİXİNDƏ YENİ ERANIN BAŞLANĞICI

***Səbuhi Səfərov***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi***
***sbhi.sfrv49@gmail.com***

***Xülasə:*** *1988-ci il idi. Azərbaycan Sovet Sosialist Respublikaları İttifaqının tərkibində, yəni böyük imperiyanın buxovlarında əzilməkdəydi. Ermənilərin xalqımıza qarşı soyqırımları, əzəli torpaqlarımızın vaxtilə onlara verilməsi haqqında çox məlumatımız var idi. Ancaq bizə elə gəlirdi ki, həmin hadisələr tarixin müxtəlif zamanlarında baş verib, bitib, artıq o cür hadisələr təkrarlanmaz. Axı ermənilərlə qonşu idik, gedirdilər, gəlirdilər... Azərbaycanın bütün şəhər, rayon, kəndlərində bizimlə birlikdə yaşayırdılar. Nə bilərdik ki, bu qonşuluqdan kənar olmuşlar yeni planlarla, yeni arzularla yaşayırlar. Elə həmin il sərhədlərimizdən gələn xəbərlər bütün həyatımızı alt-üst etdi. Ermənilər sərhəd rayonlarımızı atəşə tutur, insanlar qorxu, vahimə içərisində yaşayırdılar. Beləliklə, günlər keçdikcə xəbərlər bəzən səngiyir, bəzənsə yenidən gündəmə gəlir, hər kəsin diqqəti sərhədlərimizə yönəlirdi. Sən demə bütün bunlar qarşıda Birinci Qarabağ Müharibəsinin başlanması üçün görülən tədbirlər imiş...*

***Açar sözlər:*** *Qarabağlılar, İkinci Qarabağ Müharibəsi, 30 il, Ali Baş Komandan,*

Beləliklə, Birinci Qarabağ Müharibəsi başladı. Əgər 1988-1990-ci illər dağıntıları, səksəkələri, itkiləri ilə bu müharibənin başlanğıcı idisə, sonrakı iki il isə torpaqlarımızın bir-birinin ardınca ermənilər tərəfindən işğal olunduğu illər oldu. Niyə işğal olunurdu bu əzəli Azərbaycan torpaqları, səbəb nə idi? Bunun bir çox səbəbləri var idi. Birincisi, bu hələ iki əsr öncənin nəsihəti idi ki, ermənilər Azərbaycan torpaqlarında yerləşdirilməli, yerli əhali sıxışdırılıb aradan çıxarılmalıdır. İkincisi, artıq 1918-ci ildə olduğu kimi, xalqın müstəqillik qığılcımlarının alova çevrilməsi SSRİ-ni narahat etməyə başlamışdı. Bu respublikanı əldə, həm də əsarətdə saxlamaq, eyni zamanda ermənilərin “Böyük Ermənistan” yaratmaq arzuları fonunda işğal siyasətindən daha əhəmiyyətlisi ola bilməzdi. İşğal siyasəti isə çox da çətinliklə başa gəlmədi. Çünki ölkəmizə rəhbərlik edən, xalqını qoyub yadların sözünü dinləyən, xalqını, mənəviyyatını, namus anlamında olan torpağını yox, vəzifəsini düşünən ozamankı Azərbaycan rəhbərləri ilə bu işdə əlbirlik asanlıqla başa gəldi. Qarabağlılar bütün bunlardan xəbərsizcə öz torpaqlarını qorumağa çalışarkən, ölkəmizin digər yerlərindən onlara köməyə gedənlər canlarını bu torpaqlar yolunda qurban verərkən sən demə o torpaqlar çoxdan satılıbmış. Bu səbəbdən də orada döyüşənlərə heç bir yarbdım, köməklik göstərilmirdi. Bütün bunları sonradan torpağından didərgin salınanlar, zorla qovulanlar, köçürülənlər, hansı ki, o döyüşlərdə iştirak etmişlər, etiraf edirdilər. Etiraf edirdilər ki, dəfələrlə yardın edilməsi tələbinə baxmayaraq rəhbərlik susurdu. Adı var, özü yox orduya sahib idik. SSRİ Azərbaycanda güclü ordunun formalaşmasına əsla maraqlı deyildi. Çünki bizim ordumuzun olması ona sərf etmirdi. Bu, böyük bir siyasətin nəticəsi idi ki, ordumuz o səviyyədə saxlanılırdı. Bunu o dövrlərdə əsgəri xidmətdə olub, fəhlə batalyonlarında xidmətini başa vuran övladlarımızın da simasında yaxşı görmüşdük, öz-özlüyümüzdə təsdiq etmişdik. Ordumuz bizdən tonlarla neft mənimsəyənlərin əvəzində bizə verdikləri müasirlikdən əsər-əlaməti olmayan köhnə silah, sursat,

texnika yığnağı idi. Bu isə möhkəm silahlandırıb üstümüzə göndərdikləri qonşu erməninin qarşısında bizi aciz vəziyyətinə salmaqdan başqa bir şey deyildi. O zaman işğal olunan Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Zəngilan, Füzuli, Xocalı və bunlar kimi digər rayonlarımızın əhalisi düşmən qarşısına ov silahı, təsərrüfat alətləri ilə çıxırdılar. Nə edəcəkdilər o qədər güclü silahlanmış erməniyə? Bizim rəhbərlik necə? Bilə-bilə ki, torpaqları satıb, heç bir köməklik də göstərməyəcək, ermənilər isə ən müasir silahlarla silahlanıblar, 5 ilə qədər əsgəri xidmətdə saxladığı əsgərləri də, o torpaqların dinc sakinlərini də gözünü belə qırpmadan qırğına verirdi. Bilə-bilə insanlarımızın məhvinə, şəhid olmasına, yaralanmasına şərait yaradırdı. Elə bu səbəbdən də Birinci Qarabağ Müharibəsində itkilərimizin sayı çox oldu. Prezident cənab İlham Əliyevin dediyi kimi: "Birinci Qarabağ müharibəsində şəhidlərimiz olub, bu günə qədər 4 minə yaxın insan itkin düşmüş hesab olunur. Aydın məsələdir ki, onlar həyatda deyil, həyatını itiriblər və ümumiyyətlə, 15 mindən çox şəhidimiz olubdur. Buna baxmayaraq, torpaqlarımız da əldən gedib". Çünki o müharibə sadəcə insanların öz ata-baba yurdlarını qorumaq müharibəsi idi. Nəticə etibarilə isə o qədər torpağı itirdik, soydaşlarımız bir qərinəyə qədər qaçqın, köçkün, didərgin adlarını daşımalı, ölkənin şəhər və rayonlarına sığınmalı oldular.

Bəli, ötən 30 ilin başlanğıcında edilən böyük səhvlə düz otuz il Qarabağsız yaşamalı oldu qarabağlılar. Qurulu evlərini, əzizlərinin məzarlarını, həyət-bacalarını, həyət dolu mal-heyvanlarını, toyuq-cücələrini, bar üstündə saysız-hesabsız ağaclarını, ən əsası isə torpaq ətrini geridə buraxıb didərginə, köçkünə, qaçqına çevrildilər. Müharibədən sonrakı ilk illərdə şəraitsiz evlərdə, çadır şəhərciklərdə olmazın çətinlikləri ilə qarşılaşdılar. Sonrakı illərdə onlar üçün hərtərəfli şərait yaradıldı, problemləri dövlətimiz tərəfindən diqqətdə saxlanıldı. Lakin onların yurd təşnəsi hələ sızlamaqda, torpaqlarına qovuşmaq istəkləri içlərini göynəltməkdə idi. Dünyasını dəyişən yüzlərlə insan oldu 30 ildə. Ürəkləri yurd eşqiylə parça-parça olmuş insan. Bir daha torpağının ətrini duymayan, əzizinin qəbrini ziyarət edə bilməyən, ürəyi nisgilli, qərib məzarlı insanlar... Qarabağı bir daha görə bilməyən insanlar... O torpaqlara bir daha ayağı dəyməyən insanlar. O bulaqların suyundan içə bilməyən insanlar. Qarabağ yalnız yuxularında onların olan insanlar... İnsanlar o taleni yaşamağa vadar edilmişdilər. Nə idi onların günahı? Kimlərinsə vəzifə kürsüsünə qurban getmiş, doğma evindən illərlə ayrı düşmüş, sinəsinə dağ çəkilmiş, ata-qardaşını, övladını mürahibənin alovlarına qurban vermiş, ən əsası isə torpağı-namusu, şərəfi əlindən alınmış insanların yaşadığı acıların cavabını kim verəcək? Əlbəttə torpaqları gözüyumulu satanlar verəcək. Həm də tarix qarşısında verəcəklər buna cavab. Dünya durduqca övladları, nəvə-nəticələri, kötücələrinin hər birindən ata-babalarının səhvi soruşulacaq. Onlar buna cavab verməli olacaqlar. Utanacaqlar, xəcalət çəkəcəklər, hansı nəslin davamçıları olduqları üçün hər zaman bu üz qarasını daşıyacaqlar. Qoy tarix və zaman onların qiymətini də, cavabını da özü versin.

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə hakimiyyətə gəlişindən sonra işğalına son qoyulan torpaqlarımızın geri alınması da ötən illərdə hər gün həllini gözləyən məsələ olmuşdu. Torpaqlarımızın geri qaytarılmasının danışıqlar yolu ilə mümkün olmazsa, müharibə yolu ilə olacağını söyləyən ulu öndərin davamçısı, Prezident cənab İlham Əliyevin də ölkəmizə rəhbərlik etdiyi illərdə bu məsələ fəaliyyətinin əsas istiqaməti olmuşdur. 17 il ərzində beynəlxalq təşkilatlara müraciət edilmiş, onlar Azərbaycanın haqq səsinə səs verməyə, ədalətsizliyə son qoymağa çağırılmiış, erməni xisləti, yalanı dünyanın mötəbər kürsülərindən ifşa edilmişdir. Ötən illər ərzində dövlət-xalq birliyi ölkənin hərtərəfli inkişafına səbəb olmuş, xüsusilə iqtisadiyyatımız güclənmiş, bu isə güclü ordunun yaranması ilə nəticələnmişdir. Hər il dövlət büdcəsindən ordumuzun inkişafına ayrılan vəsait müasir təchizat məsələlərinin həlli olmuşdur ki, bunun 2020-ci ilin sentyabr

ayının 27-dən noyabrın 10-dək davam edən İkinci Qarabağ Müharibəsində şahidi olduq. Həm də tək biz yox, bütün dünya şahidi oldu ki, Azərbaycan nəyə qadir imiş. 44 günlük müharibədə əldə etdiyimiz Zəfərə gənclərimizin sayəsində nail olduq. Bu isə ötən illərdə ölkəmizdə gənc nəslin düzgün yetişdirilməsinin, onların vətənpərvər ruhda böyüməsinin nəticələri idi. Vətənin harayına səs verən, sinəsini Vətən yolunda sipər edən, ölümün gözünə dik baxan gənclərimiz bu xalqa qələbənin şirinliyini daddırdılar. Onlar Ali Baş Komandanın ətrafında sıx birləşərək planlı şəkildə-az itkisiz və qısa vaxtda torpaqlarımızı qəsbkarlardan geri aldılar. Dövlətimizin başçısının dediyi kimi: "...İkinci Qarabağ müharibəsində şəhidlərimiz az olub. Halbuki, hər bir şəhidin həyatı təkrarolunmazdır, əvəzolunmazdır. Ancaq əməliyyatlar aparılan zaman vacib şərtlərdən biri də o idi ki, itkilərimiz az olsun və torpaqlarımız da geri qayıtdı". Bəli, bütün dünyanın şahidi olduğu həmrəyliyimizlə, yaşından asılı olmayaraq yüksək vətənpərvərliyimizlə, 1990-cı illərlə müqayisəyəgəlməz ordumuzla, ən əsası isə qüdrətli sərkərdəmizlə Qarabağda Zəfər qazandıq.

Zəfər Birinci Qarabağ Müharibəsində niyə uduzduq, niyə o qədər şəhid verdik suallarına cavab oldu. İkinci Qarabağ Müharibəsində qələbəmizin səbəbini izah etdi. Nəticə etibarilə Zəfərimizin əldə olunmasında Vətən sevgisi amilinin dayandığını göstərdi. Bu Zəfərlə o illərdə ölkəmizin rəhbərlərinin sevgisizlikləri fonunda böyük Vətən sevgisini ölkəmizin rəhbərində gördük. Həm də onun sonsuz olduğunu gördük. Bu sevgi bölünüb torpaqlarımıza paylananda isə onların hər birinin azad olunması, anası Azərbaycana qaytarılması, ölkəmizin ərazi bütövlüyünün bərpasının böyük arzu olduğunu gördük. Gördük ki, ölkəmizin rəhbəri bütün gücü ordu quruculuğuna, dünyanın fikrini Qarabağa yönəltdi. Qarabağın geri alınması üçün illərlə iş apardı. Dünyaya üz tutdu, torpaqlarımızın dinc yolla, qan tökülmədən alınmasına çalışdı. Lakin buna nail olmayanda müharibə yolu ilə düşməni yerində oturtmasını, diz çökdürməsini də gördük. Əgər Birinci Qarabağ Müharibəsində 15 mindən çox şəhidimiz olmuşdursa, İkinci Qarabağ Müharibəsində 3 minədək şəhidimiz oldu. O qədər şəhidlə əldən gedən torpaqlar geri alındı. Bu, müharibənin planlı şəkildə aparılmasının, güclü ordunun, orduya bacarıqla, səriştə ilə rəhbərliyin göstəricisi, yazılan şanlı tarixdir. O tarix ki, vərəqləndikcə hünərdən, qeyrətdən, namusdan, ləyaqətdən, vətənpərvərlikdən, həmrəylikdən söhbət açacaq. Minlərlə şəhidi olan Birinci Qarabağ Müharibəsi isə bu tarixin səhifələrinə əliyalın insanların hünəri ilə yanaşı, həm də xalqına xəyanət edən rəhbərlərin adı, pis əməlləri ilə yazılıb. Bax, Zəfər bunları ortaya qoydu.

Bu gün ölkəmizdə həm Birinci, həm də İkinci Qarabağ Müharibəsi şəhidlərinin və qazilərinin qiymətləndirilməsi, adlarının əbədiləşdirilməsi, onların ailələrinə və qazilərə göstərilən diqqət, dövlətimiz tərəfindən onların hər birinin övlad qayğısı ilə əhatə olunması insanda qürur yaradır. Bunun özü də dünyaya bir mesajdır. Mesajdır ki, bizim Vətənimiz, torpağımız nə qədər əzizdirsə, övladlarımız da o qədər dəyərlidir. Həyatını torpaq uğrunda qurban verən, sağlamlığını Vətən üçün fəda edənlər əbədi bir sevgiyə layiqdirlər. Çünki onlar bu sevgiləri ilə yanaşı, həm də böyük bir xalqa müzəffər xalq kimi yaşamağı nəsib ediblər. Prezident cənab İlham Əliyevin dediyi kimi: Mən yenə də deyirəm, ömrün əvvəli də, sonu da var, heç kim həyatda əbədi qalmır. Amma şəhid olmaq, bu, doğrudan da xalq qarşısında, tarix və gələcək nəsillər qarşısında böyük xidmətdir. Şəhid əbədi qalır, əməyi və qəhrəmanlığı əvəzolunmazdır. Çünki canını fəda edir ki, torpaqlar azad olunsun və ədalət bərpa olunsun, xalqımızın ləyaqəti bərpa olunsun. Çünki otuz il torpaqlarımız işğal altında qalıb və xalqımız mənəvi əzablar çəkib...

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Səfərli. Qəhrəmanlıq tariximizin şanlı səhifəsi. Bakı, 2020.
2. Zəfər yolu. Qarabağ savaşından Şuşa bəyannaməsinədək. Bakı, 2021.

3. M. Hüseynov. 44 günlük Zəfər savaşı. Bakı, 2024.

## 44 GÜNLÜK MÜHARİBƏNİN ZƏFƏR QƏHRƏMANLARI

***Nuridə Orucova***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***

***Xülasə:*** *Bu məqalədə 44 günlük müharibədən, torpaqlarımızın işğaldan azad olunmasından danışılmış və Zəfər qələbəsinin əldə olunmasında misilsiz xidmətləri olan qəhərmanlarımızın fəaliyyəti qısa şəkildə işıqlandırılmışdır.*

***Açar sözlər:*** *Zəfər günü, Vətən müharibəsi, Dəmir Yumruq, Şəhidlər və Qazilər, İşğaldan azad olunmuş torpaqlar.*

Vətən müharibəsi, 44 günlük müharibə və ya "Dəmir Yumruq" əməliyyatı prezident İlham Əliyevin 27 sentyabr 2020-ci tarixli Fərmanı ilə 2020-ci il 28 sentyabr saat 00:00-dan Azərbyaycan Respublikasının bütün ərazisində hərbi vəziyyət elan edilməsi ilə başlamışdır. 28 sentyabrda qismən səfərbərlik elan olunmuşdur. Bu döyüşlərdə ordumuz az itki ilə böyük irəliləyişlərə imza atdı. Müharibənin başladığı ilk gündən Azərbaycan Silahlı Qüvvələri Respublikanın bir neçə strateji əhəmiyyətli ərazilərini işğaldan azad etmişdir. Bu 44 gün davam edən müharibə zamanı oktyabrın 4-də Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda isə Qubadlı və noyabrın 8-də Vətənimizin ən gözəl guşələrindən biri olan və xalqımız üçün böyük əhəmiyyət kəsb edən Şuşa şəhəri işğaldan azad olundu. Bundan sonra ordumuz Oktyabrın 22-də Qarabağın iranla cənub sərhədini tamamilə azad etmiş və 23 oktyabrda Laçın dəhlizinə doğru irəliləməyə başladı. Şuşanın azad edilməsindən sonra İlham Əliyev, Vladimir Putin və Nikol Paşinyan arasında 10 noyabr 2020-ci il, saat 00:00-dan etibarən bütün döyüş əməliyyatlarını dayandıran atəşkəs bəyanatı imzalandı. Müqaviləyə əsasən, Azərbaycan müharibə zamanı işğaldan azad etdiyi ərazilərə nəzarəti əlində saxladı. 44 günlük haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədi yazıldı. Şuşanın işğaldan azad olduğu gün yəni noyabrın 8-i bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə ölkəmizdə Zəfər Günü kimi təntənəli şəkildə qeyd olunur. Hər bir xalqa belə bir Qalibiyyət hissini yaşamaq, belə bir Zəfər günü qismət olmur. Bu Qələbəni Ali baş komandanımız İlham Əliyevin güclü siyasəti və əsgərlərimizin qəhrəmanlıqları, qorxusuz şücaətləri, vətənə olan sevgiləri sayəsində qələbə qazandıq və illərdi tapdaq altında olan dogma torpaqlarımız işğaldan azad olundu,beləliklə də, Vahid ərazi bütövlüyümüz bərpa olundu.Vətən oğilları ölümü gözə almağı bacardı. Onlar öz milləti, torpaqları üçün Şəhidliyi mükafat kimi qəbul etdilər. Ali Baş Komandanımız Cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Rəşadətli Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində bizə Zəfər sevincini yaşatdı və Azərbaycan öz şanlı tarixini yazdı. 44 günlük müharibənin əsas qəhrəmanlarından olan gənc hərbçilərimiz fədakarlıq və qəhrəmanlıqları ilə tarix yazdılar. İkinci Qarabağ müharibəsində demək olar ki ölkəmizin hər bölgəsindən olan hərbiçilərimiz vardı. O qəhrəman oğullar getdilər və bütün anaların, ataların, o boynu bükük tarixi yaşayan insanların arzularını gerçək edib Şəhid oldular, Qazi oldular, Qəhrəman oldular! Onlar Qarabağımızı azad etdilər! Bizə bugün bu qüruru yaşadan məhz həmin gənclərdir. Onlar öz canları, axıtdıqları qanları ilə ömürlük yaddan silinməyəcək yeni bir tarix yazdılar və keçmişdən bu yana Vətən yolunda şəhid olmuş digər qəhrəman oğullarımızın da intiqamını alıb onların qanını yerdə

qoymadılar. Təbii ki bu qürurla yanaşı minlərlə evin çırağı söndü, minlərlə ana, ata, bacı gözü yaşlı qaldı. Minlərlə övlad atasını, minlərlə qadın həyat yoldaşını itirdi. Bu Zəfəri bizə yaşadıb özləri bu Zəfəri görə bilməyən minlərlə şəhidimizin ruhu şad olsun. Və minlərlə qazimiz öz qəhrəmanlıqları Ölkəmizi dünyada bir daha qalib bir Ölkə kimi tanıtdılar. Onlar içlərində yatan vətən sevgisini üzə çıxardılar, illərdir ermənilər tərəfindən əsir qalan qadınlarımızın, qocalarımızın, canicə öldürülən körpələrimizin intiqamını aldı bu qəhraman oğullar. Səfərbərlik elan olunmamış minlərlə oğullarımız könüllü olaraq müharibəyə getmək üçün müraciət etmişdilər. Hər kəsə aydındır ki, onları ora toplayan Qarabağ sevgisi, vətən eşqidir. 44 günlük bu qanlı mübarizə göstərdi ki, ölkəmizdə vətənpərvər və milli ruhda tərbiyə almış gənc nəsil yetişib ki, onlar öz vətəni üçün canlarından keçməyə heç düşünmədən hazırdılar. Bu illər ərzində gənclərimizin məhz vətənpərvərlik ruhunda tərbiyə alması, onlarda olan düşmənə nifrət hissi Qələbəyə apardı və Azərbaycanın tarixi ədaləti bərpa etməsinə töhfə verdi. Vətən müharibəsində gənc nəsil, yaşlı nəsil, təcrübəli insanlar, bütün xalqımız, bir “Dəmir Yumruq” adı altında birləşdi. 44 gün davam edən müharibədə ağır artilleriya atəşləri nəticəsində uşaqlar, qadınlar və qocalar daxil olmaqla ümumilikdə 94 mülki şəxs öldürülmüş, 400-dən çox mülki şəxs yaralanmış, eyni zamanda Azərbaycan Silahlı Qüvvələrinin 2907 nəfər hərbi qulluqçusu şəhid olmuş, mindən çox əsgər yaralanmış, 6 nəfər itkin düşmüşdür. Azərbaycan Respublikası ərazilərinin işğaldan azad olunması zamanı hərbi əməliyyatlarda iştirak edərək mərdlik və şücaət göstərmiş, vəzifə borcunu ləyaqətlə və vicdanla, döyüş tapşırıqlarını uğurla yerinə yetirmiş silahlı qüvvələrin hərbi qulluqçu¬ları müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə müxtəlif orden və medallarla təltif olunmuşlar. Yeni təsis olunmuş – “Vətən Müharibəsi Qəhrəmanı” adı, “Zəfər”, “Qarabağ”, “Vətənə xidmətə görə” 1, 2 və 3-cü dərəcəli, “Rəşadət”, “Azərbaycan Bayrağı” ordenləri, habelə “Vətən uğrun¬da”, “İgidliyə görə”, “Döyüşdə fərqlənməyə görə”, “Cəsur döyüş¬çü”, “Cəbrayılın azad olunmasına görə”, “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə”, “Zəngilanın azad olun-masına görə”, “Suqovuşanın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, “Kəlbəcərin azad olunmasına görə”, “Ağdamın azad olunmasına görə”, “Laçının azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” kimi medallar Vətən müharibəsi iştirakçılarına və ya ölümündən sonra onların yaxınlarına təqdim edilmişdir. 44 günlük müharibədə şəhid olmuş zəfər qəhrəmanlarımız: 3 polkovnik, 25 polkovnik/leytenant, 52 mayor, 64 kapitan, 109 baş leytenant, 149 leytenant, 5 kiçik leytenant, 34 baş gizir, 180 gizir, 58 kiçik gizir, 29 baş çavuş, 94 çavuş, 140 kiçik çavuş, 9 baş əsgər, 1952 əsgər (matros) və 3 mülki qulluqçu. İkinci Qarabağ müharibəsində iştirak etmiş qəhrəmanlarımıza müxtəlif orden və medallar verilmişdir.

Vətən Müharibəsi Qəhrəmanı Azərbaycanın ən yüksək tituludur. Bu ad “Azərbaycan Respublikasının “Vətən Müharibəsi Qəhrəmanı” adı haqqında Əsasnamə” 26 noyabr 2020-ci il tarixli qanun və Azərbaycan Prezidenti İlham Əliyevin 1 dekabr 2020-ci il tarixli fərmanı ilə yaradılmışdır. Azərbaycanın İkinci Dağlıq Qarabağ müharibəsinin qalibi olması münasibətilə təsis edilib. Onu alan şəxs həm də Vətən Müharibəsi Qəhrəmanı medalı ilə təltif edilmişdir.

Şəhidlərimizin həyatı və nailiyyətləri haqqında məlumatları yazsaq bir kitab bəs eləməz təbii ki. Hər biri bizim qəhrəmanımızdır onlar biz yaşayaq bu torpaqlar azad olsun deyə öz canlarından keçdilər. Qüruq duyuruq. Bu Zəfəri bizə yaşadan qəhrəmanlarımızın bir neçəsini adını qeyd edəcəm.

Qarabağın azad olunması zaman şəhid olan qəhrəmanlarımızdan biri də mənim yerlim bir məktəbdə oxuduğum Təhmasib Qarayev olmuşdur. Təhmasib hər zaman hərbiçi olmağı arzulayıb.Universiteti bitirdikdən sonra Xüsusi təyinatlı qüvvələrdə xidmətə başlayıb və xidmət

müddəti bitdikdən sonra öz ixtisasını yox hərbiçi olaraq qalmağı seçərək xidməti davam etdirib və Gizir rütbəsini alıb. Çünki o həmişə vətəni qorumağı, millətimiz üçün döyüşməyi, torpaqlarımızı düşmən tapdağından xilas etməyi arzulayırdı.Təhmasib Qarayev İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla savaşmışdır ancaq təəssüf ki, oktyabr ayının 22-də Qırmızı bazar deyilən ərazidə Şəhid olub.

Adı bütün Azərbaycanın qəlbinə əbədi həkk olunan, cəsarəti ilə əfsanəyə çevrilən, heç bir zaman qəhrəmanlığı unudulmayacaq Vətən müüharibəsi şəhidlərimizdən biri gənc ömrünü bugün bizlərin rahat, alnıaçıq yaşamağı üçün fəda edən Cəbrayıl Dövlətzadədir. Cəbrayılın 19 yaşı olmasına baxmayaraq öz milləti, torpağı üçün canından keçməyə hazır idi və General- Mayor Polad Həşimovun qisasını almağı özünə söz vermişdi. O, sadəcə 1 gün müharibədə olmasına baxmayaraq ondan çox müxtəlif rütbəli erməni hərbiçisilə təkbaşına, üz-üzə savaşıb, ermənilərin bir generalını və polkovnikini öz əlləri ilə boğub məhv etmiş bununla da özünə verdiyi sözü sadəcə bir neçə saat ərzində yerinə yetirmişdir.

Adı dillər əzbəri olan digər bir qəhrəmanımız Şəhid Xudayar Yusifzadədir. Xudayar da Polad Həşimov şəhid olmasından sonra könüllü olaraq Hərbi komissarlığa müraciət etmişdir. Və İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla döyüşmüşdür. Xudayarın Vətən sevgisi oxuduğu və lentə aldığı "Vətən yaxşıdır" mahnısında da özünü göstərir. Təəssüf ki, belə bir qəhrəman oğlumuz da öz qəhrəmanlığı ilə tarix yazıb dastana döndü. Xudayar Yusifzadə oktyabr ayının 22-Zəngilanın azad edilməsi zamanı şəhid olub.

Elxan Hüseynov, Muxtar Qasımlı, Əhməd Laçınov, Nail Abakarov, Valeh Bədəlov, Fəqan Məmmədov, Şahin İsgəndərov, Elmir Məmmədov kimi minlərlə Şəhid olmuş digər qəhrəmanlarımıza borclu və minnətdarıq.

**İstifadə olunmuş ədəbiyyat:**


4. S.N. Aslanov. Qarabağ Azərbaycandır. Bakı, 2020.
5. A. Səfərli. Qəhrəmanlıq tariximizin şanlı səhifəsi. Bakı, 2020.
6. Zəfər yolu. Qarabağ savaşından Şuşa bəyannaməsinədək. Bakı, 2021.
7. M. Hüseynov. 44 günlük Zəfər savaşı. Bakı, 2024.
8. Pərvanə Ziyadova. Şərəfli döyüş yolu. Bakı, 2021.


## YENİLMƏZ İRADƏNİN QƏLƏBƏSİ: ZƏFƏRƏ GEDƏN YOLDA HEKAYƏLƏR


***Pərişan Yolçuzadə***

***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***

***parishan.yolchuzada@gmail.com***



***Xülasə:*** *2020-ci il 27 sentyabr tarixində başlanan və 44 gün davam edən Zəfər Müharibəsi Azərbaycan tarixinin ən mühüm hadisələrindən biri oldu. Bu müharibə nəticəsində ölkəmiz 30 ilə yaxın Ermənistanın işğalı altında olan torpaqlarını azad edərək ərazi bütövlüyünü bərpa etdi. Azərbaycanın həm hərbi gücü, həm də diplomatik uğurları ilə yadda qalan bu müharibə, bölgədə yeni geosiyasi reallıqlar yaratdı.*



***Açar sözlər:*** *zəfər müharibəsi, müharibə qəhrəmanları, qələbə, qayıdış, "Dəmir Yumruq"*


2020-ci ilin 27 sentyabrında başlayan və 10 noyabrda başa çatan 44 Günlük Vətən Müharibəsi Azərbaycanın müasir tarixində dönüş nöqtəsi oldu. Bu müharibə ilə Azərbaycan 30 ilə yaxın

müddətdə Ermənistanın işğalı altında olan Qarabağ və ətraf rayonları azad edərək ərazi bütövlüyünü bərpa etdi. Ermənistanın davamlı təxribatlarına cavab olaraq başlayan bu müharibə, Azərbaycanın hərbi gücünü, xalqın milli birliyini və beynəlxalq arenadakı mövqeyini gücləndirdi.

27 sentyabrda Ermənistan Silahlı Qüvvələrinin genişmiqyaslı təxribatı Azərbaycanın cəbhəyanı bölgələrində mülki əhaliyə ciddi ziyan vurdu. Cavab olaraq Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatlarına başladı. Bu əməliyyat "Dəmir Yumruq" adı ilə tarixə düşdü. Azərbaycan Ordusu qısa müddət ərzində düşmənin müdafiə xəttini qıraraq irəliləməyə başladı. İlk böyük qələbə 4 oktyabrda Cəbrayıl şəhərinin azad edilməsi ilə qazanıldı. Bu qələbə müharibənin gedişatını dəyişdirdi və Azərbaycan Ordusunun irəliləyişinə yeni nəfəs verdi. Ardınca 17 oktyabrda Füzuli, 20 oktyabrda isə Zəngilan şəhərləri azad edildi.

Müharibənin taleyini dəyişən əsas döyüş isə Şuşa uğrunda baş verdi. Qarabağın ürəyi sayılan Şuşa şəhəri həm strateji, həm də mədəni əhəmiyyətinə görə böyük önəm daşıyırdı. Dəniz səviyyəsindən 1400 metr yüksəklikdə yerləşən bu şəhər düşmən tərəfindən möhkəm müdafiə olunurdu. Lakin Azərbaycan əsgərləri çətin relyef və əlverişsiz hava şəraitinə baxmayaraq, 8 noyabrda Şuşanı azad etdilər. Bu tarixi qələbə müharibənin gedişatını müəyyən etdi və Ermənistanın məğlubiyyətini sürətləndirdi.

Şuşanın azad edilməsindən iki gün sonra, 10 noyabr 2020-ci ildə Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli bəyanat imzalandı. Bu bəyanata əsasən, Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz Azərbaycana təhvil verdi. Beləliklə, müharibə Azərbaycanın tam qələbəsi ilə başa çatdı və ölkənin ərazi bütövlüyü bərpa edildi.

44 Günlük Müharibə təkcə hərbi deyil, həm də diplomatik qələbə idi. Azərbaycan müharibə boyunca beynəlxalq hüquqa əsaslanaraq hərəkət etdi və öz haqlı mövqeyini dünyaya sübut etdi. Müasir hərbi texnologiyanın, xüsusilə pilotsuz uçuş aparatlarının (PUA) effektiv istifadəsi Azərbaycan Ordusunun üstünlüyünü təmin etdi. Bu texnologiyalar düşmənin hərbi texnikasını və müdafiə sistemlərini məhv edərək qələbəni sürətləndirdi.

Müharibə zamanı Azərbaycan xalqı böyük milli birlik nümayiş etdirdi. Ölkənin hər bir vətəndaşı ordusuna dəstək oldu və bu həmrəylik qələbənin əsas amillərindən birinə çevrildi. Şəhidlərin qəhrəmanlığı və fədakarlığı xalqın yaddaşında əbədi yaşayacaq. Onların qanı ilə yazılan bu zəfər gələcək nəsillər üçün milli qürur mənbəyi olacaq.

Müharibədən sonra Azərbaycan Qarabağın bərpası və yenidən qurulması istiqamətində genişmiqyaslı işlərə başladı. Azad edilmiş ərazilərdə infrastruktur layihələri həyata keçirilir, məktəblər, xəstəxanalar və yaşayış binaları inşa edilir. "Böyük Qayıdış" proqramı çərçivəsində məcburi köçkünlər öz doğma yurdlarına qayıdır. Bu proses təkcə fiziki məskunlaşma deyil, həm də Qarabağın mədəni və sosial həyatda yenidən canlanması deməkdir.

Vətən Müharibəsi təkcə Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə deyil, həm də yüzlərlə qəhrəmanın fədakarlığı və şücaəti ilə yadda qaldı. Onlar həyatlarını vətənin azadlığı və torpaqlarımızın düşməndən təmizlənməsi uğrunda fəda etdilər. Bu qəhrəmanların hər biri öz həyat hekayəsi ilə gələcək nəsillərə örnəkdir:

Şükür Nəriman oğlu Həmidov 1975-ci ildə Qubadlı rayonunun Əfəndilər kəndində dünyaya gəlib. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb və zabit kimi fəaliyyətə başlayıb. Şükür Həmidov 2016-cı ilin Aprel döyüşlərində göstərdiyi şücaətə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb.

2020-ci ilin Vətən Müharibəsində isə Şükür Həmidov yenidən ön cəbhədə idi. O, Qubadlının azad edilməsi uğrunda gedən döyüşlərdə xüsusi igidlik göstərdi. Lakin 22 oktyabr 2020-ci ildə

doğma Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid oldu. O, Azərbaycanın ən yüksək dövlət ordeni olan "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görüldü.

Babək Samid oğlu Səmidli 1974-cü ildə Füzuli rayonunun Horadiz qəsəbəsində anadan olub. Hərbi təhsilini Azərbaycan Ali Hərbi Məktəbində tamamladıqdan sonra müxtəlif hərbi hissələrdə xidmət edib. 2016-cı il Aprel döyüşlərində və Vətən Müharibəsində göstərdiyi igidliklə seçilib.

Vətən Müharibəsində Füzuli, Cəbrayıl və Qubadlı istiqamətlərində uğurlu əməliyyatlara rəhbərlik edib. Müharibənin bitməsindən sonra, 23 noyabr 2020-ci ildə Füzuli rayonunun minadan təmizlənməsi zamanı minaya düşərək şəhid olub. Ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.

Polad İsrayıl oğlu Həşimov 1975-ci ildə Qəbələ rayonunun Vəndam kəndində anadan olub. Hərbi təhsilini Bakıda alıb və uzun illər Azərbaycan Silahlı Qüvvələrində müxtəlif vəzifələrdə xidmət edib. O, daim əsgərlərin yanında olub, sadəliyi və cəsurluğu ilə seçilib.

2020-ci ilin iyul ayında Ermənistanın Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribat zamanı Polad Həşimov əsgərləri ilə birgə ön cəbhədə idi. O, 14 iyul 2020-ci ildə döyüş zamanı qəhrəmancasına şəhid oldu. Ölümündən sonra ona "Azərbaycanın Milli Qəhrəmanı" adı verildi və xalq arasında əbədi qəhrəman kimi xatırlanır.

Anar Məmməd oğlu Novruzov 1990-cı ildə Tərtər rayonunun Şıxarx qəsəbəsində doğulub. Hərbi xidmətə başladığı gündən etibarən fədakarlığı və vətənə bağlılığı ilə seçilib. 2020-ci ilin Vətən Müharibəsində Anar Füzuli, Cəbrayıl və Zəngilan rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə xüsusi qəhrəmanlıq göstərib.

Anar Novruzov 22 oktyabr 2020-ci ildə Qubadlı istiqamətində gedən döyüşlərdə şəhid olub. O, ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

İlqar Anzor oğlu Mirzəyev 1973-cü ildə Qax rayonunda doğulub. O, Azərbaycan Ali Hərbi Məktəbində təhsil alıb və uzun müddət müxtəlif hərbi hissələrdə komandir kimi fəaliyyət göstərib. Tovuz döyüşləri zamanı düşmənin irəliləməsinin qarşısını almaqda böyük rol oynayıb.

2020-ci ilin 14 iyulunda Tovuz istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Ölümündən sonra ona "Azərbaycan Bayrağı" ordeni və digər yüksək dövlət təltifləri verilib.

Hikmət Hacıyev 1983-cü ildə Qəbələ rayonunun Qubalan kəndində anadan olub. O, hərbçi olmaq istəyərək 2000-ci ildə Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Təhsilini bitirdikdən sonra müxtəlif hərbi hissələrdə xidmət edib. 2020-ci ildə başlayacaq Vətən Müharibəsi ərəfəsində o, artıq təcrübəli və döyüş qabiliyyətinə malik bir zabit idi.

Hikmət Hacıyev müharibə zamanı Cəbrayıl, Füzuli və Zəngilan bölgələrində döyüşlərdə iştirak edib. Onun rəhbərliyi ilə çoxsaylı uğurlu əməliyyatlar həyata keçirilib. Şuşa uğrunda gedən döyüşlərdə xüsusilə fərqlənərək böyük şücaət göstərib. Şuşa şəhərinin azad edilməsi əməliyyatında şəhid oldu. Onun adı Azərbaycan Ordusunun igid komandirləri sırasında əbədi yaşayacaq.

Rəşad Musayev 1989-cu ildə Gəncə şəhərində doğulub. Orta məktəbi bitirdikdən sonra hərbi xidmətə yollanıb və Azərbaycan Silahlı Qüvvələrində zabit kimi fəaliyyət göstərib. 2020-ci ilin Vətən Müharibəsi başlayanda Rəşad bir neçə ay ərzində müharibənin ən ağır döyüşlərində iştirak edib.

O, Füzuli, Cəbrayıl, Qubadlı və Laçın rayonlarında gedən döyüşlərdə böyük qəhrəmanlıq göstərib. Düşmənin müdafiə mövqelərini zərərsizləşdirərək, əsgərlərinin həyatı üçün təhlükəsiz şərait yaradıb. Rəşad Musayev 6 oktyabr 2020-ci ildə Laçın istiqamətində gedən döyüşlərdə şəhid olub. Onun igidliyi və vətənə olan sevgisi xalq tərəfindən yüksək qiymətləndirilib.

İsmayıl Həşimov 1981-ci ildə Şəmkir rayonunun Mühəndis kəndində dünyaya gəlib. Hərbi xidmətə başladıqdan sonra İsmayıl təcrübəli bir komandir olaraq tanınmağa başladı. 2020-ci ilin Vətən Müharibəsində göstərdiyi cəsarət ilə xalqın ürəyində qalacaq bir qəhrəmana çevrildi.

İsmayıl Həşimov Qarabağ döyüşlərində həm əsgərlərin, həm də komandirlərinin həyatda qalması üçün çoxsaylı mühüm qərarlar verib. O, Cəbrayılın azad edilməsi əməliyyatında şəhid oldu. Ölümündən sonra Azərbaycan Prezidentinin sərəncamı ilə ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verildi.

Bu və adını qeyd edə bilmədiyimiz minlərlə qəhrəmanlar Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda həyatlarını fəda etdilər. Onların hər biri xalqın yaddaşında əbədi olaraq yaşayacaq və gələcək nəsillərə vətənpərvərlik, fədakarlıq və igidlik nümunəsi olacaq. Onların həyat hekayələri, şücaətləri və döyüşlərdəki igidlikləri gələcək nəsillərə vətənpərvərlik ruhunu aşılamaqda davam edəcək. Onların adı tarixə qızıl hərflərlə yazıldı və Azərbaycan xalqı onları heç vaxt unutmayacaq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. İlham Əliyev, "Azərbaycanın Vətən Müharibəsi: İgidlik, Fədakarlıq və Qələbə." Bakı, Nurlan Nəşriyyatı, 2021.
2. Rzayev R. "Vətən Müharibəsi: Qarabağ və Azərbaycanın Böyük Qələbəsi." Bakı, İqtisad Universiteti Nəşriyyatı, 2022.
3. Quliyev E.. "Şəhidlərimizin Həyatına Həsr Edilən Sözlər." Bakı: Şəhidlər Nəşriyyatı, 2021.
4. Həsənov B. "Zəfər Yolu: Azərbaycan Ordusunun Döyüş Təcrübəsi." Bakı, Təhsil Nəşriyyatı, 2021.
5. Zeynallı V. "Vətən Müharibəsinin Savaşçılarının Həyat Hekayələri." Bakı, Kitab Evi, 2022.

## HƏSRƏTDƏN VÜSALA – 44 GÜN

***Sevinc Mirzəyeva***
***"Pedaqogika, psixologiya və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***
***sevinj99@icloud.com***

***Xülasə:*** *Azərbaycan xalqı tarixi qələbəsini öz müdrik rəhbərinin başçılığı ilə qazandı. Dövlətin düzğün siyasəti, ordunun gücü,qüdrəti, xalqın əzəməti ilə 44 gündə Vətəndə Vətənsizlik həsrəti şanlı qələbəmiz ilə sona çatdı. Azərbaycanın İkinci Qarabağ, 44 günlük Vətən müharibəsi zamanı möhtəşəm qələbə qazanması, uzun illərdən bəri Ermənistanın işğalı altında olan tarixi torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün və tarixi ədalətin bərpa edilməsi, heç şübhəsiz, xalqımızın çoxəsirlik dövlətçilik tarixinin ən şərəfli səhifələrindən biridir. Bu məqalədə həsrətdən vüsala qədər olan dövrdə Azərbaycan xalqının əzmkarlığından,vətənpərvərliyindən, milli dəyərlərinə olan bağlığından, Vətən torpağının hər şeydən üstün tutulduğundan, xalqın birliyindən, qayıdan torpaqların qayıtmayan oğullarının iğidliyindən bəhs olunur. Haqq ədalət öz yerini tapdı əzabla keçdiyimiz yolları qürurla qayıtdıq!*

***Açar sözlər:*** *Müzəffər Ali Baş Komandan, Müzəffər xalq, Qalib dövlət,*

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev xalqa müraciətlərinin birində demişdir: İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir. Bu Qələbə tarixdə əbədi qalacaq.

Azərbaycan Silahlı Qüvvələri 44 gün ərzində düşmən ordusunu məhv edərək öz ərazi bütövlüyünü bərpa etdi. Biz düşməni torpaqlarımızdan qovduq və ədaləti, beynəlxalq hüququ bərpa etdik. Biz milli ləyaqətimizi bərpa etdik. Bu gün Azərbaycan xalqı müzəffər xalq kimi yaşayır. Bu gün Azərbaycan dövləti qalib dövlət kimi yaşayır. Biz bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq”.

Bu xalqın tarixinin şanlı səhifələrini vərəqlədikcə keşməkeşli dövrlərdən necə üzü ağ çıxdığının, həmrəy, vətənpərvər və qəhrəman bir xalq olduğunu görürük. Həmçinin, şifahi xalq ədəbiyyatının incilərinə nəzər saldıqda qəhrəman, milli mənəvi dəyərlərimizə sadiq, vətənini, torpağını sevən, yüksək əxlaqi dəyərləri özlüyündə birləşdirən bir xalq olduğumuzun bir daha şahidi oluruq. Biz xoşbəxt xalqıq ki,1300 il bundanəvvəl xalqımızın qəhrəmanlıq tarixini, onun müdrikliyini, milli mədəniyyətini əks etdirən canlı tarix hesab edilən “Kitabi-Dədə Qorqud” dastanı kimi əzəmətli bir dastanımız var. Mən təsəvvür edirəm ki, Kitabi-Dədə Qorqud"da Azərbaycanımızın ulu sələfi - Oğuz elinin mərd oğulları Beyrək, Basat, Qazan, Buğac, Qazan oğlu Uruz kimi yenilməz xalq qəhrəmanlarının ruhu başımızın üzərindədir, bu gün bizimlədir.Tarxi dəyərlərinə, soy-kökünə bağlı bir xalqın nümayəndələri olaraq Vətən torpağı uğrunda vuruşmuş, canından qanından keçmiş igid oğullarımız öz sələflərindən güc və mənəvi qüvvət almışdır. Azərbaycan xalqının "Kitabi-Dədə Qorqud"dan sonra yaranan ikinci böyük qəhrəmanlıq eposu "Koroğlu"dur. Bu dastan xalqımızın mübarizələrlə dolu tarixi ilə bağlı qəhrəmanlıq eposudur. Koroğlu və onun dəliləri xalqın qəhrəmanlıq ruhunu, Çənlibel isə Vətəni, el-obanı təmsil edir.Eposun baş qəhrəmanı Koroğludur. O, xalqını, Vətənini dərindən sevən igid və cəsur bir cəngavərdir. Onun mübarizəsi xalqın mübarizəsidir, xalqın azadlıq istəyindən doğan bir qəhrəmanlıq tarixidir. Atalarımızın belə bir gözəl məsəli var: “Aslanın erkəyi dişisi olmaz”. Elimizin mərd, qeyrətli, igid oğulları ilə yanaşı, namuslu, elinə, obasına, ailəsinə sədaqətli olan yeri gəldikdə ər meydanında bu igidlərlə çiyin-çiyinə hər cür mübarizəyə hazır olan Sara Xatunu, Tomrisi, Burla xatunu, Həcəri, Nigarı, Arəstə kimi əsl Azırbaycan xanımlarımız var. Azərbaycan Ordusunda şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində, ümumiyyətlə, gənclərin vətənpərvərlik tərbiyəsində "Kitabi-Dədə Qorqud" eposu və "Koroğlu" dastanı xalqımızın qəhrəmanlıq salnaməsinin dəyərli əsərləri kimi mühüm əhəmiyyətə malikdir.

Oğuz elinin ağsaqqalı, bilicisi, öndən söz deyəni, boy boylayanı Dədə Qorqudun da dediyi kimi “Qarı düşməndən dost olmaz”. Qeyd etməliyəm ki, hər zaman bizim xalqımız humanist, ədalətli, mərhəmətli, sülhsevən, tolerant bir xalq olmuşdur. Ancaq düşmən hər zaman bundan suistifadə etmişdir. Mənfur erməni daşnakları hələ lap qədimdən bəri türklərə - azərbaycanlılara qarşı saysız-hesabsız soyqırımı və terror aktları törətmişlər.Xalqımız daim onlara humanistcəsinə . yanaşsa da, düşmənin türklərə qarşı içindəki kin, nifrət hissi səngimək bilməmişdir. Əksinə, illər ke çdikcə ermənilər daha da vəhşiləşərək əhalimizə divan tutmuşlar.

Ermənistan-Azərbaycan münaqişəsi 1987-ci ilin sonunda Xankəndi (Sovet dövründə Stepanakert) və Ermənistanda yaşayan azərbaycanlılara qarşı hücumlarla başladı. Bu hücumlar soydaşlarımızın öz ata baba yurdlarından didərgin düşmələri ilə nəticələndi. 1988 ci il fevral ayının 20-də keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) Xalq Deputatları Sovetinin iclasında vilayətin erməni icmasının nümayəndələri DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılaraq Ermənistan SSR-in tərkibinə daxil edilməsi ilə bağlı Azərbaycan və Ermənistan SSR Ali Sovetlərinə müraciət etmək haqqında qərar qəbul etdilər. 1988-ci ildə Xankəndi-Ağdam şossesində yerləşən Əsgəran qəsəbəsi yaxınlığında ermənilər keçmiş DQMV-nin Xalq Deputatları Sovetinin

yuxarıda qeyd olunan qərarına qarşı etiraz edən dinc azərbaycanlı nümayişçilərə atəş açdılar. Nəticədə həlak olan iki azərbaycanlı gənc münaqişənin ilk qurbanları oldular.[1,s7]

1991-ci ilin sonu 1992-ci ilin əvvəlində münaqişənin hərbi mərhələsi başlandı. 1992-ci ilin fevral ayında erməni vandalları tərəfindən Xocalı şəhərində azərbaycanlılara qarşı misli görünməmiş qanlı soyqırım faciəsi törədildi. 1992-ci ilin may ayında Şuşa şəhəri və Laçın rayonu, 1993-cü ildə isə Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan rayonları işğal edildi. Hətta Ermənistanda yaşayan azərbaycanlılara amansız işgəncələr vermiş,yurd-yuvalarından didərgin salmışlar.1993-cü ildə BMT Təhlükəsizlik Şurası Azərbaycanın işğal olunmuş ərazilərindən bütün işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb edən 4 qətnamə qəbul etdi. Lakin Ermənistan höküməti bu qətnamələrə məhəl qoymurdu.Azərbaycan 30 ilə yaxın müddətdə ərazisinin 20%-ini işğal edən Ermənistanla danışıqlar apararaq Ermənistan-Azərbaycan münaqişəsini sülh yolu ilə nizamlamağa çalışdı. Danışıqlar heç bir nəticə vermədi, əksinə, aydın şəkildə müşahidə edildi ki, Ermənistan tərəfi, sadəcə olaraq, vaxt udmaq istəyir, status-kvonu möhkəmləndirməyə, əbədi etməyə çalışır. Azərbaycan işğalla barışa bilməzdi və barışmadı.Ötən müddət ərzində ümummilli lider Heydər Əliyev uzaqgörənlilik və müdrikliklə Azərbaycanın hərtərəfli inkişafı, siyasi və iqtisadi müstəqilliyinin möhkəmləndirilməsi üçün böyük işlər gördü, sağlam təməllər yaratdı.

Bu yolu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkənin ərazi bütövlüyünün bərpası üçün ilk növbədə, iqtisadi gücün vacibliyini bəyan etdi. Düzgün strategiya və düşünülmüş məqsədyönlü siyasət nəticəsində Azərbaycan güc toplamağa başladı, iqtisadi müstəqillik təmin edildi, Azərbaycan iqtisadi cəhətdən heç kimdən, heç bir ölkədən, heç bir beynəlxalq maliyyə qurumundan asılı olmayan müasir dövlətə çevrildi, dünya üçün çox nadir inkişaf modelini yaratdı. Ölkənin iqtisadi cəhətdən yüksəlişi ordu quruculuğunda da dönüşə səbəb oldu, Azərbaycan Ordusunun arsenalı ən müasir silah və hərbi texnika ilə gücləndirildi, hərbçilərin bilik və bacarıqları artırıldı, onların sosial müdafiəsinin, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atıldı.Ötən dövr ərzində çoxşaxəli, prinsipial, dürüst xarici siyasətin yürüdülməsi, beynəlxalq təşkilatlarla və xarici dövlətlərlə fəal işin aparılması, sıx əlaqələrin qurulması, həyata keçirilən regional enerji və kommunikasiya layihələri Azərbaycanın etibarlı tərəfdaş kimi mövqeyini xeyli gücləndirdi, ölkənin nüfuzunu artırdı, bölgədə Azərbaycanın iradəsi həlledici amilə çevrildi.

Ermənistanın baş naziri Nikol Paşinyanın 2019-cu il avqustun 5-də Xankəndidə "Qarabağ Ermənistanın bir hissəsidir və nöqtə" açıqlaması Ermənistanın işğalçılıq siyasətinin ən bariz etiraflarından birinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il oktyabrın 3-də "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasında çıxışı zamanı N.Paşinyanın bu bəyanatına "Qarabağ Azərbaycandır və nida işarəsi" deməklə sərt reaksiya verdi.

Prezident İlham Əliyev bu dövrü aydın şəkildə təsvir edir: "Bəli, onlar Dağlıq Qarabağı müstəqil dövlət adlandırdılar, növbəti mərhələdə yeni xəritələr çap etdilər və bütün ətraf rayonlarımızı Dağlıq Qarabağ adlandırmağa başladılar. Şəhər və kəndlərimizin adları dəyişdirildi və nəhayət, bizi yeni ərazilər uğrunda yeni müharibə ilə hədələməyə başladılar. Bunu deyən onların Tonoyan soyadlı müdafiə naziri idi. O bəyan etmişdi ki, Ermənistan yeni ərazilər uğrunda yeni müharibəyə hazırlaşır".

2016-cı ilin Aprel döyüşləri tarixi Qələbəmizin başlanğıcı oldu. Bu döyüşlərdə düşmən ağır itki verərək, silah-sursatını atıb qaçdı. İşğal altında qalmış torpaqlarımızın 2 min hektarı, o cümlədən bir sıra strateji yüksəkliklər azad edildi. 2020-ci ilin iyul ayında Ermənistan ordusu

yenidən təxribatlara əl atdı və Tovuz rayonu istiqamətində atəşkəsi pozdu. Bu dəfə də layiqli cavablarını aldılar. Tovuz döyüşləri də zəfərimizə təkan verdi.

2020-ci il sentyabrın 24-də Azərbaycan Prezidenti İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasının ümumi debatlarında çıxışı zamanı Ermənistanın Azərbaycana qarşı yeni müharibəyə hazırlaşması barədə dünya birliyini yenidən xəbərdar etdi: "Ermənistan bu yaxınlarda təcavüzkar və hücum xarakterli hərbi doktrina və milli təhlükəsizlik strategiyası qəbul edib… Biz BMT-ni və beynəlxalq ictimaiyyəti Ermənistanı növbəti hərbi təcavüzdən çəkindirməyə dəvət edirik. Təxribatların baş verməsinə və gərginliyin artmasına görə məsuliyyət tam şəkildə Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür".

Beləliklə, 2016-cı ilin Aprel döyüşlərindən, 2020-ci ilin İyul döyüşlərindən Ermənistanın hərbi-siyasi rəhbərliyi lazımi dərs çıxarmadı və vəziyyəti daha da gərginləşdirməyə davam etdi. 2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti irimiqyaslı hərbi əməliyyatlara başlamasına, Azərbaycan Ordusunun mövqelərinə və mülki yaşayış məntəqələrinə atəş zərbələri endirməsinə cavab olaraq əks-hücum əməliyyatı işə düşdü, sonradan "Dəmir Yumruq" adını alan bu əməliyyat Vətən müharibəsinə çevrildi.

27 sentyabr 2020-ci ildə Azərbaycan xalqı, dövləti və ordusu elə bir tarix yazdı ki, bu, bütöv bir millətin ləyaqət rəmzinə, milli qeyrət nümunəsinə çevrildi. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən Azərbaycan xalqı 30 illik torpaq həsrətinə 44 günə son qoydu. Həsrətə son qoyan xalqı vüsala çatdıran 44 günlük Vətən müharibəsi nəticəsində tariximizdə yeni səhifə yazıldı.

Vətən müharibəsi başlayanda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamına əsasən qismən səfərbərliyin elan olunması ilə gənclərimiz Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin şəhər və rayon şöbələrinə müraciət edir, döyüşlərdə iştirak etmək istədiklərini bildirirdilər. Hər kəsin gözündə qisas, üzündə Vətəni qorumağın müqəddəs vəzifə olduğunu ifadə edən cizgilər olurdu. Son döyüşlər zamanı hər bir gəncin qəlbi Azərbaycan əsgəri ilə bir döyünürdü. "Əsgərə məktub" layihəsi çərçivəsində igid oğullarımıza məktəblilər tərəfindən göndərilən minlərlə məktub vətənpərvərliyin nümunəsi idi.Bu həmçinin 7 –dən 77 hamının bir amal uğrunda mübarizəsinin göstərgəsidir. Bütün xalqın ürəyi cəbhə xəttində döyünürdü,sadə xalaq gümanı gələn nə varsa hamısını ön cəbhədə mərd oğullara göndərməyə hazır idi. Zəfər Günü üçün fədakarlıq edən arxa cəbhə qəhrəmanı Hikmət baba öz təqaüdünü əsgərlərimizə iyanə etmişdir. Həmçinin öncə vətən müharibəsində yaralanan əsgərlərimiz üçün ön cəbhəyə-Füzuliyə yollanan, Tibb Universitetinin Müalicə işi fakultəsinin dördüncü kurs tələbəsi olan Ramin Əliyevdi xüsusi qeyd etmək lazımdır. O, fədakar əməli ilə digər gənclərə də örnək olub.Qeyd etməliyəm ki,bunlar minlərlə misaldan biridir.Bu xalqın həmrəyliyinin,bir amal uğrunda sıx birləşməsinin bariz nümünəsidir.

Azərbaycan xalqı öz Prezidentinin ətrafında sıx birləşməklə bütün dünyaya sübut etdi ki, Qarabağ millətimizin milli ləyaqət rəmzidir. 30 ilin vətən həsrətinə son qoyan 44 günlük İkinci Qarabağ müharibəsi Azərbaycanın zəfəri ilə başa çatdı. Azərbaycan xalqı məğrur xalq, ordumuz isə dünyanın ən güclü, peşəkar ordusu kimi tarixə düşdü. Azərbaycanın döyüş meydanında və diplomatik müstəvidə qazandığı uğurlar tarixi zəfərimizi şərtləndirdi. Rəşadətli Azərbaycan Ordusu sentyabrın 27-də Ermənistanın hərbi təcavüzünə cavab olaraq 30 ildən artıq işğal altında olan torpaqlarımızı azad etmək üçün genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirməklə düşmənin bu illər ərzində yaratdığı "yenilməzlik" mifologiyasını darmadağın etdi. Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi çoxsaylı müsahibələri Ermənistanın

Azərbaycana qarşı hərbi təcavüzü, davam edən hərbi əməliyyatlarla bağlı tarixə, beynəlxalq hüquqa və ədalətə əsaslanaraq tutarlı arqumentlər üzərində qurulan aydın, məntiqli fikirləri, ölkəmizin haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında müstəsna rol oynadı. Ali Baş Komandan İlham Əliyev ərazi bütövlüyümüzün bərpası ilə bağlı vurğulamışdır: "Demişdim, biz heç vaxt imkan verə bilmərik ki, tarixi Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın. Demişdim ki, heç vaxt Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaq. Demişdim ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Demişdim ki, sülh yolu ilə mümkün olmasa, hərbi yolla bunu bərpa edəcəyik. Mənim çıxışlarım hər yerdə var, dərc edilib. Bu sözləri demişəm və buna əməl etmişəm. Ərazi bütövlüyümüzü bərpa etmişik, işğalçıları işğal edilmiş torpaqlardan qovmuşuq, ikinci erməni dövlətinin yaradılmasına imkan verməmişik, heç bir status haqqında söhbət gedə bilməz. Vahid Azərbaycan dövləti var".

Sentyabrın 27-də Qarabağda başlanan uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik yağılardan təmizləndi.

Ermənistan bütün hərbi resurslarını itirdi, döyüşdə uduzduğunu görən düşmən bütün vasitələrə əl atdı. Dinc əhalini atəşə tutdu, gecə vaxtı yatan insanların başına ballistik bombalar yağdırdı. Azərbaycan isə onların cavabını döyüş meydanında verdi. 1992-ci ildə Xocalı soyqırımını törədəndə də düşmənin məqsədi dinc əhalini qırmaqla Azərbaycan xalqının ruhunu sarsıtmaq, onu psixoloji böhrana salmaq idi. Bu dəfə də bu mənfur plan alınmadı, Azərbaycan xalqı öz haqq işi uğrunda sona qədər döyüşdü. 2020-ci il oktyabrın 26-da xalqa altıncı müraciətində dövlət başçısı Azərbaycan xalqını həlledici qələbəyə yaxın olduğunun müjdəsini verdi: "Biz əsgərlərimizin, zabitlərimizin canı-qanı bahasına bu torpaqları azad edirik. Həm döyüş meydanında, həm siyasi müstəvidə özümüzü təsdiqləmişik, dünyaya təsdiqləmişik. Azərbaycan xalqını qürurlu xalq kimi, cəsarətli xalq kimi, yenilməz xalq kimi təsdiqləmişik".

2020-ci il noyabrın 8-i Azərbaycan tarixinə qızıl hərflərlə Zəfər günü kimi yazıldı. Prezident İlham Əliyev xalqa sayca yeddinci müraciətini Şəhidlər xiyabanından edərək Şuşa şəhərinin işğaldan azad olunmasını Azərbaycan xalqına, bütün dünya azərbaycanlılarına elan etdi: "Mən bu gün, eyni zamanda, ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları! …Bu gün Azərbaycan xalqı bu yumruq kimi birləşib! Həmişə belə olacaq! Bu birlik əbədi olacaq! Bu birlik bizə gələcəkdə də bütün vəzifələri icra etmək üçün imkan yaradacaq… Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik!".

Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın baş naziri tərəfindən noyabrın 10-da imzalanan üçtərəfli Bəyanata əsasən Dağlıq Qarabağa heç bir xüsusi status verilmədi. BMT-nin Dağlıq Qarabağla əlaqədar verdiyi qətnamələrin həyata keçirilməsi təmin edildi.

Prezident İlham Əliyev 2020-ci il 3 dekabr tarixində imzaladığı Sərəncama əsasən ölkəmizdə Zəfər Günü bayram günləri sırasına daxil edilmişdir. Bu misilsiz qələbə - Zəfər Günü hər il noyabrın 8-də təntənəli şəkildə qeyd edilir.Hərbi müstəvidə əldə edilən qələbənin siyasi müstəvidə

davam etdirilməsi nəticəsində 44 günlük Vətən müharibəsindən sonrakı 20 gün ərzində 3 rayon – noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın Azərbaycana təhvil verildi. Bu münasibətlə Azərbaycan Prezidenti dekabrın 1-də xalqa müraciətində deyib: "Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq". Beləliklə, Ermənistan hərbi birləşmələrinin 4 il ərzində tədricən işğal etdiyi və 30 ilə yaxın dövr ərzində işğalda saxlayaraq ərazisində güclü hərbi istehkamlar, maneələr, müdafiə xətləri qurduğu Azərbaycan torpaqları 44 gün ərzində azad edildi. Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpa olundu, Ermənistan-Azərbaycan münaqişəsi tarixə çevrildi. Vətən müharibəsində Azərbaycan parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi, işğala son qoydu. Bu 44 günün hər günü Azərbaycanın şanlı tarixidir. Azərbaycan xalqı və dövləti Vətən uğrunda şəhid olan qəhrəman övladlarının işıqlı xatirəsini əziz tutur, onları daim xüsusi ehtiramla yad edir, qazilərin əməyini yüksək qiymətləndirir və onlarla qürur duyur.

Belə ki, Vətən Müharibəsində qələbə münasibətilə" "Zəfər" və "Qarabağ" ordenləri təsis olundu. Eyni zamanda, "Vətən Müharibəsi Qəhrəmanı", "Cəsur döyüşçü", "Döyüşdə fərqlənməyə görə", "Suqovuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Ağdamın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" və "Vətən müharibəsində arxa cəbhədə xidmətlərə görə" medalları təsis edildi.

Ermənistan ordusundan qənimət kimi götürülmüş texnikaların bir hissəsi 2020-ci il dekabrın 10-da Bakıda hərbi paradda nümayiş etdirilib, onlar həmçinin 2021-ci ilin aprelində Bakıda açılmış Hərbi Qənimətlər Parkında sərgilənir.Vətən müharibəsi Azərbaycan xalqının Qarabağ həsrətinə son qoyub, işğaldan azad edilmiş ərazilərdə ən müasir standartlarla bərpa və yenidənqurma işlərinə başlanılıb, Qarabağa həyat qayıdıb. Məhz Vətən müharibəsinin nəticəsi kimi Azərbaycanın Ermənistanla sərhəd xəttinin bərpasına başlanılıb və Zəngəzur dəhlizi yaxın müddətdə tarixi reallığa çevriləcək.

2020-ci il sentyabrın 27-də işğalçı Ermənistanın növbəti hərbi təxribatları ilə başlayan və 44 gün davam edən İkinci Qarabağ müharibəsində Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla qardaş dövlətin, onun hökumətinin və xalqının Azərbaycana göstərdiyi siyasi-mənəvi dəstək yalnız işğal altındakı torpaqlarımızın azadlığının deyil, eyni zamanda, Türkiyənin qətiyyətli mövqeyinin təntənəsidir. Bütün dünya, eləcə də bölgəmizdə strateji maraqları olan tərəflər bir daha əmin oldular ki, mövzu Vətənin təhlükəsizliyi, torpaqların bütövlüyü, qardaş hüququnun qorunması olanda, belə məsələlər Türkiyədə müzakirə olunmur, yalnız qətiyyətli qərarlar qəbul edilir. Odur ki, əminliklə deyə bilərik: Qarabağ Zəfəri iki qardaş dövlətin və xalqın birlik təntənəsidir. Bu Zəfər qardaş ölkələrimizin tarixinin səhifələrinə daha parlaq işıq salır. 2021-ci il iyunun 15-də Şuşada imzalanmış Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində də Zəngəzur dəhlizinin açılmasının bölgənin həyatında yeni mərhələ olacağı öz əksini tapıb.

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Qarabağ müharibəsində qazandığımız tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc hisslərini ifadə etdikləri məktublarda vətəndaşlar dövlətimizin başçısına minnətdarlıqlarını bildirirlər.

Türkiyənin Ankara şəhərindən Kadir Başar yazır: “Hörmətli cənab Prezident, 44 gün davam edən və şanlı Azərbaycan Ordusunun qələbəsi ilə nəticələnən Qarabağ zəfəri münasibətilə Sizi və Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Qarabağ müharibəsi dövründə göstərdiyiniz yüksək liderlik keyfiyyətləri digər ölkələrin başçıları üçün nümunədir. Azərbaycan Ordusunun müasir silahlarla təchiz olunaraq yüksək əhval-ruhiyyə ilə mübarizəyə başlanması və çox çətin relyefli ərazidə inamla qalib gəlməsi dünyanın bir çox yerində həsəd və qısqanclıqla qarşılandı. Allah 1992-ci ilin fəlakətlərini yenidən Azərbaycana yaşatmasın, həmişə qalib gələnlərdən etsin. Azərbaycanın yolu həmişə açıq olsun. Sizə cansağlığı və uğurlar diləyirəm”.

Qubadlı sakini Turabxan Həsənli: “Hörmətli cənab Prezident, Azərbaycanın müzəffər ordusunun Ermənistan silahlı qüvvələri üzərindəki parlaq qələbəsi xalqımızın tapdanmış qürurunu yenidən özünə qaytardı. Artıq dünyanın dörd bir yanında yaşayan azərbaycanlılar qürurla “mən azərbaycanlıyam və mənim Prezidentim İlham Əliyevdir” deməklə böyük iftixar hiss edirlər. Sizə nə qədər təşəkkür etsək azdır. Bu 17 ildə Sizin yürütdüyünüz daxili və xarici siyasətin nəticəsidir ki, xalqımız böyük sevinc hisslərinə bürünüb. Allah Sizi və şanlı Azərbaycan Ordusunu qorusun”.[2]

44 günlük Vətən müharibəsi zamanı 2907 nəfər şəhid olub, 7 nəfər itkin düşüb, Ermənistanın dinc əhaliyə qarşı cinayətləri nəticəsində həlak olan 94 mülki şəxsə şəhid statusu verilib. Bu Qələbənin qazanılmasında şanlı və qəhrəman Azərbaycan əsgər və zabitlərinin əvəzsiz rolu danılmazdır. Ona görə də bütün Azərbaycan xalqı Vətənin xilaskarı olan bu insanları və Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizi həmişə minnətdarlıq hissi ilə xatırlayacaq. Biz Vətən uğrunda canından, qanından keçmiş, şəhadət şərbətini içmiş Şəhidlərimiz haqqında günlərlə,aylarla, illərlə danışsaq belə onların haqqını ödəyə bilmərik.Bizlərin borcu Şəhidlərimizin Vətənə əmanət övladlarını, ailə üzvlərini daima diqqət,qayğı mərkəzində saxlamaqdır.Qayıdan torpaqların qayıtmayan oğullarını bir an belə unutmaq olmaz. 30 illik nisgilimizi sona çatdıran qəhrəmanlarımızin ruhları şaddır, çünki artıq Qarabağımız azaddır. Artıq insanlar yurd-yuvalarına qayıdacaq. Artıq heç kim qürbətdə dəfn olunmayacaq.Vətəndə Vətənsiz olmayacaq! O müqəddəs torpaqlarımıza erməni ayağı dəymir. Bunların hamısı Şəhidlərimiz sayəsindədir Allah cəmi şəhidlərimizə rəhmət etsin, qazilərimizə Allah şəfa versin ömürləri uzun olsun. Mərd oğulların qanı,canı bahasına alınan Şəhid qoxulu torpaqlarımızın hər qarışı bizə əzizdir. Torpaq, uğrunda ölən varsa Vətəndir!

Eyni zamanda, qalib dövlət olaraq Azərbaycanın qarşısında yeni hədəflər dayanır. Ölkəmiz bu hədəflərə çatmaq üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə inamlı addımlar atır və bundan sonra da atacaq.

**İstifadə olunmuş ədəbiyyat:**

1. A. Məmmədova; ixtisas red. K.M.Tahirov; red. L.Əhmədova. 8 Noyabr - Zəfər Günü: metodik vəsait / tərt. ed. - Bakı, 2021.- 55 s.
2. https://files.preslib.az/projects/zefer/az/xronika.pdf

# XALQIMIZIN QÜRUR ÜNVANI – HƏRBİ QƏNİMƏTLƏR PARKI

***Səbuhi Quliyev***
***"Riyaziyyat, informatika və onların tədrisi texnologiyası" kafedrasının müəllimi***
**sebuhivaqif1998@gmail.com**

***Xülasə:*** *Vətən müharibəsindəki zəfərdən və torpaqlarımızda erməni separatçılığına son qoyulmasından sonra Azərbaycan öz tarixinin tamamilə yeni mərhələsinə daxil olub. İndi biz qalib dövlətin vətəndaşları,qalib xalqın nümayəndələri kimi həm dövlətçiliyimizin, həm də müstəqilliyimizin ən şərəfli və ən qürurlu günlərini yaşayırıq.*

***Açar sözlər:*** *Hərbi Qənimətlər Parkı, Dəmir yumruq, Vətən müharibəsi, 44 günün fəlsəfəsi, Vətən sevgisi*

Müasir tikililəri, yeni prospekt və parkları, habelə muzey və gəzinti yerləri ilə göz oxşayan Bakının, Xəzərin mirvari boyunbağısı adlandırılan dənizkənarı Sahil bağında 4 ildən artıqdır ki, Hərbi Qənimətlər Parkı fəaliyyət göstərir. Burada Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda 27 sentyabr – 10 noyabr 2020- ci ildə 44 gün davam edən Vətən müharibəsi zamanı müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanı döyüş meydanında məğlub etməsi nəticəsində düşməndən ələ keçirdiyi hərbi qənimətlərin bir qisminin nümayişi yer alıb.

Milli Dənizkənarı Parka yolu düşənlər, Bakıda səfərdə olan əcnəbilər və ya turist kimi ölkəmizə səyahətə gələnlər bu parkı gəzib-görmədən geri dönmək istəmirlər. Ziyarətçilər arasında bu parkı muzey adlandıranlar da çox olur. Tamaşaçıların təəssüratlarından məlum olur ki, 2020-ci il sentyabrın 27-də başlayan, 44 gün davam edən və işğal altındakı ərazilərimizin qaytarılması ilə nəticələnən Vətən müharibəsi tariximizin ən parlaq səhifəsinə, Azərbaycan xalqının iftixar və qürur mənbəyinə çevrilib. Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında cəmi 44 günə mümkünsüzü mümkün edib. Düşmənin 30 il ərzində qurduğu, milyonlarla dollar vəsait sərf etdiyi, "keçilməz" dediyi nəhəng istehkamları qısa müddətdə şanlı Azərbaycan əsgəri darmadağın edib. Bir-birinin ardınca şəhər və kəndlərimiz düşmən işğalından azad olunub. 44 gün ərzində Azərbaycan əsgəri əsl qəhrəmanlıq, mərdlik, şücaət, rəşadət nümayiş etdirib.

Aprelin 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə ilin birinci rübünün yekunlarına həsr olunan müşavirədə dövlət başçısı demişdir: "İkinci Qarabağ müharibəsində biz Ermənistanın haradasa 4-5 milyard dollarlıq dəyərində hərbi texnikasını məhv etmişik. Bu texnikanın bir hissəsi qənimət kimi götürülüb, biz ondan istifadə edirik. Bir hissəsi isə Hərbi Qənimətlər Parkında nümayiş etdirilir". Vətən müharibəsi sona çatdıqdan təxminən bir ay sonra – 10 dekabr tarixində Bakıda keçirilən möhtəşəm hərbi paradda Azərbaycan Ordusunun darmadağın etdiyi düşməndən ələ keçirilən hərbi qənimətlərin bir qismi nümayiş etdirildi. Bundan iki gün sonra Müzəffər Ali Baş Komandan Prezident İlham Əliyevin iştirakı ilə Bakıda Hərbi Qənimətlər Parkının açılışı oldu. Demək olar ki, bu park İkinci Qarabağ savaşında qazanılan zəfərin strateji çəkisini nümayiş etdirən tarixi memarlıq və qəhrəmanlıq kompleksidir. Məhz bu kompleksdə 30 il torpaqlarımızı işğal altında saxlayan, Qarabağın maddi-mənəvi dəyərlərini çapıb-talayan, məhv edən təcavüzkar Ermənistana məxsus döyüş texnikasının qüdrətli Azərbaycan Ordusu tərəfindən darmadağın edilmə nişanələri öz əksini tapıb. "Məğlubedilməz" Ermənistan

Ordusuna aid 522 hərbi yük maşınının nömrələrinin toplandığı xüsusi lövhənin nümayiş etdirildiyi kompleksdə həmçinin, KUB, OSA zenit raket kompleksləri, 150-dək ağır texnika, T-72 tankları, piyadaların döyüş maşınları, 2S1 özüyeriyən artilleriya qurğusu və digər eksponatlar yer alıb. Düşməndən hərbi qənimət kimi götürülən, Ermənistanın anti-Azərbaycan təbliğatının bir hissəsinə çevirdiyi "İskəndər M" tipli raket sisteminin qalıqlarının da nümayiş olunduğu Qənimətlər Parkı "Dəmir yumruq" əməliyyatının tarixi əhəmiyyətini bir daha göstərir.

Qarabağ zəfərinə aparan yolda Azərbaycan düşməni ağır məğlubiyyətə uğradarkən, təbii ki, itkilərimiz də oldu. Ancaq qazanılan Qələbə xalqımıza təsəlli oldu. Övladını itirən ata-analar da, həyat yoldaşını son mənzilə dəyanətlə yola salan xanımlar da ağrı-acılarını bir kənara qoyub qazanılan Zəfərdə əzizlərinin, övladlarının, yoldaşlarının payının olması ilə qürurlandılar. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin parkın açılışı zamanı dediyi kimi: "Şəhidlərimizin yaxınları üçün təsəlli odur ki, onlar öz canlarını Vətən uğrunda qurban verdilər. Təsəlli odur ki, torpaqlarımız azad olundu, ərazi bütövlüyümüz bərpa edildi. Eyni zamanda, təsəlli odur ki, şəhidlərimizin intiqamını biz döyüş meydanında aldıq. Şəhidlərimizin qanı yerdə qalmadı".

Hərbi Qənimətlər Parkı Azərbaycan xalqı və dost ölkələr üçün qürur yeri olduğu halda, ermənilər üçün göz dağına çevrilib. Müharibə öncəsi "Tezliklə tanklarımız Bakı küçələrində olacaq" deyən erməni tərəfi bu gün hay-küy qaldıraraq Bakıda belə bir parkın yaradılmasını erməni xalqı üçün təhqir adlandırır, beynəlxalq təşkilatlara Azərbaycanın "düşmənçiliyi" haqqında müraciət ünvalamaqdan çəkinmirlər. Əlbəttə, bunlar əbəs cəhdlərdir. Düşmən Qarabağın işğalı faktının ona hansı aqibəti yaşadacağını öncədən düşünməli və görməli idi. Onlara dəfələrlə xəbərdarlıq edilməsinə baxmayaraq, bunu zamanında anlamadılar. Azərbaycana qarşı qüvvələr dərk etmədilər ki, onların qarşısında tarixi qəhrəmanlıq ənənələri olan bir xalq, bir dövlət və bu dövlətin qüdrətli sərkərdəsi dayanır. Heç olmasa bundan sonra Ermənistan və onların siyasi qüvvələri 44 günlük müharibədə üzləşdiyi ağır məğlubiyyətin səbəbini təhlil edərək başa düşməlidirlər ki, dünyada haqqı tapdalamağın, başqa xalqın ərazisini, mədəni sərvətini talamağın acı nəticələri olur. Hərbi Qənimətlər Parkı yenidən torpaq işğal etmək üçün müharibə eşqinə düşənlər, onlara havadarlıq edənlər üçün kabus, bütün Azərbaycansevənlər üçün isə qürur ünvanıdır.

Vətən müharibəsi 44 gün davam etdi. Düşmənlə təkcə Azərbaycan Ordusu döyüşmürdü, düşmənlə azərbaycançılıq da döyüşürdü, azərbaycanlı anaların xeyir-duası da döyüşürdü, döyüşlərə can atan məktəblilərin Vətən sevgisi də döyüşürdü, qazilər də döyüşürdü, Qarabağ müharibəsinin şəhidlərinin ruhu da döyüşənlərin sırasındaydı, Üzeyir bəyin musiqisi də, Səttarın rənglər dünyası, … da döyüşürdü…

Bu 44 günün fəlsəfəsi əbədiyyətəcən yaşadılacaq. Bu sevgini yaşaya-yaşaya Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xalqa müraciətində dediklərini xatırlayacağıq: "Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir Qarabağ Azərbaycandır...

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası. Zəfər gününə həsr olunmuş məqalələr toplusu
2. https://files.preslib.az/projects/zefer/az/earticles.pdf

# 44 GÜNÜN ƏFSANƏSİ

***Fatma Əliyeva***
***Kompüter mərkəzinin mütəxəssisi***
***f.eliyeva1@mail.ru***

**Xülasə:** *Məqalədə İkinci Qarabağ savaşında xalqımızın qazandığı şanlı zəfərin əsl mahiyyəti həm nəzri həm bədii aspektdən araşdırılır. 44 günlük müharibə zamanı ordumuzun rəşadəti, xalqın birliyi və Ali Baş Komandanın güclü iradəsi sayəsində itirilmiş torpaqlarımız geri qaytarılmış 30 illik nisgil sona çatmışdır. Bu qiymətli faktlar Azərbaycan ədəbiyyatının mübarizlik ruhunu, vətəndaşlıq qayəsini ön mövqeyə çıxarmışdır.*

***Açar sözlər:*** *Müharibə ədəbiyyatı, Zəfər günü, rəşadətli ordu, "Dəmir yumruq"*

Qarabağ Azərbaycandır və nida! Dağlıq Qarabağı düşmən işğalından azad etmək üçün Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev belə bir şüarla səfərbərlik elan etdi və Qarabağa doğru yola başladıq! II Qarabağ Vətən Müharibəsinə başlamaq üçün 27 sentyabr 2020 günü qəflətən seçilmədi. Bu günə 30-32 ili arxada qoyan dərd-ələm dolu illəri ağır addımlarla gəlmişdik. Nə edəcəyimizi, necə edəcəyimizi düşünürdük. Tarix boyu türk sınan, əyilən, məğlub xalq olmayıb. Zaman fürsətini, məqamını gözləməyi də bilən, səbr sahibi olub, kəmfürsət olmayıb, haqq meydanına cəsarətlə Kişi kimi girib, qalib olaraq çıxıb. Düşmən bir olsa idi, onun başını bir göz qırpımında əzmək azərbaycanlılar üçün çətin iş deyildi. Amma görünməyən düşmənləri, ilana ağı verən əqrəbləri, ağır hərbi texnikanı, raketləri, silah-sursat alıb-satanları, insanlığın nə olduğunu bilməyən kəsləri dərdimizə bükülüb kənardan müşahidə edirdik. Çünki zamana ehtiyac vardı. 2016-cı il aprel ayının 1-dən 2-nə keçən gecədən başlayaraq tariximizin şərəfli səhifələrinə yazılacaq "Aprel döyüşləri" (Aprel müharibəsi və ya Dördgünlük müharibə) ağrılarını yaşadıq. Sonrauzaq yerdən gələn ağır təzyiqlər qarşımızı kəsdi. 2020-ci ilin may ayının 8-də Ermənistan baş naziri Nikol Paşinyanın qədim Xankəndimizə gələrək "Qarabağ Ermənistandır və nöqtə" deməsinin, bu azmış kimi qədim Şuşa şəhərimizdə yallı getməsinin cavabını vermək üçün zamanı daha bir neçə il uzatmağa ehtiyac qalmamışdı. 2020-ci il 12 iyul tarixində Ermənistan – Azərbaycan dövlət sərhədində Tovuz rayonu əraziləri boyunca başlayan döyüşlər, hadisələrin ikinci günü general Polad Həşimovun düşmən gülləsinə tuş gələrək şəhid olması insanları bir nəfər kimi ayağa qaldırdı. Yəni, artıq öyrəşdiyimiz atəşkəs pozulmasından general da öldürülərmi? General Polad Həşimovun şəhid olması xəbəri ildırım sürəti ilə bütün Azərbaycana, bizi istəyən dost və istəməyən ölkələrə yayıldı. Az sonra Müdafiə Nazirliyi tərəfindən elan edildi: "2020-ci il 14 iyulda Tovuz istiqamətində gedən döyüşlərdə 11 şəhidimiz olmuşdu: General -mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev, mayor Namiq Əhmədov, mayor Anar Novruzov, gizir İlqar Zeynallı, gizir Yaşar Babayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elçin Mustafazadə, baş leytenant Rəşad Mahmudov, çavuş Vüqar Sadıqov, baş əsgər Elşad Məmmədov və əsgər Xəyyam Daşdəmirovdur. 14 iyul qanlı hadisələri hər kəsdə qəti olaraq səfərbərlik duyğusu oyatdı. İnsanları sakitləşdirmək mümkün deyildi. Hamı "Qarabağ! Qarabağ! Qarabağ!" deyərək intiqam hissinə bələnmişdi. Heç kimin gözü başqa şey görmürdü, könlü başqa şey duymurdu. Budur, 27 sentyabr 2020-ci il. Səhər saat 11.00. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin xalqa müraciəti oldu: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim

yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutmuşdur. Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür ...". Ali Baş Komandanın xalqa müraciətini insanlar ayaqüstə qarşıladı. Axır ki!Axır ki, o məqam çatmışdı. Çünki artıq xalqın səbr kasası daşıb yeri-göyü başına almışdı. Sanki qılıncı qınından sıyırıb düşmənin bağrına saplayacaq qədər ani məqam yaranmışdı. Ona görə də bu çağırış, bu müraciət bir udum su kimi ciyərlərə sərinlik gətirdi. Baxmayaraq ki, adı Müharibə idi. Müharibə ölüm-itim, dağıntı, göydən od ələnmək deməkdir, İllahdakı indiki hərbi texnikaların şəklini qəzetlərdə, kitablarda görəndə adamın bağrı yarılır. Amma bu dəfə, artıq bıçaq sümüyə dirənmişdi. Qarabağ torpağı – ana torpaqlarımız uğrunda, ya qazı, ya da şəhid olmalıyıq. Başqa seçim yoxdur. Ali Baş Komandanın bu müraciətinə bütün Xalq ayağa qalxdı. Uşaqdan böyüyə, qız-qadınlarımız, oğullarımız... hamı könüllü olaraq Vətəni işğaldan qurtarmağa getmək istədi. Amma Ali Baş Komandanın əmri ilə yalnız müəyyən yaş həddi nəzərə alınan oğullarımız cəbhəyə yollandı. Minlərlə könüllü gənclərimiz geri qaytarıldı, "ehtiyac olarsa, sizi də cəbhəyə göndərəcəyik", – dedilər. Sanki müharibəyə yox, müqəddəs bir ziyarətə gedirmiş kimi hərbi geyimli igidlərimizi yola saldıq, arxada isə yağış kimi dualarımızla onları Allaha amanatladıq. Şair Emin Piri yazır ki, "müharibəyə yola düşəndə anam başıma xına qoydu". 2-3 gün ötməmiş Müdafiə Nazirliyindən ilk xəbər gəldi, düşmən cəbhəboyu hücuma keçib. Ağır döyüşlər gedir. Ayıq- sayıq olmalı, yalnız rəsmi xəbərlərə inanmalı, ciddi duruş nümayiş etdirməli, düşmən dəyirmanına su tökməməliyik. Haqq bizimdir, qələbə bizimdir! Tanrı Ordumuzu Zəfərə yetirsin! İşğal altında olan bir sıra kəndlərimiz, hərbi əhəmiyyətli yüksək- 7 liklərimiz azad olunub. Füzuli və Cəbrayıl rayonlarının bir sıra kəndləri Ordumuzun rəşadətli hücumu ilə işğaldan qurtuldu. Tanrı, Ordumuzu müzəffər elə. Tökülən qanlar yerdə qalmasın. Əsir yurdlarımıza qovuşaq. Ümid sənədir ancaq, Azərbaycan – Türk əsgəri! Müdafiə Nazirliyinin 2 oktyabr 2020-ci il: "Ağdərə istiqamətində qoşunlarımız Madagiz (sonra bu ad Suqovuşanla əvəz olundu) ətrafındakı hakim yüksəklikləri azad edib və bu məntəqəni nəzarətdə saxlayır. Cəbrayıl-Füzuli istiqamətində qoşunlarımız düşmənin müqavimətini qıraraq onu geri çəkilməyə məcbur edib və irəliləməyə nail olub". Artıq Qələbə soraqlı xəbərləri Ali Baş Komandanın özündən eşitmək istəyirdik: Sonra, xalqla bir yumruq olan Prezident Tviter xəbərlərinə keçdi. Cana yaxın mənbədən gələn xəbərləri həsrətlə gözlədik: Prezidentdən dalbadal Tviter xəbərləri gəlir: Füzuli bizimdir! Cəbrayıl bizimdir! Zəngilan bizimdir! Qubadlı bizimdir! Qələbə xəbərlərinə o qədər alışdıq ki, bir gün ara verəndə darıxırdıq, hətta çəkinmədən sosial şəbəkə üzərindən Ali Baş Komandana mesaj yazırdıq ki, "cənab ali Baş Komandan, bir Tviter at, nə olar". Və bilirdik ki, bu mesajlar oxunur. Axşamüstünə yeni xəbər gəlirdi. Bax, Rəşadətli əsgərlərimizin qanı-canı bahasına qazanılan bu qələbələr sayəsində Azərbaycan bütöv bir ailəyə, bir yumruğa dönmüşdü. Səmimi, mehriban, inam hissi, torpağa məhəbbət... bir sözlə, bizi ayıracaq bir şey yox idi. İqtidarmüxalifət yox idi, dünyanın hər yerindəki azərbaycanlılar – hamı bir idi. Hamının bir dərdi vardı: Torpaqlarımızı işğaldan azad etməliyik, vəssalam! Pakistan Dövlət olaraq yanımızda olduğunu rəsmən bəyan etdi. Azərbaycandan köçüb İsrailə gedən yəhudilər səsimizə səs verdi, rəsmi olaraq bizimlə olduqlarını bəyan etdilər. Əfqanıstan hökumətindən "yanınızdayıq" – deyə səs gəldi. Ali Baş Komandanın bir cavabı Müharibənin epiqrafı oldu: "Qarabağ Azərbaycandır və nida". Qarabağ Azərbaycandır! Rəşad Məcidin nəvəsi balaca İpəyin şirin dillə söylədiyi "Pəpişyan, möhkəm gizlən səni tapmasınlar" atmacaları belə əhvalımızı xoş edirdi. Bu da İpəyin Tviteri idi. Bu ağır gündə, ölümitimli, qan-

qadalı günlərdə gülüş dolu atmacalarımızdan qalmadıq, ağlamadıq-sızlamadıq, çünki haqq mübarizəsinə qalxmışdıq. Şuşada yaralı və üst geyimini güllə parçalamış bir gənc üzüyuxarı dağa çıxaraq "Ə, paşik, bəs deyirdin Cəbrayıla yol çəkirəm, hanı bəs!" – deməsi ilə o əsgərimizin dərdini bizə unutdururdu, ürək dolusu gülürdük, çünki qanı axa-axa o əsgərdə gülürdü. Çünki torpaqlarımızı işğalçılardan təmizləyirdik. Türkiyə isə arxamız, dayağımız idi. Sosial şəbəkələrdə paylaşan "Karabağa birgə yürüyelim" devizi ilə Rəcəb Tayyub Ərdoğanla Prezidentimizin şəkilləri boyaboy yayımlanırdı. Səlcuq Bayraktarın "RUA"ları xızr kimi imdadımıza yetişmişdi. Deyirdilər ki, o PUA-ları alandan sonra şəhidlərimiz az oldu. Az sonra Səlcuq Bayraktar mətbuatda bildirdi ki, "Qələbədə Türkiyənin istehsalı olan milli texnologiyanın rol oynaması bizə qürur verir. Amma bu zəfərin əsl sahibləri isə şəhid olan əsgərlərdir". Bu birliyimiz ox olub düşmənin gözünə batırdı. Tərtəri, Bərdəni, Gəncəni, ətraf kəndləri erməni ağır hərbi texnikası atəşlə oda qalayırdı. Mülki əhalini gecə yarısı – yatdığı yerdə raket yağışına tuturdu. Bir andaca hər yeri, evləri, ailələri darmadağın edirdilər. Körpələr ölür, analar, ağsaqqallar, ağbirçəklər çarəsiz durumda qalırdılar. 100-dən artıq mülki əhali öldürüldü. Dağılmış evlərin altından çıxaraq üçrəngli bayrağını bağrına basıb hadisə yerindən uzaqlaşan insanlar vardı. Türkiyə TV müxbiri Fülya Öztürkün Gəncədəki hadisə zamanı "Bu ölümlərdən, hərbi raket yağışından qorxmursunuzmu?" – sualına cavab olaraq, "yox qorxmuruq, naoborot qızışıyoruq" dedilər. Bütün dünya Azərbaycan xalqının torpaq eşqinə heyran qalmışdı. 9 Erməni mənbələri cəbhədən xəbər yazdılar: "Biz onları güllə ilə vururuq, yıxılırlar, sonra durub qanları axa-axa üstümüzə gəlirlər və soldatlarımızı öldürürlər. Biz belə şey görməmişik; öldürürük, dirilib ayağa qalxırlar". Azərbaycan xalqı qələbəni belə qazanırdı. Can verə-verə, can ala-ala. Şəhid olurdular, amma daha da irəli addımlayırdılar. Şuşa qalasını qayalara dırmaşaraq əlbəyaxa döyüşlə qazandılar. Erməni daşnakları özləri belə bu mənzərələrdən vahiməyə düşmüşdülər."Bu müharibə xalqımız üçün Vətən Müharibəsidir. Biz Vətən torpaqlarını işğalçılardan azad edirik, döyüş meydanında tarixi ədaləti bərpa edirik" – Ali Baş Komandanın sözüdür. Əmir Teymur: "Erməniləri bir millət kimi yer üzündən silmədiyim üçün gələcəkdə məni lənətləyəcəklər" – yazıb. Axı erməni əslində kimdir ki? Gürcüstanın lider oğlu Mixail Saakaşvili onların adını çox düzgün yazıb: "Tarixən ermənilər türklərin və azərbaycanlıların qulu olublar". Bir çox dünya liderlər ermənilər kimliyini dəqiq şərh ediblər: Rus şairi A.Puşkin: "Sən köləsən, sən qorxaqsan, çünki sən ermənisən" – yazıb. Fransız A.Düma: "Ermənilər həmişə başqa dinə qulluq edən hökmdarların hakimiyyəti altında olmuşlar. Nəticədə öz fikir və duyğularını gizli saxlayan, hiyləgər və kələkbaz adamlara çevrilmişlər" – yazıb. Fransız Qraf De Şole: "Ermənilərin yoxsulluq və əzabəziyyət çəkməsi məndə onlara qarşı böyük rəhm oyatmasına baxmayaraq, onların haramzadalığı, kələkbazlığı o dərəcədə biabırçı, o qədər hiddətləndirici idi ki, mən heç vaxt onlara bağlana bilməzdim" – yazıb. İsveç Adam Mets: "Dərisi ağ qulların pisi ermənilərdir. Abır-həyaları yoxdur, oğurluqları olduqca məşhurdur. Onlar yalnız dəyənək və qorxu altında yaxşı işləyirlər" – yazıb. Baxın, ermənilər haqqında bütün dünya xalqlarının fikirləri belə məzmunda olub. Belə iyrənc məxluqlarla qonşuluq 10 etməyə məhkum olmuşuq, halbuki onların bizim Qafqazda yer-yurdları heç zaman olmayıb. Sentyabrın 27-sindən ta noyabrın 10-na kimi hər günü minlərlə qəhrəmanlıq səhifələri yazıldı. Noyabrın 8-ində səhər saat 11-12 olardı, sosial şəbəkələrdən xəbər yayıldı ki, Ali Baş Komandann yeni xəbərini birbaşa yayımda deyəcək. Gözlədik, zaman da tez ötmür ki! Nəhayət, eşitmək istədiyimizi Şəhidlər Xiyabanından səsləndirdi: Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Bir gün sonra yeni bir Tviter xəbəri: bu gün noyabrın 9-u 72 kənd işğalçılardan azad olunub". Məhz 72 rəqəmi. 72 min dərdin içindən sıyrılıb çıxdığımıza işarə rəqəm kimi qəbul

etdim. Daha sonrakı gün noyabrın 10-nugecə yarısı Azərbaycan ordusunun 44 günlük Vətən Müharibəsində düşmənə qalib gəlməsi, erməni tərəfin ağ bayraq qaldırması elan edildi! Bu 44 günün hər dəqiqəsi bir tarix oldu. Bu 44 günün hər dəqiqəsində bir Azərbaycan Qəhrəmanı kəşf olundu. Bu qəhrəmanlar 1992-ci ildə tərksilah olunmuş Azərbaycan əsgərlərinin balaları idi. 44 günlük İkinci Qarabağ Müharibəsində Qarabağı düşməndən xilas etməklə yanaşı, həm də atalarının intiqamını aldılar, Xocalının intiqamını aldılar, yüzlərlə kəndlərimizdə, Qarabağın hər addımında öldürülən insanlarımızın intiqamını aldılar. Bu 44 gündə Ali Baş Komandan 40 xarici ölkə mətbuatına müsahibələr verdi, həqiqəti dünyaya birbaşa dedi. Hətta verilən suallar da düşmən niyyətli suallar idi. Lakin cavablar sərrast atılan güllə kimi onların niyyətlərini darmadağın edirdi. Bu 44 gündə biz yenidən Simurq kimi doğulduq Bu qələbəni Azərbaycan xalqı bir yerdə qazandı: türk, rus, tat, ləzgi, talış, avar.... Azərbaycanda yaşayan bütün millətlər Azərbaycan Xalqı olaraq – qürurlu azərbaycanlı olaraq Qarabağımızı işğaldan azad etdik. Bu, Namus davası idi.

Allah millətimin, xalqımın başını uca edənləri qorusun! Allah Qarabağımın xilaskarı, böyük sərkərdə deyə bu gün öyündüyümüz cənab Ali Baş Komandanımızı qorusun! Yaşasın Azərbaycan - Türkiyə - Pakistan qardaşlığı! Allah İgid Oğullarımızı, Rəşadətli, Şanlı Əsgərlərimizi Qorusun! Amin!

**İstifadə olunmuş ədəbiyyat:**

1. Zəfər Yolu. "Azərkitab kitab mərkəzi". Bakı, 2021.
2. https://portal.azertag.az
3. N.Aslanov. "Qarabağ Azərbaycandır". Bakı, 2020.
4. https.\\kulis.az .
5. https\\aztv.az/.
6. https\\edebiyyatqazeti.az.

## AZƏRBAYCAN DİPLOMATİYASI – ZƏFƏR TARİXİMİZDİR

***Röyal Əliyev***
***"Tarix və coğrafiya müəllimliyi" ixtisasının TCM2001B qrup tələbəsi***

***Xülasə:*** *Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya sahəsində də uğurlarımızı şərtləndirdi. Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi.*

***Açar sözlər:*** *Beynəlxalq arena, Ali Baş Komandan, BMT Nizamnaməsi, BMT Təhlükəsizlik Şurası*

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bir-birinin ardınca dünya dövlətləri və BMT tərəfindən tanındı. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə həyata keçirilən milli dövlətçiliyin qurulması prosesi Xarici İşlər Nazirliyi sistemini də əhatə etmişdir. Ulu Öndərin xarici siyasət xətti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlətimizin başçısı sürətlə dəyişən çağdaş dünyada, qloballaşma və inteqrasiya proseslərində, bütün beynəlxalq

görüşlərdə və apardığı yüksək səviyyəli danışıqlarda Azərbaycanın mənafelərini uğurla müdafiə edir.

Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya sahəsində də uğurlarımızı şərtləndirdi. Vətən müharibəsinin 44 günü ərzində dövlətimiz beynəlxalq hüquq prinsiplərini, xüsusilə BMT Nizamnaməsinin 51-ci maddəsini rəhbər tutub öz ərazilərini azad etmək hüququndan istifadə edərək uğurlu və genişmiqyaslı əks-hücum əməliyyatları həyata keçirdi. Azərbaycan dövləti oktyabrın 4-də Cəbrayıl şəhərini, 17-də Füzuli şəhərini, 22-də Zəngilan şəhərinin işğalçılardan azad etməklə BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan 874 və 884 saylı qətnamələrini özü icra etdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bununla yanaşı, Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi nəticəsində BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 27 il yerinə yetirilməmiş qalan, eləcə də işğalçı qüvvələrin Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarından çıxmasını nəzərdə tutan 822 və 853 saylı qətnamələr də məhz Azərbaycanın şərtləri ilə icra edildi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

Qeyd edək ki, Azərbaycanın dinamik inkişafı, beynəlxalq arenada ardıcıl uğurları, diplomatiyamızın yüksək fəallığı, dünya ölkələri ilə təmasların, əməkdaşlıq əlaqələrinin daha da güclənməsi, Azərbaycan Prezidenti İlham Əliyevin fəaliyyətinə dünyada olan böyük hörmət və etimad Ermənistan rəhbərliyini, erməni lobbisini qıcıqlandırır və bərk narahat edirdi. Buna görə də onlar həm siyasi, həm də hərbi sahədə davamlı təxribatlara əl ataraq Azərbaycan hakimiyyətini nüfuzdan salmaq, ölkəmizdə daxili ictimai-siyasi vəziyyəti gərginləşdirmək istəyirdilər. Amma göründüyü kimi, bütün bu cəhdlər əks effekt yaratdı. Beynəlxalq hüquq müstəvisində Ermənistanın işğalçı dövlət olduğunu tam şəkildə sübuta yetirən, bu ölkə üzərində ciddi diplomatik qələbə qazanan Azərbaycanın sözügedən sahə üzrə fəaliyyətini daha da genişləndirməsi qarşı tərəfdə böyük narahatlığa, təşvişə yol açmaqda idi. Çünki Azərbaycanın uğurla həyata keçirdiyi hücum diplomatiyası sayəsində Ermənistanın onsuz da yaxşı olmayan beynəlxalq imici daha bərbad vəziyyətə düşməklə, onun işğalçı ölkə, terroru, soyqırımı tarix boyu siyasətinin əsas elementi olaraq istifadə etdiyindən dünya daha dolğun faktlar, sübutlar əsasında xəbərdar olurdu. Məsələyə diplomatiya, beynəlxalq hüquq kontekstindən yanaşıldıqda kifayət qədər aydın görünür ki, Ermənistan, sözün əsl mənasında, küncə sıxışdırılmış vəziyyətə düşmüşdü və bu dövlətin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar dünyanı aldatmağa xidmət edən yalançı manevrlərinə artıq yer qalmamışdı.

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin bəyan etdiyi kimi, 30 illik işğala, azad olunmuş ərazilərdə genişmiqyaslı dağıntılara və onların məhv etdiklərinə baxmayaraq Azərbaycan gələcəyə nəzər salmağa, vahid inteqrasiya edilmiş Cənubi Qafqaz regionunun bir hissəsi olaraq öz gələcəyini planlaşdırmağa hazırdır: "Ümid edirik ki, vaxt gələcək və biz, sözün əsl mənasında, Cənubi Qafqazda fəal əməkdaşlıqdan və inteqrasiyadan danışacağıq".

**İstifadə olunmuş ədəbiyyat:**

1. Zəfər Yolu. "Azərkitab kitab mərkəzi". Bakı, 2021.
2. https://atributinfo.az

# PREZİDENT İLHAM ƏLİYEVİN HAKİMİYYƏTİ İLLƏRİNDƏ VƏ VƏTƏN MÜHARİBƏSİ DÖVRÜNDƏ TÜRKİYƏ-AZƏRBAYCAN ƏLAQƏLƏRİ

***Araz Əliyev***
***“İctimai, təbiət fənləri və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi***
***Hicran Əliyeva***
***“Pedaqogika, psixologiya fənləri və onların tədrisi texnologiyası” kafedrasının baş müəllimi***
***ani.eliyev.95@bk.ru***

***Xülasə:*** *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycana rəhbərliyi illərində və Vətən müharibəsi dövründə Türkiyə-Azərbaycan əlaqələri Ümummilli liderimiz Heydər Əliyevin Türkiyə Cümhuriyyəti ilə həyata keçirdiyi siyasi xəttin davam olmaqla əvvəlki dövrə nisbətən dahada inkişaf etdirilmişdir. Xüsusilə II Qarabağ-Vətən müharibəsi dövründə Türkiyə Cümhuriyyətinin ölkəmizə, xalqımıza siyasi dəstəyi bunun bariz sübutudur.*

***Açar sözlər:*** *Türkiyə, Azərbaycan, qardaşlıq, siyasi dəstək, əməkdaşlıq*

Türkiyədə 2002-ci il noyabrın 3-də keçirilən parlament seçkilərində qalib gələn Ədalət və İnkişaf Partiyasının sədri, Baş nazir Rəcəb Tayyib Ərdoğanın başçılıq etdiyi nümayəndə heyətinin 2003-cü il yanvarın 7-8-də Azərbaycana səfəri iki ölkə arasında münasibətlərdə yeni bir mərhələnin başlanğıcını qoydu. Özü ilə 150 nəfər türk iş adamını da gətirən Baş nazir səfər başlayarkən Azərbaycanla bağlı o zamanadək yürüdülən siyasəti tamamilə dəyişdirmək, bütün türk dövlətləri ilə daha intensiv əlaqələr qurmaq əzmində olduğunu bildirdi.

2003-cü ildə prezident seçilən İlham Əliyevin Türkiyə Cümhuriyyətinə 30- dan artıq rəsmi və işgüzar səfəri, Türkiyə Cümhuriyyətindən isə prezidentlər səviyyəsində Azərbaycana 15-dən artıq səfər olmuşdur. Prezident Əhməd Necdət Sezərin 2006-cı il aprelin 4-5-də Azərbaycana səfəri zamanı əməkdaşlıq münasibətlərinin genişləndirilməsi bir daha vurğulandı. Münasibətlərin daha da inkişaf etdirilməsi və strateji əməkdaşlıq şurasının qurulması məsələləri Prezident İlham Əliyevin 2010-cu il sentyabrın 16-da Türkiyəyə səfəri zamanı Prezident Abdullah Gül və Baş nazir Rəcəb Tayyib Ərdoğanla danışıqlarında müzakirə edildi. Səfərin yekununda Azərbaycan və Türkiyə arasında strateji əməkdaşlıq şurasının qurulması haqqında bəyannamə imzalandı Prezident İlham Əliyevin 2011-ci il oktyabrın 25-də Türkiyəyə səfəri zamanı Türkiyə Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birinci iclası keçirildi, Rəcəb Tayyib Ərdoğanın 2018-ci il iyulun 10-da Azərbaycana səfər etməsi və Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsinin 100 illiyi ilə əlaqədar olaraq həmin ilin sentyabrında keçirilən bayram tədbirində iştirakı münasibətlərdə mühüm rol oynadı. Türkiyə dövləti Ermənistanın hərbi təcavüzü nəticəsində yaradılmış Dağlıq Qarabağ münaqişəsinin həllində birmənalı olaraq Azərbaycanın haqq işini və beynəlxalq normaları müdafiə edirdi. Birgə əməkdaşlıq və təşəbbüs ilə inşası davam etdirilən, artıq XXI əsrin layihəsi adlandırılan Cənub Qaz Dəhlizinin əsas hissəsi olan Trans-Anadolu (TANAP) qaz boru kəməri layihəsinin reallaşması Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında səmimi dostluq və faydalı tərəfdaşlığının növbəti məhsuludur. Bu layihələr iki ölkənin regional qüvvəsini artıraraq qlobal mövqelərini möhkəmləndirməyə xidmət edir.

Azərbaycan Respublikasının hərbi sahədə ən mühüm tərəfdaşı qardaş Türkiyə Cümhuriyyətidir. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında hərbi sahədə əməkdaşlıq yalnız Azərbaycan Respublikası Silahlı Qüvvələrinin gücləndirilməsi baxımından deyil,

ümumilikdə bölgədə sülh və təhlükəsizliyin təmini istiqamətində də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasındakı hərbi-texniki sahədə əməkdaşlıq ölkələr arasında 9 fevral 1994-cü il tarixdə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə Müqavilə"nin və "Azərbaycan Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında Protokol", həmçinin 16 avqust 2010-cu ildə imzalanmış "Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında Müqavilə" ilə tənzimlənirdi.

Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında hərbi əlaqələrin inkişafında və Azərbaycan ordusunun NATO standartlarına uyğun olaraq qurulmasında beynəlxalq müdafiə sənayesi sərgilərinin təşkili və birgə hərbi təlimlər xüsusi əhəmiyyət kəsb edir. Bakıda iki dövlət arasında keçirilən 2014- cü ildə "ADEX-2014", 2016-cı ildə "ADEX-2016", "TurAz Qartali-2017", və s. sərgilərinin təşkili hər iki ölkə arasında hərbi-texniki əməkdaşlığın inkişafına təkan vermişdir. Azərbaycan-Türkiyə birliyinin bariz nümunələrindən biri də 2016-cı ilin Tovuz döyüşləridir. 2016-cı il iyul ayının 12-də günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutmağa başladı. Nəticədə Azərbaycanın 12 hərbçisi və 1 dinc sakini şəhid oldu, 4 hərbçi yaralandı. Münaqişənin həlli məqsədilə yaradılan ATƏTin Minsk qrupu susanda Türkiyə öz mövqeyini ortaya qoyaraq Azərbaycanın yanında olduğunu bəyan etdi. Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərə açıqlamasında dost və qardaş Azərbaycana qarşı Ermənistan tərəfindən edilən hücumları, hücumun Dağlıq Qarabağda deyil, iki dövlət arasındakı sərhədlərdə ağır silahlarla həyata keçirilməsini şiddətlə pislədi, bu hadisənin Azərbaycana qəsdən edilən hücum olduğunu bildirərək Türkiyənin Azərbaycanın haqqına, hüququna, torpaqlarına qarşı hər cür hücumun qarşısının alınmasında tərəddüd etməyəcəklərini bəyan etdi. Türkiyənin Milli Müdafiə naziri Hulusi Akarın "Xocalıda bütün dünyanın gözü qarşısında soyqırımı törədən, Dağlıq Qarabağı işğal edən Ermənistana qarşı bütün imkanlarımızla Azərbaycanın, azərbaycanlı silahlı yoldaşlarımızın sonunadək yanındayıq, Azərbaycan yalnız deyil, Azərbaycanda olmaqdan onur və qürur duyuruq" deməsi həm də dünyaya bir mesaj idi.

44 günlük II Qarabağ-Vətən müharibəsi kimin kim olduğunu ortaya qoydu, ədalət müdafiəçiləri ilə qərəzkarların, beynəlxalq hüquqdan çox dini təəssübkeşliyi "bayraq" edənlərin cəbhəsi müəyyənləşdi. Müharibənin ilk dəqiqələrindən səssiz qalmağa üstünlük verib, "nə şiş yansın, nə də kabab" deyiminə uyğun olaraq tərəflərdən heç birini incik salmamaq üçün səsləndirilən çağırışlar eşidildi. İllərlə dost, qardaş dediyimiz ölkələrin bir çoxunun düşmən qarşısında acizliyinin, qorxaqlığının şahidi olmaq Azərbaycan xalqını çox incitdi, amma ummadığımız yerdən aldığımız dəstəklər gücümüzə güc qatdı, dost, qardaş ölkələrin bir çoxu etimadı yüksək səviyyədə doğrultdu və bizi qələbəyə ilhamlandırdı. Türkiyə, Pakistan, Əfqanıstan, Şimali Kipr Türk Cümhuriyyəti, Bosniya və Herseqovina, Gürcüstan, Ukrayna, İsrail, Macarıstan və Moldova Azərbaycana dəstək nümayiş etdirdilər.

2020-ci il sentyabrın 27-də başlanan və noyabrın 10-da başa çatan 44 günlük II Qarabağ müharibəsində qələbənin qazanılmasında qardaş Türkiyənin böyük və əvəzolunmaz xidməti vardır. Türkiyənin dünya ictimaiyyətini Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ədalətli mövqe nümayiş etdirməyə çağırması, ikili standartların yaratdığı problemləri aradan qaldırmağa çalışması, rəsmi Ankaranın təcavüzkar dövlətlə sərhədlərini bağlaması ilə Türkiyə Azərbaycanın mövqeyini təkcə sözdə yox, həm də əməli işdə dəstəkləyən bir dövlət olduğunu ortaya

qoydu. Ən böyük dəstək Türkiyə xalqından da gəldi. Türkün türkdən başqa dostu olmadığını tarixin sınaqlarından çıxaran türk qardaşlarımız “Dağlıq Qarabağda savaş başlayarsa, düşünmədən gedəcəyik” dedilər. Əgər Azərbaycanın torpağı işğal olunubsa, xalqının nümayəndələri qaçqın və köçkün olublarsa, bu, istər Türkiyə, istərsə digər türk ölkələrində yaşayan hər bir türkü narahat etməlidir, incitməlidir, hətta yatmağa belə qoymamalıdır. Bu savaşın gedişi zamanı biz Türkiyədən başqa, Qazaxıstan, Qırğızıstan, Özbəkistandan da Azərbaycana qarşı çox məhəbbət və hörmətini ifadə edən adamlar gördük. Ermənistanın Azərbaycan Respublikası ərazilərinə yeni hücumu bölgədə sülhün və sabitliyin qarşısında ən böyük təhlükə olduğunu bildirən Türkiyə Cümhuriyyəti Prezidenti Rəcəb Tayyib Ərdoğan sosial şəbəkələrdəki səhifəsində türk millətinin hər zaman olduğu kimi, bu gün də bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olduğunu qeyd etdi.

Türkiyə Cümhuriyyəti Xarici İşlər naziri Mövlud Çavuşoğlu sosial şəbəkələrdəki paylaşımında yazmışdı ki, Ermənistan yenə də həddini aşıb. Bu dəfə cavabını meydanda alır. Meydanda və masa arxasında Can Azərbaycanla birlikdəyik.

Türkiyə mediasında Türkiyə Cümhuriyyərinin aparıcı televiziya kanalları və müxbirləri Vətən müharibəsi gedişində Azərbaycanın döyüş bölgələrində olaraq cəbhədə gedən döyüşləri dünya ictimaiyyətinə çatdırdılar. Oktyabrın 5-də Türkiyənin “TRT Haber” televiziya kanalı İlham Əliyevdən müsahibə alaraq Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibənin gedişində dünya ictimaiyyətini aldatmaq cəhdlərinə, atəşkəs rejiminin təmin edilməsi, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş torpaqlardan çıxarılması məsələlərinə aydınlıq gətirilməsi baxımından fərqlənirdi. Prezident İlham Əliyev Türkiyənin “TRT Haber” televiziya kanalına müsahibəsində müxbirin Türkiyənin mövqeyinə, Ermənistanın enerji təhlükəsizliyinə qarşı təxribatlarına, Ermənistanın hücuma başladığı gündən erməni lobbisinin Azərbaycana qarşı qara təbliğatına faktlarla cavab vermişdir. Türkiyənin “Haber Global”, “CNN Türk”, “A Haber” telekanalları “ASAN Könüllüləri” Təşkilatının “Əsgərə məktub” layihəsini əks etdirən xüsusi reportajlar hazırladılar. Azərbaycan Prezidentinin dünya televiziya kanallarına, ayrı-ayrı informasiya agentliklərinə müsahibələri, Azərbaycan xalqına müraciətləri təkcə Azərbaycanda deyil, dünyanın bütün ölkələrində diqqətlə izlənilir və reaksiya verilirdi. Kütləvi informasiya vasitələri yazırdılar ki, dünyanın müxtəlif yerlərindən Azərbaycan Prezidentinə məktublar göndərilməsi davam edirdi. Belə dəstək bəyanatlarından biri də Türkiyənin vətəndaş cəmiyyəti təşkilatından gəlmişdi. Türkiyə vətəndaş cəmiyyəti təşkilatının qəbul etdiyi bəyanatda deyilirdi: “Azərbaycanın tarixi ərazisi olan Dağlıq Qarabağ və ətrafındakı rayonların işğalına 32 ildir sözdə sülh və həll istəyən türkə düşmən dövlətlər tərəfindən laqeydlik göstərilir və bölgədəki işğalçı qüvvələrin, yəni ermənilərin namərdliyinə hər dəfə göz yumulub. Azərbaycan Respublikası öz problemlərini özü həll edəcək və işğal olunmuş torpaqlarının hamısını hərbi əməliyyatlarla azad edəcək, əzmə və gücə malik olduğunu göstərəcəkdir. Biz Azərbaycan dövlətinin eyni millətin övladları olan Azərbaycan türklərini sevir və Azərbaycan ordusuna, milli dəyərlərə sahib çıxan bütün vətəndaşlarımıza, Azərbaycan hökumətinə və Azərbaycan Respublikasının Prezidentinə etibarımızın və dəstəyimizin tam olduğunu bildiririk. “

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın “La Republika” qəzetinin müxbirinə verdiyi müsahibədə müxbirin rəsmi Ankaranın Azərbaycan Respublikasına dəstəyi haqqında sualına aydınlıq gətirərək digər müsahibələrdə qeyd etdiyini təkrarlayaraq qəti şəkildə bildirdi ki, Türkiyə dövləti və xalqı Azərbaycan Respublikasına siyasi və mənəvi dəstəyini davam etdirir.

Oktyabrın 20-də Azərbaycan Respublikasının Milli Məclisində çıxışında Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop da Ermənistan Ordusunun Azərbaycan Respublikasının işğal edilmiş torpaqlarından çıxmalı olduğunu vurğulayaraq bəzi dövlətlərin Azərbaycan xalqının bu haqq işində nahaq günahlandırıldığını, Azərbaycan dövlətinin beynəlxalq hüquqa əsasən öz torpaqlarını işğaldan azad etdiyini bildirərək heç kimin Azərbaycan xalqını və dövlətini bu haqq işində günahlandırmağa haqqı olmadığını və Türkiyənin sona qədər Azərbaycanın yanında olduğunu təkrar etmişdir. II Qarabağ müharibəsi günlərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Xarici İşlər nazirliyinin, Türkiyə Böyük Millət Məclisi sədrinin, Türkiyənin keçmiş Baş naziri Binəli Yıldırımın və Rusiyanın Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətlərini, Türkiyənin Baş Ombudsmanın, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş Katibini, Türkiyənin Odalar və Borsalar Birliyinin Prezidentini, Özbəkistanın və Qırğızıstanın Ticarət və Sənaye Palatasının sədrlərini, Türkiyənin Xarici İşlər və Müdafiə nazirlərini, Milli Kəşfiyyat İdarəsinin rəisini və Rusiyanın Xarici İşlər Nazirini qəbul etmişdir.

Şuşa şəhərinin azad edilməsi hərbi-mənəvi dəyərinə və çətinlik səviyyəsinə görə Vətən müharibəsində aparılan döyüşlərin zirvəsi sayıla bilər. Bu məsələnin hərbi-mənəvi dəyəri onda idi ki, Şuşanın işğaldan azad edilməsi Azərbaycanın mədəniyyət və mənəviyyat mərkəzinin yad nəfəslərdən, yad tapdaqlardan təmizlənməsi, bütün Qarabağa hakim olan bir şəhərin yenidən Vətənə qovuşması demək idi. Çətinlik səviyyəsi isə coğrafi və relyef baxımından bu şəhərin müdafiə imkanlarının son dərəcə böyük olması ilə bağlı idi. Şuşa şəhəri təbii baxımdan alınmaz bir qala idi və bu təbii imkanların ermənilərin hərbi qüvvələri ilə birləşməsi şəhərin ordumuz tərəfindən işğaldan azad edilməsi imkanlarını xeyli çətinləşdirirdi. Ona görə Ermənistanın hərbi-siyasi rəhbərliyi bu şəhəri qoruyub işğal altında saxlaya biləcəklərinə böyük ümid bağlayırdı. Noyabrın 8-də İlham Əliyevin Şuşa şəhərinin işğaldan azad edildiyini açıqlamasından sonra, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Kocaeli ilində kütləyə müraciət edərkən Azərbaycanı təbrik edərək bunun "işğal edilmiş torpaqların qalan hissəsinin də tezliklə azad ediləcəyinə işarə" olduğuna inandığını bildirmişdir. Türkiyə mühəndisi və müharibə zamanı Azərbaycan tərəfindən geniş şəkildə istifadə edilən "Bayraktar TB2" PUA-sının yaradıcısı olan Səlcuq Bayraqdar da Azərbaycan xalqına təbrik mesajı göndərmişdir.

Qeyd etmək lazımdır ki, 2021 ci ilin 15-16 iyun tarixlərində işğaldan azad olunmuş Şuşa şəhərində imzalanmış Bəyannamə iki qardaş ölkə arasındakı münasibətlərin bütün sahələrdə tənzimlənməsində böyük əhəmiyyət kəsb edir.

**İstifadə olunmuş ədəbiyyat:**

1. Azərbaycan tarixi 7 cilddə. 7 ci cild. Bakı 2008
2. XX əsr Azərbaycan tarixi II cild (Y.Yusifov və T.Vəliyevin red.ilə) Bakı, 2009
3. Zəfər yolu. Qarabağ savaşından Şuşa bəyannaməsinədək. Bakı 2021
4. Qarabağ Zəfəri 44 günün pərdəarxası
5. M. Hüseynov. 44 günlük Zəfər savaşı. Bakı 2024

***Kompüter yığımı*** - *Sahibə Nəsirova, ADPU-nun Ağcabədi filialının kompüter mərkəzinin müdiri*

*Yığılmağa verilib: 06.11.2024*
*Çapa imzalanıb: 03.12.2024*
*Tiraj 30*

***ADPU-nun Ağcabədi filialının kompüter mərkəzi***

---------------------------------------------------------------------------------------------------------------------------

***E-mail:*** *sahibanasirova1963@mail.ru*